# QLOBAL MİQRASİYA BÖHRANI: BEYNƏLXALQ MÜNASİBƏTLƏR VƏ QƏRB SİYASƏTİ YENİ TARİXİ DÖNÜŞ ƏRƏFƏSİNDƏ

Bakı - 2018

**İdeya müəllifi və baş redaktoru:**
**Novruz MƏMMƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

**Elmi redaktor:**

Tahirə ALLAHYAROVA, Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Daxili siyasətin təhlili şöbəsinin müdiri, fəlsəfə üzrə elmlər doktoru, professor

**Müəlliflər:**

Tahirə Allahyarova
Şahmar Hacıyev
Elnarə Qəribova
Ayaz Rzayev
Orxan Bağırov

**Redaktor:**

Aqşin Məmmədov, filologiya üzrə fəlsəfə doktoru

**Dizayner:**

İntiqam Məhəmmədli

**Qlobal miqrasiya böhranı: beynəlxalq münasibətlər və Qərb siyasəti yeni tarixi dönüş ərəfəsində. Bakı: ______nəşriyyatı, 2018, __ səh.**

Kitabda hazırda dünyada yaşanan və milyonlarla insan həyatını əhatə edən humanitar faciə - miqrasiya böhranı və onun yaranma səbəbləri ilə bağlı məsələlərə yeni baxış bucağından nəzər salınır. Miqrasiya proseslərinin təhlilində siyasi səbəblər və böhranın geosiyasi əsasları diqqət mərkəzinə gətirilir. Miqrasiya böhranının müasir beynəlxalq münasibətlər sisteminin böyük sınağı kimi çıxış etməsi vurğulanır.

Miqrasiya proseslərinin tarix qədər qədim, bundan fərqli olaraq isə miqrasiya siyasətinin bir Qərb fenomeni kimi Yeni dövrdə, Qərb məkanında milli dövlətin yaranması ilə formalaşması, XVII-XIX əsrlərdə müstəmləkəçilik siyasətinin miqrasiya proseslərinin tənzimlənməsinə təsiri, Qərb miqrasiya siyasəti modelinin geosiyasi maraqlara xidmət edərək tarixi ənənəyə çevrilməsində müstəmləkəçi irsin yeri və rolunun elmi şəkildə əsaslandırılmasına cəhd edilir. Bu baxımdan XX əsrdə beynəlxalq miqrasiya və qaçqın hüququnun yaradılması, miqrasiyanın tənzimlənməsi üçün vaxtaşırı müxtəlif siyasi-hüquqi modellərin tətbiqinin həqiqi məqsədləri təhlil edilir.

XXI yüzilliyin əvvəllərində başlayan miqrasiya böhranının Avropa İttifaqı dövlətləri arasında dərin fikir ayrılığı yaratması, qitənin müstəmləkəçi keçmişə malik olan dövlətləri ilə Şərqi Avropa ölkələrinin baş verən proseslərdə heç bir məsuliyyət daşımadıqları ilə bağlı mövqeyi müqayisə edilir.

Kitabda həmçinin Cənubi Qafqazda tarixən miqrasiya proseslərinin episentri kimi Azərbaycana nəzər salınır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yaranma səbəbləri aspektində tarixən imperiyaların müstəmləkəçi köçürmə siyasəti və onun həlli yolunda maneə kimi qaçqınların hüquqlarının təmin edilməsində geosiyasi maraqların toqquşmasından irəli gələn "ikili standartlar"ın rolu təhlil edilir.

Kitabda belə nəticəyə gəlinir ki, miqrasiya böhranı beynəlxalq münasibətlərin ənənəvi oyun qaydalarına, Qərb dövlətlərinin indiyə qədər yürütdüyü daxili və xarici siyasətlərinə dərin təsirini göstərən "geosiyasi cəbhə xətti" kimi çıxış edir.

Miqrasiya böhranı Qərbin siyasi-hüquqi, iqtisadi, ideoloji, sosial-mədəni siyasətinin bütün səviyyələrdə müşahidə edilən böhranına, beynəlxalq ədalətin, liberal insan hüquqları və multikulturalizm dəyərlərinin iflası prosesinə çevrilməkdədir. Dünya birliyi miqrasiya böhranının həllinə yalnız beynəlxalq ədalət və hüquq prinsiplərinə əməl etməklə nail ola bilər. Qeyd edilənlər də öz növbəsində miqrasiya probleminin siyasi aspektlərinin səbəblərinin tədqiq edilməsini zəruri edir.

Kitab miqrasiya problemləri ilə maraqlanan siyasi ekspertlər, alimlər, eləcə də geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**ISBN ______________**

© Novruz Məmmədov, 2018
© Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, 2018

# MÜNDƏRİCAT

**Müasir dövrün miqrasiya prosesləri haqqında Ön söz əvəzi / Novruz Məmmədov** .................. 7

**I FƏSİL. Miqrasiya siyasəti: Qərb fenomeni kimi yaranması və XX əsrə qədər inkişaf mərhələləri**

1.1. Miqrasiya böhranının səbəblərinə dair müxtəlif baxışlar ........ 19

1.2. Beynəlxalq münasibətlər və politologiya elmində miqrasiya probleminin elmi təhlili ilə bağlı vəziyyət ........ 27

1.3. Tarixdə miqrasiya prosesləri və Yeni dövrdə milli dövlətin yaranması ilə miqrasiya siyasətinin bir Qərb fenomeni kimi formalaşması ........ 35

1.4. XVII-XIX əsrlərdə müstəmləkəçilik və miqrasiya siyasətinin Qərb modelinin tarixi ənənəyə çevrilməsi ........ 45

**II FƏSİL. XX əsrdə Qərb dövlətlərinin miqrasiya siyasətinin modelləri: geosiyasi maraqlara xidmət edən beynəlxalq miqrasiya və qaçqın hüququnun yaradılması**

2.1. XX əsrin birinci yarısında miqrasiya prosesləri. “Qərb mərkəzli” miqrasiya siyasətinin və beynəlxalq hüququn formalaşması ........ 57

2.2. Beynəlxalq təşkilatlar və miqrasiya prosesləri: missiya, status və fəaliyyət arasındakı ziddiyyətlər ........ 64

2.3. Qərb dövlətlərinin bahalı qaçqın siyasətinin donor və sponsorlarına çevrilməsi ........ 69

2.4. Müstəmləkəçiliyin dağılması dövründə miqrasiya siyasəti: keçmişin ağır irsi və onun təzahürləri ........ 74

2.5. Müstəmləkəçi miqrasiya siyasətinin əsas nəticələri ........ 82

2.6. Beynəlxalq qaçqın hüququ və pozitivist miqrasiya siyasətinin mahiyyəti ........ 90

2.7. “İnternalist” və “eksternalist” miqrasiya siyasəti modeli. İmmiqrantların Qərb siyasi maraqlarına uyğun “süzgəcdən” keçirilməsi ........ 97

2.8. Miqrasiya siyasətində “repatriasiya” modelinə keçidin siyasi səbəbləri ........ 101

2.9. “Soyuq müharibə” dövründə miqrasiyanın hüquqi tənzimlənməsinin başlıca yekunu: beynəlxalq hüququn Qərb siyasi-ideoloji maraqlarına tabe etdirilməsi ........ 105

2.10. İkiqütblü dünyanın çökməsi və miqrasiya siyasətində "Fərqlilik mifi" modelinin tətbiqi ....... 110

2.11. Cənubi Qafqazda miqrasiya proseslərinin episentri kimi Azərbaycan: Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi səbəbləri və həll edilməsi aspektində miqrasiya amilinin yeri və rolu ....... 116

**III FƏSİL. XXI yüzilliyin əvvəllərində qlobal humanitar fəlakət: Qərb miqrasiya siyasətinin beynəlxalq hüquq və beynəlxalq münasibətlərin iflasına təsiri**

3.1."Köhnə qitə"də görünməmiş miqrasiya dalğası və Qərb siyasətinin həqiqi üzünün aşkara çıxması ....... 131

3.2. Miqrant axınlarının statistikası: qlobal böhranın transmilli dinamikası ....... 133

3.3. Beynəlxalq münasibətlər, qlobal güclər və məcburi miqrasiyanın geosiyasi mənbələri ....... 138

3.4. Qərb dövlətlərinin miqrasiya siyasətinin siyasi-hüquqi yekunları ....... 147

3.5. Qərb hüquq sistemi kompleks böhran məngənəsində ....... 154

3.6. Avropa İttifaqı səviyyəsində hüquqi problemlər və böhran ....... 158

3.7. Qaçqın böhranı və Konstitusiya hüququ arasında ziddiyyət - Cenevrə Konvensiyasının günahkar çıxarılması....... 161

**IV FƏSİL Miqrasiya böhranı liberal Qərb demokratiyasının siyasi-ideoloji və iqtisadi siyasətinin süqutu kimi: təzahürlər, meyillər və perspektivlər**

4.1. "Liberal paradoks"un yaranması: insan hüquqları və demokratiyanın "toqquşması", "universal demokratiya" mifinin sonu ....... 169

4.2. Avropa ölkələrinin miqrasiya siyasətinin ifrat sağ təmayüllü ideologiyaların yüksəlməsində rolu ....... 174

4.3. İfrat sağ təmayüllü partiyaların yüksəlişi ilə miqrasiya proseslərinin qarşılıqlı təsiri ....... 184

4.4. Miqrasiya böhranı ilə "maraq və mənfəət" prinsipi üzərində qurulan Qərb iqtisadi siyasəti arasında qarşılıqlı təsir ........ 199
4.5. " Postsoyuq müharibə" dövründə miqrasiyanın iqtisadi xüsusiyyətləri ........208

**V FƏSİL. Miqrasiya böhranı Qərbdə sosial dövlətin və mədəni siyasətin tənəzzülü kimi**

5.1. Qərbin "rifah dövləti" və "firavan cəmiyyət" idealları böhran fonunda........225
5.2. Sosial rifah dövlətindən "sosial rifah şovinizminə" ........238
5.3. Sosial dövlətin Qərb modeli: cəlbedici inkişafdan tənəzzülə gətirib çıxaran səbəblər sırasında miqrant amili ........ 246
5.4. Qərb miqrasiya siyasətinin seçdiyi yeganə çıxış yolu: "Yaşasın beyin axını! Miqrant axını rədd olsun!"........253
5.5. Qərb mədəni siyasətinin - multikulturalizmin iflası və "fobiyaların" (ksenofobiya, miqrantofobiya və islamofobiya) yüksəlişi........260
5.6. Miqrasiya böhranı beynəlxalq münasibətlərdə qlobal ədaləti çökdürən son zərbə kimi ........273

**Nəticə əvəzi: Miqrasiya böhranının həlli beynəlxalq ədalət prinsipinin bərqərar olmasından keçir** ........279

**İstifadə edilmiş ədəbiyyat** ........289

# Müasir dövrün miqrasiya prosesləri haqqında
# Ön söz əvəzi

*"Mən miqrasiya böhranı haqqında dəfələrlə fikrimi bildirmişəm. Bir daha demək istəyirəm ki, öz canlarını qurtarmaq istəyən o insanların heç bir günahı yoxdur. Onların ölkələri xarici müdaxilə nəticəsində dağıdılıb. Onların şəhərləri yerlə-yeksan edilib, yaxınları, qohumları, yüz minlərlə insan həlak olub. Onlar öz canlarını qurtarmaq üçün Avropaya pənah aparırlar. Ancaq Avropada bəzi hallarda onları tikanlı məftil, qəfəs gözləyir... Bu da sivilizasiyalararası münasibətlərə çox böyük zərbə vurur... Miqrant böhranı öz növbəsində Qərb ölkələrində radikal partiyaların xeyrinə işləyir".*[1]

**İlham Əliyev**
***Azərbaycan Respublikasının Prezidenti***

Tarixin bütün mərhələlərində müntəzəm şəkildə davam etmiş miqrasiya, ilk növbədə, əmək miqrasiyası Qərb elmi ədəbiyyatlarında bütövlükdə mütərəqqi proses kimi təqdim olunur, istənilən cəmiyyətin inkişafının və yenilənməsinin əvəzolunmaz resursu kimi xarakterizə edilir. Demoqrafik böhranla üzləşən ölkələr insan resursları uğrunda fəal rəqabət aparırlar. Miqrasiya prosesləri hər zaman cəmiyyətin

1 Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib: Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi. /7 oktyabr 2016-cı il/ - *http://files.preslib.az/site/ialiyev/2016.pdf*

qarşısında bir çağırış olmuş, lakin heç vaxt bugünkü kimi böyük narazılıq doğurmamışdır. İndi bir çox hallarda Yaxın və Orta Şərq, Afrika ölkələrindən məcburi miqrasiyaya məruz qalan insanlara yardım göstərməkdən imtina edilir, onların etnik, dini kimlikləri ön plana çıxarılır.

Üçüncü minilliyin ilk onillikləri öz gərginliyi, ziddiyyətləri, mövcud problemlərin xarakteri və miqyası baxımından beynəlxalq münasibətlər tarixində özünəməxsus yer tutur. Bu, bir həqiqətdir ki, beynəlxalq aləmdə böyük dövlətlərin geosiyasi, siyasi, iqtisadi, mədəni və digər sahələrdə apardıqları kəskin rəqabətdə yeni status almış aktorların – transmilli korporasiyaların, qeyri-hökumət təşkilatlarının, mətbuat orqanlarının, hətta terror təşkilatlarının ciddi təsirə malik olan oyunçulara çevrilməsi əvvəlki dövrlərdə bu qədər açıq şəkildə müşahidə olunmurdu. Bütün bu proseslərin ortaya çıxardığı problemlər isə göz qabağındadır: beynəlxalq münasibətlər sistemində "davranış kodeksi" hesab edilən beynəlxalq hüquq yalnız söz və bəyanat formasında bəzi sənədlərdə görüntü yaratmaq xatirinə qeyd olunur, insanlar və dövlətlər səviyyəsində *ədalət* anlayışı iflasa uğrayır, böhranlı regionların və ərazi münaqişələrinin sayı, həmçinin zəngin və kasıb cəmiyyətlər arasındakı fərq getdikcə artır.

*Miqrasiya* mövzusu hazırda dünya siyasətinin gündəliyini zəbt etmişdir. "Miqrant böhranı", "qaçqın fəlakəti" kimi ifadələr isə mətbuatda və siyasi müzakirələrdə ən çox istifadə olunan terminlərdir. Xüsusən də, Yaxın və Orta Şərqdə, Afrikada silahlı münaqişələrdən, etnik və dini qarşıdurmalardan, terror hücumlarından, ağır siyasi-iqtisadi vəziyyətdən əziyyət çəkən çoxlu insan öz yaşayış yerlərini tərk edərək başqa ölkələrə köç etməyə məcbur olurlar. Bu kütləvi miqrasiyanın əsas istiqaməti isə sosial-iqtisadi baxımdan cəlbedici və coğrafi cəhətdən nisbətən yaxın olan Avropadır. Prosesin miqyasının nə dərəcədə böyük olduğunu izah etmək üçün adi bir faktı xatırlatmaq

kifayətdir. Belə ki, təkcə 2014-cü il ərzində Avropaya köç edən miqrantların sayı 6 dəfə artaraq 300 mindən 2 milyon nəfərə çatmışdır. Bu rəqəm sonrakı illərdə daha da artmışdır. Qeyd edək ki, hələ Avropadan kənarda məskunlaşanların, yolda aclıqdan və xəstəlikdən ölənlərin, Aralıq dənizində həlak olanların sayı bu rəqəmlərdə öz əksini tapmır.

Böhranın digər bir üzü isə bu insanların köç etdikləri Avropada qarşılaşdıqları vəziyyətdir. Müşahidələr göstərir ki, artıq Avropa ölkələrinin miqrantları qəbul etməyə meyilli olmaması və yerli əhali arasında dözümsüzlüyün artması fonunda aclıq, məhrumiyyət, şəxsiyyətin alçaldılması, qeyri-insani rəftar miqrantlara münasibətdə adi hala çevrilmişdir.

Şübhəsiz ki, bu gün baş verən miqrant axınının səbəblərini anlamaq üçün əvvəlki dövrlərdəki bənzər proseslərə nəzər yetirilməli, bir sıra paralellər aparılmalı, fərqlər və ümumi cəhətlər müəyyən edilməlidir. Niyə asiyalılar və afrikalılar son bir neçə əsrdə öz torpaqlarını tərk edən miqrantların əsas hissəsini təşkil edirlər? Onları öz doğma torpaqlarını tərk etməyə vadar edən amillər hansılardır? Zəngin təbii sərvətlərinə baxmayaraq, bu ölkələrdəki həyat səviyyəsi niyə Qərbdən bu dərəcədə aşağıdır? Bu istiqamətlərin hərtərəfli təhlili müasir miqrasiya proseslərini izah etmək baxımından faydalı olar. Diqqəti cəlb edən əsas məqamlardan biri də odur ki, indi miqrant və qaçqın vəziyyətinə düşmüş insanların ilkin olaraq yaşadıqları (mənbə) ölkələrin əksəriyyətini birləşdirən bir ümumi cəhət onların əvvəllər Qərb dövlətlərinin müstəmləkəsi olmalarıdır.

Bu gün Qərb ölkələrinin siyasi, iqtisadi, sosial, elmi, texnoloji cəhətdən digər ölkələrə münasibətdə üstün mövqedə olduqları şübhəsizdir. Belə görünür ki, onlar böyük bir tarixi dövr ərzində formalaşmış bu üstünlüklərini hələ uzun müddət qoruyub saxlamaq imkanına malikdirlər. Hazırda dünyada baş verən proseslərin də

bu istiqamətdə davam etdiyi görünür. Siyasi-iqtisadi konyunktur zənginlərlə kasıblar arasında uçurumun daha da dərinləşməsinə şərait yaradır. Təsadüfi deyil ki, bir sıra ölkələrdə qloballaşma da müstəmləkəçiliyin müasir formasına xidmət kimi xarakterizə olunur.

Qərb bu üstünlüyünü nəyin hesabına əldə edib? Axı tarixin müəyyən dövründə Qərbin Şərqdən, xüsusən İslam aləmindən hər cəhətdən geri qaldığı hamıya məlumdur. Məsələn, bəşəriyyətin inkişafında həlledici rol oynamış elmi kəşflər, ixtiralar ilk olaraq məhz Şərqdə edilsə də, qəribədir ki, onların tətbiqinə bir neçə əsr sonra Qərbdə başlanılmışdır. XVI əsrə qədər Avropanın hansısa sahədə üstünlüyündən danışmaq çətindir. Lakin etiraf etmək lazımdır ki, məhz həmin ixtiraların mənimsənilməsi və tətbiqi nəticəsində Avropa ölkələri cəmiyyətin həyatında sosial-iqtisadi inqilab etməyə müvəffəq oldular. Müstəmləkəçilik siyasəti isə əldə olunmuş bu nailiyyətlərin daha da inkişafına xidmət etmişdir.

Digər maraq doğuran məqam odur ki, görəsən, Britaniya, Fransa, İspaniya, Portuqaliya və digər ölkələrin bir neçə yüz il ərzində müstəmləkəsi olmuş bəzi Asiya və Afrika ölkələrində nə üçün bu gün də vəziyyət acınacaqlıdır. Nə üçün bu ölkələr ötən əsrlər ərzində nəzərəçarpacaq inkişafa nail ola bilməmişlər? Bu gün Avropanın muzeylərində və əsas meydanlarında yerləşdirilmiş zəngin tarixi-mədəni irs nümunələrinin əksəriyyətinin Asiya və Afrika ölkələrinə məxsus olması danılmaz faktdır. Lakin təəssüf doğuran hal odur ki, Avropa ölkələri müstəmləkələri idarə etdikləri illər ərzində yalnız öz maraqlarını güdmüş və həmin ölkələrin müstəqillik əldə etdikləri illərdə öz inkişaflarını təmin edəcək zəruri amillərin formalaşmasına cəhd etməmişlər. Şübhəsiz ki, keçmiş müstəmləkə ölkələrinin bu gün kasıb vəziyyətdə yaşamasının səbəblərini araşdırarkən, bu məqamın nə dərəcədə mühüm əhəmiyyət kəsb etdiyini sübut etməyə ehtiyac yoxdur.

Miqrasiya proseslərini müstəmləkəçilik siyasəti çərçivəsində nəzərdən keçirərkən, miqyas və xarakter baxımından bir-birindən fərqlənən üç mərhələsini xüsusi qeyd etmək lazımdır:

Müstəmləkə sisteminin yarandığı XVI əsrdən XX əsrin ortalarına kimi davam edən **birinci mərhələ** miqrasiya axınının kütləviliyi baxımından deyil, daha çox prosesin özünə təkan verəcək tendensiyaların formalaşması baxımından diqqəti cəlb edir. Belə ki, həmin dövrdə Asiya, Afrika və Latın Amerikasında siyasi, iqtisadi və hərbi metodlarla müstəmləkələrin təbii və insan resurslarının istismarı geniş vüsət almışdı. Bu da Qərb ölkələrində bütün sahələrdə inkişafı stimullaşdıran böyük həcmdə kapitalın cəmləşməsinə, müstəmləkə ölkələrinin isə siyasi və iqtisadi inkişafının tənəzzülünə gətirib çıxartdı. Aydındır ki, geniş əraziləri zəbt etdikdən sonra onları yalnız metropoliyanın öz imkanları hesabına əldə saxlamaq olduqca çətindir. Buna görə də ilk dövrdən etibarən müstəmləkəçilik maraqlarına xidmət edən miqrasiya prosesinin Qərb ölkələri tərəfindən məqsədyönlü istiqamətdə aparılmasının əsası qoyulmuşdur.

Bu dövrdə miqrasiya prosesi iki məqsədə xidmət etmişdir: birincisi, müstəmləkə əhalisindən Avropa və Amerikada ən aşağı səviyyəli işlərdə qul əməyi kimi istifadə etmək; ikincisi isə öz dilini, mədəniyyətini və idarəçilik sistemini həmin əhaliyə aşılamaq və qəbul etdirmək, bununla da ələ keçirilmiş torpaqlar üzərində nəzarəti qoruyub saxlamaq. Müxtəlif dövrlərdə keçmiş müstəmləkələrin iştirakı ilə yaradılmış və hazırda da fəaliyyət göstərən Millətlər Birliyi (Britaniya), Beynəlxalq Frankofoniya Təşkilatı (Fransa), İbero-Amerikan Dövlətləri Təşkilatı (İspaniya), Portuqaldilli Ölkələrin Birliyi (Portuqaliya) kimi qurum və təşkilatlar əslində tətbiq olunan mexanizmlərin müstəmləkəçilik maraqları baxımından nə dərəcədə əhəmiyyətli olmasının bir göstəricisidir.

**İkinci mərhələ** "soyuq müharibə" illərini əhatə edir. II Dünya müharibəsinin başa çatması müstəmləkə sisteminin dağılması və

yeni beynəlxalq münasibətlər sisteminin formalaşması ilə nəticələnsə də, Qərbin öz keçmiş müstəmləkələrinə baxışlarında mahiyyətcə dəyişiklik baş vermədi. Yeni müstəqillik qazanmış ölkələrin Qərbdə “üçüncü dünya ölkələri” adlandırılması da bunun sübutudur. Bu ölkələrlə əlaqələrdə tətbiq olunan yeni mexanizmlər yenə də Qərbin siyasi və iqtisadi maraqlarının təmin olunması prinsipi üzərində qurulmuşdu. Bu dövrdə daha geniş xarakter alan miqrasiya mahiyyət etibarilə keçmiş müstəmləkələr üzərində nəzarəti qoruyub saxlamağa hesablanmış proses idi. Müharibədən sonra Avropa ölkələrinin sürətli iqtisadi inkişafı daxili işçi qüvvəsinə tələbatı bir neçə dəfə üstələyirdi. Digər tərəfdən isə daxildə əhalinin yaşlaşması və qitədən kənar ölkələrdə ucuz işçi qüvvəsinin mövcudluğu Qərb dövlətlərinin “üçüncü dünya ölkələri”ndən miqrasiyanı təşviq etməsini vacib edirdi. Maraqlıdır ki, bu zaman hər bir Avropa ölkəsi daha çox öz keçmiş müstəmləkələrindən olan miqrantlara üstünlük verirdi. Məhz miqrantların vasitəsilə metropoliya və müstəmləkə arasında mədəni körpü qorunub saxlanılmalı idi ki, bu da həmin ölkə üzərində nəzarəti daha da asanlaşdırırdı.

Avropada *multikulturalizm* anlayışının bu dövrdə siyasi leksikona daxil edilməsi də təsadüfi deyil. İlk baxışdan miqrantların “yeni vətənlərində” onların dəyərlərinə, mədəni-dini fərqliliklərinə hörmət kimi görünən bu ideologiya əslində bir tərəfdən onların assimilyasiyasını və Avropa dəyərlərinə inteqrasiyasını, digər tərəfdən isə öz ölkələrinə geri qayıtdıqdan sonra mədəni körpünü təmin edən vasitə kimi istifadəsini nəzərdə tuturdu. Bu da əslində Qərb multikulturalizminin yalnız öz dəyərlərini universal norma kimi qəbul edən və müstəmləkəçilik maraqlarına xidmət göstərən məfhum olduğunu sübut edir.

SSRİ və Varşava Müqaviləsi Təşkilatının dağılması, eləcə də Qərbin “soyuq müharibə”də qələbəsindən sonrakı dövr **üçüncü mərhələ**ni

təşkil edir. Bu dövrdə faktiki dominant gücə çevrilən və heç bir ciddi rəqiblə qarşılaşmayan Qərb öz geosiyasi və iqtisadi maraqlarını tam şəkildə reallaşdırmaq, bütün dünyanın insan və təbii resursları üzərində total nəzarəti təmin etmək üçün səylərini əsirgəmədi.

Yeni beynəlxalq münasibətlər sistemində daha çox arxa planda və ABŞ-ın kölgəsində qalan Avropa isə bu yeni sistemdən elə ABŞ qədər faydalanmış oldu. Varşava Müqaviləsindən çıxmış Şərqi Avropa ölkələri Avropanın öz sərhədlərini genişləndirməyə və nəticə etibarilə iqtisadi mənfəətlərini artırmağa imkan yaratdı. Avropanın güclü inkişafı da bu dövrə təsadüf edir. Yeni bazarlar və Avropa ilə eyni dəyərləri "paylaşmalı olan" ölkələrdən gələn ucuz işçi qüvvəsi bu inkişafın əsasını təşkil edirdi. Şərqi Avropa ölkələrinə "inklüziv xristian klubu"na qoşulmaq şansı təqdim olunanda heç kim bu ölkələrin yeni inteqrasiya modelinə nə dərəcədə hazır olması sualını ortaya qoymadı. İqtisadiyyatın liberallaşdırılması adı altında Qərb kapitalı tərəfindən Şərqi Avropanın sənaye sahələrinin özəlləşdirilməsi bu ölkələrin iqtisadiyyatlarının məqsədyönlü şəkildə dağıdılmasına və rəqabətin aradan qaldırılmasına imkan yaratdı. Nisbətən zəif inkişaf etmiş yeni üzvlərin milli iqtisadiyyatı daha güclülərlə azad və qeyri-bərabər rəqabətə açıq elan edildi və nəticədə həmin ölkələrin bir çox mühüm istehsal sahələri iflasa uğradı. Yeni üzvlər primitiv olaraq ixrac bazarı rolunu oynamağa məcbur oldular. Bu dövrdə Şərqi Avropa ölkələrində baş vermiş miqrasiya çoxlarının diqqətini cəlb etmədi. Avropa İttifaqı (Aİ) daxilində işçi qüvvəsinin sərbəst hərəkəti mütərəqqi ideya kimi təqdim olundu. Əslində isə Şərqi Avropa ölkələrində işsizlik problemindən çıxış yolu bu ölkələrin əmək qüvvəsinin ən təhsilli və ixtisaslı hissəsinin daha yaxşı yaşamaq və iş imkanı əldə etmək üçün Qərbi Avropa ölkələrinə köç etməsi ilə tapıldı.

Beləliklə, miqrasiya prosesinin yuxarıda qeyd olunan hər üç mərhələsinin bir sıra parametrlərə görə ümumi xarakterə malik olması

müşahidə edilir. Hər üç mərhələdə proseslər Avropa dövlətləri tərəfindən onların müəyyən etdiyi qaydalara, çərçivə və saya əsasən idarə olunurdu. Necə adlandırılmasından asılı olmayaraq, başlıca məqsəd Avropanın siyasi və iqtisadi maraqlarının təmin olunması idi. Lakin XXI əsrdə baş verən proseslər Qərbin müəyyən hesablamalarının yanlış olduğunu, bu dövrə qədər aparılan siyasətin davam etdirilməsinin və əvvəlki dövrlərdə olduğu kimi, siyasi, geosiyasi və iqtisadi maraqlara xidmət etməsinin mümkün olmadığını göstərdi.

Təəccüblü deyil ki, 2015-ci ildə baş verən miqrasiya axınları artıq "Xalqların ikinci böyük köçü" adlandırılır. Yaxın Şərq və Afrikada öz evlərini tərk etməyə məcbur olan və Avropaya köç edənlərin sayı artmaqda davam edir. Budəfəki miqrasiya əvvəlkilərdən onunla fərqlənir ki, artıq indiki prosesi Qərb öz maraqlarına uyğun idarə edə bilmir.

İlkin səbəbləri baxımından hazırkı kütləvi miqrasiyanı "geosiyasi miqrasiya" kimi xarakterizə etmək daha doğru olardı. Belə ki, İraq, Liviya və Əfqanıstan kimi ölkələrdə həyata keçirilən rejim dəyişikliyi, "Ərəb baharı", terrorçu qrupların fəaliyyəti nəticəsində geniş vüsət almış miqrasiya daha geniş regionda ciddi dəyişikliklərə yol açır.

Hazırda situasiyanı sabitləşdirmək üçün müxtəlif proqramlar işlənib hazırlanır, lakin bunlar müvəqqəti xarakter daşıyır. Miqrantların gələcək taleyi ilə bağlı dəqiq fikir yoxdur. Onları cəmiyyətə inteqrasiya etmək mümkündürmü? Yoxsa onlar müharibə nəticəsində dağılmış ölkələrinə geri qaytarılmalıdırlar?

Avropa ölkələrinin yeni kütləvi miqrasiya qarşısında aciz qalması onların bu vəziyyətə hazır olmadığını göstərir. Hər halda yanlış siyasətin bu dərəcədə əks effekt verəcəyi gözlənilmirdi. Tərtib olunan proqramlar isə prosesin səbəblərini deyil, nəticələrini aradan qaldırmağa yönəldiyindən onların uğur qazanmaq şansları yüksək deyil. Halbuki, artıq bir neçə il öncədən vəziyyətin bu cür olacağı

ehtimal edilə bilərdi. Miqrasiyanı öz mənfəətlərinə uyğun idarə olunan, demoqrafik problemləri aradan qaldıracaq müvəqqəti xarakterli proses kimi görənlər sonradan bu siyasətin bir sıra fəsadlarının olacağını anladılar.

Bu dövrdə ən çox diqqəti cəlb edən məqamlardan biri Avropada irəli sürülən multikulturalizm ideyasının iflasa uğramasının islamofobiya meyillərinin güclənməsi ilə paralel olaraq getməsi oldu. Belə ki, miqrantların sonrakı nəsillərinin əvvəlkilərdən fərqli olaraq öz mədəni-dini dəyərlərini qoruyub saxlamaqda israr etməsi Avropanın təbliğ etdiyi "universal dəyərlər" konsepsiyası ilə üst-üstə düşmürdü. İqtisadi böhran şəraitində həyat səviyyəsinin aşağı düşməsi, yoxsulluq və işsizlik səviyyəsinin yüksəlməsi isə avropalıların miqrantlara qarşı dözümsüzlüyünün və cəmiyyət daxilində gərginliyin artmasına gətirib çıxartdı. Üçüncü minilliyin ikinci onilliyindən başlayaraq, Fransa, Almaniya və Birləşmiş Krallığın rəhbərləri bir qədər əvvəl əllərində bayraq etdikləri multikulturalizmin ümidləri doğrultmadığını bəyan etməyə başladılar. Bu isə onu göstərir ki, əslində Avropanın özünün bəyan etdiyi liberal, demokratik dəyərlər, insan hüquqları prinsipləri yalnız özləri üçün nəzərdə tutulub və onların təbliğ etdiyi multikulturalizm isə geosiyasi təməllərə əsaslanır.

Avropanın təzyiq mexanizminə çevrilmiş "universal dəyərlər"in bu qədər geniş təbliği o zaman uğurlu olardı ki, beynəlxalq münasibətlərdə ədalət prinsipi, beynəlxalq hüquq, BMT Təhlükəsizlik Şurasının qətnamələri kənara atılmazdı. Son 30 ilə yaxın dövrün volyuntarizmi - "biz necə istəyirik, elə də olmalıdır" prinsipi bu gün dünyada müşahidə olunan görünməmiş gərginliyin əsas səbəbidir.

Miqrantların əksəriyyətinin müsəlman ölkələrindən olması və Avropada müsəlmanların sayının kəskin artması Avropanın öz xristian dəyərlərini itirmək qorxusunu gücləndirir. Terror qruplaşmalarının Avropada törətdikləri terror aktları da islamofobiya meyillərinin

güclənməsinə səbəb olub. Nəticədə isə öz təbliğatlarını miqrantlar və müsəlmanlar əleyhinə şüarlar üzərində quran, islamı təhlükəli ideologiya adlandıran ultramillətçi qüvvələrin əhali arasındakı nüfuzu gündən-günə artmaqdadır. Bu da "liberal Avropa" üçün başqa bir təhlükə mənbəyidir.

Beləliklə, bugünkü miqrasiya prosesləri yalnız Avropanın coğrafi sərhədləri və sosial-iqtisadi vəziyyəti çərçivəsində nəzərdən keçirilməməlidir. Bu proses həm də Qərbin bütün dünya üçün universal anlayışlar kimi təqdim etməyə çalışdığı demokratiya, insan hüquqları prinsiplərinin etibarlılığı üçün də olduqca aktualdır. Miqrantların gələcək taleyi ilə bağlı qəbul olunan qərarlar Qərbin özünün bəyan etdiyi dəyərlərə sadiqliyi baxımından bir sınaqdır. Aparılan müşahidələr göstərir ki, son 20-30 ildə bu problemlərin həlli istiqamətində lazımi addımlar atılmamış, əksinə vəziyyət getdikcə pisləşmiş, hətta gərginlik qlobal xarakter alaraq böyük, qarşısıalınmaz təhlükəyə çevrilmişdir.

Vəziyyət nə qədər mürəkkəb olsa da, çıxış yolu kifayət qədər aydındır. Artıq beynəlxalq birlikdə gedən proseslərdə dünyaya köhnə "müstəmləkə eynəyi" ilə baxmaqdan imtina etməyin, ədalət anlayışını öz maraqları çərçivəsində həyata keçirməyə çalışmaqdan əl çəkməyin vaxtı çatmışdır. Şübhəsiz, bütün problemlərin kökündə məhz bu amillər dayanır. Ədalətli yanaşma isə beynəlxalq hüququn aliliyinə, dövlətlərin ərazi bütövlüyü və suverenliyinə, insan hüquqları prinsiplərinə həqiqətən hörmət edildiyi güclü beynəlxalq münasibətlər sistemində mümkündür.

**Novruz MƏMMƏDOV**

# I FƏSİL

## Miqrasiya siyasəti:
## Qərb fenomeni kimi yaranması
## və XX əsrə qədər inkişaf mərhələləri

## 1.1. Miqrasiya böhranının səbəblərinə dair müxtəlif baxışlar

*"Hər şeyi olduğu kimi görmək böyük cəsarət tələb edir və taleyüklü məsələdir".* [2]

**Osvald Şpenqler**

Dünya dövlətləri arasında həlli ortaq səylər tələb edən siyasi, iqtisadi, mədəni, dini və digər xarakterli bir çox problemlər mövcuddur. XX əsrdən başlayaraq beynəlxalq təşkilatlar və beynəlxalq hüquq çərçivəsində bu problemlərin həllinə səy göstərilir. Son onilliklərdə qloballaşma prosesləri ilə sürətlənən, kommunikasiya və nəqliyyat vasitələrinin, iqtisadiyyatın, biznesin, elmin və təhsilin beynəlmiləlləşməsindən irəli gələn, beynəlxalq əməkdaşlığı zəruri şərtə çevirən sahələrdə problemlərin həlli ilə bağlı müvafiq tədbirlər həyata keçirilir.

Hazırda baş verən miqrasiya böhranı istər-istəməz bu sahədə beynəlxalq birliyin necə fəaliyyət göstərməsi, hansı ortaq əməkdaşlıq tədbirlərinin həyata keçirilməsi, böhranın həlli ilə bağlı qlobal siyasət və beynəlxalq hüquqda dövlətlərin nə kimi öhdəliklərə malik olması kimi məsələlərə diqqəti yönəltmişdir. Nəticədə ortaya acınacaqlı bir mənzərə çıxır. Məlum olur ki, beynəlxalq miqrasiya prosesləri bu günə qədər əsasən Qərb dövlətlərinin birtərəfli yönəldilən fəaliyyətinin obyekti olaraq qalmaqdadır.

Qlobal insan faciəsinin miqyası onu deməyə əsas verir ki, indiyə qədər insan axınlarının bu həddə çatmasını proqnozlaşdıra bilən institutlar, ortaq miqrasiya siyasətinə cavabdeh olan, dövlətlərdən öz öhdəliklərinin icrasını tələb edən, qabaqlayıcı tədbirlər görən və çağırışlara cavab verə bilən beynəlxalq idarəetmə və qanunvericilik sistemi yox imiş.

2 Şpenqler O. Avropanın qürubu. Bakı, 2008

Humanitar fəlakətlə bağlı sarsıdıcı reallıq, məhv olmaq qorxusu ilə bəlli ölkələrin sərhədlərinə sığınan insanların üzünə bağlanan qapılar, həlak olan və itkin düşənlərin taleyinə biganəlik, baş verənlərdə heç kimin səbəbkar və günahkar olmaması  istər-istəməz belə təəssürat yaradır ki, dünyada qaçqın və miqrantlarla bağlı hər hansı beynəlxalq hüquqi norma və öhdəliklər mövcud deyil.

> Qlobal insan faciəsinin miqyası onu deməyə əsas verir ki, indiyə qədər insan axınlarının bu həddə çatmasını proqnozlaşdıra bilən institutlar, ortaq miqrasiya siyasətinə cavabdeh olan, dövlətlərdən öz öhdəliklərinin icrasını tələb edən, qabaqlayıcı tədbirlər görən və çağırışlara cavab verə bilən beynəlxalq idarəetmə və qanunvericilik sistemi yox imiş.

Reallıqda məlum olur ki, doğrudan da, miqrasiyanın nizama salınması sahəsində hər hansı qlobal fəaliyyət planı, misal üçün, miqrasiya ilə bağlı "Bretton-Vuds maliyyə sistemi"  formatında hərtərəfli qlobal razılaşma, beynəlxalq hüquqi aktlar və normalar mövcud deyil. Həmçinin, dövlətlərin qarşılıqlı fəaliyyətinin ümumi qaydalarını müəyyən edən və onların yerinə yetirilməsini tələb edən, məsələn, Ümumdünya Ticarət Təşkilatı və ya Beynəlxalq Valyuta Fondu tipli vahid təşkilatlanma nümunələri də yoxdur. Mövcud beynəlxalq hüquq normaları yalnız qaçqınlarla bağlı miqrasiya siyasətinin ayrı-ayrı aspektlərini nizamlayır. Miqrantların əsas hüquqları olan əmək miqrasiyasının idarə edilməsinin və ya qeyri-leqal miqrasiyaya qarşı tədbirlərin ən əhəmiyyətli prinsiplərinə isə toxunmur.

Qüvvədə olan təşkilatlardan heç birinin mandatı və səlahiyyəti qlobal formatda problemin həllinə imkan vermir. Heç bir təşkilat miqrasiya proseslərinin bütün aspektləri üzrə ixtisaslaşmaya malik deyil. Məsələn, "BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı  iqtisadi

məsələlər və əmək miqrasiyasının nizama salınması ilə məşğul olmur. Yaxud Beynəlxalq Əmək Təşkilatı (BƏT) qaçqınların və köçkünlərin müdafiəsini təmin etmək üçün kifayət qədər təcrübəyə malik deyil. Göstərilən təşkilatların hər hansı bir funksiyasının genişlənməsi onun effektivliyinin azalmasına və ilkin missiyasından resursların yayındırılmasına imkan yarada bilərdi".[3] 1951-ci ildə yaradılan Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) miqrasiyanın idarə edilməsi sahəsində mandata malikdir. Lakin qurum 2016-cı ilə qədər BMT-nin strukturuna daxil olmayıb. Yalnız miqrasiya böhranının humanitar fəlakət həddinə çatmasından sonra - 2016- cı il sentyabrın 19-dan təşkilatın BMT-nin ixtisaslaşmış agentliyi hesab edilməsi, lakin BMT-nin büdcəsindən maliyyələşməməsi ilə bağlı qərar qəbul edilmişdir.[4]

Yaranmış vəziyyətin səbəblərindən biri kimi dövlətlərin miqrasiya siyasətini öz suverenlik prinsipi əsasında reallaşdırması göstərilir. Lakin mövzu ilə dərindən tanışlıq göstərir ki, bu, heç də belə deyil, hətta tamamilə əksinədir. İndiyə qədər miqrasiya siyasətinin tənzimlənməsi ilə bağlı beynəlxalq siyasət yalnız Qərb dövlətləri tərəfindən birtərəfli qaydada müəyyən edilmiş və həyata keçirilmişdir.

"Miqrasiya böhranı nə vaxt və hansı səbəbdən başlamışdır?" sualına Qərb alimlərinin baxışları maraq doğurur. Belə ki, burada böhranın səbəblərindən çox, onun yaranmasına təkan verən hadisələr, yəni nəticələr arasında fərq qoyulmur, qarışıq salınır. Bu isə elmi yanaşma olmayıb, böhranın həqiqi səbəblərinin ortaya çıxarılmasına imkan verməyən mövqedir.

Mövcud baxışlardan bir neçəsinə nəzər salaq. Bir sıra tədqiqatçılar

3 Newland K. The governance of international migration: mechanisms, processes and institutions // A paper prepared for the Policy Analysis and Research Programme of the Global Commission on International Migration, Migration Policy Institute, September 2005

4 Agreement concerning the Relationship between the United Nations and the International Organization for Migration. /8 Juley 2016/ - *http://www.un.org/ga/search/view_doc.asp?symbol=A/70/976*

hazırkı miqrasiya böhranının 2001-ci il sentyabrın 11-də Nyu-York və Vaşinqtonda, 2004-cü ildə Madriddə və 2005-ci ildə Londonda baş verən beynəlxalq terror aktları ilə əlaqəli olduğunu qeyd edirlər. Digər qisim müəlliflər isə göstərirlər ki, Avropada multikulturalizm siyasətinə qarşı baş qaldıran narazılıqlar "böhranın" dərinləşməsində təkanverici amillərdən biri olmuşdur.

Bundan fərqli olaraq, Niderland, Fransa və Britaniya kimi ölkələrdə "miqrasiya böhranı" anlayışının yüksələn avroskeptizm və iqtisadi vəziyyətlə əlaqəli olması fikrini irəli sürənlər də var. Hesab edilir ki, "Avropadakı suveren borc böhranı miqrasiya ilə bağlı münasibətlərə və miqrantların, eləcə də yerli əhalinin sosial vəziyyətinə təsir göstərərək, digər məsələlərlə yanaşı, miqrasiya böhranının dərinləşməsinə də təsir göstərmişdir".[5]

"Böhran nə vaxt və hansı səbəbdən başladı?" sualına verilən digər fərqli cavablara da nəzər yetirək. Məsələn, bəzi tədqiqatçılar qeyd edirlər ki, son illərdə Avropaya Yaxın Şərqdən qaçqınların görünməmiş axını başladı və bu da "Avropa qaçqın böhranı" və ya ümumilikdə "miqrant böhranı" adlandırılan bir fenomenin yaranmasına səbəb oldu. 2010-cu ilin sonlarında başlayan və "Ərəb baharı" adlanan hadisələr qaçqınların hazırkı dalğasını tətikləyən əsas səbəb hesab edilir. Həmin dövrdə başlayan hadisələr Tunis, Misir, Liviya və Yəməndə dövlət rəhbərlərinin devrilməsinə, həmçinin Liviya və Suriyada qanlı vətəndaş müharibələrinə səbəb oldu. Milyonlarla insan öz evlərindən qaçqın düşərək qürbətdə sığınacaq axtarmağa başladı. 2015-ci ilin yazında Türkiyə Suriya ilə sərhədini bağladı və dörd il davam edən "açıq qapı" siyasətinə son qoydu. Eyni zamanda, Türkiyə həm də Yunanıstanla olan dəniz sərhədini açdı və bu, Avropanı tamamilə cənginə alan qaçqın böhranını daha da genişləndirdi.

---

5 Bevelander P. and Petersson B. (Eds). Crisis and Migration: Implications of the Eurozone Crisis for Perceptions, Politics, and Policies of Migration. Lund: Nordic Academic Press, 2014

Bu prosesin nəticəsi olaraq Avropada bir çox siyasi partiyalar qaçqın dalğasını siyasi müzakirələrin mərkəzinə gətirdilər. Onlar immiqrasiya siyasətinə dəyişikliklər edilməsini tələb etdilər. Bu hadisələr miqrantlara qarşı çıxış edən siyasi qüvvələrin hakimiyyətə gəlməsinə səbəb oldu. Başqa sözlə, miqrasiya böhranı milli, dini, mədəni kimlik və hüquqi böhranlara yol açdı.

Lakin birmənalı olaraq qeyd etmək olar ki, miqrasiya böhranının səbəbləri yalnız bu sadalananlar deyil. Onlar əsasən nəticələrdir. Müqayisə üçün xatırladaq ki, qaçqınların sayı Avropada miqrant böhranı baş verənə qədər də artmaqda idi. Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) məlumatına görə, 2015-ci ildə 65 milyon insan öz vətənini tərk etmək məcburiyyətində qalmışdır. Bu o deməkdir ki, dünyada yaşayan 7.4 milyard insan arasında hər 113-cüdən biri qaçqındır. 2015-ci ildə dünyada 21 milyon qaçqın var idi. Miqrasiya böhranına baxmayaraq, bunların cəmi 6 faizi Avropaya çatmışdır ki, bu da Aİ-nin dünya əhalisinin tərkibindəki payından o qədər də çox deyil. Üstəlik də, Ümumdünya İnsan Hüquqlarına dair Bəyannaməyə (1948) görə (maddə 14), hər bir insanın təqibdən qorunmaq üçün başqa ölkələrdə sığınacaq axtarmaq və bu sığınacaqdan istifadə

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının məlumatına görə, 2015-ci ildə 65 milyon insan öz vətənini tərk etmək məcburiyyətində qalmışdır. Bu o deməkdir ki, dünyada yaşayan 7.4 milyard insan arasında hər 113-cüdən biri qaçqındır. 2015-ci ildə dünyada 21 milyon qaçqın var idi. Miqrasiya böhranına baxmayaraq, bunların cəmi 6 faizi Avropaya çatmışdır ki, bu da Aİ-nin dünya əhalisinin tərkibindəki payından o qədər də çox deyil.

etmək hüququ var.[6]

Bəzi müəlliflərin böhrana yanaşma tərzi isə sadəcə təbəssüm doğurur. Onlar hesab edirlər ki, "qaçqın böhranının köklərini Avropadan kənarda axtarmaq lazımdır. Buna görə də böhranın təsirini minimuma endirmək üçün ümumi qəbul sistemini inkişaf etdirmək, həm də mənbə ölkələri ilə əməkdaşlıq etmək vacibdir".[7]

Beləliklə, miqrasiya böhranının miqyası və insan axınlarının sayı, getdikcə daha da dərinləşməsi, cəmiyyətə təsiri onun bəzi xüsusiyyətlərini səciyyələndirməyə imkan verir:

- *Miqrasiya böhranı dünya siyasətinin və iqtisadiyyatının, beynəlxalq hüququn radikal, prinsipial dəyişikliklərə, ədalətə ehtiyacı olduğunu göstərən, baş verənlərin səbəbləri üzərində düşünməyə və onları aradan qaldırmağa səsləyən tarixi çağırışdır.*
- *Miqrasiya böhranı Qərb məkanında milli dövlətin tarix səhnəsinə qədəm qoyması ilə sırf bir Qərb fenomeni kimi yaranan miqrasiya siyasətinin qeyri-düzgünlüyünün məntiqi nəticəsidir. Bu böhranın tarixi kökləri Qərbdə müstəmləkəçilik sisteminin yaranması, insan və təbiət resurslarının birtərəfli istismarına yönəlmiş, əsrlərlə davam edən siyasətin dalana dirənməsidir.*
- *Miqrasiya böhranı demokratiyanın genişləndirilməsi adı altında məqsədyönlü şəkildə Qərb üsuli-idarəsinin yayılmasının, suveren dövlətlərin daxili işlərinə müdaxilələrin, başqa xalqların seçdiyi iqtidarları devirməyin acınacaqlı nəticələridir.*
- *Hazırda miqrasiya böhranı Qərb modelinə əsaslanan siyasi iqtisadın iflasa uğramasının məntiqi sonluğudur. Qlobal kapitalın dünyanı ekstensiv mənimsəməsi və təbii ehtiyatları birtərəfli istismarı mərhələsi*

6 The Universal Declaration of Human Rights. - *http://www.un.org/en/universal-declaration-human-rights/*; Kert Valdaru, Eva-Maria Asari, Lauri Mälksoo. The Impact of the Refugge Crisis of Europe and Estonia. /Estonian Human Development Report 2016-2017/ *- https://inimareng.ee/en/migration-and-demographic-changes-in-estonia-and-europe/the-impact-of-the-refugee-crisis-on-europe-and-estonia/*

7 Estonia at the Age of Migration. /Estonian Human Development Report 2016-2017/ -*https://inimareng.ee/en/*

*sona çatmışdır. Miqrasiya yalnız xalis mənfəət prinsipinə əsaslanan azad bazar paradiqmasının, "qızıl milyard"a xidmət edən, Yer kürəsinin qalan əhalisini məhrumiyyət içində yaşamağa vadar edən iqtisadi siyasətin nəticəsidir.*

- *Miqrasiya fövqəlhakimiyyətə iddialı olan qlobal güclərin və onların qlobal idarəçilik siyasətinin son bir neçə əsrdə beynəlxalq münasibətləri yönəldən və bu gün də davam edən fəaliyyətində dərin böhranın simptomudur. Artıq bu qlobal siyasət modeli nəinki işləmir, həmçinin onun nəticələri sistemin özünü məhv etmək dərəcəsinə gətirib çıxarmışdır.*
- *Miqrasiya böhranı Qərb liberal siyasi-ideoloji sisteminin görünməmiş dərin böhranının əlamətidir. Ümumiyyətlə, indiyə qədər Qərbin bu aparıcı siyasi ideologiyasında əksini tapan universal dəyərlərin gerçəklik deyil, sadəcə dünya ağalığını təmin edən məqsədyönlü fəaliyyətinə haqq qazandırmaq üçün sui-istifadə olunan bir "şüar" olduğunun sübutudur.*
- *Miqrasiya böhranı liberal insan hüquqları paradiqmasının süqutudur. Ehtiyac olan zaman gəlmə-miqrantların sosial-mədəni hüquqları kimi mövcud olan multikulturalizm siyasətinin, artıq lazım olmadığını rəsmi bəyan etmək dərəcəsində etiraf edilən mədəni siyasətin çökməsidir.*
- *Böhran Qərb sivilizasiyasının fəxr etdiyi "rifah dövləti"nin, "sosial dövlət" ideyasının tənəzzülünün və "firavan Qərb cəmiyyəti mifi"nin yox olmasının əlamətidir.*
- *Hazırkı böhran miqyası, misli görünməmiş əzablar yaşayan milyonlarla insan həyatını əhatə etməsi, lokal, regional və qlobal səviyyələrdə iqtisadi, siyasi, sosial-mədəni sistemləri silkələməsi baxımından "Böyük geosiyasi partlayış" (Geopolitical Big-Bang) da adlanır. Onun dalğaları hələ genişlənməkdə, radiusu getdikcə bütün dünyaya nüfuz etməkdədir. Bütövlükdə beynəlxalq miqrasiyanın qlobal proseslərə müstəsna təsiri miqrantları beynəlxalq münasibətlərin taleyini müəyyən edən fiqura çevirmişdir.*

Bu, son dərəcə ağır olan vəziyyət bir tərəfdən dünyaya bəzi ümid işartıları, xilas şansının olması ilə bağlı işarələr də verir. Fəlakət vəziyyətinin sadəcə etiraf edilməsi də problemləri həll edə bilərmi? Məsələn, ABŞ-ın yeni rəhbərliyinin dünya hegemonluğu siyasətindən imtina etməyi bəyan etməsi bir təsəlli ola bilərmi? Xatırlayaq ki, sadəcə bəyanatın səslənməsi belə, artıq həmin siyasətə vərdiş edənlərin düşərgəsində təlaş doğurmuşdur. ABŞ-ın bu cür davranışa ixtiyarı olmadığını irəli sürənlərin sayı çoxalmışdır. Beynəlxalq münasibətlər sistemində həlli çətin olan problemlərin siyahısı tükənmək bilmir.

> Son bir neçə əsrdə həyata keçirilən, sırf Qərb siyasəti kimi meydana gələn miqrasiya siyasətinin, yaxud da miqrasiya proseslərinin siyasi səbəbləri kimi məsələlərin araşdırılmasında geosiyasət, politologiya, beynəlxalq münasibətlər nəzəriyyəsi, beynəlxalq siyasi iqtisad və s. elmlər tamamilə qıraqda qalmış, sadəcə seyrçi mövqeyində durmuşdur.

Digər tərəfdən, vəziyyətin getdikcə dərinləşməsi, seyrçilik mövqeyinin tutulmasının qarşısı alınmayacağı təqdirdə dünyanı təhdid edən böhran olduqca acınacaqlı nəticələrə səbəb ola bilər.

Birmənalı olaraq qəbul etmək lazımdır ki, yaşanan böhran onun səbəbkarı olan və bu günə qədər davam edən Qərb siyasətinin malik olduğu yanaşma və vasitələrlə həll edilə bilməz! Əgər bu, qlobal siyasi gündəmdə rəsmi şəkildə etiraf edilməsə, o zaman onun həllinə olan ümidlər və hələlik kiçik də olsa mövcud olan imkanlar vaxt itkisinə yol verilərsə, bir daha olmaya bilər. Tarixi böhran proseslərinin izlənilməsi göstərir ki, problemlərin mövcudluğunun dərk edilməsi artıq müəyyən nəticə hesab edilə bilər. Lakin onları son bir neçə əsrdə davam edən siyasi üsul və vasitələrlə həll etmək mümkün deyil.

## 1.2. Beynəlxalq münasibətlər və politologiya elmində miqrasiya probleminin elmi təhlili ilə bağlı vəziyyət

*"Elmi ədəbiyyatlarda miqrasiyanın siyasi və iqtisadi formaları müəyyən edilib. Siyasi miqrasiyanın səbəbləri sırasında siyasi rejimlərin süqutu, hərbi münaqişələr və s. göstərilir. Lakin bu cür təsnifat kifayət qədər dar çərçivəni əhatə edir və müasir dövrdə baş verən miqrasiya proseslərinin mahiyyətini tam şəkildə əks etdirmir".* [8]

**Novruz Məmmədov**

Miqrasiya böhranının səbəbləri və miqyası ilə bağlı problemlərlə tanışlıq göstərir ki, bütün dünyada müxtəlif ölkələrin alim və tədqiqatçılarının bu sahədəki vəziyyətlə bağlı demək olar ki, tam susqunluğu mövcuddur. Təkcə onu qeyd etmək lazımdır ki, son bir neçə əsrdə həyata keçirilən, sırf Qərb siyasəti kimi meydana gələn miqrasiya siyasətinin, yaxud da miqrasiya proseslərinin siyasi səbəbləri kimi məsələlərin araşdırılmasında geosiyasət, politologiya, beynəlxalq münasibətlər nəzəriyyəsi, beynəlxalq siyasi iqtisad və digər elmlər tamamilə qıraqda qalmış, sadəcə seyrçi mövqeyində durmuşdur. Bütövlükdə isə məcburi miqrasiyanın siyasi səbəblərinin arxa plana atılması, gündəmə gəlməməsi yönündə beynəlxalq münasibətlər və beynəlxalq hüquq elmi ilə yanaşı, siyasi nəzəriyyə də "əl-ələ" vermişdir.

Bu, hələ azmış kimi hətta qaçqın və miqrant probleminin siyasi aspektlərinin gizlədilməsi yönündə beynəlxalq təşkilatlar

8 Məmmədov N. Müasir tarixdə miqrasiya prosesi haqqında. /07.08.2017/ - *https://azertag.az/xeber/Muasir_tarixde_miqrasiya_prosesi_haqqinda-1083760*

səviyyəsində qlobal miqyasda konkret elmi yanaşmalar, hadisələrə yalnız Qərb və əsas donor ölkələrin prizmasından baxan araşdırmalar təşviq edilir. Onların yayılmasına nail olmaq üçün geniş elmi mübadilə proqramlarına səxavətlə maliyyə vəsaiti ayrılıb və bu iş bu gün də davam etdirilir.

Xüsusilə vurğulanmalıdır ki, son zamanlara qədər miqrasiya axınlarının səbəbləri məsələsinə demək olar ki, diqqət yetirilməmişdir. Baxmayaraq ki, 1980-ci illərdə BMT Baş Assambleyasının Xüsusi Siyasi Komitəsində bu mövzu müzakirə olunmuşdur. Müzakirənin mühüm səbəblərindən biri "ikiqütblü dünyanın siyasi baxımdan çökməsi, iflic olması" idi.

Politologiyada, xarici siyasət və beynəlxalq münasibətlər sahələrində immiqrasiya probleminin tədqiqi bir çox cəhətdən nisbətən gecikmişdir. Bu məntiqdən çıxış edərək onu da demək olar ki, miqrasiyanın siyasi aspektlərinin təhlili, yaranmış fövqəladə ağır böhranda siyasi amilin nə kimi rola malik olub-olmaması kölgədə qalmışdır. Sual yaranır: Nə üçün? Cavab ondan ibarətdir ki, təki problemin kökündə duran siyasi səbəblər gizli qalsın. Dünya ictimaiyyəti bunu sadəcə humanitar fəlakət və müvafiq humanitar yardım kimi qəbul etsin. Məcburi miqrasiya və qaçqın probleminin əsl günahkarları üzə çıxmasın.

Qeyd edilən elm sahələri indiyə qədər ənənəvi olaraq daha çox beynəlxalq sistemdə sabitlik və müharibə məsələlərinə diqqəti yönəltmişdir. Bununla belə, beynəlxalq miqrasiyanın beynəlxalq münasibətlərlə birbaşa kəsişdiyi tədqiqat sahələri də var.

Digər bir absurd vəziyyət ondan ibarətdir ki, ən humanist missiya daşımalı olan beynəlxalq təşkilatlar miqrasiyanın siyasi köklərinin aşkara çıxarılmamasına xidmət edən bu "oyunların" içərisində yer ala biliblər! İnsan məntiqi bunu dərk etməkdə acizdir. Lakin elmi ictimaiyyət əlindən gələni etməlidir ki, XXI əsrə bu ağır miras qalmasın.

Bu kontekstdə onu da qeyd edək ki, dünyada baş verən böhranlar və transformasiyalar müvafiq olaraq beynəlxalq münasibətlər nəzəriyyəsində proseslərə yanaşma və baxış bucaqlarını dəyişmiş, gərgin müzakirələrə yol açmışdır. Bu baxımdan məlum olan və beynəlxalq münasibətlər nəzəriyyəsində sayca üç olan "böyük debatlar" gedişində müxtəlif yeni nəzəriyyələr meydana gəlmiş, biri digərini təkzib etmişdir. Təəccüblü odur ki, miqrasiya və qlobal insan köçü kimi məsələlər bu "böyük debatlar"ın "böyük" mövzularına çevrilə bilməmişdir.

Oksford Universitetinin Qaçqın Tədqiqatları Mərkəzində *"Beynəlxalq münasibətlər və məcburi miqrasiya"* mövzusunda mühazirə kursu keçərkən professor **Aleksandr Betts** *(Alexander Betts)* bu haqda ədəbiyyatın olmamasından heyrətə gələrək yazmışdır: "Məcburi miqrasiya və qlobal siyasət arasında bilavasitə bağlılığın olmasına baxmayaraq, beynəlxalq münasibətlər sahəsində baş verən məcburi miqrasiya proseslərinə dair nəzəri və ya empirik kontekstdə heç bir ədəbiyyatın olmadığını aşkar etdim".[9]

Beynəlxalq münasibətlər nəzəriyyəsi dünya siyasətində dövlətlərin və digər aktorların davranışlarını dərk və təhlil etmək üçün bir sıra vasitələr, baxış və konsepsiyalar təqdim edir. Təəccüblüdür ki beynəlxalq münasibətlər nəzəriyyəsi və məcburi miqrasiyanın bir-biri ilə sıx bağlı olmasına baxmayaraq, beynəlxalq münasibətlər nəzəriyyəsi və onun politologiyada mövcud olan əsas konsepsiyalarında bununla bağlı böyük boşluq yaranmışdır. Həmin konsepsiyalarda miqrasiya ilə bağlı əsas müddəaları tapmaq böyük vaxt tələb etsə də, onları görmək mümkündür.

Geniş yayılmış bəzi beynəlxalq münasibətlər nəzəriyyələrində problemə münasibətlə bağlı aşağıdakılar qeyd edilə bilər:

Beynəlxalq münasibətlərdə **Neorealizm** nəzəriyyəsi miqrasiyanın beynəlxalq siyasətlə bağlılığı haqqında mövqeyə malik deyil.

9 Betts A. Forced Migration and Global Politics. John Wiley & Sons. Ltd, 2009, 223 p.

Neorealistlər hesab edirlər ki, məcburi miqrasiya sadəcə qlobal siyasətin xüsusi diqqət cəlb edən elementi ola bilməz. Bununla belə, **neorealist yanaşmanın** məcburi miqrasiya siyasətinə münasibəti ilə bağlı mövqeyi aşağıdakı dörd iddia və ya fərziyyə ilə izahını tapa bilər:

**Neorealistlər** üçün beynəlxalq münasibətlər qüvvələr balansının dəyişməsinin nəticəsidir. Məsələn, E.Karr və H.Morgentau I və II Dünya müharibələrinin səbəblərini məhz belə izah edirdilər. Onlar hesab edirlər ki, 1914-cü ildə Qaçqınlar üzrə Ali Komissar Liqasının və 1945-ci ildə BMT QAK-ın yaranmasının səbəbi Avropadakı qüvvələr balansında baş verən dəyişikliklərdir. Yəni bu iki qurum onların məhsulu kimi ortaya çıxmışdır. Məcburi insan köçünün səbəbləri qüvvələr balansında baş verən dəyişikliklərə əhəmiyyətli dərəcədə təsir edə bilər.

Dövlətlər məcburi miqrasiyaya təhlükəsizlik nöqteyi-nəzərindən yanaşırlar. **Neorealist** baxışa əsasən, məcburi miqrasiya yalnız milli təhlükəsizliyə aid bir məsələdir. Buna görədir ki, beynəlxalq münasibətlər nəzəriyyəsində əksər tədqiqatlar zorakı miqrasiya ilə bağlı məsələləri qaçqınlar və milli təhlükəsizlik aspektində araşdırmışdır (məsələn, sekuritologiya elmi istiqaməti). Maraqlı odur ki, xüsusilə daxili və ya dövlətlərarası münaqişələr zamanı qaçqınların döyüşçülər qismində rolu və qaçqın düşərgələrinin döyüşçülərin məskən saldığı yerlər olması, son tədqiqatlarda isə qaçqınlar və terrorizm mövzuları geniş tədqiq edilmişdir.

Məcburi miqrasiya ilə bağlı beynəlxalq əməkdaşlıq yalnız hegemoniya faktı aşkar edildikdə baş verir. Beləliklə, **neorealist** perspektivdən baxanda beynəlxalq münasibətlərdə məcburi miqrasiyanı törədən əsas səbəblərin təhlili üçün əsaslanmağa müəyyən bir fikir və ideya yoxdur.

**Liberal institusionalizm** nəzəriyyəsi məcburi köçün beynəlxalq siyasətlə bağlılığı fikrini qəbul edir. Çünki bu nəzəriyyə məcburi

miqrasiyanın müxtəlif aspektləri ilə bağlı beynəlxalq əməkdaşlığın zəruriliyindən çıxış edir. Digər tərəfdən, liberal institusionalizmin çatışmayan əsas cəhəti odur ki, burada neorealizmdə olduğu kimi dövlətlər yalnız suveren aktorlar kimi qəbul edilir və beynəlxalq siyasətə tamamilə dövlətlərarası səviyyədə baxılır. Məcburi miqrasiya sahəsində beynəlxalq siyasətə liberal institusional yanaşma bu cürdür: beynəlxalq təşkilatlar məcburi miqrasiya ilə bağlı dövlətlərə təsir göstərə və dövlətlərin fərqli davranmaları üçün müxtəlif rasional təşviq metodları ilə beynəlxalq əməkdaşlığı asanlaşdıra bilərlər.

**İngiltərənin Beynəlxalq Münasibətlər Məktəbi**nin *(The English School of International Relations Theory)* yanaşmasına görə, beynəlxalq siyasətin anarxiya ilə xarakterizə olunmasına baxmayaraq, dünya nizamı qüvvələr balansından yarana bilər, baxmayaraq ki, bunlar da labüd deyil. Bununla yanaşı, dünya siyasətini başa düşmək üçün bu məktəbin nümayəndələri faydalı bir yanaşma təklif edirlər: beynəlxalq siyasət daha geniş, makrotarixi kontekstdə götürülməli, əvvəlki əsrlərdə baş verən proseslərə, xarici siyasət ənənələrinə xüsusi diqqət yetirilməlidir.

Beynəlxalq münasibətlər nəzəriyyəsində reflektiv çevriliş və üçüncü böyük debat **konstruktivizm cərəyanını** formalaşdırmışdır. Konstruktivist nəzəriyyənin empirik əsaslarını regionlaşma və sekuritizasiya ideyaları təşkil edir. Nəzəriyyə tərəfdarları hesab edirlər ki, qaçqın və məcburi köçkün rejimi zaman keçdikcə ortaq dəyərləri və maraqları formalaşdırmaqla müəyyən dərəcədə dövlətləri yaxınlaşdırır. Konstruktiv baxımdan normalar və institutlar beynəlxalq aktorların dünyaya necə baxdıqlarını və onların maraqlarını dərk etməyə imkan vermək baxımından əhəmiyyətlidir. Konstruktivizmə görə, beynəlxalq təşkilatlar kimi qeyri-dövlət aktorları, məsələn, QHT-lər də dünya siyasətinə müstəqil təsir göstərə, əhəmiyyətli rol oynaya bilərlər.

Müasir dövrümüzdə hər tərəfindən qaçqınların sallandığı, miqrantların ağırlığına tab gətirməyərək çevrilən, minlərlə insanın batdığı rezin qayıqlar Aralıq dənizində miqrant böhranının simvoluna çevrilmişdir. Bu həm də balıqçı gəmisi ilə o biri sahilə çıxmağa və nəhayət, arzuladığı həyata qovuşacağına dair xəyalları ölümdən belə güclü olan miqrantların – minlərlə kişi, qadın və uşağın puç olmuş ümidlərinin ifadəsidir.

**Tənqidi nəzəriyyə** isə müxtəlif nəzəriyyələrin geniş spektrini təmsil edir. Bu nəzəriyyənin tərəfdarlarının yanaşmasına görə, istənilən nəzəriyyə və konsepsiya nə neytral, nə də obyektiv olmaqla yanaşı, özü də akademik müstəqilliyə malik deyil. Bu nəzəriyyəni təmsil edən **Robert Kox** *(Robert W. Cox)* Qərbdə yaradılan siyasi konsepsiyalar haqqında yazır: "Bütün nəzəriyyələr kimin üçünsə yazılıb və müəyyən məqsədə xidmət edir. Buna görə tənqidi nəzəriyyə "problemi həll edən nəzəriyyələrdən" fərqlənir və "dünyanı olduğu kimi qəbul edir". Buna görə də elmi biliyin, nəzəriyyələrin necə yaradıldığını və kimin maraqlarına xidmət etdiyini araşdırır".[10]

Tənqidi nəzəriyyə **Frankfurt məktəbi, neomarksist və poststrukturalist** yanaşmalara bölünür.

Buna baxmayaraq, tənqidi nəzəriyyənin məcburi miqrasiyaya yanaşması iki əsas məqamla səciyyələnir: məcburi köçkünlərin müxtəlif kateqoriyaları dünya siyasətində qüvvələrarası münasibətləri əks etdirir. Məcburi miqrasiyaya məruz qalanlar buna görə müvafiq olaraq "sığınacaq axtaran şəxslər", "qaçqınlar", "məcburi köçkünlər", "ölkədaxili köçkün düşmüş şəxslər" (İDPs) kateqoriyalarına bölünürlər.

Maraqlı məqamlardan biri də odur ki, tənqidi nəzəriyyə qaçqın-

10 Cox, Robert W. Social Forces, States and World Orders: Beyond International Relations Theory. Millennium: Journal of International Studies, 10 (2): 1981, p.126–55.

ların müxtəlif kateqoriyalara ayrılmasının səbəblərini araşdırmağı təklif edir. Çünki belə hesab edilir ki, qaçqınları fərqləndirən bu "yarlıqlar" boş yerdə yaradılmayıb. Qaçqın və miqrantların müxtəlif cür adlandırılması müəyyən məqsədlərə xidmət edir və buna görə də həm siyasi, həm də praktiki təsir gücünə malikdir. Tənqidi nəzəriyyə məcburi miqrantları növlərə bölən "etiketlərin və kateqoriyaların" nə vaxt, necə və kim tərəfindən verildiyini araşdırmaqla problemin kökünü tapmağa dəvət edir. Məsələn, Cavaharlal Nehru Universitetinin Beynəlxalq Hüquq Araşdırmaları Mərkəzinin direktoru, beynəlxalq hüquq, beynəlxalq ticarət hüququ və beynəlxalq qaçqın hüququ üzrə tanınmış mütəxəssis **Bhupinder Çimni** *(Bhupinder Chimni)* qaçqınlara və ya inkişaf etməkdə olan ölkələrdən daha çox Şimal dövlətlərinin maraqlarına xidmət etməyə hesablanan, hegemon mövqeyi dəstəkləyən elmi araşdırma, xəbər və məlumatların hazırlanması və yayılmasına yardım etməkdə BMT QAK-ın rolunu araşdırmış və onu əsaslandırmışdır.

Məcburi miqrasiyanın siyasi və beynəlxalq mahiyyətinə baxmayaraq, qaçqın və ölkədaxili köçkünlərə aid məsələlər beynəlxalq münasibətlər və politologiya elmi tərəfindən nadir hallarda təhlil edilir. Beynəlxalq münasibətlər elmi öz diqqətini sülh və müharibə, hərbi təhlükəsizliklə bağlı məsələlərin təhlili, qlobal iqtisadiyyat, ətraf mühit, insan hüquqları və

> Aralıq dənizi qədim dövrdən üzü bəri sivilizasiyaların yaranması və çökməsinə, iqtisadi-ticari və mədəni əlaqələrin intensiv olaraq baş verdiyi dəniz yollarının ələ keçirilməsinə, hər iki sahilindəki qitələrin onu cəng meydanına çevirməsinə, Səlib yürüşlərinə, Şərqdən Qərbə və əksinə gedən insan köçünün miqyası və səbəblərinə, nəticədə dünya siyasi xəritəsində baş verən tektonik yerdəyişmələrə şahidlik etmişdir.

> Miqrasiya nəticəsində Avropa qitəsinin siyasi, etnik, mədəni, iqtisadi siması kökündən dəyişdi. İslam dininin yayılması, Xilafətin ərazilərini Avropayadək genişləndirməsi və ərəblərin miqrasiyasına cavab olan rekonkista – ərəblərin tutduğu ərazilərin 8 əsr boyunca geri qaytarılması və müstəmləkələrə çevrilməsi kimi əks proses getdi. Səlib yürüşlərinin nəticəsi kimi nəhəng insan köçü Qərbi Avropadan Yaxın Şərqə axın etdi.

beynəlxalq ticarət sahələri üzərində cəmləmişdir. Bütün bunların fonunda məcburi miqrasiya problemi beynəlxalq siyasətdə diqqətdən kənarda qalmışdır. Belə bir vəziyyətdə problemin ayrı-ayrı aspektləri fraqmentar şəkildə, bir-birindən təcrid edilmiş formada tədqiq edilmişdir. Burada əsas diqqət əsasən məcburi miqrasiya və təhlükəsizlik əlaqələrinin təhlilinə, qlobal qaçqın və məcburi köçkün proseslərinin hesabatlarının hazırlanmasına yönəldilmişdir.

Halbuki, məcburi köçkün probleminin tədqiqi beynəlxalq münasibətlər üçün mühüm əhəmiyyət kəsb edir. Məsələn, bu problem beynəlxalq əməkdaşlıq, qloballaşma, qlobal ictimai rifah, etnik və dini millətçilik, suverenlik, beynəlxalq təşkilatlar, siyasi rejimlər, təhlükəsizlik, qeyri-dövlət aktorlarının rolu, qarşılıqlı bağlılıq, regionalizm, Şimal-Cənub münasibətləri və digər məsələlərlə sıx bağlıdır.

Bütövlükdə miqrasiya probleminin tədqiqi sahəsində mövcud olan çoxsaylı tədqiqatlar əsasən tarixi, demoqrafik, iqtisadi, ekoloji amilləri mərkəzi hesab edən ənənəvi yanaşmalardan çıxış edir. Bu baxımdan baş verən proseslərin geosiyasi mahiyyətini aşkarlamağa o qədər də maraq göstərmir. Problemin digər tərəfi ondan ibarətdir ki, "miqrasiyaya dair araşdırmaların əksəriyyəti tarix boyu Qərb-Şimal ölkələrinin nöqteyi-nəzərini ifadə etmiş, mənbə və tranzit ölkələrin problemə baxışına həmişə biganəliklə yanaşılmışdır. Bu təəccüblü

deyil, belə ki, araşdırmaları maliyyələşdirən və miqrasiya problemini tədqiq edən ixtisaslaşmış mərkəzlər, jurnallar və tədqiqat şəbəkələri də Qərbdə cəmləşmişdir. Beləliklə, nəticədə problemə bir "Qərb mərkəzli" baxış formalaşmışdır".[11] Məcburi miqrasiyanın beynəlxalq münasibətlər və politologiyanın öyrəndiyi əsas istiqamətlərdən birinə çevrilməsi bu elm sahələrinə ciddi akademik-nəzəri töhfə ola bilər.

## 1.3. Tarixdə miqrasiya prosesləri və Yeni dövrdə milli dövlətin yaranması ilə miqrasiya siyasətinin bir Qərb fenomeni kimi formalaşması

Əhalinin miqrasiyası latın dilində *migration* "köçmək, yer dəyişmək" mənasını verir. Öz ilkin mənasında *miqrasiya* termini ingiliscə "piyada səyahət etmək, gəzmək" sözü ilə də bağlıdır.[12] "Qlobal miqrasiya böhranı" anlayışı isə ilk dəfə 1995-də **Mayron Vaynerin** *(Myron Weiner)* "Qlobal miqrasiya böhranı: dövlətlər və insan hüquqları üçün çağırış" əsərində istifadə edilmişdir.[13] Müəllif miqrasiya böhranının səbəblərini deyil, nəticələrini etnik münaqişələr və təhlükəsizlik, həmçinin insan hüquqları aspektində təhlil etmişdir.

Miqrasiya tarix qədər qədim, bəşəriyyətlə yaşıd olan prosesdir. İnsan yaranandan yeni yerləri kəşf etmək istəyi ilə hərəkət etmiş, ümumilikdə köçəri həyat tərzi yaşayan tayfalar mövcud olmuşdur. Miqrasiya fenomeninin qədimliyi şifahi ədəbiyyatda, antik miflərdə,

11 Massey D.S., Arango J., Hugo G., Kouaouci A., Pellegrino A. and Taylor J.E. Worlds in Motion, Understanding International Migration at the End of the Millenium, Oxford. Clarendon Press, 2008.

12 Migration. /English Oxford Living Dictionaries/ - *https://en.oxforddictionaries.com/definition/migration*

13 Weiner M. The Global Migration Crisis: Challenge to States and to Human Rights. Harper Collins College Publishers, 1995, 253 p.

dünya dinlərində *(hicrət, mühacirət* kimi dini terminlərdə) əksini tapmışdır. Homerin poetik miflərində Odisseyin on il ərzində müxtəlif ölkələrə səyahət etməsi təsvir edilmişdir. Hətta səyahət və macəralar indi də "odisseya" sözü ilə ifadə edilir. Romalılar yerli və gəlmə vətəndaşları fərqləndirir, gəlmələrə xüsusi hüquqlar verirdilər. Ərəblər fəth və qul ticarəti vasitəsi ilə öz ərazilərini olduqca geniş coğrafiyaya qədər genişləndirmişdilər.

Müasir dövrümüzdə isə hər tərəfindən qaçqınların sallandığı, miqrantların ağırlığına tab gətirməyərək çevrilən, minlərlə insanın batdığı rezin qayıqlar Aralıq dənizində miqrant böhranının simvoluna çevrilmişdir. Bu həm də balıqçı gəmisi ilə o biri sahilə çıxmağa və nəhayət, arzuladığı həyata qovuşacağına dair xəyalları ölümdən belə güclü olan miqrantların – minlərlə kişi, qadın və uşağın puç olmuş ümidlərinin ifadəsidir.

Aralıq dənizi tarix boyu nəhəng makroregion qismində dünya məkanında gedən proseslərin, sivilizasiyalararası münasibətlərin, tarixin nəbzinin döyündüyü məkan olmuşdur. Miqrant böhranına dünyanın diqqəti də buradan – sivilizasiyaların yaranması və çökməsinə şahidlik edən Aralıq dənizindən yönləndi. Bu, əslində böyük xəbərdarlıqdır.

Aralıq dənizi qədim dövrdən üzü bəri sivilizasiyaların yaranması və çökməsinə, iqtisadi-ticari və mədəni əlaqələrin intensiv olduğu dəniz yollarının ələ keçirilməsinə, hər iki sahildəki qitələrin onu cəng meydanına çevirməsinə, səlib yürüşlərinə, Şərqdən Qərbə və əksinə gedən insan köçünün miqyası və səbəblərinə, nəticədə dünya siyasi xəritəsində baş verən tektonik yerdəyişmələrə şahidlik etmişdir. Təsadüfi deyil ki, dünya və Qərb tarixşünaslığında yeni tədqiqat metodunu yaradan **Fernand Brodel** *(Fernand Braudel),* **"Salnamələr** *("Annallar")* məktəbinin nümayəndələri, **Anri Piren** *(Henri Pirenne)* və başqaları qlobal makrotarixi proseslərin mahiyyətini bu məkanla –

"Aralıq dənizi iqtisadi və mədəni sistemi"nin fəaliyyəti ilə bağlılıqda dərk etməyi vurğulamış, bu haqda fundamental əsərlər yazmışlar.

**A.Piren** özünün *"Məhəmməd və Böyük Karl"* əsərində yazır: "VII-VIII əsrlərdə yaranmış "Xaç və Ayparanın qarşıdurması" Aralıq dənizi regionunun tarixi ritminin başlıca məzmununu təşkil etmişdir. Səlib yürüşləri Aralıq dənizini yenidən "xaçın əhatəsinə" qaytarmaq uğrunda Qərbin görünməmiş cəhdi idi. Lakin o, tamamilə əks effekt verdi. İki "ögey övladın" – islam və katolisizmin zərbələri altında Roma və Aralıq dənizinin qanuni varisi – Bizans imperiyası çökdü. İtaliyadan Şərqə doğru islam dininin hökmranlığı yüzilliklər boyu möhkəmlənərək davam etdi."[14]

**F.Brodel** "II Filip dövründə Aralıq dənizi və Aralıq dənizi dünyası" *(The Mediterranean and the Mediterranean World in the Age of Philip II)* əsərində bu ideyanı inkişaf etdirərək, sivilizasiyanın inkişaf qanunauyğunluqlarını dərk etməyin "Aralıq dənizi dünya iqtisadi-siyasi sistemi" modelini təqdim etmişdir.[15]

Müəyyən vaxtlarda dünya dövlətləri arasında qarşılıqlı əlaqələrin inkişafına təkan verən, ünsiyyət körpüsü olan bu dəniz yeni dövrdən üzü bəri, ərəb tarixçisi İbn Xaldunun yazdığı kimi, "qapalı məkana, "Qərbi Aralıq dənizinə" çevrildi. Aralıq dənizində sivilizasiyalararası mədəni böyük ticarət dayandı, dəniz yolları bağlandı. Xristianlar dənizdə müsəlmanların hətta adi taxta lövhəsini belə üzməyə qoymurdular". [16]

Beləliklə, miqrasiya proseslərinin tarixinə qısa nəzər salınması onu göstərir ki, kütləvi miqrasiyalar, qulların daşınması və ya

14 Pirenne H. Mohammed and Charlemagne. Dover Publications. 2001, p.56

15 Braudel F.The Mediterranean and the Mediterranean World in the Age of Philip II. Volume I, 1996, 642p.

16 Пирен А. Империя Карла Великого и Арабский халифат. Конец античного мира. *- https://www.e-reading. club /bookreader.php/1028293/Piren_-_Imperiya_Karla_Velikogo_i_Arabskiy_halifat.html*

böyük miqyaslı ərazilərin məskunlaşdırılması qədim dövrlərin ayrılmaz xüsusiyyəti olmuşdur. Kolonial miqrasiya bir çox qədim dövlətlərin yaranmasında həlledici rol oynamışdır. Belə ki, daimi olaraq yeni ərazilərə köç etməklə, məskunlaş(dır)maqla (koloniyalar yaratmaqla) torpaqları genişləndirmə halları da çox olmuşdur. "Qədim yunan koloniyaları, 3 min il bundan əvvəl yunan kolonistlərinin Bosforu keçərək Aralıq dənizində şəhər dövlətlərini qurması, Aralıq və Qara dənizlərin sahilləri boyu qədim yunanların genişmiqyaslı məskunlaşması tarixdən məlumdur. Maraqlı odur ki, məskunlaşma prosesi əsasən torpaqların azlığı səbəbindən və indiki dillə desək, "planlı" şəkildə aparılırdı. Harada məskunlaşmağı və yeni torpaqların istiqamətini isə Delfi kahinləri göstərirdilər".[17]

Miqrasiya siyasətinin tarixinə nəzər saldıqda bir çox hallarda miqrasiyanın obyektiv iqtisadi, yaxud demoqrafik amillərlə daha çox şərtlənməsinə dair baxışlara rast gəlmək mümkündür. Xüsusilə də əksər nəzəriyyələrə görə, tarixən miqrasiya bazar qanunları ilə kortəbii şəkildə tənzimlənir. Bu, həqiqətdə belədirmi?

Proseslərin tarixinin izlənilməsi miqrasiyanın tənzimlənməsinin çox əvvəl başladığını göstərir. Üstəlik də dövlətin rolu burada heç də "sərhəd nəzarəti" adlanan funksiya ilə məhdudlaşmamışdır. Müasir dünyada bir çox dövlətlər hətta öz yaranmasına görə miqrasiya proseslərinə borcludur. "Xalqların böyük köçü" Roma imperiyasının dağılmasına, 5 yeni dövlətin (Fransa, Bolqarıstan, Macarıstan, Kiyev Rus dövləti) yaranmasına gətirib çıxarmışdır. Bundan başqa, ABŞ, Avstraliya, Yeni Zelandiya və Kanada kimi dövlətlər miqrasiya prosesləri nəticəsində "immiqrant dövlətlər kimi" yaradılmışdır. Şimali və Cənubi Amerikanın inkişaf tarixi miqrantların yerli əhalini

17 Пальцева Л.А. Лелантская война и начало колонизации / Из истории архаической Греции: Мегары и мегарские колонии. - СПб., 1999, с.40. - *http://centant.spbu.ru/centrum/publik/paltzeva/pal_0131.htm*

tamamilə sıxışdırıb yox etməsi üzərində qurulmuşdur.

Fransız kolonistlərinin 1600-cü ildən başlayaraq Kanadaya, daha sonra Şimali Amerikanın digər ərazilərinə yürüşü və burada özlərindən asılı məskənlər - koloniyalar[18] salması məlumdur. Məşhur alim, Rusiya tarixşünaslığında yeni nəzəri yanaşmanın müəllifi **Vasili Klyuçevski**nin yazdığına görə, "Rusiya dövlətinin tarixi fasiləsiz olaraq yeni koloniyalarla (yeni ərazilərin fəthi və məskunlaşdırılması yolu ilə) qurulan ölkənin tarixidir".[19]

Miqrasiya nəticəsində Avropa qitəsinin siyasi, etnik, mədəni, iqtisadi siması kökündən dəyişdi. İslam dininin yayılması, Xilafətin ərazilərini Avropayadək genişləndirməsi və ərəblərin miqrasiyasına cavab olan rekonkista – ərəblərin tutduğu ərazilərin 8 əsr boyunca geri qaytarılması və müstəmləkələrə çevrilməsi kimi əks proses getdi. Səlib yürüşlərinin (hərbi müstəmləkəçilik) nəticəsi kimi nəhəng insan köçü Qərbi Avropadan Yaxın Şərqə axın etdi. Avropada ilk şəhərlərin yaranması, urbanizasiya proseslərinin başlaması da miqrasiya fenomeni ilə bilavasitə bağlı olmuşdur. Xalqların (hunların, monqol-tatarların və s.) miqrasiyasının, eləcə də XV əsrdə "böyük coğrafi kəşflər" dövründə miqrasiya proseslərinin tarixi hadisələrin gedişatına əhəmiyyətli təsiri məlumdur.

Tarixən döyüşdə qulların ucuz işçi qüvvəsi kimi ələ keçirilməsi qələbə sayılırdı. Erkən Yeni dövrdə qul alveri müstəmləkəçi

18 **Koloniya** (latın dilində *colōnia* "qəsəbə") bir neçə mənada işlədilir: 1. Egey sahilində ən qədim dövrün nisbətən siyasi bərabərliyə malik yunan koloniyaları; 2. Romada əsasən 6 minə yaxın insanın yaşadığı qala əraziləri; 3. İmperialist dövlət və ya metropoliya tərəfindən istismar edilən, xüsusi rejim əsasında idarə olunan asılı ərazi; 4. Bir dövlətin ərazisində əcnəbilərin və ya bir ölkədə başqa yerdən köçüb gələnlərin yaşadığı yer, məhəllə, qəsəbə; 5. Həmyerlilərin başqa ölkədə, yerdə təşkil etdikləri icma; 6. Bu və ya başqa məqsədlə köçürülmüş insanların yaşadığı yer (məsələn, Çar Rusiyasında alman koloniyaları); hazırda Avropa dövlətlərinin dünyanın müxtəlif yerlərindəki ərazilərini ifadə etmək üçün. [Bax: Memmi A. The Colonizer and the Colonized. N.-Y., 1965, p.12; həmçinin: Малый энциклопедический словарь Брокгауза и Ефрона. - *https://ru.wikisource. org/wiki/%D0%9C%D0%AD %D0%A1%D0%91%D0%95/%D0%9A%D0% BE% D0%BB%D0% BE%D0% BD%D0%B8%D0%B8* ]

19 Ключевский В.О. Сочинения в девяти томах. Том 1. М.: Мысль, 1987, с.309-310.

siyasi iqtisadın ayrılmaz tərkib hissəsi hesab olunurdu. Burada müstəmləkəçi dövlətlər həlledici rola malik olmuşdur. Avropa sənayeləşmə mərhələsində miqrant əməyi sayəsində inkişaf etmişdir. I Dünya müharibəsi dövründə vuruşan dövlətlər səfərbərlik üçün müstəmləkələrdən miqrant toplayırdılar. Nasist müharibənin iqtisadiyyatı da başlıca olaraq miqrant əməyi sayəsində inkişaf edirdi. Onların çoxu əsirlər idi. [20]

İmmiqrant dövləti olan ABŞ-da miqrantlara açıq olan qapılar fonunda Asiya ölkələrindən gəlmələrə qarşı qadağa qoyulmuşdu. XIX əsrin sonunda Britaniya Şərqi Avropadan gələn yəhudilərə, Avstraliya və Kanada asiyalılara ölkəyə gəlməyi qadağan edən qanunlar qəbul etmişdi. Fransada 1889-cu ildə qəbul edilmiş "Milli Məcəllə" *("National Code")* Almaniya ilə ehtimal olunan müharibədə vuruşmaq üçün müstəmləkələrdən əsgərlərin toplanmasını nəzərdə tuturdu.[21]

Tarixə nəzər saldıqda məlum olur ki, bir çox dövlətlər ölkədən getməyi – emiqrasiyanı qadağan ediblər. Məsələn, Avropa monarxiyaları merkantilist iqtisadi nəzəriyyənin tövsiyəsi ilə emiqrasiyaya icazə vermirdi. 1820-ci ildə Britaniya sənaye sahəsində çalışan ixtisaslı mütəxəssislərin emiqrasiyasını qadağan etmişdi. Faşist Almaniyasında, eləcə də Sovet İttifaqında bu tipli emiqrasiya qadağan idi.

Sənayeləşmə proseslərinin geniş vüsət aldığı XIX əsri müəyyən mənada "miqrasiya nəzarəti əsri" adlandırmaq olar. Demokratikləşmə və sənaye inqilabları sərbəst yerdəyişmə və insan axınlarının sürətlənməsinə şərait yaratmışdı. Bu əsrdə həmçinin milli mənsubiyyət və fərdi identiklik kimi göstəricilər də qeydə alınmışdı. Sonradan "rifah dövləti"nin formalaşması və nəhayət, pasportların meydana gəlməsi vətəndaşlar və gəlmələr – immiqrantlar arasında

20 Homze, Edward L. Foreign Labor in Nazi Germany. Princeton University Press, 1967, p.46
21 Lewis B. and Schnapper D. Muslims in Europe. London, 1994, p.66

fərqlərin qoyulmasını dərinləşdirdi.[22] Dünyada baş verən ümumi tendensiyalara uyğun olaraq, "XIX əsrdə Avrasiya materikinin böyük bir hissəsi koloniyalaşdırma nəticəsində məskunlaşdırıldı və Rusiya imperiyasının formalaşması sona çatdı".[23]

Ümumi qənaətə görə, daha sonra aqrar inkişaf mərhələsinin urbanizasiya ilə əvəzlənməsi və sənayeləşməsi nəticəsində miqrasiyanın klassik-industrial forması XX əsrin 70-ci illərində sona çatmışdır.

Avstraliyanın Sidney Universitetinin alimi, beynəlxalq miqrasiyanın dinamikası, qlobal idarəetmə, multikulturalizm, Afrika, Asiya və Avropada regional miqrasiya tendensiyalarını araşdıran **Stepan Kastles** *(Stephen Castles)* yazır: "Miqrasiya tarixinin bu günə qədər gələn məntiqi gedişatı onu göstərir ki, proseslər sanki əvvəlcədən düşünülmədiyi üçün arzuolunmaz nəticələrə gətirib çıxarmışdır. Britanıya rəsmiləri nə vaxtsa Ficidə, yaxud Karib dənizi hövzəsi ölkələrində polietnik və çoxkonfessiyalı icmaların yaranacağını təsəvvür edə bilərdilərmi? Yaxud Avropaya əmək qüvvəsi idxal edən transmilli şəbəkələr yerli əhalinin uzunmüddətli perspektivdə etnik və demoqrafik quruluşunun dəyişəcəyini ehtimal edərdilərmi? ABŞ dövlət rəsmiləri bu gün – XXI əsrdə etnik-irqi baxımdan parçalanmış cəmiyyətin düşdüyü vəziyyəti qabaqcadan görə bilərdilərmi? Bu və olduqca çoxsaylı digər suallara cavablar hələlik yoxdur. Lakin bu o deməkdirmi ki, bugünkü siyasət rəsmiləri də qəbul etdikləri qərarlara keçmişdəki sələfləri kimi biganə olmalıdırlar? Hazırda verilən qərarların uzunmüddətli nəticələrini kimsə hesablayıbmı? Mən buna dərindən şübhə edirəm".[24]

---

22 Torpey John C. Politics and the Past: On Repairing Historical Injustices. Rowman&Littlefield, 2003, 316 p.

23 Юдина Т.Н. Социология миграции: Учебное пособие для вузов. М: Академический Проект, 2006, c.29

24 Castles S. Understanding Global Migration: A Social Transformation Perspective. /Conference on Theories of Migration and Social Change, St Anne's College, Woodstock Road, Oxford Tuesday 1 st – Thursday 3 rd July 2008, 23 p./ - *https://www.imi.ox.ac.uk/files/events/castles.pdf*

**Norman Devis:** “Britaniya müstəmləkələrinin ərazisi Britaniyanın öz ərazisindən 125 dəfə, Fransa müstəmləkələrinin ərazisi öz ərazisindən 19 dəfə, hollandlarda 55 dəfə, belçikalılarda isə 78 dəfə çox olub”.

Beləliklə, XVII əsrdən etibarən “milli dövlət” ideyası dünya siyasətinin başlıca xüsusiyyətinə çevrilmişdir. Dünya tədricən ərazi vahidlərinə bölünmüş, onların daxilində və xaricində öz ərazisi və əhalisi üzərində idarəçilik fəaliyyətini həyata keçirmək dövlətin suveren səlahiyyəti kimi tanınmışdır. XX əsrdə suverenlik beynəlxalq hüququn əsas prinsipi kimi bir daha təsdiq edildi. 1933-cü ildə “Dövlətlərin hüquq və vəzifələri haqqında” Montevideo Konvensiyası dövləti beynəlxalq hüququn subyekti olaraq təsbit etdi və onun dörd əsas xüsusiyyətini – daimi əhali, sərhədlə müəyyən edilmiş ərazi, idarəetmə hakimiyyəti və digər ölkələrlə münasibətlər qurma qabiliyyətini vurğuladı.

Dövlətin suverenliyi və məcburi miqrasiya arasındakı qarşılıqlı əlaqəni dərk etmək miqrasiya böhranı ilə beynəlxalq siyasət arasında münasibətləri başa düşmək üçün vacibdir. Belə ki, vətəndaş və qeyri-vətəndaş, qaçqın və məcburi köçkün, immiqrant və emiqrant kimi konsepsiyalar, suverenitet və vətəndaşlıq presedentlərinin formalaşması müstəqil sərhədlərlə şərtlənib, dövlətə aiddir. Onların siyasi və hüquqi tərifləri də tamamilə dövlət sisteminə aiddir. “Qaçqın” və ya “məcburi köçkün” anlayışları yalnız milli dövləti təşkil edən vətəndaş, dövlət və ərazilər arasındakı qarşılıqlı bağları ifadə edir. Həqiqətən, dövlət sistemi dövlət, vətəndaş və ərazilər arasında qanuni – legitim münasibətlər əsasında formalaşıb. “Miqrant” anlayışı suveren dövlətin qurulduğu dövlət-vətəndaş və vətəndaş-ərazi əlaqələrinin parçalanmasının bir təzahürü kimi özünü büruzə verir. Eyni zamanda, “məcburi köçkün və ölkədaxili qaçqın” anlayışı vətəndaş-ərazi

münasibətlərinin dağıdılmasını göstərdiyi halda, "məcburi qaçqın" anlayışı dövlət-vətəndaş əlaqələrinin parçalanması ilə üzə çıxır.

"Milli dövlətin yaranması, müstəmləkə ekspansiyası və imperializmin inkişafı birlikdə münaqişə və zorakılığa, məcburi miqrasiyanın genişlənməsinə təkan verdi. Müstəmləkəçilik dövründə miqrasiya bir tərəfdən bərabərsizliyə və məcburiyyətə əsaslanan qulların və fəhlələrin hərəkəti, digər tərəfdən isə müstəmləkə idarəçiliyini həyata keçirən inzibatçıların, tacirlərin və hərbi qulluqçuların kütləvi axınları şəklində baş verirdi".[25]

Məcburi miqrasiya beynəlxalq siyasətdə suverenlik, milli dövlətçilik sisteminin təşəkkülü və beynəlxalq hüququn yaranması ilə bağlı proseslərə daha geniş – epoxal-institusional fokus nöqtəsindən baxmağa imkan verir.

Mövcud olan bəzi konsepsiyalarda məcburi miqrasiya ilə bağlı yanaşma iki əsas iddiaya əsaslanır: Məcburi miqrasiya və dövlətlərin buna müxtəlif reaksiyaları tarixi dəyişikliklərin daha geniş zaman və məkan kontekstində təhlil edilməli, dövlətlərin tarixən formalaşmış davranış stereotiplərinə əsaslanmalıdır. Həmçinin, məcburi miqrasiya milli dövlətlərin yaranması və təkamülü proseslərindən ayrı götürülüb təhlil edilə bilməz. Məsələn, ingilis alimi **Emma Həddad** hesab edir ki, "qaçqın" anlayışını meydana gətirən və qaçqınların mövcudluğunu labüdlüyə çevirən amil Vestfaliya dövlət sisteminin yaradılması olmuşdur. Məhz bu sistem dövlət, vətəndaşlıq və gəlmə-qaçqın arasında vacib və qarşılıqlı əlaqənin olduğunu şərtləndirdi. Vestfaliya sisteminin yaradılmasından əvvəl feodal, dini cəhətdən parçalanmış, aydın milli dövlət sərhədlərinin olmadığı Avropada qaçqınlar hər hansı bir məna kəsb edən insan kateqoriyası kimi mövcud deyildi. Miqrasiya və qaçqınlarla bağlı konsepsiyalar, onlara beynəlxalq institusional reaksiyalar daha geniş

25 Koen R. The Cambridge Survey of World Migration. Cambridge University Press, 2005, p.41

kontekstdə – dövlət suverenliyi və insan hüquqları ilə bağlı təsis edilən qurumların fəaliyyəti ilə bağlı inkişaf etmişdir”.[26]

E.Haddad özünün qeyd edilən tədqiqatında həmçinin qaçqın, suverenlik və dövlət sistemi arasındakı əlaqəni araşdıraraq, “qaçqın” anlayışı və dünya siyasəti ilə bağlı geniş yayılmış nəzəriyyələri tənqid edir. Qaçqın probleminə əksər hallarda “vətəndaş-dövlət münasibətləri” formatında baxılmasını qüsurlu hesab edir. O, əksinə məcburi miqrasiya və qaçqın problemlərinin ortaya çıxmasını “beynəlxalq münasibətlər sisteminin işləməməsinin nəticəsi” kimi izah edir. Onun fikrincə, bu həqiqətin dərk edilməsi həlledici əhəmiyyətə malikdir.

Beynəlxalq münasibətlər nəzəriyyəsindəki institusional yanaşmaya görə, məcburi miqrasiya dominant beynəlxalq institutların fəaliyyətinin məhsuludur. Bu institutlar dövlət sistemləri, siyasi rejimlər, qüvvələr balansı, müqavilələrə və normalara bağlı qarşılıqlı məsuliyyət, məsələn, dövlətlərin məcburi miqrasiya, o cümlədən dünya siyasətinin bütün sahələrində necə davranması məsələlərini tənzimləməlidirlər. Bir halda ki, dövlət ümumilikdə dövlətlər sisteminin bir hissəsidir, qlobal qarşılıqlı münasibətlərdə onun davranışı qəbul edilən oyun qaydaları və normalari ilə şərtlənmiş olur.

Beləliklə, tarixdə mövcud olan miqrasiya proseslərindən fərqli olaraq, miqrasiya siyasəti Yeni dövrdə milli dövlətin və paralel olaraq müstəmləkəçiliyin yaranması ilə tarix səhnəsinə gələn sırf Qərb fenomenidir. Onun təşəkkülü və inkişaf mərhələlərinin mahiyyəti, “müstəmləkəçilik siyasəti çərçivəsində miqrasiya proseslərinin miqyas, zaman və xarakter baxımından bir-birindən fərqlənən üç mərhələ təşkil etməsi” bu kitabın ön sözündə lakonik şəkildə səciyyələndirilmişdir.

26 Haddad E. The Refugee: The Individual between Sovereigns. Cambridge: Cambridge University Press, 2008.

## 1.4. XVII-XIX əsrlərdə müstəmləkəçilik və miqrasiya siyasətinin Qərb modelinin tarixi ənənəyə çevrilməsi

*"Miqrasiya axını müstəmləkəçiliklə birlikdə yaranıb və onun qalığıdır. Bu gün miqrasiya böhranı Avropanın aparıcı ölkələrinin siyasətinin nəticəsidir. Miqrasiya siyasəti I mərhələdə müstəmləkəçiliyi möhkəmləndirmək, II mərhələdə müstəmləkədən azad olmuş ölkəni öz nəzarətində saxlamaq üçün istifadə edilib. İndi bu siyasətin III mərhələsi başlayır. Bu mərhələdə artıq miqrantlara "qanundankənarlar" adı verilir".*[27]

**Novruz Məmmədov**

*"Ölkədə vətəndaş müharibəsi istəmirsinizsə, qırx milyon ingilis xalqının rifahı üçün imperialist olmağa məcbursunuz".*[28]

**Sesil C. Rods**
***Cənubi Afrikada ingilis müstəmləkəçiliyinin - "aparteidin" banisi***

Müasir miqrasiyanın problemlərini onların doğurduğu tarixi kökləri və özünəməxsus səbəbləri, müxtəlif mərhələlərdə miqrasiya siyasətinin dinamikasını dərk etmədən anlamaq mümkün deyil. Tarixən formalaşmış ənənələr cəmiyyət həyatının bütün sahələrində olduğu kimi xarici siyasətdə və beynəlxalq münasibətlərdə də öz dərin izini qoymuşdur. Nə qədər qəribə görünsə də, insanların bir yerdən başqa yerə sərbəst hərəkət etməsi kimi miqrasiya bəşəriyyətin

27 Məmmədov N. Müasir tarixdə miqrasiya prosesi haqqında. /07.08.2017/ - *https://azertag.az/xeber/Muasir_tarixde_miqrasiya_prosesi_haqqinda-1083760*

28 Marlowe J. Cecil Rhodes: the anatomy of empire. London, 972 p.

inteqrasiyasının formalarından biridir. Lakin bir məqam yadda saxlanılmalıdır ki, miqrasiyanın inteqrativ funksiyası yalnız onun müvafiq obyektiv şərtlər məcrasında reallaşdırıldığı zamanlarda özünü büruzə verə bilər. Başqa sözlə, onun düzgün qanuni əsaslarla tənzimlənməsi cəmiyyətin miqrantlara münasibətində ümumi prinsiplərin bərqərar olması, insanların özünü reallaşdırması üçün yaradılan dövlət dəstəyi və himayəsi ilə bağlı bütöv bir siyasi, sosial-iqtisadi, mədəni, hüquqi tədbirlər sisteminin formalaşması ilə mümkün ola bilər.

Müasir miqrasiya prosesinin böhran vəziyyətinə çatan mürəkkəbliyi onun tarixi kökləri və mənbələrinin ikili xarakter daşıması ilə bilavasitə sıx bağlıdır. Miqrasiya böhranının səbəblərini anlamaq üçün daha əvvəlki dövrlərə, problemin tarixi köklərinə nəzər yetirilməli, "müstəmləkəçi irs"in *(colonial legacy)*[29] burada nə kimi rolu olmasına diqqət edilməli, bir sıra tarixi paralellər aparılmalıdır. Yalnız bu halda böhrandan xaosa doğru irəliləyən prosesləri, dünya qədər qədim olan miqrasiya axınlarını fəlakətə çevirən gerçək səbəbləri dərk etmək mümkündür.

Novruz Məmmədov qeyd edir ki, "miqrasiya tarixinin araşdırılmasına böyük ehtiyac var. Bu hadisə müstəmləkəçiliklə birlikdə yaranmış, ondan törəmədir, onun qalığıdır".[30] Müasir müstəmləkəçilik XV əsrdə portuqaliyalıların Afrikanın qərb sahili boyu səyahətlərindən sonra başlamışdır. Həmin qərb sahili 1498-ci ildə Vasko de Qamanı Hindistana gətirib çıxarmış, çox keçmədən yeni qitə – Amerika tamamilə avropalılar tərəfindən məskunlaşdırılmışdı. Hollandlar və ingilislər Hindistanda və Cənub-Şərqi Asiyada öz iddialarını irə-

29 "***Müstəmləkəçi irs (miras)***" - müstəmləkəçi dövlətlər tərəfindən idarə olunan ölkələrdə və regionlarda baş verən dəyişikliklərin mahiyyəti və dinamikasının tədqiqində istifadə edilən akademik termindir. [Bax: Martin J. Wiener. The Idea of "Colonial Legacy" and the Historiography of Empire. /26 March, 2013/ *-http://onlinelibrary.wiley.com/doi/10.1111/jhis.12000/abstract]*

30 Məmmədov N. Bu gün miqrasiya böhranı Avropanın aparıcı ölkələrinin siyasətinin nəticəsidir. /08.09.2015/ *- http://www.yeniazerbaycan.com/SonXeber_e10124_az.html*

li sürməyə başladılar. Fransa tədricən böyük müstəmləkəçi imperiya qurdu. Britaniyanın dənizlərdə hökmranlığı və onun sənaye sahəsində aparıcı mövqelər əldə etməsi müstəmləkəçilik üsuli-idarəsinin "öncül" nümunəsi hesab edilirdi.

**İmmanuel Vallerstayn:**
"Qızıl milyard" ölkələri müasir qlobal neokolonial sistemin metropoliyasıdır. Burada dünyanı idarə etməyə imkan verən bütün güc və hakimiyyət orqanları cəmləşib".

Qeyd etmək lazımdır ki, "Qərb ölkələri ilk dəfə XV-XVII əsrlərdə müstəmləkəçilik dövründə başqa mədəniyyətlərin mövcudluğu faktı ilə Portuqaliya və Fransanın Afrikada və Latın Amerikası ölkələrində məskunlaşma siyasətini reallaşdırarkən üz-üzə gəlmişdir. Tədqiqatçıların əksəriyyətinin fikrinə görə, məhz orta əsr və ondan sonra davam edən müstəmləkəçilik müasir miqrasiya proseslərinin qaynaqlarından biri kimi çıxış edir".[31]

Öz növbəsində müstəmləkəçilik siyasəti koloniyalardan maddi və mənəvi resursların istismarına, əldə olunmuş bu nailiyyətlərin daha da inkişafına xidmət etmişdir. Britaniya tarixçisi **Norman Devisin** *(Norman Davies)* sözlərinə görə, "Britaniya müstəmləkələrinin ərazisi Britaniyanın öz ərazisindən 125 dəfə, Fransa müstəmləkələrinin ərazisi öz ərazisindən 19 dəfə, hollandlarda 55 dəfə, belçikalılarda isə 78 dəfə çox olub".[32]

Təbii ki, müstəmləkəçiliyə haqq qazandırılması da avropamərkəzçi siyasət və ideologiyanın vəzifəsi olmuşdur. "Müstəmləkəçilik" sözü əvəzinə "sivilizasion missiya" və "ağ adamın missiyası" *(The White Man's Burden)* konsepsiyaları ortaya çıxmışdır. İngilis şairi, *"Qərb-Qərbdir, Şərq də Şərq. Onlar heç vaxt bir araya gələ bilməz"* deyiminin

31 Бабич И.Л., Родионова О.В. Теория и практика мультикультурализма. / Исследования по прикладной и неотложной этнологии. – М., ИЭА РАН, 2009, вып. 215, с.5

32 Porter H. Terrorism, Migrants, And Crippling Debt: Is This The End Of Europe? -*http://www.vanityfair.com/news/2016/01/europe-terrorism-migrants-debt-crisis*

müəllifi **Cozef Redyard Kiplinq**in *(Joseph Rudyard Kipling)* şeirinin adı olan bu misra müstəmləkəçilik ideologiyasını təbliğ edən şüara çevrilmişdir. Bu şeirin kraliça Viktoriyanın "brilyant yubileyinə" həsr edilməsi nəzərdə tutulsa da, geriqalmışların sivilizasiya ailəsinə daxil edilməsi missiyasının ifadəsi kimi qəbul edildi və bu gün də yaşayan "ağ irqçiliyin", müstəmləkəçiliyin və imperializmin himni və ideologiyası kimi tarixə düşdü.[33]

Bu ideyanın tərəfdarları belə bir müddəadan çıxış edirdilər ki, bəzi xalqlar üçün müasir dünyanın çətin şəraitində özlərinin varlığını saxlamağa imkan verən uzun inkişaf dövrü tələb olunur. Burada fransız alimləri müstəmləkəçiliyi sivilizasiyanın başqa bölgələrə yayılmasının universal aləti olaraq izah edirdilər.

Qeyd edək ki, XVI-XIX əsrlərdə Amerikadakı Avropa koloniyalarının müstəmləkəçi iqtisadiyyatlarının inkişafı və taleyi kölə Afrika qullarının əməyindən asılı idi. Afrika xalqları həbs edilərək işgəncə altında Amerikaya gətirilirdi. Avropa koloniyalarının məmurları hesab edirdilər ki, onların Amerikada "kəşf etdikləri" bol torpaqlar onu becərən insanlar olmasa faydasız olacaq. Əməyin istismarının kölələlik sistemi burada üstünlük təşkil edirdi. Lakin nə avropalılar, nə də yerli amerikalılar bu qəbildən olan işlərin öhdəsindən gələ bilərdilər.

Amerikalı alim **Hovard Dodson** *(Howard Dodson) "Quldarlıq dünya iqtisadiyyatını qurmağa necə töhfə verib?"* adlı əsərində yazır: "1492-1776-cı illər arasında Atlantik okeanını keçən və Qərb yarımkürəsində məskunlaşmış 6.5 milyon immiqrantın yalnız 1 milyonu avropalı idi. Qalan 5.5 milyon Afrikadan gəlmə idi. Kölə kimi istismar edilən afrikalı qadınların və uşaqların orta hesabla 80 faizi əsasən səhərdən gecəyə kimi tarlada işlədilirdi. Qadınlar kimi uşaqlar da iş görməyə məcbur edilirdi. Amerikaya qul kimi gətirilənlərin

---

33 "The White Man's Burden": Kipling's Hymn to U.S. Imperialism. - *http://historymatters.gmu.edu/d/5478/*

yarıdan çoxu şəkər qamışı tarlalarında işləyirdilər. Şəkər Amerikada qulların istehsal etdiyi aparıcı məhsula çevrilmişdi".[34]

Müstəmləkəçilik nəinki 60 milyon avropalının Yeni qitəyə köçünə təkan verdi, həmçinin ondan daha çox Afrika və Asiya sakinlərinin Avropaya axınını şərtləndirdi. Təbii obyektiv əsaslardan qaynaqlanan miqrasiya deyil, istismar üsuli-idarəsi olan müstəmləkəçilik Avropada milli dövlət yaranandan miqrasiya siyasətinin mahiyyəti, təkamülü və dinamikasını dərk etməyə daha çox imkan verir. Miqrasiya proseslərində baş verən hazırkı böhran tarixi kökləri baxımından həmin vaxtdan qaynaqlanan ikili xarakterə malik olub varislik təşkil edir. Bu isə müstəmləkəçilik və postkolonializmin, oriyentalizmin tədqiqi olmadan mümkün deyil.

Müstəmləkəçilik metropoliya və koloniyalar arasında uçurum səviyyəsində bərabərsizlik və ayrı-seçkiliyə əsaslanan siyasi-iqtisadi quruluşdur (*metropoliya* yunan dilində: *"μήτηρ* - "ana" və *"πόλις* — "şəhər"; *μητρόπολις* — "ana şəhər" deməkdir). Həmçinin, özündən asılı vəziyyətə saldığı ölkələrə, sərhədlərindən xaricdə idarə etdiyi koloniyalara, məskənlərə, istismar etdiyi ərazilərə münasibəti ilə səciyyələnən dövlətdir.

2016-cı ildə imzalanmasından 100 il keçən məşhur **Sayks-Piko sazişi** müstəmləkəçiliyin mahiyyətini dərk etmək üçün əyani nümunədir. Belə ki, "Sayks-Piko" Kiçik Asiya sazişi 1916-cı ildə Britaniya və Fransa arasında I Dünya müharibəsi zamanı Rusiya imperiyasının razılığı ilə Osmanlı imperiyasının parçalanması və onun Asiya qitəsindəki torpaqlarını bölüşdürmək üçün bağlanmış məxfi razılaşmadır. Saziş onu imzalayan Britaniya və Fransa diplomatlarının adları ilə tanınır. Bu saziş Türkiyəyə məxsus olan Suriya, İraq, Livan və Fələstinin Fransa və Britaniyanın nəzarətinə keçən müxtəlif rayonlara

34 Dodson H. How Slavery Helped Build a World Economy. /National Geographic News, 3 February, 2003/ -*https://news.nationalgeographic.com/news/2003/01/0131_030203_jubilee2.html*

bölünməsinə gətirib çıxartdı.[35] London konvensiyasına əsasən, müttəfiqlər türklərin dövründə Beyrutda olan, ərəblərin idarəçilikdə iştirakına imkan yaradan administrasiyasını da ləğv etdilər və əvəzində Fransa Ali Komissarlığını yaratdılar.[36]

Sazişin yüz illiyində Yaxın Şərq üzrə ekspert **Jim Muir** özünün *"Sayks-Piko - Yüz il boyu davam edən hiddət və nifrətin xəritəsi"* adlı məqaləsində onun acı nəticələri haqqında yazırdı: "Bir-biri ilə kəskin rəqabətdə olan iki müstəmləkəçi müttəfiq dövlətin – İngiltərə və Fransanın hakim maraqları və amansız iddialarının ifadəsi olan bu sazişin ədalətsiz ruhu – "Parçala və hökm sür!" prinsipinin, yüz il boyu bölgədə bitməyən münaqişələrin səbəbidir. **Sayks-Piko** – ölkələrin daxilində gizli nifaq və müharibə törətmək, müstəmləkəçi sui-qəsdlərinin, məkrli siyasətinin simvolik konsepsiyası kimi bütöv bir epoxa boyu və bu günümüzdə də xarici güclərin başqa dövlətlərə öz iradəsini qəbul etdirmək, sərhədləri istədiyi kimi ölçüb-biçmək, ölkədə özündən asılı yerli rəhbərliyi təyin etmək, gerçəklikdə "Parçala və hökm sür!", nəticədə isə "Mənim yazıq fağır qonşum" siyasətinin ağır irsi və rəmzinə çevrilmişdir.

**Sayks-Piko** – ölkələrin daxilində gizli nifaq və müharibə törətmək, müstəmləkəçi sui-qəsdlərinin, məkrli siyasətinin simvolik konsepsiyası kimi bütöv bir epoxa boyu və bu günümüzdə də xarici güclərin başqa dövlətlərə öz iradəsini qəbul etdirmək, sərhədləri istədiyi kimi ölçüb-biçmək, ölkədə özündən asılı yerli rəhbərliyi təyin etmək, gerçəklikdə "Parçala və hökm sür!", nəticədə isə "Mənim yazıq fağır qonşum" siyasətinin ağır irsi və rəmzinə çevrilmişdir.

---

35 Sykes-Picot Agreement.1916 /The Editors of Encyclopaedia Britannica/ - *https://www.britannica.com/event/Sykes-Picot-Agreement*

36 Barr J. A Line in the Sand: Britain, France and the Struggle That Shaped the Middle East. London: Simon & Schuster, 2012, 464 p.

Sayks-Piko sazişinin nəticələri həm ingilislərin ərəblərə Osmanlı imperiyasının dağılmasında dəstəyə görə verdikləri azadlıq vədləri, həm də Vudro Vilsonun imperiyadan azad edilən xalqlara öz müqəddəratını təyin etməklə bağlı verdiyi vədlərlə daban-dabana ziddiyyət təşkil etdi. Bundan 18 ay sonra imzalanan Balfur sazişi haqqında isə Vudro Vilsonun köməkçisi yazırdı: "Mən onlara dedim: bu, bölgəni sonu görünməyən müharibələrin məkanına çevirəcək".[37]

Beləliklə, gerçəklik bundan ibarətdir ki, Britaniya, Fransa, İspaniya, Portuqaliya və digər dövlətlərin 100 il əvvəl müstəmləkəsi olmuş ölkələrdə vəziyyət bu gün də acınacaqlıdır. Çünki həmin dövlətlərə nəinki öz ictimai-siyasi inkişaflarını tənzimləyən sosial-siyasi institutlar yaratmalarına və ənənəyə çevrilməsinə dəstək verilmiş, əksinə mövcud olan infrastruktur da darmadağın edilmişdir. Ötən əsrlərdə onların bütün sərvətləri talanıb, Avropa ölkələri məhz bu sərvətlər hesabına inkişafa nail olublar.

Müstəmləkəçilik hələ də müasir Afrikanın siyasi və iqtisadi inkişafında öz təsirini göstərir. Müstəqilliyin əldə edilməsindən sonra Afrika dövlətləri uzun müddət onlara ağalıq etmiş Qərb dövlətlərinin siyasi modelini bərqərar etmiş və daha çox mərkəzləşdirilmiş avtoritar üsuli-idarə sistemini qəbul etmişdilər. Afrika siyasi sistemi bu gün də özünün etnik özünütəcrid və marginallaşma siyasəti ilə səciyyələnir.

Amerikan sosioloqu, politoloqu, neo-marksist filosof, dünya sistemləri nəzəriyyəsinin yaradıcısı, müasir sol təmayüllü sosial düşüncənin aparıcı nümayəndələrindən biri **İmmanuel Moris Vallerstayna** *(Immanuel Maurice Wallerstein)* görə, "qızıl milyard"[38] ölkələri müasir qlobal neokolonial sistemin metropoliyasıdır. Burada dünyanı idarə etməyə imkan verən bütün güc və hakimiyyət orqanları cəmləşib. Dünya-sistem konsepsiyası əmək bölgüsünün dinamik

37 Muir J. Sykes-Picot: The Map That Spawned a Century of Resentment. /16 may 2016/ - *http://www.bbc.com/news/world-middle-east-36300224*

38 ***"Qızıl milyard"*** - Yer kürəsinin hazırda sayı 7,5 milyarda çatan əhalisinin əsasən inkişaf etmiş ölkələrdə

dəyişikliklərinə əsaslanaraq dünyanı üç hissəyə ayırır: 1. Mərkəz (dünyanın nüvəsi); 2. Əyalət ölkələri; 3. Yarıməyalət ölkələr. Sonuncu ikisi heç vaxt mərkəz ola bilməyəcək.

Fransız iqtisadçısı və sosioloqu, yazıçı, siyasi xadim **Jak Attali** *(Jacques Attali)* isə *"Üfüqün xətləri"* əsərində yazır ki, yeni dünyada dominant – üstün ölkələrin vətəndaşı olmaq ən qiymətli mülkiyyət hesab ediləcək. İstehsal prosesləri "ikinci eşelon" ölkələrinin texnologiya zonasında cəmləşəcək.

Bu gün rəsmi anlayış kimi "koloniya" sözü istifadədə yoxdur, lakin "asılı ərazilər" və "xarici mülklər" ifadələri işlədilir. Nə qədər utancverici olsa da, XXI əsrdə sözdə liberal dəyərləri göylərə qaldıran dövlətlərin koloniyaları hələ də saxlanılır. Formal suveren dövlət kimi qəbul edilən ölkələr əslində başqa ölkələrin forpostu və koloniyası kimi mövcuddur. Həmin regionlarda daim qeyri-sabitlik və münaqişələr baş verir. Metropoliya lazım gələndə özünə sərf edən yerli hakimiyyət strukturlarına yardım edir.

"Müasir Avropa immiqrasiya sistemi iki əsas yolla neomüstəmləkəçi hesab edilə bilər: Əvvəla, immiqrasiyanın tənzimlənməsi yönündə infrastruktur Avropa korporasiyaları üçün mənfəət və pulqazanma sənayesini formalaşdırıb; ikincisi, bu, Avropaya öz sərhədlərində "qanunsuz" immiqrasiyanı məhdudlaşdırmaqla Cənub dövlətlərini öz nəzarəti altına almaq üçün imkan verir".[39]

Qeyd edək ki, törədildiyi zaman baxımından ən sonuncu soyqırımı və zorakı miqrasiya nümunəsi olan Myanmada Rohingya (Arakan)

yaşayan, təhlükəsiz və rahat həyat üçün lazım olan hər şeyə malik olan insanların ən zəngin təbəqəsini ifadə etmək üçün tətbiq edilən konsepsiya və termindir. "Qızıl milyard" - dünya resurslarının qıtlığı şəraitində bir milyard əhalinin qalanlara nisbətdə firavan həyat sürməsini, varlı və yoxsullar arasındakı qütbləşməni və disbalansı əks etdirən termindir. Yer kürəsi əhalisinin yeddidən altısı yerdə qalan "qızıl milyard" ölkələrinin xammal əlavələrinə çevrilmişdir. Hazırda da hər il həmin ölkələr "üçüncü dünya" ölkələrindən təxminən 400 milyard dollar dəyərində resurslar cəlb etməklə daha da zənginləşirlər. Bax: *https://www.researchgate.net/publication/289712265_GOLDEN_BILLION*

39 Eskinazi L. European Immigration: A Colonial Legacy? /31 October, 2011/ - *http://www.alterinter.org/spip.php?article3694*

qətliamının köklərinin də müstəmləkəçi siyasi idarəçilik, təfəkkür və irslə bağlı olması haqqında fikirlər irəli sürülür. Bununla bağlı Londonun Birkbek Kollecində Asiya tarixi üzrə professor kimi çalışan **Sunil Amrit** *(Sunil Amrith)* 2013-cü ildə çap olunan *"Benqal körfəzindən insan köçü – müasir tarixdə insanların ən böyük miqrasiyası kimi*" adlı kitabında yazır: "Problemin əsl kökü müstəmləkəçilikdən qaynaqlanır. Cənubi və Cənub-Şərqi Asiya arasında həmişə ümumi miqrasiya prosesləri gedib. 1930-cu illərə qədər miqrasiya nəzarəti praktik olaraq mövcud olmayıb. Bütün Asiyada immiqrasiya nəzarəti modeli universal tətbiq edilməyə başlayanda həmin tədbirlər XX əsrdən çox-çox əvvələ gedib çıxan miqrasiya proseslərinə kor-koranə tətbiq edilmişdir. Müstəmləkə dövründə Benqaliya əvvəlcə 1905-ci ildə, sonra isə ikinci dəfə 1947-ci ildə parçalanmaya məruz qalmışdır. Eyni zamanda, Birma Britaniya Hindistanı əyaləti tərəfindən idarə edilirdi. 1937-ci ildə Benqaliyanı ayrıca idarə etmək qərarı verildi. Bu, artıq faktiki olaraq növbəti – üçüncü bölünmə oldu. Müstəmləkəçilik dağıldıqdan sonra yeni sərhədlər müəyyən edildi və müxtəlif regionlarda məskunlaşan bir çox insan bir an içində təsadüfi əcnəbiyə çevrildilər. Rohingya həmin bu tarixin izi, qalığıdır. Regionda vətəndaşlığı olmayan miqrantların humanizm əsasında tənzimləmə üsulları hazırlanmalıdır. Onların "ovuna çıxan" cinayətkar dəstələr cəzalandırılmalıdır". [40]

Beləliklə, bir vaxtlar miqrasiya axınlarından, miqrant əməyindən bəhrələnən siyasəti həyata keçirən məhdud saylı qlobal oyunçular – müstəmləkəçi dövlətlər var idi. Sonralar, daha dəqiq desək, XX əsrdə tarixin əvvəlki istənilən dövründən fərqli olaraq, bütün dünya ölkələri miqrasiya siyasətinin nəticələrini üzərində hiss etməyə başladılar. XXI əsrdə isə bütün dünya ölkələri – aktor olanlar da, olmayanlar

40 Ghosh N. Roots of migrant problem lie in colonialism. /14 May, 2015/ - *http://www.straitstimes.com/asia/se-asia/roots-of-migrant-problem-lie-in-colonialism*

da – böhranın əziyyətini çəkir. Əsrlər keçməsinə baxmayaraq, Qərb məkanında yaranan və tətbiq edilən miqrasiya siyasəti mahiyyətcə olduğu kimi davam etdirilir.

Müstəmləkəçiliklə birlikdə yaranan Qərb miqrasiya siyasəti nəticəsində köhnə müstəmləkə ölkələrində mövcud olan reallığın üç-dörd əsr keçməsinə baxmayaraq olduğu kimi qalması artıq heç kimi heyrətə gətirmir. Beynəlxalq Qırmızı Xaç Komitəsinin 2018-ci ilin iyun ayında öz "Tvitter" səhifəsində verdiyi məlumat bunu açıq şəkildə göstərir:

*"Təsəvvür edin…*

*Sizin kəndinizə hücum edilib.*

*Həyat yoldaşınız  həbs olunub.*

*Oğlunuz öldürülüb*

*Qızınız oğurlanıb*

*Siz qaçqınsınız...*

*Bayırda  50 dərəcə istidir. Nə yemək, nə də su var. Bu isə sizin yeni evinizdir.*

*Çad Gölü regionunda minlərlə insanın bunu təsəvvür etməyə ehtiyacı yoxdur. Bu, sadəcə onların yaşadığı reallıqdır. Cənubi Sudan Fransa boyda bir ölkədir. Bu gün burada cəmi 300 kilometr asfalt yol, 6 milyona yaxın isə humanitar yardıma möhtac əhali var!"*[41]

41 International Committee of the Red Cross. - *https://twitter.com/ICRC*

# II FƏSİL

## XX əsrdə Qərb dövlətlərinin miqrasiya siyasətinin modelləri: geosiyasi maraqlara xidmət edən beynəlxalq miqrasiya və qaçqın hüququnun yaradılması

## 2.1. XX əsrin birinci yarısında miqrasiya prosesləri. "Qərb mərkəzli" miqrasiya siyasətinin və beynəlxalq hüququn formalaşması

Ötən əsrin əvvəllərində koloniyaların – müstəmləkələrin bölüşdürülməsi uğrunda mübarizə tarix səhnəsində başlıca yer tutmuşdur. XX əsrdə hər iki dünya müharibəsinin miqrasiya prosesləri ilə sıx əlaqəsi olmuşdur. 1912-1913-cü illərdə I Dünya müharibəsinin müqəddiməsi olan Balkan müharibəsi və onun təsiri ilə başlayan məcburi miqrasiya nəticəsində Avropada XX yüzilliyin ilk qaçqınları ortaya çıxdı.

1913-cü ildə Türkiyə və Bolqarıstan arasında əhalinin kütləvi "mübadiləsi" baş verdi. Bir tərəf digəri ilə təxminən 50 min insanı qarşılıqlı olaraq dəyişdi.[42] 1923-cü ildə Lozanna sülh müqaviləsinə əsasən, Türkiyə və Yunanıstan arasında öz miqyası baxımından görünməmiş miqrant-vətəndaş mübadiləsi həyata keçirildi. Təxminən 400 min türk Yunanıstandan Kiçik Asiyaya köçürüldü. Əsrin ortalarına doğru Avropada faşizmin bərqərar olması ilə Fələstinə yəhudilərin axını gücləndi. Onların payı əhali arasında 1929-cu ildəki 15%-dən 1930-cu ilin sonunda 30%-ə qədər artdı. Torpaqların alınması və yəhudilərin axını ərəb əhalisi arasında narazılıq doğururdu. Bundan ehtiyat edən və 1922-ci ildə Fələstinə idarəetmə mandatı almış Britaniya immiqrasiyanı məhdudlaşdırmağa çalışdı.[43]

Avropada əhalinin miqrasiyasının inkişafında "böyük coğrafi kəşflər dövrü"ndən indiki mərhələyə qədər üç dövr fərqləndirilir. "*Birinci dövr:* Böyük coğrafi kəşflər dövründən XX əsrin ortalarına qədər Avropa əhalinin emiqrasiya etdiyi əsas region idi. Təkcə bir yüzillik

42 Зайончковская Ж.А. Россия: миграция в разном масштабе времени // Научн. Доклады. Вып. 1. М., Центр изучения проблем вынужд. мигр. В СНГ, 1999, с. 15.

43 Тезисы Всероссийского социологического конгресса "Общество и социология: новые реалии и новые идеи". 27-30 сентября 2000 г. СПб., 2000, с.77

ərzində – 1815-ci ildən 1914-cü ilə qədər Avropadan xalis emiqrasiya 35-40 milyon insan təşkil etmişdi. II Dünya müharibəsinə qədər olan dövr isə Avropanın öz daxilindəki 17 dövlət arasında əhalinin kütləvi miqrasiyası ilə səciyyəvi olmuşdur. *İkinci dövr* 1950-1990-cı illəri əhatə edir. Bu dövrdə Avropa dünyada ən böyük işçi qüvvəsini cəlb edən mərkəzə çevrilir. Xarici işçi qüvvəsinin ən az maaşlı və aşağı səviyyəli işlərə kütləvi cəlb edilməsi baş verir. *Üçüncü dövr* 1990-cı ildən başlayır və hazırda da davam edir. Avropa yenə də miqrantları cəlb edən region olaraq qalır. Müasir dövr üçün Avropada miqrasiya proseslərinin inkişafına yeni xüsusiyyətlər – immiqrasiyanın məhdudlaşdırılması və əmək resurslarının keyfiyyətinə selektiv – yüksək meyarlarla yanaşma xasdır".[44]

> 1800-cü ildən 2000-ci ilə qədərki iki yüz illik zaman kəsiyi götürülərsə, beynəlxalq miqrasiyanın pik həddi 1845-1924-cü illərə təsadüf edir. Həmin vaxt 50 milyon insan, əsasən avropalılar Qərb yarımkürəsinə – "Köhnə qitə"yə doğru hərəkət etmişdilər. Nəzərə alaq ki, dünya əhalisinin sayı o zaman cəmi bir milyarddan azacıq çox idi.

I Dünya müharibəsindən sonrakı dövrdə Qərbi Avropaya Britaniya, Fransa, Niderland və Belçikanın keçmiş koloniyalarından insanların kütləvi *repatriasiyası* (vətənə qaytarılması) baş verdi. Məsələn, Əlcəzairdən Fransaya ən azı 1 milyon fransız, İndoneziyadan Niderlanda 300 min holland qayıtdı. Bütövlükdə müharibədən sonrakı dövrdə 40 milyondan çox insanı vətəninə qaytarmaq və ya yerini dəyişmək, ya da köçürtmək lazım idi. Bununla belə, 1950-ci illərin ortalarına qədər Qərbi Avropa hələ mənfi miqrasiya saldosuna malik idi, yəni emiqrasiya immiqrasiyanı üstələyirdi.

"Getdikcə kəskinləşən miqrasiya böhranı Aİ-nin insan hüquqlarına

44 Юрин А. Миграционные процессы в странах ЕС и пути их регулирования. Москва, 2010, с.7. - *http://www.isprras.ru/pics/File/avtoref-11/Yurin.pdf*

və şəffaf sərhədlərə dair liberal dəyərlərini, eləcə də demokratik imicini və öhdəliklərini sınağa çəkirdi. Kütləvi miqrasiyanın müasir forması yeni nəqliyyat vasitələrinin, müstəmləkə qəsəbələrinin və ABŞ-ın genişlənməsi ilə başlanğıcını götürmüşdür. 1846-1914-cü illər arasında 30 milyondan çox miqrant Avropadan Amerikaya köç etmişdir. Onilliklər boyunca bu miqrasiya demək olar ki, maneəsiz şəkildə davam etmişdir. Köç edənlər üçün isə ən əhəmiyyətli kağız immiqrantın şəxsiyyət vəsiqəsi, yaxud başqa sənədi deyil, paroxod bileti idi".[45]

Bununla belə, XIX əsrin sonları və XX əsrin əvvəllərindən başlayaraq, ABŞ və digər ölkələr immiqrasiya proseslərinə nəzarət etməyə, ölkəyə kimlərin hansı şərtlərlə və hansı hüquqlarla gələ bilməsi barədə tədbirlər görməyə başladılar. Sərhəd nəzarətinə, savad səviyyəsinin yoxlanılmasına və kvotalara keçid prosedurları Avropada birinci qaçqın böhranını yaradan I Dünya müharibəsi və 1917-ci ilin rus inqilabı ilə sürətləndi. 1914-1922-ci illər arasında 5 milyon insan qaçqın düşdü. Yunanıstan və Türkiyə arasında 1923-cü ildə hər iki istiqamətdə 1,7 milyon insan köç etdi. Müharibələrarası dövrdə vətəndaşlığı olmayan miqrantların tənzimlənməsi üçün ilkin normalar və institutlar, "Nansen pasportları"nın verilməsi kimi məsələlər müəyyən edilməyə başlandı.

Ötən əsrin əvvəllərində baş verən bu insan faciələrini əsrin ortalarında, II Dünya müharibəsindən dərhal sonra baş verən ağlagəlməz qəddarlıq və qaçqın axınları demək olar ki, kölgədə qoydu. Müharibənin ilk dörd ilində Almaniya və Sovet İttifaqı təxminən 30 milyon insanı "sürgün etdi, zorla yerini dəyişdirdi, qovdu və deportasiya etdi. 1945-ci ilin mayında Avropada evsiz-eşiksiz, səfil və

45 Walter Russell Mead. The Roots of the Migration Crisis. The Syrian refugee disaster is a result of the Middle East's failure to grapple with modernity and Europe's failure to defend its ideals. / 11 September, 2015/ *- https://www.wsj.com/articles/the-roots-of-the-migration-crisis-1441995372*

müharibə dəhşətlərini görmüş 40 milyondan çox qaçqın var idi”.[46]

Hazırda belə bir fikir üstünlük təşkil edir ki, immiqrantların qitələrarası axınlarının hazırkı tempi tarixdə görünməmiş haldır. Bu müqayisə tamamilə yanlışdır. Belə ki, “1800-cü ildən 2000-ci ilə qədərki iki yüz illik zaman kəsiyi götürülərsə, beynəlxalq miqrasiyanın pik həddi 1845-1924-cü illərə təsadüf edir. Həmin vaxt 50 milyon insan, əsasən avropalılar Qərb yarımkürəsinə – Köhnə qitəyə doğru hərəkət etmişdilər. Nəzərə alaq ki, dünya əhalisinin sayı o zaman cəmi bir milyarddan azacıq çox idi. Yaxud 1500-1960-cı illər tarixi zaman kəsiyinə diqqət etsək, köç edən (7 milyon qul da daxil olmaqla) afrikalıların və asiyalıların ümumi sayının 15 milyon nəfərə qədər olması müəyyən edilmişdir. Başqa qitələrlə müqayisədə emmiqrasiya edən avropalıların birincilik mövqeyi 1970-ci illərə qədər qalmışdır. Belə yanaşdıqda, Avropa regionu yalnız ötən iki onillik ərzində bütövlükdə həm emiqrasiya, həm də immiqrasiya sahəsində axınların ağır sınaq dövrünü yaşamağa başlamışdır”.[47]

Bütün XX əsr boyu qlobal miqyaslı qaçqın problemi mövcud olmuşdur. II Dünya müharibəsindən əvvəl də Avropa qitəsi Şərqi Avropada və inkişaf etməkdə olan dünyada baş verənlərə bənzər kütləvi qaçqın axınlarını yaşamışdır. Qaçqın köçü XX əsrin əvvəllərində – Balkan müharibələrinin bir neçə yüz min insanı evlərini tərk etmək məcburiyyətində qoyduğu zaman başlamışdır. II Dünya müharibəsi isə vəziyyətin daha da kəskinləşməsinə səbəb olmuşdur. Belə ki, bu müharibədə qaçqınların sayı görünməmiş həddə (30 milyondan çox) olmuşdur. Hətta nisbətən dinc hesab olunan iki dünya müharibəsi arasındakı dövrdə belə milyonlarla insan qaçqın düşmüşdür.

ABŞ-ın Lourens Universitetinin professoru, BMT QAK-nın məsləhətçisi **Klaudena M. Skrana** *(Claudena M. Skran)*

46 Judt T. Postwar: A History of Europe Since 1945. Penguin Group, 2006, p.71

47 Widgren J. International Migration and Regional Stability. // *International Affairs (Royal Institute ofInternational Affairs 1944)*, Vol. 66, No. 4, Seventieth Anniversary Issue (Oct., 1990), p.75

*"Müharibələrarası Avropada qaçqınlar: bir rejimin ortaya çıxması haqqında"* əsərində yazır: "1926-cı ildə təxminən 9,5 milyon qaçqın qeydə alınmışdır. Qaçqınların sayı 1980-cı ildəki qaçqın əhaliyə dair təsəvvürlərlə təxminən eyni olsa da, bu, nisbətən daha böyük bir rəqəmdir. Çünki dünya əhalisi həmin vaxtdan bu yana orta hesabla iki dəfə artmışdır".[48] Müəllif miqrasiyanın səbəbləri ilə bağlı qeyd edir ki, kütləvi qaçqın axınları XX əsrdə baş verən "ümumi tarixi proseslərlə" şərtlənmiş, imperiyalar dünyasının milli dövlətlər dünyasına transformasiyası, həmçinin multietnik imperiyaların homogen etnik dövlətlərə çevrilməsinin nəticəsi kimi üzə çıxmışdır. Burada hərbi texnikanın olduqca inkişaf etməsi və digər səbəblər də göstərilir.

1991-ci ildə təkcə Sudanda Qərbi Avropa və Şimali Amerika tərəfindən sığınacaq almaq üçün qəbul edilən müraciətlərin birgə sayından daha çox qaçqın yerləşdirilmişdi. Şimal dövlətləri tərəfindən qəbul edilən ərizələrin ümumi sayı 1992-ci ildə pik nöqtədə 808.900 idi.

Bütövlükdə səbəblərlə bağlı Qərb müəlliflərinin minlərlə əsərində siyasi amillər müxtəlif cür izah edilir. Məsələn, K.M.Skrana XX əsrin – qaçqın əsrinin əvvəlindən etibarən qaçqın və məcburi köçkünlərin çox hissəsinin didərgin düşməsinin səbəbi kimi kapitalizmin və imperializm siyasətinin coğrafi məkan baxımından ekspansiyası – genişlənməsi faktının olmasını qəbul etmir. Burada iki dünya müharibəsi və 1960-cı illərin anti-müstəmləkəçi mübarizələrinin səbəb olduğu köçkünlüyün səbəbləri də qaranlıq qalır. Halbuki, Afrika Birliyi Təşkilatının qaçqınlarla bağlı qeyd edilən konvensiyasının qəbul edilməsi məhz sonuncu amillərlə bağlı idi.

48 Skrana C.M. Refugees in Interwar Europe: the Emergence of a Regime. Published to Oxford Scholarship Online: October 2011

Bütövlükdə, miqrasiyanı yalnız təbii-tarixi proseslərlə əsaslandıran, keçmişdə üçüncü dünya ölkələrindən olan qaçqınların Qərbə gəlməsini təmin edən "təbii maneələr" haqqında fikirlər kifayət qədər səthi xarakter daşıyır. Halbuki qlobal məkan və resurslar uğrunda mübarizə heç də yeni bir fenomen deyildir. Ötən üç əsr boyu yeni ərazilərin kəşfi, yaxud köhnə ərazilərin fəth edilməsi səciyyəvi xüsusiyyətlər idi. Halbuki XVI əsrdən bəri mövcud olan bu proseslərdə dünyanın bir hissəsi daha yoxsullaşır, tükənir, digər hissəsi isə daha da zənginləşir.

Təbii ki, nəqliyyat və kommunikasiya texnologiyalarındakı inqilab insanların tez bir müddətdə köç etməsinə imkan verir. Lakin onların sayı nisbətən azdır və "fərqliliyə dair mif" yaradılmağa başlayanda daha az idi. M.Marrusun fikrincə, 1985-ci ildə yaranmış yeni qaçqın axınları Qərbi Avropanın ümumi əhalisinin cəmi 0,005 faizindən az idi.[49] Bu fikrin davamı olaraq digər bir tədqiqatda qeyd olunur: "1991-ci ildə təkcə Sudanda Qərbi Avropa və Şimali Amerika tərəfindən sığınacaq almaq üçün qəbul edilən müraciətlərin birgə sayından daha çox qaçqın yerləşdirilmişdi. Şimal dövlətləri tərəfindən qəbul edilən ərizələrin ümumi sayı 1992-ci ildə pik nöqtədə 808.900 ərizə təşkil etmişdir. Qaçqınların həmin il yerli əhaliyə nisbəti Malavi üçün 1:10, Niderland üçün 1:686, Almaniya üçün 1:869, Britaniya üçün isə 1:3860 idi. 1996-cı ilin sonunda Şimal dövlətlərinə ərizələrin sayı azalır. Həmin il təkcə İran 2020000, İordaniya 1362500, Qvineya isə 650000 qaçqını yerləşdirmişdi".[50]

Beləliklə, XX əsrdən başlayaraq artıq yalnız milli deyil, ümumilikdə beynəlxalq miqrasiya siyasətinin formalaşmasından bəhs etmək olar. Belə ki, bu vaxtdan etibarən ortaq qanuni prosedurlar, sərhəd nəzarəti formalaşmağa başladı, müharibə fəlakəti və qaçqınlarla bağlı

49 Marrus M. R. The Uprooted: An Historical Perspective' in Rystad, G. (ed.) The Uprooted: Forced Migration as an International Problem in the Post-War Era, Lund: Lund University Press, 1990, p.47-57
50 World Refugee Survey 1992:32-33 ; World Refugee Survey.1997;12

problemlərin həlli üçün beynəlxalq qurumlar təsis edildi.

XX əsrin əvvəllərindən etibarən dövlətlər miqrasiya problemlərinin həlli üçün çoxsaylı tədbirlər görməyə başladılar. Xüsusilə iki dünya müharibəsindən sonra məcburi miqrasiyanın görünməmiş miqyası əməkdaşlığın daha fəal inkişaf etməsini şərtləndirmişdir. "Qlobal qaçqın rejimi"nin mənşəyi I Dünya müharibəsindən sonra 1921-ci ildə Millətlər Liqasının Qaçqınlar üzrə Ali Komissarlığının (ML QAK) yaradılması ilə ortaya çıxmışdır. Təsadüfi deyil ki, I Dünya müharibəsindən sonra miqrasiya sahəsində ilk ixtisaslaşmış beynəlxalq təşkilat – məşhur Norveç səyyahı və tədqiqatçısı, Nobel sülh mükafatı laureatı (1922) **Fritof Nansen**in *(Fridtjof Nansen)* rəhbərliyi altında Qaçqınlar üzrə Komitə yaradıldı. Bu komitə hərbi əsirlərin və Sovet Rusiyasından gələn qaçqınların yerləşdirilməsi və vətənə qaytarılması ilə məşğul olurdu. ML QAK qaçqınlar üçün universal bir tərif verməsə də, ilk növbədə Almaniya, Avstriya, Rusiya və Osmanlı imperiyalarından qaçan insanların müəyyən qrupları ilə bağlı xüsusi razılaşmalar əldə etməyə çalışırdı. İnsanların sərhədlərdən keçməsinə imkan vermək və Millətlər Liqasına üzv dövlətlərə getməyə icazə vermək üçün qaçqınlar "Nansen pasportları" ilə təmin edilirdi. 1930-cu illərdə "Böyük depressiya"nın ABŞ və Avropada anti-immiqrasiya duyğularına təkan verdiyi dövrdə onun səmərəliliyi azaldı". [51]

Qaçqın probleminin tənzimlənməsində "humanitar yardım" paradiqmasının bərqərar olması və onun hüquqi əsaslarla möhkəmləndirilməsi tədricən səbəblərə deyil, nəticələrə yönələn siyasətin legitimləşdirilməsinə, ənənəyə çevrilməsinə xidmət etdi. II Dünya müharibəsindən sonra "Qaçqınların statusu haqqında" Beynəlxalq Konvensiya qəbul edildi. 1967-ci ildə əlavə Protokolun qəbul edilməsi Konvensiyanın tətbiqində olan coğrafi məkan və

51 Loescher G. Beyond Charity: International Cooperation and the Global Refugee Crisis. New York: Oxford University Press, 2008.

zaman məhdudiyyətlərini aradan qaldırdı. Bununla da beynəlxalq qaçqın və sığınacaq hüququnun təməli qoyuldu.

## 2.2. Beynəlxalq təşkilatlar və miqrasiya prosesləri: missiya, status və fəaliyyət arasındakı ziddiyyətlər

Miqrasiya siyasətinin başlıca olaraq Qərb dövlətlərinin mövqeyindən həyata keçirilməsi, XX əsr boyu yaranan beynəlxalq qaçqın və miqrantlarla bağlı qanunvericiliyin həmin əsr boyu lazım gələndə "çevik" surətdə dəyişdirilməsi, səlahiyyətli təşkilatların bunları görməzdən gəlməsi, miqrantların vəziyyətinə və təsnifləşdirilməsinə yalnız "Qərb eynəyindən" baxılması kimi məsələlər tədqiqatçılar tərəfindən vaxtaşırı gündəmə gətirilmişdir.

Qaçqınlara dair tədqiqatları əhatə edən çoxsaylı ədəbiyyatda dünya səviyyəsində miqrasiya və qaçqın problemlərinin araşdırılmasında Qərb yönümlü baxışın yayılması və dəstəklənməsində beynəlxalq təşkilatların rolu məsələsi nisbətən az olsa da təhlil edilmişdir. Burada prinsipial səslənən əsas məsələlərdən biri – beynəlxalq qaçqın və miqrant hüququnun, qaçqın probleminin həllinin yalnız nəticələrlə bağlı fəaliyyətə – humanitar sahəyə transformasiya edilməsi, onların yaranmasının siyasi həll mexanizmlərinin nəinki qabardılması, hətta cidd-cəhdlə gizlədilməsi və susqunluq mövqeyinin tutulması kimi arqumentlər gətirilir.

Beləliklə, hansı səbəblər və amillər beynəlxalq təşkilatları, konkret olaraq BMT QAK-ı donorların və aparıcı Qərb ölkələrinin maraqlarına xidmət etməyə vadar edir? Bu, nə dərəcədə dünya ictimaiyyəti tərəfindən dərk edilir və belə siyasət ümumiyyətlə qaçqın problemini nə vaxtsa həll etməyə qadirdirmi? Bunun səbəbləri siyasi müstəvidədir, yoxsa maliyyə asılılığı ilə bağlıdır? Bəllidir ki, "hegemon

dövlətlər beynəlxalq ictimai rəyə qlobal qurumların təsirinin dəyərini dərk edir və onlardan gözləntilərinin olmasının fərqindədirlər".[52]

Qeyd edilən suallara cavab tapmaq üçün BMT QAK-ın yaranması və fəaliyyətindən bəzi məqamları xatırlamaq yerinə düşər. Belə ki, BMT QAK-ın fəaliyyətinin Qərb dövlətləri koalisiyası tərəfindən həyata keçirilən tədbirlərlə dəstəklənməsi illərdir ki, kəskin şəkildə tənqid edilir. "Soyuq müharibə" dövründə BMT QAK-ın fəaliyyəti başlıca olaraq, belə demək olarsa, "humanitar yardım" müstəvisində qərarlaşmışdır. Halbuki humanitar yardım göstərən başqa beynəlxalq təşkilatlar ("Qızıl Aypara", "Qırmizi Xaç" və s.) mövcuddur. BMT sisteminə daxil olan BMT QAK qaçqın və miqrasiya proseslərinə analoji yanaşmanı davam etdirərək, öz missiyasının və mövqeyinin qeyri-müəyyənliyini şərtləndirmişdir.

Daha dəqiq desək, humanitar "yardım paylama" funksiyası təşkilatın qeyri-siyasi xarakterinin, onun qəbul etdiyi qərarların hər hansı siyasi-hüquqi mandata malik olmadığına dair təsəvvürlərin formalaşmasına yönəlmişdir. Bu, təsadüfi deyil. Belə ki, qaçqınlarla bağlı BMT-nin özünün də qəbul etdiyi qərarların həlli mexanizminin olmaması kimi statusu legitimləşdirilmişdir. Başqa sözlə, beynəlxalq təşkilat kimi BMT-nin qaçqın missiyası son nəticədə yardımdan başqa heç bir gerçək səlahiyyətə malik olmadığı bu günün reallığıdır. Bu vəziyyəti XX əsrin ikinci yarısından etibarən qaçqın və miqrantlara dair beynəlxalq hüququn addımba-addım hazırladığı siyasi həll mexanizmlərindən uzaq tənzimləmə modelləri şərtləndirmişdir. BMT QAK və qlobal güclərin koalisiyası beynəlxalq münasibətlər sistemində dünya boyda ağır miqrant faciəsinin, qaçqın yükünün inkişaf etməkdə olan, yaxud yoxsul ölkələr tərəfindən daşınmasını təqdir etməkdə, üstəlik bunu yeganə həll yolu kimi görməkdədir.

52 Finnemore M. International Organizations as Teachers of Norms: the United Nations Educational, Scientific, and Cultural Organization and Science Policy. International Organization 47:1993, pp.565-597

Təşkilatın fəaliyyətini araşdıran professor **Bhupinder Çimninin** *(Bhupinder Chimni)* fikirləri diqqəti cəlb edir.[53] O qeyd edir ki, BMT QAK-ın rolu mövzusuna nədənsə müsbət və ya mənfi mənada, demək olar ki, toxunulmayıb. Halbuki qurum beynəlxalq gündəmə diktə edən Qərb dövlətlərinin siyasətinə uyğun gələn fəaliyyətin yerinə yetirilməsi ilə məşğuldur. Bu məqsədlə miqrantlara və qaçqınlara sırf Qərb baxışının bütün dünyada yayılması üçün əlindən gələni edir. Bu sahədə beynəlxalq məsuliyyətin sadəcə faciəyə məruz qalan insanlara yardım paylanılması ilə yekunlaşması təəssüratını yaradır. Yəni BMT QAK-ın missiyası yalnız humanitar xarakter daşımalı və siyasi məsələlərdən mümkün qədər uzaq durmalıdır. Müəllif sual verir: Necə olur ki, BMT QAK qaçqınlara, miqrantlara və üçüncü dünya ölkələrinə münasibətdə Qərb baxışını təqdim edən konsepsiyaların və nəzəriyyələrin qeyri-tənqidi, itaətkar istehlakçısı və həm də təbliğatçısıdır?!

"Soyuq müharibə"dən sonrakı dövrün ən başlıca xüsusiyyətlərindən biri bu oldu ki, artıq zəngin Qərb ölkələri qaçqınların gəlişinə şad deyildilər və BMT QAK bu reallığı qəbul etmək məcburiyyətində qaldı. Proseslərin bu məcraya yönəlməsindən irəli gələn çağırışları qarşılamaq üçün təşkilat ya hər hansı yeni strateji təşəbbüs irəli sürməli, ya da beynəlxalq gündəmə diktə edən Qərb dövlətlərinin siyasətinə uyğun gələn fəaliyyəti davam etdirməli idi.

QAK, təbii olaraq, ikinci yolu seçməli oldu. Bununla da Qərb mərkəzli miqrasiya və qaçqın hüquqları ideyalarının beynəlxalq siyasətdə yayılmasına, dünya akademik-elmi və vətəndaş cəmiyyəti arasında təbliğinə, Cənub qitəsindən *(Afrika nəzərdə tutulur* - **red**.) olan, Qərbə münasibətdə tənqidi və alternativ düşünən ictimai fəalların loyallaşdırılmasına, özünün fəaliyyəti və məsuliyyəti,

53 Chimni B.C. The Geopolitics of Refugee Studies: A View from the South. // Journal of Refitgee Studia, Vol. 11, No. 4, 1998, pp.350-370

qeyri-siyasi mandatı ilə beynəlxalq qaçqın hüququnun əsas prinsiplərini və normalarını barışdırmaq yönündə yorulmaz fəaliyyət göstərməyə, qlobal güclərin mövqeyinə haqq qazandırmağa xidmət edən elmi mübadilə və tədqiqat qrantlarına böyük həcmli maliyyə ayırmağa başladı.

Qlobal güclərin hegemonluq savaşında müstəqil dövlətlərin daxili işlərinə müdaxilə edilir, işğal yaxud çevriliş baş verir. Münaqişə ocağı yaranır. Sonra fəlakətdən qaçanlara maliyyə ayırmaq və onu ildən-ilə artırmaq üçün donorlara müraciət edilir. İlk baxışda bu, absurdun zirvəsi kimi görünsə də, XXI əsrdə proseslər eynilə həmin ssenari üzrə davam edir.

Ancaq bütün bunlar o demək deyil ki, BMT QAK kimi beynəlxalq təşkilatlar şəxsi iradəyə, məsuliyyətə malik deyillər. Halbuki onlar mürəkkəb tarixi mərhələlərdə çətin problemlərin həlli üçün yaradılıb və dövlətüstü statusa malikdirlər. Başlıca olan həmin təşkilatların öz qarşılarında duran missiyası ilə fəaliyyəti arasında dərin ziddiyyətin formalaşmasıdır. Problemlərin, hətta humanitar fəlakət həddinə çatan ziddiyyətlərin həllində siyasi mandat və həll mexanizmlərinə malik olmamaq reallıqda heç bir problemin həll edilməməsi deməkdir. Buna görədir ki, onillər boyu münaqişələr həll edilmir, qaçqınlar öz torpaqlarına qayıda bilmir. Onların neçə nəsli humanitar “yardım” siyasəti şəraitində böyüyür. Sadə deyilsə, beynəlxalq siyasi təşkilatlar humanitar yardım funksiyalı beynəlxalq təşkilatların əlavələrinə çevrilirlər.

“Beynəlxalq təşkilatların missiyası özünün hansısa üzvünün ayrı-ayrı maraqlarını deyil, üzv dövlətlər koalisiyasının daha geniş maraqlarını qorumaq olmalıdır. Digər tərəfdən, beynəlxalq təşkilatlar qaçqınlar haqqında beynəlxalq qanunvericilikdə təsbit edilmiş müdafiənin əsas prinsiplərinə sadiq olmalıdır. BMT QAK-ın

öz yaranma tarixi və təltif edildiyi iki Nobel sülh mükafatı ilə fəxr etməyə haqqı var. Lakin beynəlxalq hüququn prinsiplərinə və üzərinə götürdüyü öhdəliklərə əsasən bu təşkilat dövlətləri problemləri həll etməyə məcbur etməli, qaçqın axınlarına rəvac verən dövlətlərin cəzalandırılması məsələsini qaldırmalıdır. Çünki əks təqdirdə beynəlxalq təşkilat öz səlahiyyətlərini icra etməkdə qətiyyət göstərə bilmirsə, kimsəsiz qaçqın və miqrantların hüquqlarını necə qoruya, ədalət missiyasını necə daşıya bilər?!"[54]

Tədqiqatçılar beynəlxalq qurumların zəifliyi və mandatlarının müdafiə edilməsində ədalətin deyil, qlobal güclərin yanında olmağa üstünlük verən cəsarətsizliyə nümunə kimi YUNESKO və YUNKTAD-ın təcrübəsini misal gətirirlər. Onların fikrincə, bu təşkilatların mövqeyi "üçüncü dünya ölkələri" koalisiyasının iflasından sonra onun tərəfdarlarından yeni dünya nizamının "neytral" dəstəkçisi mövqeyinə qədər metamorfozaya uğramışdır.

Düzdür, BMT QAK mövcud vəziyyət və özünün fəaliyyətinə dair yeni məlumatla diqqəti cəlb etməyə çalışmışdır. Belə ki, 1996-cı ilin mart ayında bu təşkilatın "Qaçqınlar üzrə Sənədlərlə bağlı Mərkəz"inin yenidən qurulması və gücləndirilməsi əsasında "Tədqiqat və Sənədləşdirmə Mərkəzi"nin yaradılmasına qərar verilmişdir. Yeni mərkəzin işi siyasi tədqiqatlar, təhlillər aparmaq və onların yayılması ilə məşğul olmaqdır. Sənəddə qeyd edilir: "Qaçqın problemləri və həyata keçirilən siyasətin mahiyyətində sürətli dəyişikliklərin baş verdiyi dövrdə BMT QAK-ın fəaliyyət göstərdiyi ətraf mühitin daha yaxşı dərki və strateji planlaşdırma potensialının artırılması son dərəcə vacibdir".[55] Bunun üçün BMT QAK daha sistemli siyasi təhlili aparmalı və təşkilatdan kənarda, dünyada səslənən yeni tövsiyə və düşüncələrə açıq olmalıdır.

---

54 Yenə orada, s.350-370

55 UNHCR Global Report 2010 – Funding UNHCR's Programmes, p. 77

## 2.3. Qərb dövlətlərinin bahalı qaçqın siyasətinin donor və sponsorlarına çevrilməsi

*"BMT QAK-ın ən nəhəng donorları ABŞ, Aİ və Yaponiya onun büdcəsinin yarısını təmin edirlər. Müvafiq olaraq da onlar qaçqınlarla bağlı dəyişən şərtləri diktə edirlər. Təkcə bir faktı qeyd etmək yerinə düşər ki, BMT QAK-ın 2010-cu il üçün büdcəsinin təxminən 53 %-i donorlar tərəfindən məsləhət görülən müəyyən konkret ölkələrə və fəaliyyət istiqamətlərinə, 29 %-i coğrafi bölgələrə və yalnız 18 %-i təşkilatın öz ixtiyarı ilə vacib hesab etdiyi layihələrə ayrılmışdır".*[56]

**BMT-nin 2010-cu il üçün Qlobal Hesabatından**

Qaçqınlara yardım etmək, miqrasiya siyasətini həyata keçirmək qabaqcıl ölkələrə və beynəlxalq birliyə çox baha başa gəlir. Burada ayrılan vəsaitin həcmi düşünməyə vadar edir. Daha doğrusu, insan məntiqi "Qərb praqmatizmi" adlanan xüsusiyyəti burada anlaya bilmir. Həmin xüsusiyyətə görə, bu qədər çox maliyyə tələb edən problemlər əslində aradan qaldırılmalıdır ki, sərmayə daha səmərəli sahələrə tətbiq edilsin. Ancaq reallıq bunun tamamilə əksini göstərir.

Qaçqın və miqrantlarla bağlı beynəlxalq tədbirlərə nəzər salanda yardım üçün ayrılan maliyyə vəsaitinin həcmi – rəqəmlər heyrət doğurur. Daha doğrusu, insan ağlını sarsıdan odur ki, insan faciəsinin baiskarları həm də BMT QAK-ın ən böyük donorları və sponsorlarıdır. Təşkilat olduqca vacib missiyanı yerinə yetirir. Bununla belə, qurumun yaran-

56 Yenə orada

dığı 1950-ci ildən onun fəaliyyəti ilə bağlı proseslərin ssenarisi eyni cür dövr edir. Qlobal güclərin hegemonluq savaşında müstəqil dövlətlərin daxili işlərinə müdaxilə edilir, işğal yaxud çevriliş baş verir. Münaqişə ocağı yaranır. Sonra fəlakətdən qaçanlara maliyyə ayırmaq və onu ildən-ilə artırmaq üçün donorlara müraciət edilir. İlk baxışda bu, absurdun zirvəsi kimi görünsə də, XXI əsrdə proseslər eynilə həmin ssenari üzrə davam edir.

Suriya bizim zamanımızın ən böyük humanitar böhranıdır. Yeddi milyon insan ölkənin içərisində və üstəgəl 5,3 milyon insan ölkə xaricində – cəmi 12 milyondan çox insan qaçqın düşüb. Suriyada qalan 10 milyon insan evlərini tərk etməsə də, onlar ən dəhşətli qaçqınlardan betər vəziyyətdədirlər. Bütün Suriya xalqı, bütün bir dövlət humanitar yardımlara möhtac qalıb. Uduzan bütöv bir xalq, suveren hesab edilən bir dövlətdir. Müharibədən qalib çıxanlar isə hələlik yalnız onu törədənlərdir. Lakin bu, müvəqqətidir, hələlik belə görünür.

Reallığa və faktlara nəzər salaq. BMT QAK 1950-ci ildə 300 min ABŞ dolları məbləğində illik büdcə ilə işə başlamışdır. Qaçqınların sayı artdıqca maliyyə xərcləri də çoxalmışdır. 1990-cı illərdə təşkilatın illik büdcəsi artıq 1 milyard ABŞ dollarından çox idi. 2017-ci ildə BMT QAK-ın illik büdcəsi 7,7 milyard ABŞ dolları səviyyəsinə çatmışdır.

Hazırda təşkilata "cəmi 2 ay – 2017-ci ilin dekabr və 2018-ci ilin yanvar ayları üçün 1 milyard dollara yaxın – 690,9 milyon ABŞ dolları ayrılmışdır. Bu vəsaitdən:

- *Yunanıstan üçün 525,9 milyon ABŞ dolları;*
- *Türkiyə üçün 34,5 milyon ABŞ dolları;*
- *keçmiş Yuqoslaviya Respublikası-Makedoniya üçün 11,4 milyon ABŞ dolları;*
- *Serbiya üçün 39,2 milyon ABŞ dolları;*

- *Mərkəzi və Cənub-Şərqi Avropadakı digər ölkələrə 21,2 milyon ABŞ dolları;*
- *Şimali, Cənubi və Qərbi Avropa ölkələrində baş verən, miqrant axınına məruz qalan digər ölkələr üçün 35,1 milyon ABŞ dolları;*
- *regional fəaliyyətlər üçün 23,7 milyon ABŞ dolları veriləcək".*[57]

BMT və tərəfdaşlar suriyalı qaçqınlara yardım məqsədilə əlavə 4,4 milyard ABŞ dolları məbləğində maliyyə vəsaiti üçün müraciət ediblər. Bu müraciət 7 ildir davam edən qəddar münaqişələr nəticəsində qaçqın düşən 5 milyondan çox suriyalını dəstəkləmək, eləcə də onları qəbul edən ölkələrdə vəziyyəti sabitləşdirmək məqsədi ilə edilib. BMT QAK-ın sədri **Filippo Qrandi**nin 28 noyabr 2017-ci ildə BMT-nin Təhlükəsizlik Şurasına ünvanladığı məktubda yazılır: "Müharibə və qaçqın dolu daha bir il başa çatır. Qaçqınların sayı hər il artır. Mən donorlardan maliyyənin həcmini artırmağı xahiş etmişəm".




Qeyd olunduğu kimi, Suriyada qaçqın və miqrant böhranı yeddi ildir davam edir. Bu illər ərzində 5,3 milyon insan Suriya sərhədləri xaricinə qaçıb. Daha yeddi milyon insan Suriya daxilində məcburi

57 Financials /UNHCR/ - http://reporting.unhcr.org/financial#_ga=2.247117060.1617115334.1513379664-472648632.1513379664

köçkün düşüb. Misli görünməmiş qəddarlıq və məhvetmə tarixi yazılıb – 500000-dən çox insan qətlə yetirilib. Şəhərlər dağılıb, altı üstünə çevrilib. Bu ölkədə 200-dən çox qanunsuz silahlı qrup, üsyançılar bir-biri ilə vuruşur.

BMT QAK-ın mətbuat katibi **Amin Avad** Cenevrədə suriyalı qaçqınlara əlavə yardım məqsədi ilə 5 milyard ABŞ dolları məbləğində maliyyə üçün müraciətlə bağlı çıxışında qeyd edib: "Biz bilirik ki, bu, Suriyanın geosiyasi mövqeyi və əhəmiyyəti üzündən onun başı üzərindən başqalarının apardığı proksi-müharibədir.[58] Son 7 ildə sülh danışıqlarının aparıldığını bilirik. Buna baxmayaraq, Suriya bizim zamanımızın ən böyük humanitar böhranıdır. Yeddi milyon insan ölkənin içərisində və üstəgəl 5,3 milyon insan ölkə xaricində – cəmi 12 milyondan çox insan qaçqın düşüb. Suriyada qalan 10 milyon insan evlərini tərk etməsə də, onlar ən dəhşətli qaçqınlardan betər vəziyyətdədirlər. Onlar yaşayışdan, ərzaq və sudan, təhsildən, sağlamlığından, qohum və dostlarından – hər şeydən məhrumdurlar. Bütün Suriya xalqı, bütün bir dövlət humanitar yardımlar möhtac qalıb. Uduzan bütöv bir xalq, suveren hesab edilən bir dövlətdir. Uşaqlar, qadınlar və qocalardır, xəstə və köməyə möhtac qalanlardır. Müharibədən qalib çıxanlar isə hələlik yalnız onu törədənlərdir. Lakin bu, müvəqqətidir, hələlik belə görünür".[59]

58 ***Proksi-müharibə*** *(ing. proxy war)* - iki ölkə yaxud qlobal güclər arasında beynəlxalq münaqişədə 3-cü ölkə ərazisinin hədəf seçilməsi, özgənin əli ilə aparılan müharibədir. Müharibə aparan qlobal güclər vasitə seçilən üçüncü ölkənin bütün resurslarını məhv etməklə öz geosiyasi maraqlarını təmin edirlər. Hazırda Suriyada eyni vaxtda 8 (1.Rusiya-Amerika; 2.İran-Səudiyyə; 3.Qətər-Səudiyyə; 4.sünni-şiə; 5. Hizbullah və Gələcək üçün Hərəkat; 6.Qlobal Müsəlman qardaşlığı ilə regional sələfi hərəkatı; 7. ölkədaxili vəhhabilər arasında və nəhayət, 8.islam kimliyi uğrunda Türkiyə, Səudiyyə və İran arasında gedən) proksi-müharibə birdən aparılır. Münaqişənin həlli üçün ara-sıra bəyan edilən şüarlar onu sadəcə xaricdən idarə edən patronların siyasətinə və qərarlarına haqq qazandırmağa xidmət edir. [Bax: As'ad Abu Khalil. The 8 Proxy Wars Going On in Syria Right Now. /24.09.2014/ - *https://www.huffingtonpost.com/asad-abukhalil/syria-proxy-wars_b_5874488.html]*

59 UN and partners launch plan to support five million Syrian refugees and countries hosting them. /12 December 2017/ - *http://www.unhcr.org/news/briefing/2017/12/5a2ffd534/un-partners-launch-plan-support-five-million-syrian-refugees-countries.html*

ABŞ-ın Miqrasiya Siyasəti İnstitutunun həmtəsisçisi, miqrasiya sahəsində tanınmış mütəxəssis **Ketlin Nyulend** *(Kathleen Newland)* bununla bağlı yazır: "Fəlakət baş verəndən, iş-işdən keçəndən sonra reallaşan qaçqın siyasəti – bu, çox bahalı bir siyasətdir. Birləşmiş Ştatlar çoğrafi baxımdan ondan çox uzaq olan və milli təhlükəsizliyinə heç bir təhlükə törətməyən qaçqın böhranına cəlb olunmaq istəməyən tək ölkə deyil. Lakin bu, oyun qaydalarını diktə etmək təhlükəsini yaradır. Qaçqın axınlarını törədən münaqişələrlə üz-üzə qalan BMT Təhlükəsizlik Şurası Haitiyə ABŞ-ın, Ruandaya Fransanın, Gürcüstana isə Rusiyanın müdaxiləsi faktı qarşısında qalır və onu təsdiqləyir. BMT-nin Təhlükəsizlik Şurası qaçqınları "istehsal edən" qarşıdurmalarla qarşı-qarşıyadır. Münaqişələrə bu cür yanaşma modeli çoxtərəfli nizamlama vasitəçiliyi missiyasını olduqca zəiflədərək, gələcəkdə tamamilə qırıla bilən bağlara çevirir. Bu vəziyyət gələcəkdə həmin vasitəçilik səylərinə qlobal dəstəyi ləğv edə bilər".[60]

Müəllif genişmiqyaslı fövqəladə situasiyalara gecikmiş cavablar verən hazırkı missiyanı yolverilməz və qüsurlu hesab edir: "Digər tərəfdən, beynəlxalq təşkilatlara və vasitəçilərə problemlərin həlli üçün resurs və mexanizmləri vermədən sadəcə səlahiyyətin verilməsi yalnız məsuliyyətdən boyunqaçırma kimi anlaşıla bilər. Əgər qaçqınlar barəsində situativ və reaktiv qısamüddətli siyasət özündə ABŞ-ın xarici siyasət məqsədləri üçün geniş təhdidlər vəd edirsə, münaqişə və qaçqınlar probleminə preventiv (önləyici) yanaşmaya əsaslanan tədbirlər heç olmasa perspektivli siyasət kimi görünür". [61]

Beləliklə, ildən-ilə artan maliyyə heç bir qaçqının nəinki qovulduğu yerə qaytarılması, hətta ona sığınacaq belə verilməsinə kömək edə bilmirsə, çox düşündürücüdür. Ümumiyyətlə, BMT-nin özünün qəbul

60 Newland K. The Impact of U.S. Refugee Policies on U.S. Foreign Policy: A Case of the Tail Wagging the Dog? in: "Threatened Peoples, Threatened Borders: World Migration and U.S. Policy". Teitelbaum, Michael S. and Myron Weiner, eds. New York: The American Assembly, 1995.

61 Yenə orada

etdiyi qətnamələr kağız üzərində qalırsa, BMT QAK öz missiyasına "siyasi mandata" malik olmaması ilə haqq qazandırırsa, beynəlxalq təşkilatların missiyası, statusu və gerçək fəaliyyəti arasındakı ziddiyyət ya həll edilməli, ya da yeni mexanizmlər formalaşmalıdır.

## 2.4. Müstəmləkəçiliyin dağılması dövründə miqrasiya siyasəti: keçmişin ağır irsi və onun təzahürləri

XX əsr yalnız müstəmləkəçiliyin sonu deyil, həm də yeni müstəmləkəçiliyin – ***neokolonializmin*** başlanğıcı oldu. Neokolonializm XX əsrin ortalarında dünya müstəmləkə sisteminin dağılmasından dərhal sonra yaranmağa başlamışdır. Qloballaşmanı qərbləşmə və mondializmə, imperializmə transformasiya etmək səyləri bu gün də cidd-cəhdlə davam etdirilir.

Yaxın Şərqdə baş verən silahlı münaqişələr, miqrasiya böhranı və beynəlxalq sistemdə bütün bunlardan irəli gələn qeyri-sabitlik siyasi və akademik dairələrdə müstəmləkəçiliklə bağlı yeni müzakirələrə təkan vermişdir.[62] Bu araşdırmalarda əsas mövzu miqrasiya proseslərinin müstəmləkəçiliklə bağlı dövrünün xüsusiyyətlərini, miqrasiya proseslərinin imperiya maraqlarına, geosiyasi maraqlara tabe etdirilərək həyata keçirilməsi ənənəsinin öz başlanğıcını o zamandan götürdüyünü aşkara çıxarmaqdır. Həmin tədqiqatlardan məlum olur ki, tarixən təbii-obyektiv əsaslardan qaynaqlanan miqrasiyadan fərqli olaraq, yeni dövrdə Avropada milli dövlət yaranandan miqrasiya siyasəti ilə tənzimlənən proseslərin mahiyyəti, təkamülü və dinamikasını izləməklə, miqrasiya böhranında müstəmləkəçilik irsinin qlobal hegemonluq iddialarına transformasiyasını dərk

62 Erik Bleich. The Legacies of History? Colonization and Immigrant Integration in Britain and France, 2010; Said, Edward. Orientalism. New York: Vintage Books, 1978; Fanon, Frantz. Black Skin, White Masks. Trans. Charles Lam Markmann. New York: Grove Press, 1967; The Institute of Postcolonial Studies: http://www.ipcs.org.au

etmək mümkündür. Bu isə labüd olaraq müstəmləkəçilik və postkolonializmin, oriyentalizmin tədqiqi olmadan mümkün deyil. Avropada milli dövlətin yaranması ilə miqrasiya proseslərinin tənzimlənməsinə başlanılmışdır. İndiki terminlə deyilsə, məhz həmin vaxtlardan suverenlik və vətəndaşlıq presedentləri formalaşmış, "yerli və gəlmə" insanlar fərqləndirilmişdir.

Müstəmləkəçilik nəinki 60 milyon avropalının "Yeni qitə"yə köçünə təkan vermiş, həmçinin ondan da artıq afrikalı və asiyalının "Qoca qitə"yə axınını şərtləndirmişdir. Miqrasiya proseslərində baş verən hazırkı böhran tarixi kökləri baxımından həmin vaxtdan qaynaqlanan ikili xarakterə malik olub varislik təşkil edir. Belə ki, "müasir Avropa immiqrasiya sistemi iki əsas cəhətdən neomüstəmləkəçi hesab edilə bilər: birincisi, immiqrasiyanın tənzimlənməsi üçün yaradılan institutlar Avropa korporasiyaları üçün fasiləsiz mənfəət və qazanc əldə etməyə imkan verən infrastruktur formalaşdırıb; ikincisi, Avropanın öz sərhədlərində "qanunsuz" immiqrasiyanı məhdudlaşdırması Cənub dövlətlərini öz nəzarəti altına almaq üçün imkan verir".[63]

Problemi tədqiq edən alimlər hesab edirlər ki, hazırda formalaşmaqda olan vahid qlobal imperiya bir qütbdən idarə edilir. Bütün dünya bir qlobal neokoloniyaya və onun paytaxtına çevrilir. "Paytaxt" kimi ABŞ-ı hesab etmək olar. Qlobal neomüstəmləkəçiliyin bir əsas prinsipi mövcuddur – bu, "bir metropoliya – bir koloniya" prinsipidir. Bu gün Britaniya imperiyası yüz il əvvəl olduğundan heç də az real deyil. Belə ki, müstəmləkə üsuli-idarəsinə uyğun yaradılan bütün təsisatlar və infrastruktur – ingilis dili, təhsil, mədəniyyət, presedent hüququ, dövlət idarəçiliyi institutları və s. onun bir çox koloniyaları üçün imperiya mirası olaraq qaldı. Britaniyanın ruhu bu gün də Yer kürəsinin müxtəlif hissələrində, Bostondan Sinqapura, Dehlidən Kanberraya

63 Lili Eskinazi. European Immigration: A Colonial Legacy? /31 October, 2011/. - *http://www.alterinter.org/spip.php?article3694*

qədər hiss edilməkdədir”. [64]

> Kolonializm istismarçı dövlətlər tərəfindən sosial-iqtisadi cəhətdən zəif inki-şaf etmiş dövlətlərin daha çox hərbi, siyasi, iqtisadi və mənəvi əsarətə alınmasıdırsa, neokolonializm əsasən qeyri-hərbi hesab edilən, iqtisadi ekspansiya, inkişaf etmiş dövlətlərin inkişaf etməkdə olan dövlətlərin işinə qarışmasıdır. Burada mədəni ekspansiya və informasiya məkanının manipulyasiya edilməsi ilə digər dövlətlərdə ictimai şüurun “öz-özünü müstəmləkələşdirmə” mərhələsinə keçid alması hegemon ideologiyanın ən böyük uğuru sayılır.

XX əsrin ortalarından başlayan mərhələ müstəmləkə imperiyalarının dağılması və yeni millət dövlətlərin yaranması dövrü oldu. Bəzi hallarda bu proseslər fransız Hind-Çinində olduğu kimi qanlı müharibələr, digər hallarda isə XX əsrin ilk yarısının ən böyük imperiyası hesab edilən Britaniya imperiyasının dağılmasında olduğu kimi sülh yolu ilə (müqavilələr və sazişlər vasitəsilə) həyata keçirildi. Bu, II Dünya müharibəsindən sonra iqtisadiyyatı zəifləmiş bir şəraitdə lazımsız münaqişələrin qarşısını almaq və ölkəyə keçmiş müstəmləkələrdən ucuz işçi qüvvəsi cəlb etmək üçün Britaniya siyasi elitasının qəbul etdiyi qərarla bağlı olmuşdur. Müharibədən sonrakı iqtisadi böhranın aradan qaldırılması Britaniyada miqrantların ölkəyə giriş şərtlərini asanlaşdırmışdır. 1940-cı illərdən başlayaraq Birləşmiş Krallığın ərazisinə ardıcıl olaraq miqrantların bir neçə dalğası axın etdi.

1970-ci illərdə “ikinci nəsil” miqrantların etno-dini icmalarda öz kimliyini (identikliyini) axtarmaq meyilləri gücləndi. Belə vəziyyətdə ictimai rəydə “Şərq-Qərb” sivilizasiyalarının qarşılıqlı problemlərini, “müstəmləkəçilik” fenomeni, onun mahiyyəti və daha geniş

64 Транкова А. Как британцы навязали свои порядки всему миру. /23.05.2013/ *- http://www.forbes.ru/sobytiya/vlast/239510-kak-britantsy-navyazali-svoi-poryadki-vsemu-miru*

aspektdə "ağalıq və tabelik mexanizmlərinin" təbiətini dərk etmək üçün gərgin müzakirələrlə müşayiət olunan tədqiqatlar çoxalmağa başladı. "Postkolonial tədqiqatlar" adlanan yeni elmi istiqamət Qərb-Avropa rasional ənənəsinin özünün müstəmləkəçi keçmişini yenidən nəzərdən keçirməyə imkan verən intellektual strategiyaya çevrildi. Bu tədqiqatlarda əsas xətt Avropa dövlətlərinin müstəmləkə hakimiyyətinə qarşı mübarizə və öz milli kimliyini inkişaf etdirmək idi.[65]

"Postkolonial tədqiqatlar"ın təşəbbüskarları **Frensis Fanon** *(Frantz Fanon),* **Edvard Səid** *(Edward Said),* **Homi Bhabha** *(Homi K. Bhabha)* və başqaları oldular. Onların və davamçılarının publisistik, elmi və bədii əsərlərindən ibarət olan tədqiqatlar özünəməxsus cərəyan formalaşdırdı və bu, Qərb siyasi fəlsəfəsində "postkolonial diskurs" adlandırıldı. Onun təmsilçiləri belə hesab edirdilər ki, XX əsrin sonlarında Qərb cəmiyyətində yaranan bir çox problemlərin mahiyyətinə, eləcə də multikultural cəmiyyətlərin yaranması və inkişafı məsələlərinə məhz postkolonial tədqiqatlar böyük töhfə verə bilər.[66] Həmin tədqiqatların mövzusunu müstəmləkəçi "keçmişin" və onunla bağlı olan müasir problemlərin – dünya müstəmləkə sisteminin dağılması və XX əsrin ikinci yarısında Qərbi Avropa ölkələrində, o cümlədən Britaniyada multikultural cəmiyyətlərin formalaşması, birgəyaşayışın ənənə və yeni formalarına dair müzakirələr təşkil edirdi. Müstəmləkə asılılığından azad olan xalqların XX əsrin ikinci yarısında Şərq və Qərbin "postimperiya" məkanında özlərinin etno-dini kimliyini qoruması, yeni siyasi, mədəni və iqtisadi şəraitə adaptasiya prosesində buradan qaynaqlanan problemlər "postkolonial" tədqiqatların mərkəzində olmuşdur.

65 Fanon F. Black Skin, White Masks. London, 2008; Cesaire A. Discourse on Colonialism. New York, 2000; Achebe C. Colonialist Criticism / Hopes and Impediments: Selected Essays 1965-1987. London, 1988; Naipaul V.S. Our Universal Civilization // The New York Review of Books, January 31, 1991

66 Post-colonial Studies Reader / edited by Bill Ashcroft, Gareth Griffiths, Helen Tiffin. London, 1995, p. 2

XX əsrin 60-70-ci illərində yaranmış "asılılığın metanəzəriyyəsi" qlobal sistemin inkişaf nəzəriyyələrindən biri kimi çıxış edir. Nəzəriyyənin əsasında argentinalı iqtisadçı **Raul Prebişin** *(Raúl Prebisch)* (1901-1986) ideyaları dayanır. Metanəzəriyyə üç istiqamətə bölünür: 1.İnkişaf etməmə asılılığı; 2.İnkişafetmə asılılığı; 3.Təkrar istehsal asılılığı. Metanəzəriyyənin əsasını kapitalist sisteminin dünya miqyasında eyni zamanda həm inkişafa, həm də beynəlxalq, milli və lokal səviyyədə zəif inkişafa zəmin olması xüsusiyyətləri təşkil edir. Əslində "Nə üçün bir qisim üçüncü dünya ölkələrində modernləşmə və inkişaf proqramlarının reallaşması onların daha da çox geriləməsinə və asılılığına gətirib çıxarır?" sualı bir paradoks kimi geniş tədqiq edilir.

Əsasən XX əsrin ikinci yarısında II Dünya müharibəsindən və Britaniya müstəmləkə imperiyasının dağılmasından sonra başlayan köhnə koloniyalardan köç axınlarının kəskin artması proseslərinin qismən səngiməsi 1990-cı illərin sonunda baş verdi. Əsrin sonunda aparılan əhalinin siyahıya alınması Britaniya əhalisinin artıq ondan birinin qeyri-Avropa mənşəli olmasını aşkara çıxartdı.[67]

Tədqiqatçılar Qərb ölkələrində artıq multikulturalizm siyasətinin çiçəklənməsi və onun nəticəsi kimi mədəni cəhətdən ayrı-ayrı etno-dini icmaların formalaşmasının gerçəkliyə çevrilməsi qənaətinə gəldilər. Digər tərəfdən, XX əsrin sonlarına doğru Şərq və Qərb sivilizasiyalararası münasibətlərində yaranan ziddiyyətlər dialoq axtarışları və çağırışlarına "3-cü baxışın - nə Qərbdən, nə də Şərqdən olan ortaq baxışın formalaşmasını şərtləndirmişdi. Bu yeni baxışın formalaşma ənənəsi **"Annallar" məktəbinin** *(The Annales school)* nümayəndələri tərəfindən qoyuldu. Postkolonial tədqiqatların əhəmiyyəti ondan ibarət idi ki, burada bir tərəfdə duran müstəmləkəçi və digər tərəfdə duran "asılı təbəə" fiqurunun yanında 3-cü bir persona

67 Office for National Statistics, Census 2001. *- http://www.ons.gov.uk/ons/guide-method/census/census-2001/index.html*; European Commission. Eurostat Home. - *http://epp.eurostat.ec.europa.eu/portal/page /portal /eurostat/home*

– postkolonial tənqidçi də dayanırdı.[68]

Zaman keçdikcə postkolonial tədqiqatların proqram əsasını təşkil edən elmi əsərlər mühüm tarixi mənbəyə çevrildilər. XX əsrin 70-90-cı illərinə aid olan bu əsərlərin üzərində Qərb postmodern fəlsəfəsinin böyük təsiri hiss edilirdi. Bunlardan **Edvard Səidin** *"Oriyentalizm", "Mədəniyyət və imperializm"*, **Q.Sivakın** *"Məzlumlar danışa bilərlərmi?"*, **H.Bhabhanın** *"Millət və narrativ", "Mədəniyyətin yeri və rolu"* əsərləri xüsusi qeyd edilə bilər. Burada "Şərq-Qərb" sivilizasiyalararası problemlərinin aşağıdakı əsas məsələləri müzakirə edilirdi:

XX əsrin ortalarından bəri dekoloniyalaşdırma və Qərbi Avropa ölkələrinə kütləvi miqrasiya prosesləri sosial-siyasi və intellektual fenomen kimi multikulturalizmin formalaşması üçün əsas yaratdı, həmçinin postkolonial diskursun yaranması və formalaşmasına birbaşa təsir göstərdi. Postkolonial tədqiqatların formalaşması və inkişafına Qərbi Avropanın ictimai və fəlsəfi fikrinin bəzi ideyaları, xüsusilə solçu marksizm, həmçinin psixoanaliz, poststrukturalizm və dekonstruktivizm kimi istiqamətlər əhəmiyyətli təsir göstərdi.

Postkolonial tədqiqatların mərkəzi mövzusunu millətçilik, oriyentalizm, özünüifadə, mədəni kimlik və multikultural şəxsiyyət məsələləri təşkil edirdi ki, bunlar da bir tərəfdən azad olmuş müstəmləkələrdə dövlət quruluşunun və milli kimliyin formalaşması proseslərini, digər tərəfdən isə XX əsrin ikinci yarısında Qərbi Avropa ölkələrində multikultural cəmiyyətin bərqərar olmasını əks etdirirdi.

*Neokolonializm* digər ölkələrə, xüsusən də keçmiş müstəmləkələrə nəzarət və ya təsir etmək üçün iqtisadi, siyasi, mədəni, yaxud digər təzyiqlərin istifadə edilməsidir.[69] Neokolonializm Avropa ölkələrinin öz keçmiş müstəmləkələri, o cümlədən II Dünya müharibəsindən sonra azad edilmiş Afrika ölkələri ilə iqtisadi və mədəni əlaqələri

68 Бобков И. М. Постколониальные исследования // Новейший философский словарь. Минск, 2003, с. 776.

69 Neocolonialism. / Encyclopedia Britannica/ - *https://www.britannica.com/topic/neocolonialism*

intensiv davam etdirməsidir. Bu termin Qvineyanın keçmiş prezidenti **Kvame Nkruma** (1960-1966) tərəfindən Afrika Birliyi Təşkilatının Xartiyasının 1963-cü ildə müəyyən edilən preambulasında və onun 1965-ci ildə yazdığı "Neokolonializm imperializmin son mərhələsidir" adlı kitabında işlədilmiş və elmi dövriyyəyə gətirilmişdir. Əsərdə 1950-1960-cı illərdə Fransanın Əlcəzairdə müstəmləkəçilik və postmüstəmləkəçilik siyasətinin tənqidi yer alıb.[70]

Neokolonializm nəzəriyyəsi – yeni bazarların, xammal mənbələrinin, kapital qoyuluşları sahəsinin fəth edilməsində aparıcı dövlətlər arasında mübarizə və onların siyasi mədəni təsirinin güclənməsi kimi izah edilir. Başqa sözlə, kolonializm istismarçı dövlətlər tərəfindən sosial-iqtisadi cəhətdən zəif inkişaf etmiş dövlətlərin daha çox hərbi siyasi, iqtisadi və mənəvi əsarətə alınmasıdırsa, neokolonializm əsasən qeyri-hərbi hesab edilən, iqtisadi ekspansiya, inkişaf etmiş dövlətlərin inkişaf etməkdə olan dövlətlərin işinə qarışmasıdır. Burada mədəni ekspansiya və informasiya məkanının manipulyasiya edilməsi ilə digər dövlətlərdə ictimai şüurun "öz-özünü müstəmləkələşdirmə" mərhələsinə keçid alması hegemon ideologiyanın ən böyük uğuru sayılır. Hətta "beyin axını"nın, intellekt miqrasiyasının, eləcə də miqrant diasporlarının bəzi qruplarının onların öz dövlətləri əleyhinə qaldırılması və s. səbəblərindən biri də bu hesab edilir. Bu isə milli kimlik, milli ideologiya və vətənpərvərlik sahəsində yeni vəzifələr irəli sürür.

XXI əsrdə davam edən qlobal neomüstəmləkəçiliyə araşdırmalarda belə tərif verilir: Qlobal neomüstəmləkəçilik Qərb ölkələrinin digər dünya ölkələrinə diktə etdiyi, onların hərbi gücünə və inhisarçı kapitalın, beynəlxalq maliyyə təşkilatlarının və transmilli korporasiyaların fəaliyyətinə dayaqlanan qeyri-bərabər (iqtisadi və siyasi) münasibətlərinin müasir sistemidir. Müvafiq olaraq, qlobal

70 Kwame Nkrumah. Neo-Colonialism, the Last Stage of Imperialism, London: Thomas Nelson & Sons, Ltd, 1965.

neomüstəmləkəçiliyin bir-biri ilə sıx bağlı olan iki növünü ayırmaq olar: hərbi-siyasi və maliyyə-iqtisadi sistemlər.

Bu, diktə sisteminə tabe olmayan ölkələri birbaşa məhv etməsə də, onları ictimai-siyasi sabitliyi pozmaqla zəiflətməyə və iflasa uğratmağa nail olan qlobal metropoliyalarda iki əsr əvvəl olduğu kimi hərbi və ya inzibati idarəçiliyi icra etmir. Bununla belə, qeyri-müəyyən beynəlxalq hüquqi statusu ilə hərbi bazaları və dayaq nöqtələrini yaratmaqla məqsədyönlü qlobal şəbəkə formalaşdırır.

Nəticədə neokolonial ölkələrdə metropoliyanın maraqlarını ifadə edən "qərbpərəst" yerli elita hakimiyyətə gətirilir və onun maraqlarını yerinə yetirir. Bundan başqa, müasir neokolonial sistemin qlobal xarakteri müəyyən edilir ki, bütün neokoloniyaları idarə edən vahid metropoliya formalaşır. Lakin bu halda da ağalıq münasibətlərinin dərin mahiyyəti dəyişməz olaraq qalır. Metropoliya tərəfindən qlobal idarəçilik yerli ölkənin siyasi müstəqilliyinin itməsinə, müdafiə qabiliyyətinin azalmasına, iqtisadiyyatın xammal əlavəsinə çevrilməsinə, yabançı-kütləvi mədəniyyətin yerli ənənələrə təsirinə səbəb olur. Neokolonializmin əsas əlamətləri elmin və yüksək texnologiyaların yoxluğu, əhalinin yaşayış keyfiyyətinin aşağı olması, intellektual və xammal resurslarının istismarı, elm və təhsil üçün "beyin axını"nın səciyyəvi olması, keçmiş müstəmləkə xalqlarının müstəqil mövcudluq qabiliyyətinə malik olmaması kimi stereotiplərdir.

Təsadüfi deyil ki, prezident seçkiləri kampaniyası zamanı **Emmanuel Makron** Fransanın Əlcəzairdə müstəmləkə tarixini "insanlığa qarşı cinayət" adlandırmışdı. Lakin fransızların sərt tənqid yağışından sonra siyasətçi öz "səhvini" tez düzəltdi. Tulon şəhərindəki növbəti çıxışında Makron seçicilərdən üzr istədi və öz sözlərindən imtina etdi. Bu dəfə sadəcə "Fransanın mürəkkəb keçmişi olub" deməyi üstün tutdu. Həmçinin Hamburqda "Böyük-20"liyin (G20) sammitində Fransanın artıq yeni seçilmiş Prezidenti E.Makron "Afrikanın inkişafı üçün

niyə Marşal planı hazırlanmadı?" sualına cavabında qeyd etmişdir ki, *Afrikada "sivilizasiya" problemləri mövcuddur. Afrikanın ən böyük problemi odur ki, hər ailədə 7-8 uşaq var*. Maraqlıdır ki bundan əvvəl **Nikolya Sarkozi** 2007-ci ildə Seneqalda Dakara səfəri zamanı demişdi: *"Afrikanın faciəsi ondan ibarətdir ki, afrikalılar tarixə tamamilə daxil ola bilmədilər... Onlar gələcəyə də düşə bilmədilər"*. Təhlilçilərin qənaətinə görə, "Makron problemlərin köklü səbəblərini xatırlamaq istəmir. O, Fransanın gələcəyinin keçmiş koloniyalarla daim bağlı olmasından bəhs etmir. Fransızdilli Afrika əvvəlki kimi Fransa ilə ən böyük ticarət tərəfdaşıdır, fransız şirkətləri qitədə öz mövqelərini bərkitməkdə davam edirlər. Hərbi sahədə də Fransa öz keçmiş koloniyalarında dövlətdaxili problemlərə qarışmaqda davam edir, lakin insan və vətəndaş hüquqlarının pozulmasına gələndə isə susur".[71]

Beləliklə, müstəmləkəçilik irsinin kökləri olduqca dərindir. Bir xalq deyiminin metaforik mənasında deyilsə, müstəmləkəçi siyasi təfəkkür Qərb siyasi rəsmilərinin nəinki "qanına keçib, hətta iliyinə işləyib".

## 2.5. Müstəmləkəçi miqrasiya siyasətinin əsas nəticələri

> *"Aparıcı Qərb (Şimal) dövlətlərinin 1945-ci ildən sonrakı dövrdəki siyasəti üçüncü dünya ölkələrinə məhəl qoymamağa, "soyuq müharibə" dövründə onlardan piyadalar ("peşkalar") kimi istifadə etməyə, bu günümüzdə isə onların qarşısının hər vəchlə alınmasına yönəlmişdir".* [72]
>
> **Bhupinder Çimni**

71 Новый Макрон - как символ старой колониальной Франции. - *http://expert.in.ua/mezhdunarodnaya-analitika/0/463-novij-makron---kak-simvol-staroj-kolonialnoj-frantsii*

72 Chimni B.S. The Geopolitics of Refugee Studies: A View from the South. // Journal of Refugee Studies, 11.4 1998, pp.350–374.

Müstəmləkəçilikdən üzü bəri, Yeni dövrdən, milli dövlətlərin formalaşmasından başlayaraq Qərb siyasətində miqrasiya proseslərinin tənzimlənməsində müəyyən meyillər müşahidə edilir. Belə ki, bəhs edilən müstəmləkəçilik dövrü üçün asılı ölkələrin bütün resurslarının istismarı, maddi-iqtisadi varlanma, "vəhşi kapitalizm" qanunlarına uyğun olaraq, qul əməyi, kapital yığımı səciyyəvi olmuşdur.

XVI əsrdən – milli dövlətlərin yaranmasından başlayaraq, Qərb dövlətlərinin miqrasiya siyasəti beynəlxalq münasibətlərin sistemyaradıcı – təkanverici amili qismində çıxış etməyə başladı. Hər bir ölkə öz milli maraqlarından istifadə etməklə, gəlmələrə münasibətdə "miqrasiya siyasəti" adlanmasa da, müəyyən tədbirləri həyata keçirirdi. Yeni dövrdə müharibələr və milli dövlətlərin yaranması, eləcə də XVI-XIX əsrlərdə müstəmləkəçi miqrasiyanın qlobal nəticələri asılı xalqların fiziki və mədəni genosidi, irqçilik stereotiplərinin formalaşması, köklü xalqların yox edilməsi oldu. Miqrant axınları ABŞ, Avstraliya, Yeni Zelandiya və Kanada kimi "immiqrant dövlətlərin" yaranmasını şərtləndirdi. Şimali və Cənubi Amerikanın inkişaf tarixi miqrantların yerli əhalini tamamilə sıxışdırıb yox etməsi üzərində qurulmuşdur.

XX əsrin birinci yarısında – I və II Dünya müharibələri dövründə görünməmiş məcburi-zorakı miqrasiya prosesləri baş verdi. Həmçinin, müharibədən sonra yenə də Avropanın bərpası üçün reallaşdırılan və sırf onların maraqlarına cavab verən "açıq qapı" siyasəti bu ölkələrin dağılmış təsərrüfatını yenidən qurmağa xidmət etdiyi üçün miqrantlara müvəqqəti olaraq xoş niyyətin sərgiləndiyi qısa dövr olmuşdur.

Ümumiyyətlə, nəhəng bir coğrafiyada çoxsaylı ölkələrin yüzillərlə davam edən iflas vəziyyətində yaşamasının bir elmi izahı varmı? Dünya siyasi xəritəsində müxtəlif ölkələri "geridə qalan, iflas

edənlər tələsi"nə düşmək riskindən xilas edən hansısa bir formul mövcuddurmu?

Acınacaqlı olsa da, bu "gerilik tələsi"nin klassik düsturu ötən əsrin 60-cı illərində alman alimi, iqtisadçı və sosioloq **Andre Qunder** tərəfindən onun məşhur əsərinin adında "İnkişaf etməməyin inkişafı" *(The Development of Underdevelopment)* kimi müəyyən edilmişdir. Burada "Mənfi" işarəli "inkişaf etməməyin inkişafı" niyə baş verir?" sualına cavab verilir.[73]

Qlobal neokolonializm sisteminin formalaşdırılması cəhdləri XXI əsrdə də dünya inkişafının meqatrendi kimi çıxış edir. O, bir neçə əsr ərzində mövcud olmuş, XX əsrin ortalarında dağıdılmış dünya müstəmləkəçilik sisteminin yerini tutmaqdadır. Yaxın Şərqdə gedən qlobal savaş bir daha göstərir ki, müstəmləkəçilik sistemi özünün çox dərin sosial-iqtisadi, siyasi, mədəni, hüquqi köklərinə malikdir. Həmin kökləri isə XIX əsrin sonları - XX əsrin əvvəllərində "Avropanın qürub fəlsəfəsi" cərəyanının nümayəndələri olan Fridrix Nitşenin kapitalizmin inkişafı, "hakimiyyət, hökmranlıq iradəsi", Osvald Şpenqlerin Qərb sivilizasiyasına xas olan "məkan ekspansiyasına cəhd", rus filosofu Nikolay Danilevskinin "aqressivlik" xüsusiyyəti adlandırdığı amillər təşkil edirdi.

Dünya müstəmləkə sisteminin dağılmasında II Dünya müharibəsində SSRİ-nin qələbəsi ilə təkan verilən proseslər həlledici rol oynadı. Həmçinin tədqiqatçıların fikrinə görə, SSRİ-nin dağılmasından sonra Qərb ölkələrinin səyləri nəticəsində qloballaşma proseslərinin də intensivləşdirdiyi neokolonializm sistemi bərqərar olmağa başladı. Yerli idarəçilik sistemlərinə səlahiyyət mandatı verən keçmiş metropoliyaların öz koloniyalarına marağı elə həmin vaxtlarda olduğu qədər idi.

73 Andre Gunder Frank. The Development of Underdevelopment. // Monthly Review 18, 4 (September, 1966) p. 17-31. - *http://s3-euw1-ap-pe-ws4-cws-documents.ri-prod s3.amazonaws.com/9781138824287/ch10/1._Andre_Gunder_Frank,_The_Development_of_Underdevelopment,_1966.pdf*




II Dünya müharibəsindən sonra müstəmləkə sisteminin dağılması sürətləndi. BMT 1945-ci ildə təsis ediləndə dünya əhalisinin təxminən üçdə birinə bərabər olan 750 milyon insan müstəmləkə səlahiyyətlərindən asılı olan ərazilərdə yaşayırdı. Bu gün özünü idarəedən 17 ərazidə 17 milyondan çox insan müstəmləkə hakimiyyəti altında yaşayır. BMT ilə birlikdə "dünyaya gələn" və planetin simasını dəyişdirən dekoloniyalaşdırma dalğası dünya birliyinin XX əsrdə qazandığı ilk ən böyük uğurunu əks etdirir.

Dekoloniyalaşdırma nəticəsində bir çox ölkələr müstəqillik əldə etdi və BMT-yə üzv oldu. BMT yaranandan bəri 80 müstəmləkə müstəqillik qazanmışdır. Bunlar öz müqəddəratını təyin edən və ya suveren dövlətlə azad birliyə malik olan 11 "etibar əraziləri"ni *(trust territories)* də əhatə edir. Xüsusi Komitə həmin 17 ərazidə onların tam müstəqilliyə nail olmaları üçün vəziyyətin izlənilməsini davam etdirir.[74]




74 Decolonization. /United Nation/ - http://www.un.org/en/sections/issues-depth/decolonization/

Tədqiqatçıların fikrinə görə, "soyuq müharibə" dövründə Avropadan fərqli olaraq, ABŞ-da miqrasiya siyasətinin birbaşa xarici siyasətə tabe etdirilməsi ənənəsi formalaşmışdır. Bu, konkret tədbirlərdə və qanunvericilikdə əksini tapmışdır.

Əsas səbəblərdən biri isə müharibədən SSRİ-nin qalib çıxması, kommunizm düşərgəsinin genişlənməsi və "dəmir pərdə" çəkilən mürəkkəb bir dövrdə dünyanı idarə edən iki qütbün – fövqəldövlətin mübarizəsində miqrasiya faktorunun potensialından maksimum istifadə etməyin imkan və yollarının intensiv tətbiq edilməsinə ehtiyacın yaranmasıdır.

Avropa dövlətləri isə reallıqda müharibədən çox ağır vəziyyətdə çıxsalar da, "1950-ci ildən 1973-cü ilə qədər dünya kapitalizminin ən uzun sürən "inkişaf bumunu" – çiçəklənmə mərhələsini yaşadılar. Bu vaxta qədər isə təxminən 300 il Avropa dövlətləri kütləvi emiqrasiyanın – fəthetmə, müstəmləkələşdirmə və inkişaf etməyən ölkələri özlərindən asılı vəziyyətdə saxlamaq mənbəyi kimi çıxış etmişdilər".[75]

"Soyuq müharibə" dövründə işçi qüvvəsinə olan kəskin tələbat azalmağa, miqrantların gəlməsi isə fasiləsiz davam etməyə başlamışdı. 1970-ci ilin neft böhranı ziddiyyətlərin son pik nöqtəsi, gəlmələrin artıq yük kimi qəbul edilməsinin isə başlanğıcı oldu. Onların öz evlərinə qaytarılmasının mümkünsüzlüyü, cəmiyyətə inteqrasiyasında yaranan problemlər artıq məhdudlaşdırıcı miqrasiya siyasətinə keçid alınmasını şərtləndirdi. Nəticədə Qərb ölkələrində miqrasiya siyasətinin sərtləşdirilməsi 3 istiqamətdə getdi:

- *yüksək ixtisaslı mütəxəssislərin gəlməsini stimullaşdırmaq hesabına aşağı ixtisaslı miqrantların ölkəyə giriş imkanlarını məhdudlaşdıran selektiv-seçmə mexanizmləri tətbiq etmək;*
- *sığınacaqla bağlı müraciət edənlərə və qaçqınlara sığınacağın*

75 Walter Russell Mead. The Roots of the Migration Crisis. Wall Street Journal. /11 September , 2015/ -https://www.hudson.org/research/11631-the-roots-of-the-migration-crisis

*verilməsi qaydalarını sərtləşdirmək və sosial müavinətlərin həcmini azaltmaq;*

- *ailənin miqrasiyasına (ailələrin birləşməsinə) maddi təminat və savadına, qəbul edən cəmiyyətə inetqrasiya etməsinə imkan verən qabiliyyətləri (dil bilgisi, miqrantların yerli sakinlər arasında tanışlarının mövcudluğu və s.) şərt kimi irəli sürmək.*

Miqrasiya siyasətində beynəlxalq insan hüquqlarının normalarına məhəl qoymamaq tendensiyası müşahidə olunmağa başladı. Belə ki, bütün inkişaf etmiş ölkələr əməkçi miqrantların, onların ailə üzvlərinin qeyri-leqallar daxil olmaqla, dövlət tərəfindən minimal müdafiə haqqının və əsas insan hüquqlarının reallaşdırılması haqqında 1990-cı il Konvensiyasını təsdiqləməkdən imtina etdilər. Konvensiyanın qüvvəyə minməsi üçün onu 20 ölkənin təsdiqləməsi lazım gəlirdi. Bu, yalnız BMT Baş Məclisi tərəfindən Konvensiyanın qəbul edilməsindən 13 il sonra – 2011-ci ilin sonunda mümkün oldu. Lakin bu dəfə də onu BMT-yə üzv olan 200-ə yaxın dövlətdən yalnız 40-ı təsdiqlədi. Maraqlı həm də o idi ki, Konvensiyanı təsdiq edən ölkələrin siyahısında qabaqcıl ölkələrin adları yox idi. Sənədi təsdiq edənlərin hamısı inkişaf etməkdə olan ölkələr idi.

Miqrasiya siyasətində sərtləşmə və qadağalar məcburi miqrasiyanı da əhatə edirdi. Pasportu və çıxış sənədləri olmayan qaçqınlar sığınacaq hüququndan məhrum edilirdi. Əvəzində regional səviyyədə verilən qərarlara və könüllü qaytarılmaya (repatriasiya) üstünlük verildi. Britaniyanın çıxış etdiyi bəyanatda qeyd edilirdi ki, qaçqınlar haqqında yeni beynəlxalq hüququn və rejimin yaradılması zəruridir. Onlar bu yeni rejimə görə ya öz ölkələrindəki təhlükəsiz zonalarda, ya da ki ən yaxın qonşu ölkədə yerləşdirilə bilərlər.

Məcburi köçün öyrənilməsi məcburi miqrasiya və könüllü miqrasiya arasında fərq aparmağı tələb edir. Bu kateqoriyaların ayırd edilməsi əsasən məhz siyasi səbəblərlə bağlı olan kateqoriyalardan

yaranır. Zorakı miqrasiya əksər hallarda siyasi səbəb və təqiblərdən, siyasi münaqişələrdən qaçqın düşməyə əsaslanır. Könüllü miqrasiya isə daha çox iqtisadi səbəblərlə şərtlənir.

Bununla belə, qeyd edilməlidir ki, könüllü və məcburi miqrasiyanın ayrılması nisbi xarakter daşıyır. Onlar əksər hallarda ümumi - iqtisadi və siyasi amillərdən qaynaqlanır. Köç edən bütün insanlar struktur məhdudiyyətlərlə rastlaşırlar. Onlar müxtəlif variantların arasında seçim imkanına malikdirlər. Məsələn, siyasi təqib üzündən qaçqın düşənlər bir sıra sosial-iqtisadi məhdudiyyətlərlə üzləşirlər. Bu qayda ilə könüllü "iqtisadi miqrantların" da köçkün düşməsinə səbəb bir çox hallarda onların öz doğma ölkələrində üzləşdikləri siyasətin nəticəsi ola bilər.

Məcburi miqrasiyanın ən yüksək səviyyəli və nisbətən ən çox araşdırılmış kateqoriyası qaçqınlardır. Milliyyətinə, irqi və vətəndaşlıq əlamətinə, dini etiqadına, dilinə, habelə siyasi əqidəsinə, müəyyən sosial qrupa mənsubiyyətinə görə təqibə məruz qalması, həyatına, ailəsinə, əmlakına real təhlükə yaranması ilə əlaqədar daimi yaşadığı dövlətin onu müdafiə etməsindən istifadə edə bilməməsi, yaxud təhlükəyə görə bu müdafiədən istifadə etmək istəməməsi üzündən yaşadığı ölkənin hüdudlarından kənarda olan, onun vətəndaşı olmayan şəxslər "qaçqın" adlanır.

Qaçqın problemi dünya siyasətinin mərkəzi problemidir. Ona görə ki, qaçqınlar beynəlxalq sərhədləri keçirlər və buna görə dövlətlərin müstəqilliyi üçün müəyyən təsirlərə malikdirlər. Çünki onlar simvolik olaraq bəzi siyasi qüvvələrin, hakimiyyətin legitimləşdirilməsi və ya diskreditasiyası üçün alət kimi istifadə oluna bilirlər. Həmçinin ona görə ki, qaçqınların müdafiəsi beynəlxalq təşkilatlar tərəfindən tənzimlənir ("Qaçqınların statusu haqqında" 1951-ci il Konvensiyasının 1a maddəsi). Beləliklə, transsərhəd qaçqın axınları və onun siyasi motivlərinin çulğaşması qaçqınları XXI əsrin başlanğıcında da qlobal siyasətin mərkəzinə gətirdi.

Onu da xatırlatmaq yerinə düşər ki, müharibələrarası və "soyuq müharibə" dövrlərində, həmçinin 2001-ci il 11 sentyabr beynəlxalq terrorizm hadisəsindən sonra dövlətlərin "selektiv"-seçmə miqrasiya siyasətinin reallaşdırılması özü də daha geniş, qlobal siyasi tendensiyaların barometri kimi çıxış etdi.

Miqrasiya probleminə "Üçüncü dünya - Qlobal Cənub" adlanan perspektivdən yanaşan müəlliflərin baxışları fərqli olduğu üçün onlarla tanışlıq vacibdir. BMT-nin Qaçqınlar üzrə Konvensiyasının ilkin konsepsiyasından "fərqlər mifi"nin ortaya çıxmasının siyasi səbəbləri baxımından həmin müəlliflərdən professor **B.Çimninin** baxışları miqrasiyanın səbəblərini dərk etmək üçün faydalıdır. B.Çimni hesab edir ki, "yeni yanaşma"-nın qanuniləşdirilməsində BMT QAK-ın birbaşa dəstəyi ilə "bilik istehsalı və yayılması", yəni beynəlxalq və yerli ictimai rəydə müəyyən məlumat və stereotiplərin formalaşmasını himayə etmək kimi məsələlərin indiyədək gözardı edilməsi əsas rol oynamışdır. Müəllif hesab edir ki, 1950-ci ildən 1989-cu ilədək Qərbdə "soyuq müharibə" məqsədləri ilə bağlı konsensus əldə edilmiş, bunun nəticəsində qaçqınlarla bağlı tədqiqatlarda nisbətən siyasiləşməmiş müzakirələr aparmaq təşviq edilmişdir. BMT-nin 1951-ci ildə qəbul edilmiş "Qaçqınların statusu haqqında" Konvensiyasının (bundan sonra 1951-ci il Konvensiyası) "soyuq müharibə"nin məqsədlərinin ruhuna uyğun şəkildə şərhi və yönəldilməsi, eləcə də BMT QAK-ın mandatının qeyri-siyasi xarakterinə müvafiq gəlməsi bu "siyasiləşməmiş müzakirələri" legitimləşdirdi.

Beynəlxalq qaçqın hüququ yaranışından siyasi səbəblərin ört-basdır edilməsi, aydın siyasi həll mexanizmlərinin formalaşmaması üçün səy göstərib. Bu baxımdan beynəlxalq qaçqın hüququnda "pozitiv hüquq" ənənəsi böyük təsirə malik olmuşdur.

## 2.6. Beynəlxalq qaçqın hüququ və pozitivist miqrasiya siyasətinin mahiyyəti

*"Qanunu siyasətdən ayırmağa xidmət edən pozitiv hüquq ənənəsi beynəlxalq təşkilatların malik olduğu qeyri-siyasi mandatla ideal uyğunluq təşkil edir".* [76]

**Aristide R. Zolberg**

Onilliklər ərzində beynəlxalq qaçqın hüququnda üstünlük təşkil edən pozitivist yanaşma da əsas vurğunu hüquqi və siyasi sahələrin bir-birindən ayrı götürülərək baxılması üzərində qoymuşdu. Pozitivist yanaşmanın bu müddəası göydəndüşmə oldu və siyasiləşdirilməyən müzakirələrin mükəmməl təcəssümünə çevrildi. Bu illərdə qaçqın hüququ tədqiqatları sahəsində əldə edilən dəyərli baxışlar da onunla izah edilə bilər ki, "soyuq müharibə"nin davam etdiyi müddətdə "humanitar" məzmun keçən əsrin 60-cı illərinin əvvəllərindən başlayaraq genişlənən, hətta üçüncü dünya ölkələrindən "soyuq müharibə" səbəbindən qaçmayan qaçqınların da hüquqlarını əhatə edirdi. Qərb dünyasında bu mövqeyə əks istiqamətdə çıxış etmək daxili ziddiyyətlər yarada, qlobal (*güc və institusional* - **red**.) rejimin sabitliyini təhdid altına alan yüksək siyasət üçün sarsıdıcı təsir göstərə bilərdi.

Pozitiv hüquq rejiminin legitimliyi o dərəcədə böyük əhəmiyyətə malik idi ki, qaçqın statusu ilə bağlı 1951-ci il tarixli Konvensiyanın xronoloji və coğrafi məhdudiyyətlərin aradan qaldırılmasına məcbur edən 1967-ci il tarixli Protokolu qəbul edildi. Üstəlik də bu Protokol

76 Zolberg A.R., Suhrke A. and Aguayo S. (eds.) Escape From Violence: Conflict and Refugee Crisis in the Developing World. New York: Oxford University Press, 1989, p.279

həmin vaxtlar Afrikada regional konvensiya qəbul etmək cəhdlərinin fonunda baş verdi.[77]

Beynəlxalq qaçqın hüququ qanunu uzun müddət qaçqınlara dair tədqiqatlarda müzakirələrin mərkəzi mövzusunu təşkil etmişdir. Siyasətin burada hüquqi qaydalar sistemindən kənarda (dil, yaxud mənəvi məsələlərlə bağlı) olan sahə kimi müəyyən edilməsi onun yaradıcılarının əsas məqsədi olmuşdur. Qaçqınlara dair beynəlxalq hüquqda pozitiv ənənənin iki görkəmli nümayəndəsi var: "Beynəlxalq hüquqda qaçqınlıq statusu" (1966) əsərinin müəllifi **Qral-Madsen** *(Grahl-Madsen)* və "Beynəlxalq hüquqda qaçqın" (1983) tədqiqatının müəllifi **Qudvin-Gill** *(Goodwin-Gill)*.[78]

Qral-Madsen qeyd etdiyimiz kitabının ilk səhifəsində yazır: "Qanun-qaydaları yaratmaq məsələsi... Açığını desək, qanun-qaydalar vakuumda formalaşmır… Biz yalnız qaçqın axınlarının yaranmasının siyasi, iqtisadi, humanitar, sosial, mədəni və qeyri-hüquqi aspektlərinə birbaşa müraciət etməklə, onların səbəblərini bilməklə hüquq normalarını daha mükəmməl anlaya bilərik".[79] Qudvin-Gillin tədqiqatı da bu ənənəni davam etdirir. O mənada ki, onun kitabını oxuyarkən "Qaçqınların statusu haqqında" 1951-ci il Konvensiyasının "soyuq müharibə"də Qərb dövlətlərinin siyasi məqsədlərindən qaynaqlanan mənşəyi, yaxud BMT QAK-ın ofisinin necə və nə üçün indiki yerində yaranmasını hətta təsəvvür belə etmək mümkün deyil.

XX əsrin 80-ci illərinin əvvəllərindən etibarən "yeni sığınacaq axtaranlar" dalğasının Şimala üz tutması ilə qaçqın proseslərinə yenidən baxılmasına təkan verildi. "Soyuq müharibə" başa çatan kimi qaçqın və ideoloji və ya geosiyasi dəyər kəsb etməyən köçkünlər

77 Holborn L. W. Refugees: A Problem of our Time. Methuchen: The Scarecrow Press, 1975, p. 185-86
78 Grahl-Madsen. The Status of Refugees in International Law. 1966; Goodwin-Gill's. The Refugee in International Law, 1983
79 Yenə orada, s.1

əvvəlki yanaşmalara yenidən baxılmasını, məhdudlaşdırıcı tədbirlər seriyasını (qeyri-giriş) qəbul etməyi şərtləndirdi.

Üçüncü dünyanın yoxsullaşan ölkələrinin artan zəifliyi və qaçqınların yükünü daşımağın çətinliyi fonunda yeni yanaşma ölkədə məqsədyönlü olmayan repatriasiya və ölkədaxili köçkün və didərgin düşən şəxslərin müdafiəsinə diqqətin yönəldilməsinə hesablanmışdı. Keçmiş Yuqoslaviyada baş verən münaqişə sadəcə Şimal dövlətlərinin "soyuq müharibə" rejimindən uzaqlaşdırılmasını sürətləndirdi ki, bütün bunlar da 1951-ci il Konvensiyasının ətrafında fokuslandı.

1912-ci və 1969-cu illər arasında demək olar ki, 50 milyon avropalı xaricdə sığınacaq axtarmış və onların hamısı məskunlaşdırılmışdı. Hazırda isə məskunlaşmanın (köçürülmənin) bu cür həlli yalnız xüsusi ehtiyacları olan qaçqınlar kontekstində tətbiq olunur. Bu, hazırda dünya qaçqınlarının cəmi bir faizdən də az qisminə aid edilir.

*"Paradiqmal çevriliş"* adlanan növbəti yeni yanaşma mövcud akademik və ümumən qəbul edilmiş terminlərdə, "pozitivist" yanaşmanın tənqidində, qlobal rejimdə fundamental elementlərin rekonfiqurasiyası, keçmişin yenidən şərhi və digər bu kimi məsələlərdə özünü göstərirdi.[80] 1980-ci illərdə üçüncü dünya ölkələrindən qaçqınların Qərbə üz tutması və 1990-cı illərdə "soyuq müharibə"nin başa çatması nəticəsində

80 Məlum olduğu kimi, hüquq nəzəriyəsində, digərləri ilə yanaşı, ən çox yayılan ***"pozitiv" və "təbii hüquq" nəzəriyyələri***dir. "Pozitiv hüquq" (latın *ius positivum*) nəzəriyyəsi XIV əsrin əvvəllərində tətbiq edilən, latın dilində positivus "razılaşma, anlaşma yolu ilə, müsbət həll edilən" mənasını verir. Sözün kökü pozitus - "yerinə qoymaq, yerləşdirmək, müəyyən etmək" *(pozition)* termininindən qaynaqlanır. Hal-hazırda, indiki vaxtda müəyyən edilən, qüvvədə olan hüquqdur. Pozitiv yanaşmaya görə, hüquq ancaq yazılıdır və onu dövlət (yaxud beynəlxalq təşkilatlar) müəyyən edir. *"Təbii hüquq" nəzəriyyəsinə* görə isə hüquq obyektiv xarakter daşıyır və hər hansı subyektin iradəsinin təzahürü deyil. İnsan yaradılanda ona fiziki varlığı ilə bahəm, eyni zamanda insan olmasından irəli gələn hüquqlar – azadlıq, yaşamaq, mülkiyyət, bərabərlik və s. bəxş edilir (Con Stüart Mill). *Pozitiv hüquq* – qəbul edilən qanunların birtərəfli məntiqə əsaslanması, problemin bütün dərinliyini nəzərə alaraq ədalətli qərar verilməməsi baxımından tənqid edilir. [Bax: *https://www.dictionary.com/browse/positives]*

1980-ci və 1990-cı illərdə qaçqınlarla bağlı tədqiqatların sürətli artım – "partlayış" dövrüdür. Məhz bu illərdə beynəlxalq emiqrasiya siyasətində və qanunda paradiqmanın dəyişikliyi ilə eyni zamanda "qaçqınlar arasında fərq mifi"nin yaradılmasına həsr edilən tədqiqatlar da durmadan artmağa başladı. Üçüncü dünya ölkələrindən olan qaçqın axınlarının təbiət və xaraktercə I Dünya müharibəsinin sonlarından başlayaraq Avropaya gələn qaçqın axınlarından köklü şəkildə fərqlənməsinə dair təsəvvürlər var gücü ilə dərc olunmağa başlandı.

Beləliklə, yeni yanaşmada "normal" qaçqın tipi bu əlamətlərlə təsvir edilirdi: rəngi ağ, cinsi kişi və antikommunist. Bu qaçqın tipi üçüncü dünya ölkələrindən qaçqın düşən insanlardan kəskin fərqlərə malik idi."Müxtəliflik, fərqlilik mifi" qaçqın axınlarının səbəblərini daxili amillərlə izah edən "internalist" yanaşma ilə əl-ələ gedirdi. Bu yanaşma xarici amilləri qiymətləndirməyərək, günahı mənbə ölkədə "açıq qalan qapı" üzərinə, postmüstəmləkə cəmiyyətləri və dövlətləri üzərinə qoyurdu. Yeni yanaşma insan hüquqları "dilində" aydın ifadə edilmişdi. Bu, qaçqınlara mənşə amilini əsas tutaraq yardım və müdafiə etməyə çağırırdı və iddia edirdi ki, üçüncü dünya ölkələrindən qaçqın axınlarına uyğun olan qərar vətənə qaytarılma idi.

Bu siyasət və konseptual çərçivə qaçqınların müdafiəsi üçün əsas beynəlxalq qurum olan BMT QAK-dan dəyişiklik tələb edirdi. Təəssüf ki, BMT QAK-ın fəaliyyətinin bu ölçüsü diqqətdən kənarda qalmışdır.

Beynəlxalq qaçqın hüququ yaranışından siyasi səbəblərin ört-basdır edilməsi, aydın siyasi həll mexanizmlərinin formalaşmaması üçün səy göstərib. Bu baxımdan beynəlxalq qaçqın hüququnda "pozitiv hüquq" ənənəsiböyük təsirə malik olmuşdur. Bunun üç səbəbini göstərmək olar. Birincisi, beynəlxalq qaçqın hüququ əsasən Avropada elmi mübadilə təqaüdlərinin təşkilində (təqdim edilməsində) üstün bir ənənə kimi bu günə qədər qalmaqda davam

edir. İkincisi, beynəlxalq qaçqın hüququnun təşviqi və yayılmasının əsas agenti BMT QAK-dır.[81] Buna görə də Qudvin-Gillin kitabının BMT QAK-ın rəsmi məmurları tərəfindən dünya ictimaiyyətinə tövsiyə edilməsi heç də təəccüblü deyil. Üçüncü və əsas səbəb isə pozitivist yanaşmanın "soyuq müharibə" siyasətinə ən ideal şəkildə uyğun olması idi.  Belə ki, onlar düşünülmüş və sistemli şəkildə siyasət dilindən qaçdılar.Bununla həm siyasət dilindən sistemli şəkildə uzaqlaşmağa, həm qaçqınlara dair qanunun SSRİ tərəfindən tənqid edilməsinə qarşı çıxmağa, həm də əsas diqqəti BMT QAK-ın neytral pozitiv hüquq və yayğın humanizm  müstəvisinə keçirməyə nail oldular.

1980-cı illərin əvvəllərindən, xüsusilə də "soyuq müharibə"nin sonundan etibarən qaçqın probleminə dair araşdırmalarda hüquq və qanunun oynadığı mərkəzi rolla bağlı suallar yaranmağa və ona şübhə edilməyə başlandı. O zaman fəaliyyətdə olan Ali komissar "soyuq müharibə" illərində formalaşan beynəlxalq qaçqın hüququnun təməl prinsiplərini və normalarını dəstəkləyən "hüquqşünaslara qəzəbini elan etdi". Bu hücum iki istiqamətdən yönəlmişdi. Əvvəla, beynəlxalq qaçqın hüququnun reallığa adekvat olmadığına, qaçqınların gerçək həyatını əks etdirmədiyinə dair fikirlər getdikcə artmaqda idi. İkincisi, qaçqın problemləri ilə bağlı hüquqşünaslar tarixi və siyasi reallıqlardan tamamilə uzaq olan prinsipləri dəstəkləməkdə ittiham edilirdilər.

Nikbin ənənənin uğursuzluğu özünü tam mənada hüquqi qərarların şərhində (təfsirində) də göstərdi. Bu da öz növbəsində QHT-lər və qaçqın-fəallar arasında qanunun qaçqınların müdafiəsi

81 Chimni B.S. The Global Refugee Problem of Refugees in International Law, 1966; Goodwin-Gill's. The Refugee in International Law, 1983; Chimni B.S. The Global Refugee Problem in the 21st Century and the Emerging Security Paradigm: A Disturbing Trend', in Anghie, A. and Sturgess, G. (eds.) Legal Visions of the 21st Century: Essays in Honour of Judge Christopher Weeramantry, The Hague: Kluwer Law International, 1999.

üçün hətta "soyuq müharibə" başa çatdıqdan sonrakı dövrün tamamilə yeni tarixi kontekstində istifadəsinin mümkünlüyü kimi yanlış inamın yaranmasına səbəb oldu. Lakin məlum oldu ki, artıq nəinki beynəlxalq qaçqın hüququnun əsas prinsipi olan geri qaytarmama *("non-refoulement")* prinsipi, həmçinin 1951-ci il Konvensiyasında qaçqınlara verilən tərif də yeni məna kəsb etmişdir.[82] "Uzun müddət siyasi nəzəriyyənin beynəlxalq hüquq, siyasi iqtisad və beynəlxalq münasibətlərlə bağlı problemlərdən ayrılaraq təhlil edilməsi həmişə arzu olunmayan nəticələrə gətirib çıxarmışdır. Buna görə də üçüncü dünya ölkələrindən olan alimlərin pozitiv ənənəni davam etdirərək təhlil aparmaqda davam etməsi xüsusilə uğursuz hal sayılmalıdır".[83]

Mühacirət hüququnun olub-olmamasından və onilliklər boyu buradan irəli gələn prinsiplərdən və normalardan çıxış etməyin başlıca səbəbi – Avropadan və üçüncü dünya ölkələrindən olan qaçqın axınları arasında fərqlərin vurğulanmasına əsaslanır. Yəni bu məqam qaçqın hüququnun və hüquqşünasların onların gözlərini yumduğu üçün ittiham edildiyi tarixi və siyasi kontekstdir. "Müxtəliflik mifi" başlanğıcından bəri qaçqınlara dair yazılmış tədqiqatların bir hissəsini təşkil etmişdir. Üçüncü dünya ölkələrində qaçqınlar mövcud idi, lakin 1951-ci il Konvensiyası hazırlanan zaman onlar əhəmiyyətsiz məsələ kimi nəzərə alınmamışdılar.

Miqrantlara münasibətdə mövcud olan müxtəlif yanaşmalar, "ayrı-seçkilik" mövqeyi ötən əsrdən etibarən tətbiq edilsə də, onun acı nəticələri bu gün də davam edir. Bəzən Qərb miqrasiya siyasətinin gerçək mahiyyətini ortaya çıxarmağa imkan verir. Belə misallardan

82 ***"Non-refoulement"*** - məcburən geri qaytarmanın qadağan olunması 1951-ci il Konvensiyasında (33-cü maddə) öz əksini tapmış və beynəlxalq normaya çevrilmişdir. Bu prinsipə görə, dövlət qaçqını onun həyatına və azadlığına təhlükə olan ölkəyə qaytarmamalıdır. Bu prinsipi istər 1951-ci il Konvensiyasını imzalayan, istərsə də imzalamayan bütün dövlətlər üçün vacibdir. [Bax: İnsan hüquqları və qaçqınlar. Bakı, 1999, s.21]

83 Held D. Democracy and the Global Order, Cambridge: Polity Press,1995

1950-ci illərin əvvəllərində "soyuq müharibə"nin dərinləşməsi ilə immiqrasiya siyasəti əksər hallarda kommunizmlə mübarizənin həlledici resursu qismində çıxış etdi. Əhalinin miqrasiyasının tənzimlənməsi bu dövrdə bir tərəfdən müttəfiqlərin möhkəmləndirilməsi, digər tərəfdən isə rəqiblərin zəiflədilməsi üçün "potensial silah" kimi istifadə edilirdi.

birini – 2018-ci ilin aprel ayında 70 ildir bu ölkədə yaşayan miqrantlarla bağlı baş verən və Birləşmiş Krallığın Baş nazirinin üzr istəməsi ilə əlaqədar olan hadisəni yada salmaqda fayda var. Mətbuatda **"Vindraş nəsli"***("Windrush Generation")* adı ilə geniş müzakirə edilən bu qalmaqalın məzmunu nədən ibarət idi? II Dünya müharibəsindən sonra – 1948-ci ildə Britaniya xalq təsərrüfatını bərpa edirdi. Karib ölkələri o zaman hələ Britaniyanın müstəmləkəçiliyində idi. 1948-ci il iyunun 22-də, yəni 70 il əvvəl **"Vindraş imperiyası"** *("Empire Windrush")* adlanan gəmi ilə Karib ölkələrindən Britaniyaya miqrantlar gəlmişdi. Tədricən ailələrini də yanlarına gətirən bu miqrant qrupuna 1971-ci ildə həmişəlik qala biləcəkləri haqqında icazə verilsə də, onlara heç bir sənəd verilməmişdi. 2012-ci ildə immiqrasiya qanununa dəyişiklik edilməsindən sonra onlara müvafiq dövlət strukturlarından sənədlərə ehtiyac olduqlarını söyləmişdilər. Nəticədə sənədləri olmadığından onların bəziləri, xüsusilə sonradan birləşən ailə üzvləri immiqrantların saxlanma mərkəzlərinə göndərilmiş və deportasiya edilmişdilər. Məsələnin ictimailəşməsindən sonra hökumət deportasiya faktını bir daha yoxlamışdır. Nəticədə Baş nazir **Tereza Mey** Birləşmiş Krallıq hökuməti adından Karib ölkələri liderlərindən üzr istəmiş və onların burada əminliklə qala biləcəklərini söyləmişdi.[84]

84 Windrush Generation: Who are they and why are they facing problems? - *https://www.bbc.co.uk/news/uk-43782241*

## 2.7. "İnternalist" və "eksternalist" miqrasiya siyasəti modeli. İmmiqrantların Qərb siyasi maraqlarına uyğun "süzgəcdən" keçirilməsi

İkiqütblü dünyanın çökməsi ilə Qərbin qaçqın qəbul edən ölkələrində Sovet İttifaqından və ya müttəfiq dövlətlərin hər hansı birindən gələnlərə avtomatik olaraq müəyyən sığınacaq növü verilirdi. Onların öz ölkələrini tərk etmə səbəblərinin ətraflı araşdırılmasına əhəmiyyət verilmirdi. Üçüncü dünya ölkələrində də qaçqınların tərk edib gəldiyi ölkədən bunun səbəbləri ilə bağlı məsuliyyəti nəzərdə tutan halların təfərrüatı arxa planda idi. Lakin "soyuq müharibə"nin başa çatması ilə Qərb dövlətləri **"müayinə müalicə üçün önəmlidir"** *(prevention is preferable to cure)* məntiqi ilə insanları qaçmağa məcbur edən şərtlərlə bağlı məsələni diqqət mərkəzinə gətirdi.

Təəccüblü deyil ki, qaçqın axınlarının səbəblərinin müzakirəsində "internalist" yanaşma – miqrasiyanın daxildən qaynaqlanan səbəblərlə izahı və "eksternalist" yanaşma – miqrasiyanın xaricdən qaynaqlanan səbəblərlə izahı iki paradiqma kimi qəbul olundu. "Eksternalist" yanaşma tərəfdarlarının fikrincə, qaçqınlığa görə məsuliyyət qaçqınların axınına gətirib çıxaran siyasətə və həyata keçirilən tədbirlərə məsul olan dövlətlər arasında bölünürdü. Bu da öz növbəsində sonuncu dövlətlərə məsuliyyət daşımaq və qaçqınları qəbul etmək üçün dolayısı ilə təzyiq göstərirdi.

Qaçqınlığı daxili səbəblərlə izah edən "internalist" yanaşma vacib olmaqla yanaşı, birtərəfli olub, qaçqın axınlarının həqiqi səbəblərini əks etdirə bilmir. "İnternalist" yanaşmanın mahiyyəti və obyektivliyi ilə bağlı yaxın tarixdən məlum olan iki nümunəni yada salmaq kifayətdir. Birincisi, Ruanda ilə bağlı baş verən soyqırım hadisəsidir. Həmin hadisələr zamanı kütləvi qətliama səbəb olan mürəkkəb sosial

və iqtisadi reallıqları kompleks və qarşılıqlı bağlılıqda nəzərdən keçirmək əvəzinə, Qərb mediası Ruanda soyqırımını daxili etnik münaqişədən doğan açıq və lokal bir vəziyyət kimi təqdim etməyə çalışdı.[85] Kanadalı iqtisadçı, professor **Miçel Çossudovski** *(Michel Chossudovsky)* inandırıcı şəkildə göstərir ki, bunun əsas səbəbi iqtisadi vəziyyətin kəskin şəkildə pisləşməsi olmuşdur. Bu da öz növbəsində Bretton-Vuds sisteminə daxil olan beynəlxalq təşkilatlar tərəfindən geniş makroiqtisadi islahatların tətbiqinin sürətləndirilməsinin və beynəlxalq qəhvə bazarının çökməsinin bilavasitə nəticəsi kimi ortaya çıxmışdı. Bu, kənardan iqtisadi sistemin Ruandanın daxili iqtisadi şəraitinə, inkişaf ənənəsinə bələd olmadan liberal siyasi iqtisad nəzəriyyəsindən irəli gələn islahatların tətbiqi ilə yaranmış vəziyyət idi. Bu vəziyyət onsuz da gərgin olan etnik münasibətləri kəskinləşdirdi və mövcud hakimiyyətin siyasi süqutu proseslərini sürətləndirdi.

Bir sıra müəlliflər Ruanda qətliamını asılılıq sindromunun klassik hadisəsi kimi təhlil edirlər. Onlar göstərirlər ki, kənardan – beynəlxalq maliyyə təşkilatları tərəfindən tövsiyə və tətbiq edilən siyasət keçmiş Yuqoslaviyada olduğu kimi, daxildə etnik gərginlik və nifrətin səfərbər edilməsinə şərait yaratdı, sosial partlayış və aqressiv iğtişaşlara yol açdı.[86]

Oksford Universitetinin siyasət və məcburi miqrasiya problemləri üzrə professoru[87] (Qaçqınların etikası və siyasəti (2004), "Qloballaşan hüquqlar" (2003), "Sığınacaqlar etikası və siyasət" (2004), "Deportasiyanın tarixi və siyasi konturları" (2013) əsərlərinin müəllifi) **Metyu Gibni** *(Matthew J. Gibney)* məqaləsində belə bir faktı

85 Chossudovsky M. Economic Reforms and Social Unrest in Developing Countries. // Economic and Political Weekly July 19:1997, pp.1786-1788.
86 Petras J., and Vieux S. Bosnia and the Revival of US Hegemony. // New Left Review 218:1996, pp.3-26.
87 Matthew J. Gibney.The Ethics and Politics of Asylum (2004); Globalizing Rights (2003): The Normative, Historical and Political Contours of Deportation (2013)

dərk etməyə çalışır ki, nəyə görə alimlər qaçqın/miqrant axınlarının xarici səbəblərini beynəlxalq kontekstdə təhlil etməkdən bu qədər yayınır, ehtiyat edir və sadəcə bu mövzuya müraciət etmirlər? Bir çox suallar arasında o yazır: "Necə olub ki, bu günə qədər beynəlxalq hüquq elminin və siyasi nəzəriyyənin, dövlətlərin öz vətəndaşlarına və başqa ölkələrin vətəndaşlarına son dərəcə fərqli (*ikili* - **red**.) standartlarla yanaşmaq hüququnu verməsi diqqəti cəlb etməyib? Yaxud bu haqq onlara verilməyibsə, bu hadisələr nə üçün baş verir? Çünki nəticə etibarilə bir qrup dövlətlərin digər dövlətlərin tarix boyu formalaşan və ənənəyə çevrilən yerli standartlarına, vətəndaşlarının həyat tərzinə müdaxilə etməsi mümkün olub.[88]

M.Gibney tədqiqatının sonunda belə bir qənaətə gəlir ki, əgər dövlət öz ərazisində irimiqyaslı qaçqın axınlarının baş verməsinə səbəb ola biləcək siyasəti yolverilməz hesab edirsə, başqa ölkələrə münasibətdə də eyni mövqe sərgiləməli və bunun edilməsi yolverilməz sayılmalıdır. Öz növbəsində, hazırda dünyanı cənginə alan çoxsaylı insan qırğınlarının baş verməsinə gətirib çıxaran səbəblər ən başlıcası məhz bu fərqli yanaşmadır.

Digər müəllif - ABŞ-ın Yel Hüquq Məktəbinin beynəlxalq hüquq üzrə professoru **Lea Brilmayer** də hesab edir ki, qeyd etdiyimiz kimi, bir dövlətin digər dövlətə münasibətdə öz xalqına rəva bilmədiyi fərqli (*ikili* – **red.**)standartları tətbiq etməsinin heç bir elmi-hüquqi və fəlsəfi əsası yoxdur . [89]

Diqqət yetirsək görmək olar ki, "eksternalist" yanaşmadan imtina edilməsi miqrasiyanın məhz xarici, beynəlxalq və qlobal siyasi səbəblərinin arxa plana keçirilməsi məqsədini güdürdü. Qaçqın axınlarının səbəblərinə "eksternalist" (qaçqınlığın xarici səbəblərdən qaynaqlanmasını önə çəkən şərtlər) yanaşmadan

88 Gibney M. U.S. Foreign Policy and the Creation of Refugee Flows. /in Adelman, H. (ed.) Refugee Policy: Canada and the United States, Toronto: York Lanes Press: 81-114, 1991, p.87

89 Brilmayer L. Justifying International Acts. Ithaca, NY: Cornell University Press, 1989, p. 87.

imtina edilməsi acınacaqlı nəticələrə gətirib çıxartdı. Hər şeydən öncə, qaçqınlara dair beynəlxalq hüquq və qanunvericilikdə "exilic bias" konseptindən (məcburi didərgin, köçkün salınmaq, zorla sürgün edilmək, zorla mühacirət etmək (dini qaynaqlarda - *hicrət*)) asanlıqla imtina edildi.

Miçiqan Universiteti Hüquq Məktəbinin professoru **T.Alexander Aleinikoff** *(T.Alexander Aleinikoff)* qaçqınlar haqqında beynəlxalq qanunvericiliyin hüquqi həll mexanizmlərinin olduqca kövrək olduğunu, istənilən dövlətin istədiyi vaxt dəyişdirə bilməsinin düzgün olmamasını təhlil etmişdir. O qeyd edir ki, "soyuq müharibə"dən sonrakı qaçqınlar barəsində qanunvericilik və siyasət sahəsində kəskin dəyişiklik baş verdi. Xüsusilə qaçqınlığın "mənbəyi, səbəbkarı" amilinə münasibətdə ağlagəlməz fəallıq göstərilmişdir. Bu yeni yanaşma vətənə qaytarılmanı və insan hüquqlarını qayıdışdan əvvəl və sonrakı mərhələlərə bölür, əsas diqqəti insanların qaçqın düşdüyü mənbə ölkələri üzərinə keçirir. Hesab edirik ki, əsas vurğunun qaçqınların mənbə ölkəsi üzərinə keçirilməsi humanitar problemlər baxımından qismən faydalı olsa da, qaçqınlığa səbəb olan xarici amilləri, real riskləri arxa plana keçirir. Bütün bunlar insan hüquqlarının reallıqda deyil, nəzəri-hüquqi sistem çərçivəsində qorunmasının əsas hesab edilməsindən irəli gəlir. Halbuki, qaçqınlığın mənbəyi, səbəbi məsələsinin indi diqqət mərkəzinə alınması miqrasiya problemlərinin həllində ləngidici amil ola bilər, nəinki hadisələr baş verəndən sonra qaçqınların hüquqlarının və şəraitinin yaxşılaşması. Hüquqi dəyişikliklərin sırf dövlətlərin arzusu ilə, qaçqınların real durumunu və rəyini nəzərə almadan qəbul edilməsi arzuedilməzdir. Bu baxımdan qaçqınlar haqqında qəbul edilən qanunvericilikdə onların səslərinin də nəzərə alınması yaxın gələcək üçün qarşıda duran əsas məsələlərdəndir.[90]

90 Aleinikoff, T. A. State-Centered Refugee Law: From Resettlement to Containment. // Michigan Journal of International Law ( MJIL) Vol. 14. Iss. 1 1992

## 2.8. Miqrasiya siyasətində "repatriasiya" modelinə keçidin siyasi səbəbləri

Qaçqınlığın xarici səbəblərdən qaynaqlanmasını önə çəkən "eksternalist" yanaşmanın "internalist" *(qaçqınlığın daxili səbəblərdən qaynaqlanmasını önə çəkən şərtlər)* konseptlə əvəz edilməsi Qərb dövlətlərinin maraqlarına daha çox cavab verdiyi üçün bir qədər də təkmilləşdirildi. Daha dəqiq desək, qlobal qaçqın probleminin həll edilməsinin yeganə variantı beynəlxalq hüquqda **repatriasiya modeli** – vətənə qaytarılma şərti ilə əvəz edildi. Bunun nəticələri təsəvvürəgəlməz dərəcədə böyük təhdidlərə yol açdı. Yəni bir halda ki, məcburi qaçqın axınları üçün məsuliyyəti onların "fiziki mənşə ölkəsi" – yaşadıqları dövlət daşıyırsa, o zaman onlar miqrantların – başqa ölkələrin qeyri-insani rəftarı üzündən didərgin düşənlərin qəbul edilməsi, yaxud da yerləşdirilməsi üçün hər hansı bir öhdəliklərə malik deyildilər.

Ən yaxşı halda başqa dövlətlərin yalnız **"müvəqqəti sığınacaq"** təklif etmək öhdəliyi qüvvədə qaldı. İkincisi, bu dəyişikliklər dövlətlərin məsuliyyətinə dair beynəlxalq hüquqda belə bir vəziyyət yaratdı ki, baş verənlərlə bağlı yalnız qaçqınların fiziki mənşə ölkəsinə, yəni yaşadıqları dövlətə müraciət etmək, sualları ona ünvanlamaq və adekvat olmayan qərarlar vermək ənənəsi formalaşdı.[91] Üçüncüsü, beynəlxalq hüquqda müzakirələrin fokus nöqtəsinin "qaçqınlardan" ("qaçqın" sözündən) "ölkədaxili köçkün düşmüş şəxslər" sözü üzərinə keçməsi təmin edildi. Bunungla da problemin siyasi qərarlarla həll müstəvisindən humanitar yardım müstəvisinə, həmçinin, nəhayət, başqa dövlətlərin daxili işlərinə "humanitar müdaxilə" ideyasına bəraət qazandırmağa əsas verildi və ənənəyə çevrildi.

91 Lee L. The Right to Compensation: Refugees and Countries of Asylum. // American Journal of International Law 80: 1986, pp.532-567.

Beləliklə, qlobal qaçqın axınlarının təməl səbəblərinin izahında “internalist” yanaşmanın tətbiqi beynəlxalq hüquqda repatriasiya konsepsiyasının dəstəklənməsi və qlobal qaçqın probleminin prinsipial yolu kimi onun qəbul edilməsi ilə nəticələndi. Bu prinsipə görə, qaçqının könüllü olaraq geri qaytarılması üçün məsuliyyəti qaçqının doğulduğu “fiziki mənşə” ölkəsi daşıyır.

Qaçqın probleminin həlli ilə bağlı ənənəvi olaraq tətbiq edilən üç yanaşma üçüncü ölkələrə köçürülmə, yerli cəmiyyətə inteqrasiya və könüllü olaraq geri qaytarılma (repatriasiya) olsa da, reallıqda hansına üstünlük veriləcəyi bilavasitə Qərb siyasi maraqlarından asılı vəziyyətə düşdü. Keçən əsrdə sənayeləşmiş ölkələr beynəlxalq qaçqın hüququnda köçürülmə siyasətini tətbiq edərək, məcburi köçkünlüyü həll yolu kimi görürdülər.

*Repatriasiya* – öz torpaqlarına (vətənə) qaytarılma siyasəti rəsmən Qaçqın məsələləri üzrə Beynəlxalq Təşkilat (IRO) tərəfindən Sovet İttifaqının təkidi ilə qəbul edilmişdi. Köçürülmə qərarı “soyuq müharibə” dövrü siyasətinin ayrılmaz hissəsi olmuşdur. Müqayisə etsək, 1912-ci və 1969-cu illər arasında demək olar ki, 50 milyon avropalı xaricdə sığınacaq axtarmış və onların hamısı məskunlaşdırılmışdı. Hazırda isə məskunlaşmanın (köçürülmənin) bu cür həlli yalnız xüsusi ehtiyacları olan qaçqınlar kontekstində tətbiq olunur. Bu, hazırda dünya qaçqınlarının cəmi bir faizdən də az qisminə aid edilir.

Məskunlaşdırma (“yenidən köçürmə” mənasında) ideal həll yolu olaraq repatriasiya (könüllü olaraq geri qaytarılma) ilə əvəz edilmişdir. Bu gün də *repatriasiya* böyük ideal və arzuolunan bir həll kimi, könüllülük kimi təbliğ edilir. Bu yanaşmanın əsas məqsədi könüllü repatriasiya yolunu qaçqınların özlərinin arzuladığı bir şəkildə təqdim etməyə xidmət etməkdir. Guya geriqayıtma qərarını qaçqınlar özləri verir”.[92]

92 Loescher G. Beyond Charity: International Cooperation and the Global Refugee Crisis. New York: Oxford University Press, 1993, p.148

Tanınmış amerikan iqtisadçısı, professor, iqtisadiyyat sahəsində 2005-ci ilin Nobel mükafatı laureatı **Cefri Saks** *(Jeffrey Sachs)* qeyd edir: "Sığınacaqlarda qalmağa üstünlük verənlər də əslində praqmatikdir. Qaçqınlara dair beynəlxalq hüquq ("Qaçqınların statusu haqqında" 1951-ci il Konvensiyası daxil olmaqla) onların vətənə məcburi qayıdışının əleyhinədir. İnsan hüquqları üzrə Avropa Məhkəməsi də bu prinsipi dəstəkləyir, bütün sədlərə və sərhəd patrullarına baxmayaraq, Avropa da, ABŞ da ada ölkəsi deyil. Miqrantların Avropaya axınının qarşısını zorla almaq mümkün olmayacaq. Bununla belə, qaçqınlara qarşı çıxanlar öz məntiqlərindən çıxış edirlər".[93]

Beynəlxalq münasibətlərdə qaçqın hüququna "internalist" yanaşmanın tətbiqi Qərb siyasətinin qüsurlarını, xüsusilə də insan və qaçqın hüquqlarının bir-birindən uçurumla ayrıldığını miqrasiya böhranında bir daha aşkara çıxardı. Əvvəlki "məcburi qaçqın" ifadəsinin (*exilic* - "eksternalist" yanaşma) əvəzinə, vurğunun "könüllü repatriasiya" üzərinə keçirilməsi "giriş qadağan edilən rejim" *("non-entree-rejime")* halının daha da möhkəmlənməsini, BMT QAK-ın qlobal güc sayılan donor ölkələrinin qaçqın probleminin həllinə münasibətdə daha sərt mövqe tutmasını şərtləndirdi.

ABŞ-ın beynəlxalq qaçqın hüququ üzrə tanınmış alimi **Ceyms Heytvey** *(James C. Hathaway)* hesab edir ki, qaçqın problemi hər bir ölkənin resursları və imkanları hesabına çözülməli, dövlətlər qaçqınları ya qəbul etməli, ya da bunun əvəzində müəyyən resurslar ödəməlidirlər.[94]

"Qaçqın-resurs" mübadiləsini təklif edən müəlliflər bilərəkdən və ya bilməyərəkdən qaçqının "satılıq mala" çevrilməsinin fərqində deyillər. Onların təqdim etdiyi sxemlə qaçqınlar dünya bazarında mübadilə predmetinə çevrilir. Bu da hegemon dövlətlərə malik olduqları struktur

---

93 Sachs J. There's no perfect answer to the migrant crisis – and we must face that.- *https://www.theguardian .com/commentisfree/2015/nov/02/answer-migration-crisis-refugees-europe*

94 The Law of Refugee Status, second edition. /By James C. Hathaway and Michelle Foster. Cambridge: Cambridge University Press, 2015, p.178

üstünlük şəraitində şərtləri diktə etməyə imkan yaradır. Beynəlxalq qaçqın hüququ ilə bağlı mənzərə bu gün belədir. Bu sxemi təsəvvür edəndə ağla gələn ilk anlayış “qlobal aparteid” ifadəsidir.[95]

“Qlobal güclərin qaçqın yükünün bölüşdürülməsinə haqq qazandırması əslində qlobal Cənubun resurs sərvətlərini mənimsəməsi hesabına mümkün olmuşdur. Qlobal güclərin qaçqınlarla bağlı sığınacaq yükünü bölüşdürmək üçün mənəvi öhdəliyi onların qlobal Cənub ölkələrinə nisbətən böyük resurs ehtiyatlarına malik olmasına və həmçinin qəribə şəkildə müasir dünyada mövcud olan sosial münaqişələrin transmilli dinamikasına əsaslanır. Bu vəziyyət müəyyən dərəcədə Cənubda baş verən böhran və çevriliş hadisələrinə görə Şimalın da məsuliyyət daşıdığını göstərir. Zəngin ölkələr sığınacaq yükünün altına öz çiynini vermir, əksinə (internalist izahlı beynəlxalq hüquqa görə) sığınacaq yükünü daşımağa məcbur olan inkişaf etməkdə olan ölkələrə səxavətli beynəlxalq maliyyə yardımı ayırmaqla öz işlərini bitmiş hesab edirlər.[96] Nə qədər paradoksal və ağır olsa da, müasir dünyada sosial münaqişələrin transmilli dinamikasının mənzərəsi bu cürdür.

Beləliklə, “internalist” yanaşmanın tətbiqi gedişində möhürlənən “girişə qadağa” *(non-entree)* rejimi, onun əsasında duran qaçqın axınlarının yerləşdirilməsi və bölüşdürülməsi sxemi bugünkü beynəlxalq münasibətlər sisteminin qaçılmaz reallığına çevrilmişdir.[97] Bu mexanizm heç bir vəchlə qaçqın problemini həll etmir, həmçinin onların öz qovulduğu, yaxud etnik təmizləməyə məruz qaldıqları torpaqlara qayıtması, sərt presedentlərin yaranması, günahkarların cəzalanması baş vermir. Əksinə, dünya qaçqın istehsal edən beynəlxalq hüququn əsirinə, beynəlxalq münasibətlərdə problemlərin tənzimlənməsində Qərb modelinin girovuna çevrilmişdir.

95 Richmond A. H. Global Apartheid, Toronto: Oxford University Press, 1994.

96 Zolberg A.R., Suhrke A., and Aguayo S. (eds.) Escape From Violence: Conflict and Refugee Crisis in the Developing World. New York: Oxford University Press, 1989, p.279

97 Hathaway J.C., and Neve R.A. Making International Refugee Law Relevant Again: A Proposal for Collectivized and Solution-Oriented Protection. Harvard Human Rights Journal / Vol. 10, 1997, p.199.

## 2.9. "Soyuq müharibə" dövründə miqrasiyanın hüquqi tənzimlənməsinin başlıca yekunu: beynəlxalq hüququn Qərb siyasi-ideoloji maraqlarına tabe etdirilməsi

Qlobal miqrasiya tarixində "soyuq müharibə" illərində ölkələrin daxili siyasi maraqlarına əsaslanan immiqrasiya siyasəti getdikcə daha çox xarici siyasətin təsirinə düşmüş, bəzən hətta onun təzyiqlərinə məruz qalmışdır. Bəhs edilən dövrdə miqrantları qəbul edən ölkə simvolu kimi ABŞ-ın immiqrasiya siyasətində baş verən proseslər buna əyani misal ola bilər. Qaçqın hüququ və miqrasiyanın tənzimlənməsi ilə bağlı şərtlərin diktə edilməsinin önündə gedən qlobal güc kimi ABŞ təcrübəsinə nəzər salmaq bir çox məsələlərə aydınlıq gətirir.

"Soyuq müharibə"nin bütün dövrü boyunca qaçqınlara dair ABŞ siyasəti şüurlu şəkildə düşünülmüş və 1980-ci ildə "Qaçqınlar haqqında" Qanunun qəbul edilməsinə qədər açıq-aydın xarici siyasətin "qulluqçusu" olmuşdur. İmmiqrasiya siyasəti ümummilli məqsədə - kommunist ölkələrinə, xüsusilə də Sovet İttifaqına ziyan vurmaq və qalib gəlmək kimi hədəfə nail olmağa öz töhfəsini verməli idi. Bununla belə, Sovet və Şərqi Avropa ölkələrindən olan qaçqınlarla müqayisədə kommunist Çin dövlətindən olan qaçqınlara heç vaxt xoş məram göstərilmirdi.

"Soyuq müharibə" dövrünün ortalarında, 1959-1966-cı illər arasında Karib böhranı təhlükəli hadisələrə səbəb oldu və görünməmiş miqrant köçünə təkan verdi. 1959-cu ildə başlayan Kuba inqilabı və 1966-cı ildə Kastro rejiminin bərqərar olması, 1961-ci ildə Truxillo rejiminin süqutu və 1965-1966-cı illərdə ABŞ-ın qəfildən Dominikan Respublikasını zəbt etməsinə səbəb olan gərgin hadisələr yaddaşlarda dərin iz saldı. "Yaxın qonşuluq siyasəti" tamamilə "Conson doktrinası"nda təsvir edilən "Qərb yarımkürəsində ikinci Kuba olmayacaq!" şüarı ilə bir

kənara atıldı.[98]

ABŞ-ın "soyuq müharibə" kontekstində miqrasiya konsepsiyasına görə, düşmən kommunist ölkələrindən əsasən siyasi miqrantlar peyda olurdusa, ovaxtkı dost rejimlərdən əsasən iqtisadi miqrantların gəlməsi məqbul hesab edilirdi. Bununla belə, Dominikandan kütləvi mühacirət siyasi proseslərdə sabitləşdirici amil kimi strateji dəyərə malik oldu. Xarici siyasətin vasitəsi kimi immiqrasiyadan istifadə Dominikan Respublikasına nüfuz etməyə, Amerikanın burada mövqelərinin saxlanılmasına imkan yaratdı.

Kubanın qonşuluqda yerləşməsi və qaçqınların daimi axını ilk dəfə ABŞ-ı öz mühacirət tarixində birinci sığınacaq üçün ən çox müraciət edilən ölkəyə çevirdi. Qonşu Dominikan Respublikasında eyni zamanda baş verən proseslərin doğurduğu miqrasiya axınlarının təzyiqi ABŞ-ı "Kastro tipli potensial inqilab töhfəsi" ilə hədələyirdi. Bu böhran vəziyyətlərinə cavab olaraq Amerika diplomatiyası "soyuq müharibə" zamanı xarici siyasətin dəqiq müəyyən edilmiş vasitəsi kimi miqrasiyadan istifadə etməyə başladı. Əslində beynəlxalq miqrasiya və ABŞ-ın xarici siyasət maraqları arasında əlaqə heç də yeni hadisə deyildi. Belə ki, xarici siyasətlə bağlı miqrasiya razılaşmalarının tarixi bunun sübutudur. Buna 1868-ci ildə Çinlə imzalanan Burlinqeym, 1907-1908-ci illərdə Yaponiya ilə bağlanan Centlmen sazişlərini, o cümlədən 1920-ci illərdə milli mənşəyinə görə Qərb yarımkürəsindən gələn immiqrantların kvotaları sisteminin hələ də qüvvədə qalmasını misal göstərmək olar.

Avropada "soyuq müharibə" illərində və onun 1950-ci və 1960-cı illərdə üçüncü dünya ölkələrinə yayılması, xarici siyasətin reallaşdırılmasının mühüm vasitəsi kimi immiqrasiyanın həlledici əhəmiyyətə malik olmasını şərtləndirmişdir. 1950-ci illərin

98 Szabó, Éva Eszter. Migration As a Tool of US Foreign Policy in The Cold War. /17 May 2017/ - *http://www.hungarianreview.com/article/20170517_migration_as_a_tool_of_us_foreign_policy_in_the_cold_war*

əvvəllərində "soyuq müharibə"nin dərinləşməsi ilə immiqrasiya siyasəti əksər hallarda kommunizmlə mübarizənin həlledici resursu qismində çıxış etdi. Əhalinin miqrasiyasının tənzimlənməsi bu dövrdə bir tərəfdən müttəfiqlərin möhkəmləndirilməsi, digər tərəfdən isə rəqiblərin zəifləddilməsi üçün "potensial silah" kimi istifadə edilirdi. Bu iki siyasi sahə arasında korrelyasiyanın mənası ilk dəfə 1953-cü ildə Prezident Trumenin dövründə təsis edilmiş immiqrasiya və vətəndaşlıq məsələləri üzrə Prezident Komissiyası tərəfindən təqdim edilmiş məruzə çərçivəsində rəsmiləşdirildi. Komissiyaya icraçı əmrlə "Birləşmiş Ştatların xarici siyasətinin həyata keçirilməsinə, bizim miqrasiya qanunlarımızın və onların administrasiyasının təsirinə" yenidən baxmaq tapşırılmışdı. Komissiya tərəfindən aparılan araşdırmanın nəticələri belə vurğulanırdı: "Bizim bütün milli tariximiz bu faktı təsdiq edir: Amerikanın miqrasiya siyasəti və qanunları onun beynəlxalq nüfuzunun artırılmasına xidmət etməli və bizim xarici siyasətimizin daha uğurlu olmasına yönəldilməlidir".[99]

Hesabatda açıq şəkildə vurğulanan bu fikir çox maraqlı idi: "İmmiqrasiya qanunu bizim xarici siyasətimizin bir hissəsidir". Komissiya dövlət katibi **Din Açesonın** *(Dean Acheson)* aşağıdakı qənaətini əks etdirdi: "İmmiqrasiya hazırkı dövrdə milli dövlətçiliyimiz və onun ən vacib istiqamətlərindən biri kimi xarici siyasətimiz və onun məqsədləri ilə sıx bağlıdır. Bizim müəyyən milli və ya irqi qruplarla bağlı immiqrasiya siyasətimiz labüd olaraq onlara qarşı ümumi rəftarımızın, dünyadakı mövqelərimizin qiymətləndirilməsinin göstəricisi olaraq qəbul ediləcəkdir.[100] Beləliklə, immiqrasiya azad dünyanın lideri qismində ABŞ-ın məqsədlərini həyata keçirən əsas vasitədir. Buna görə də ABŞ-ın qəbul etdiyi immiqrasiya siyasətinin mahiyyəti

99 President's Commission on Immigration and Naturalisation, Whom We Shall Welcome, Washington, DC: Government Printing Office, 1953, pp.45-46

100 Yenə orada, s.47

"demokratiya və totalitarizmin dünya miqyaslı mübarizəsində bir amil" hesab edilmişdir.

Bu fikirlər immiqrasiya məsələlərinə münasibətdə dövlətin tamamilə yeni bir yanaşmasını ortaya qoydu. ABŞ-ın antikommunizm siyasəti ilə müəyyən etdiyi xarici siyasət miqrasiya qanunvericiliyinə, hansı növ immiqrant və qaçqınların qəbul edilməsinə böyük təsir göstərməyə başladı. Miqrant-ərizəçilərin statusu xarici siyasi maraqlara əsasən dəyərləndirilən  meyarlara əsaslanırdı. Bir sözlə, iqtisadi və siyasi miqrantlar arasındakı fərq onların hansı - qeyri-kommunist və ya kommunist - ölkələrdən olub-olmamasından asılı idi. Nəticədə bir tərəfdən qaçqınlardan kommunist ölkələrinə zərbə vurmaq üçün istifadə edilir, onların "ayaqları ilə səs verərək" azad dünyaya qaçdıqları deyilir və beləliklə, kommunist sisteminin iflasını sübut edən kompromatlar tirajlanırdı. Digər tərəfdən, ABŞ-la münasibəti normal olan ölkələrdən miqrantların qəbuluna faktiki olaraq məhəl qoyulmurdu.

"ABŞ xarici siyasəti üçün kommunist (sosialist) düşərgəsi ölkələrindən olan qaçqın axınlarından əldə edilən faydalar misilsiz idi. Çünki "soyuq müharibə" dövründə qaçqın amili xüsusilə strateji və ideoloji dəyərə malik olmuşdur. Təəccüblü deyil ki, qaçqınların qəbulunda siyasi aspektin ifrat dərəcədə önə çəkilməsi humanitar aspektləri arxa planda qoyur və milli maraqlara uyğunlaşdırılmırdı. Tarixən qaçqın siyasətinin bu aspekti yeni deyildi. Lakin qaçqın axınlarının siyasiləşdirilməsi, iqtisadi siyasətdən daha çox xarici siyasətlə sıx bağlılığının beynəlxalq münasibətlərdə istifadə olunması, əlbəttə ki, diplomatiyanın yeni bir fenomenini təşkil edirdi".[101]

Qaçqınların qəbulunda humanitar ritorikaya baxmayaraq, ABŞ-ın "soyuq müharibə" dövrünün qaçqın siyasəti humanitarizmin labüd olaraq "tərəfli" olduğunu aşkara çıxardı. Miqrasiya üzrə ekspertlər də

101 Robert L. Bach. The Cuban Exodus: Political and Economic Motivations. /in: Barry B. Levine, ed., The Caribbean Exodus, New York: Praeger, 1987, p.110.

qeyd edirlər ki, "qaçqın siyasəti mütləq olaraq siyasi seçimdir, çünki bu, seçimdir və seçim də yalnız siyasi meyarlara əsasən edilə bilər". Buna əsasən, "qaçqın siyasətində seçim, digər məsələlərdə olduğu kimi, etik və humanitar standartlardan daha çox siyasi maraqlarla bağlıdır. Lakin milli mənafelər və humanitar siyasətlə bağlı ziddiyyət yarananda ikincisi birmənalı olaraq qurban verilir.

Faktiki olaraq, insanın qaçqın kimi qəbul edilməsi belə bir təsəvvürdən asılıdır ki, o, başqa ölkədə siyasi məqsədlər baxımından münasibdir, ya yox? Humanitar borc ölkələrin öz milli maraqlarından asılı olaraq həll edilir. Kommunist ölkələrindən miqrantların qaçqınlar kimi qəbul və təsnif edilməsi "soyuq müharibə" dövrünün xarici siyasət hədəflərinə xidmət edirdi. Qaçqınlar haqqında memorandum belə bir konsepsiyanın əsaslandırılmasına xidmət edirdi ki, siyasi miqrasiyaya təkan verən məhz ABŞ-a qarşı çıxış edən ölkələrdəki hakim rejimlərdir.

Tədqiqatçıların fikrinə görə, miqrasiya siyasətinin müəyyən edilməsində xarici siyasət maraqlarının əhəmiyyəti hazırda hətta "soyuq müharibə" dövründə olduğundan daha qətiyyətli görünür. Bu gün miqrasiyanın tənzimlənməsində ümumi ortaq səylərin çətinləşdiyi, böhranın ayaq səslərinin sosial partlayışa çevrildiyi bir vaxtda belə fikir ayrılıqlarının olması məhz bu aspekt nəzərə alındığı halda düzgün dərk edilə bilər. [102]

Beləliklə, beynəlxalq miqrasiya prosesinin ziddiyyətləri yalnız o halda tam başa düşülə bilər ki, onun xarici siyasət maraqlarına tabe olan bir məsələ olması dərk edilsin. Onu prinsip şəklində bu cür ifadə etmək olar: "Miqrant kütlələrə olan rəğbətimizin, xoş rəftarımızın səviyyəsi bizim maraqlarımızın səviyyəsi ilə bağlıdır" *(The warmth of our welcome to the huddled masses relates closely to our own interests)*.[103]

102 Szabó, Éva Eszter. US Foreign and Immigration Policies in the Caribbean Basin, Szombathely: Savaria University Press, 2007, p.92

103 Victor H. Palmieri. Foreword./in Kritz, ed., İn:Growth, Exports and Jobs in a Changing World Economy: Agenda, 1988, p.5

## 2.10. İkiqütblü dünyanın çökməsi və miqrasiya siyasətində "Fərqlilik mifi" modelinin tətbiqi

"Soyuq müharibə" başa çatdıqdan sonra artıq qaçqınların Şimal ölkələrinə gəlişi arzuolunmaz vəziyyət aldı. Belə şəraitdə sığınacaq haqqını məhdudlaşdıran ***qeyri-giriş rejiminin*** institusionallaşmasına haqq qazandırmaq üçün "müxtəlifliklərlə bağlı mif" işə salındı. Sığınacaq haqqı olan, yuxarıda qeyd etdiyimiz kimi, "normal" qaçqın obrazı (ağ irqdən, kişi cinsindən və antikommunist olan) formalaşdırıldı və tirajlanaraq aydın bir mesaj kimi "sığınacaq axtaranların yeni nəslinə" ünvanlandı. Sığınacaq üçün müraciət edənlərin hər hansı ciddi əsasa malik olmaması, qonaqpərvərlikdən sui-istifadə etmələri və saylarının çox olması" kimi stereotiplərin yayılması tədricən ksenofobiyanı təsdiq etdi. Dövlət siyasəti və ksenofobiyanın artması arasında bu dialektik qarşılıqlı təsirin olması isə diqqətdən kənarda qaldı.

"Soyuq müharibə" başa çatdıqdan sonra dünya siyasi gündəminin yönəldilməsi demək olar ki, uzun müddət Qərb dövlətlərinin ixtiyarında idi. Bu dövrdə həyata keçirilən miqrasiya siyasətində hansı dəyişikliklər baş verdi? Onların nəticələri necə oldu? Son qaçqın dalğasının, qaçqınların hazırkı məcburi miqrasiyasının əvvəllər baş verən digər formalardan fərqi odur ki, burada başlıca olaraq könüllü deyil, məcburi, daha dəqiq desək, zorakı miqrasiya baş verir.

"Sığınacaqla bağlı müraciət edənlər"in yeni dalğasının gəlməsi 1980-ci illərdə qaçqınlarla bağlı tədqiqatların genişlənməsini şərtləndirdi. Qaçqın hüquqlarına münasibətdə "yeni yanaşma" formalaşdırıldı ki, bu da, qeyd etdiyimiz kimi, mövcud olan pozitiv yanaşmanın tənqidi əsasında "fərqliliklər mifi"nin (əfsanəsinin) *(myth of difference)* yaranmasını şərtləndirdi. Bu yanaşmaya görə, Avropada və üçüncü dünya ölkələrində qaçqınların axınlarına səbəb olan əsas amil məhz böyük fikir ayrılıqlarının olmasıdır.

Qaçqın və miqrantlara qarşı tətbiq edilən "sığınacaq haqqından,

girişdən imtina" *(non entree)* rejimi sadəcə müstəmləkəçiliyin ləğvindən və "soyuq müharibə"dən sonrakı dövrdə qlobal mübarizənin yeni mərhələsini təşkil etdi. Daha sonrakı mərhələdə məzlumların köçünə maneələr yaratmaq üçün müəyyən ərazilərin "dolu" və digərlərinin "boş" kimi təqdim edilməsinə başlandı. Halbuki, bu günə qədər qüvvədə olan Konvensiyaya görə, insanları tərk etdikləri və onların həyatını və ya azadlığını təhlükə altına alacaq ölkəyə geri göndərmək qadağandır. "Qaçqınların statusu haqqında" 1951-ci il Cenevrə Konvensiyasına əsasən, irqi, dini, vətəndaşlıq səbəbindən, həmçinin müəyyən bir sosial qrupa və ya siyasi partiyaya üzv olan, təqib nəticəsində öz ölkəsini tərk etmək məcburiyyətində qalan bir şəxsə qaçqın statusu verilməlidir. Qaçqın statusuna əlavə olaraq qeyd edək ki, onları vətənə və ya geri qaytaran zaman onların həyatına və ya sağlamlığına ciddi təhlükə yarada biləcək bir səbəb varsa, Aİ dövlətləri tərəfindən əlavə hüquqi müdafiəsi də təmin edilir.[104]

> Aİ miqrasiya axınlarını tənzimləməkdə aciz qalaraq, parçalanmaq təhlükəsi ilə üz-üzə qalıb. Halbuki Azərbaycan müstəqilliyin yenicə bərpa edildiyi, heç bir müvafiq strukturlara malik olmadığı ən ağır vaxtlardan - təcavüzkar müharibə, qaçqın və məcburi köçkün problemi, iqtisadi xaos və böhran şəraitindən Ümummilli lider Heydər Əliyevin miqrasiya siyasəti təcrübəsi nəticəsində çıxa bilmişdir.

Göründüyü kimi, 70 il boyu bir ölkədə yaşayan miqrantların üç nəsli immiqrasiya ilə bağlı siyasətin dəfələrlə dəyişməsinin şahidi olmuş və onlar heç bir hüquqdan bəhrələnmədən yaşamışlar.

Miqrantlar arasında fərqi qabardan siyasət - "soyuq müharibə" dövründə əhəmiyyətsiz görünən bu məqam sonradan qaçqınların ideoloji və siyasi dəyərə malik olduğunu göstərən strateji məsələ kimi mühüm əhəmiyyət kəsb etdi. Halbuki, 1980-cı ilə qədər müxtəliflik

104 UN. International migration policies: Government views and priorities. New York: United Nations. Department of Economic and Social Affairs, 2013.

arqumenti qaçqın hüququnun yenidən formalaşması üçün əsas kimi istinad edilirdi. Belə ki, 1960-cı illərdən sonrakı qaçqın böhranı sayı, olduqca böyük miqyası və görünməmiş xüsusiyyətləri baxımından əvvəlkilərdən köklü şəkildə fərqlənirdi.

Avropa qaçqınları üçüncü dünya ölkələrindən olan qaçqınlardan fərqli olaraq, siyasi təqiblərin fərdiləşdirici meyarlarına müvafiq gəlirdi. Belə ki, Avropadan gələn qaçqınlardan fərqli olaraq, sığınacaq iddialarının əksəriyyəti qeyri-Qərb ölkələrindən gələn qaçqınların saxta, siyasi səbəblərlə əlaqəsi olmayan iqtisadi maraqların incə maskalanmış niyyətləri kimi özünü büruzə verirdi.

Sovet İttifaqı dağıldıqdan sonra postsovet məkanı ölkələrində miqrasiya axınlarının kütləvi xarakter alması da qanunvericiliyin dəyişdirilməsinə öz təsirini göstərdi. Bu prosesin genişlənməsinə təsir edən səbəblər bir tərəfdən postsovet məkanı ölkələrinin dərin iqtisadi böhranla üzləşməsi idisə, digər tərəfdən demək olar ki, bütün ölkəni əhatə edən və müəyyən mənada kənardan müdaxilə və idarə edilməklə yaradılan etnik münaqişələrlə bağlı idi. SSRİ-nin süqutu ərəfəsində başlanan iqtisadi böhran bir qədər sonra münaqişələrin baş qaldırması və siyasi böhranla çulğaşdı. Kütləvi miqrasiya axınları demək olar ki, tənzimlənməsi qeyri-mümkün olan bir prosesə çevrildi. Bu baxımdan məcburi miqrantlar haqqında qanuna edilən əlavələrdə qeyd edilirdi ki, üçüncü dünya ölkələrindən olan qaçqınların axını Avropa qaçqınlarından fərqli olaraq beynəlxalq münaqişələrdən deyil, daxili münaqişələrdən qaynaqlanır və bunun üçün yalnız postmüstəmləkə dövləti məsuliyyət daşıyır.

1969-cu ildə Afrika Birliyi Təşkilatının Konvensiyasının 1951-ci il Cenevrə Qaçqın Konvensiyasından ayrılması, üçüncü dünya ölkələrindən olan qaçqınların vəziyyətinin şimaldakılardan fərqli olmasını açıq şəkildə təsbit etdi. Qaçqınlığı hətta bir imtiyaz səviyyəsinə qaldıran mövqelər də ortaya çıxdı: "Biz hesab edirik ki, qaçqınlar dünyanın ən talesiz şəxslərindən biri kimi təhlükə və təqiblərə məruz qaldıqdan sonra

zorla doğulduqları ölkə xaricinə yeni həyat axtarmağa vadar edilirlər. Eyni zamanda paradoks bundan ibarətdir ki, "qaçqın olmaq" - dünya ictimaiyyətinin bu güclü etiket və himayə altında qəbul etməyə hazır olduğu şəxslərin sinfinə düşmək günümüzdə həm də bir imtiyaza malik olmaq deməkdir".[105]

**Devid A.Martin** Qərb hökumətlərinin məhdudlaşdırıcı tədbirlərini müdafiə edərək yazır: "İndi birbaşa hərəkət edənlərin əhəmiyyətli bir hissəsi evdən çıxmağı könüllü seçməyən, mövcud iqtisadi və siyasi çətinlikləri fəlakət hesab etməyən insanlardır. Bu yeni sığınacaq axtaranların motivləri nə qədər əsaslı olsa da dərindən baxdıqda ən azı Qərb ölkələrində ictimaiyyətin əksəriyyətinin təsəvvüründəki qaçqın obrazına uyğun gələn özəl xüsusiyyətlərə malik deyildir. Qaçqınların vəkilləri bəzən Qərbdə ksenofobiya və irqçiliyin artması kimi yeni meyilləri inkar etməyə, yerli hökumət rəsmilərinin cəhd edildiyi halda təzahürlərin aradan qaldırılmasına nail ola biləcəyi fikrini vurğulamağa çalışırlar. Təbii ki, ksenofob və irqçi qruplar da bu izahı özlərinə siyasi divident əldə etmək üçün istifadə edirlər. Lakin indiki məqamda bütün bunlar həmin təzahürləri təkzib etmək və ya qaçqın statusuna kimin sahib ola bilməsinə dair geniş mübahisə meydanı açmaq üçün kifayət deyil.

Beləliklə, XX əsrin 80-ci illərindən Qərb dövlətləri yuxarıda qeyd etdiyimiz *"non entree"* rejimini tətbiq etməklə qaçqın probleminin ədalətli həlli mexanizmlərini arxa plana atmış, qaçqın axınlarının səbəblərinin daxili-milli amillərlə şərtlənməsi təsəvvrürlərinin yaranması və təşviqi yönündə əllərindən gələni etmişlər.

"Sığınacaq hüququ son illər daha çox təzyiq altındadır. Belə ki, Qərb dövlətləri müraciət edənlərin mənşə və tranzit prosesində olan ölkələri ilə əməkdaşlıq edir, öz ərazilərinə can atan mühacirlərin qarşısını istənilən vəchlə almağa səy göstərirlər. Bu siyasət qaçqın və mühacir hüquqları qarşısında duran böyük çağırışdır. Qaçqın və insan hüquqları rejiminə əhəmiyyət verməyən, onu konkret ərazi və dövlətin məsuliyyətinə həvalə

105 Martin, D. A. (ed.) The New Asylum Seekers: Refugee Law in the 1980s, Dordrecht: Martinus Nijhoff Publishers.1988, p.1-20. -*https://link.springer.com/chapter/10.1007/978-94-017-6389-9_1*

edən bu yanaşma biganəlikdən başqa bir şey deyil. Sığınacaq haqqından məhrum edən *(non-entree rejimi)* siyasət çərçivəsində baxıldıqda, mövcud beynəlxalq hüquqda eksterritorial öhdəliklərin və ümumi məsuliyyətin hüdudları bilinmir".[106]

Ümumi əhval-ruhiyyəyə görə, əgər həm insan hüquqlarının qorunması, həm də insan hüquqlarının universallığı prinsipləri qorunub-saxlanılacaqsa, Avropa vətəndaşlarının miqrasiya ilə bağlı çoxsaylı narahatlıqlarını nəzərə almamaq qeyri-mümkün olacaq. Eyni zamanda, bu cür gərginlik Avropa ölkələrində qaçqın böhranı ilə əlaqədar müxtəlif formalı nifaq və qarşıdurmalar yarada bilər. Çünki Avropa xalqlarının miqrasiya böhranına özlərinin coğrafiyası və tarixindən asılı olaraq müxtəlif baxışları mövcuddur.

**"Non entree" rejimi** Avropa dövlətlərinin sığınacağa icazədən imtina etməsi, çəkindirmə-məhdudlaşdırma siyasətidir. "Fərqlilik mifi"nin mərkəzi ideyası bundan ibarətdir ki, üçüncü dünya ölkələrindən olan qaçqın axınlarının başlıca səbəbləri Avropadan olan qaçqın axınlarının səbəblərindən fərqlənir. Məsələ onda deyil ki, Avropadan və üçüncü dünya ölkələrindən olan qaçqın axınları arasında heç bir fərq yoxdur. Təbii ki, fərqlər var. Həqiqətdə nəinki hər bir qaçqın, hətta onu qaçmağa məcbur edən hallar da bir-birindən fərqlənir. Burada məsələ ondan ibarətdir ki, əsas kimi gətirilən "fərqlilik mifi" məqsədyönlü şəkildə şişirdilir, təşviqat xarakteri daşıyır, xüsusi təbliğ edilir. Bu, qlobal sistemin özünə xidmət edən və qaçqın problemi ilə mübarizə aparmağa mane olan vəziyyətdir.

Qərbdən və üçüncü dünya ölkələrindən gələn qaçqın axınlarının fərqli/müxtəlif mahiyyətinə dair fikirlər, onların "qaçqın və miqrant, məcburi köçkün" səviyyələrinə ayrılması absurd görünsə də, Qərb cəmiyyətinə girişin maksimal dərəcədə məhdudlaşdırılmasına xidmət edən siyasətdən başqa bir şey deyil.

Müstəmləkə siyasəti dövründən başlanğıcını götürən və miqrantlara

106 State cooperation preventing access to asylum: the law and politics of cooperative non-entrée. *-https://www.humanrights.dk/projects/state-cooperation-preventing-access-asylum-law-politics-cooperative-non-entree*

yanaşmada tətbiq edilən bu ənənəni **Oliver Beykvel** *(Oliver Bakewell)* "oturaqlıq qərəzi" (*sedentary bias*) adlandırır. O, bu yanaşmanın mahiyyətini belə izah edir: "Yoxsullar rifah və ictimai asayiş üçün təhlükə yaratdıqlarından hərəkət-miqrasiya etməməli və buna görə də evlərində oturmalıdırlar".[107]

Bundan əlavə, son illərdə qaçqınların kütləvi axınlarına gətirib çıxaran çoxsaylı münaqişələrin dərin təhlili onu göstərir ki, onlar müstəmləkəçi miqrasiya siyasətinin mirası, hüquqi don geyindirməklə bu siyasətdən əl çəkilməməsinin, XXI əsrdə də davam etdirilməsinin nəticəsidir.

Yuxarıda adını qeyd etdiyimiz amerikan alim **K.Nyulendin** tədqiqatlarında miqrasiya və inkişafın, beynəlxalq miqrasiyanın idarə edilməsinin və qaçqınlarla bağlı siyasətin ziddiyyətli məsələləri də öz əksini tapır.[108] Müəllif "XXI əsrdə qaçqın böhranına yeni yanaşmalar: beynəlxalq birliyin rolu" adlı yeni kitabında yazır: "Qaçqın və miqrantlarla bağlı mövcud olan üç klassik "uzunmüddətli həll metodu" artıq işləmir. Üç yanaşma bunlardır: 1.Vətənə (qovulmuş yerə) qaytarılma; 2. Miqrantın gəldiyi ölkəyə daimi inteqrasiya prosesi; 3.Sığınacaq və həyati vacib ehtiyacları qarşılama. Problemin həlli üçün tamamilə yeni yanaşmalar lazımdır".[109]

Ümumilikdə, bəhs edilənlərdən məlum olur ki, "soyuq müharibə"dən sonra, XX əsrin sonlarına doğru beynəlxalq qaçqın hüququna Qərb ölkələri tərəfindən istənilən vaxt və istədikləri kimi düzəliş və əlavələr edilmişdir. Təəccüblü odur ki, bu dəyişikliklər nəinki miqrasiya siyasətinin yaxşılaşmasına və problemlərin həllinə xidmət etmiş, əksinə onlar daha da dərin ziddiyyətlərin yaranmasına səbəb olmuşdur. "Qərb mərkəzli" beynəlxalq miqrasiya siyasətinin xüsusiyyətləri onun məhz Qərb maraqlarının xidmətində durması ilə səciyyələnir.

---

107 Bakewell O. Keeping them in their place: the ambivalent relationship between development and migration in Africa,IMI Working Paper 8 Oxford: International Migration Institute, 2007, p.97

108 Newland, Kathleen. - *https://www.migrationpolicy.org/about/staff/kathleen-newland*

109 Newland, K. New Approaches to Refugee Crises in the 21st Century: The Role of the International Community. - *https://www.migrationpolicy.org/research/new-approaches-refugee-crises-21st-century-role-internati onal-community*

## 2.11. Cənubi Qafqazda miqrasiya proseslərinin episentri kimi Azərbaycan: Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi səbəbləri və həll edilməsi aspektində miqrasiya amilinin yeri və rolu

*"Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazisi uzun illərdir ki, işğal altındadır. Bir milyondan artıq azərbaycanlı qaçqın-köçkün vəziyyətinə düşmüşdür, bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır, torpaqlarımızın təxminən 20 faizi 20 ildən çoxdur ki, işğal altındadır. Baxmayaraq ki, beynəlxalq təşkilatlar, ilk növbədə, BMT müvafiq qərar və qətnamələr qəbul etmişlər, ancaq məsələ öz həllini tapmır. BMT-nin Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edib və orada göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. O qətnamələrin qəbul olunmasından 20 ildən çox vaxt keçir. Ancaq bu qətnamələr kağız üzərində qalıb. Nəyə görə?! Çünki ikili standartlar, ayrı-seçkilik var. Bəzi hallarda Birləşmiş Millətlər Təşkilatının qətnamələri bir gün ərzində icra edilir, amma bizə gəldikdə bu, 20 ildən çoxdur ki, icra edilmir və işğalçı dövlətə qarşı heç bir sanksiya tətbiq edilmir. Bu, böyük ədalətsizlikdir".*[110]

**İlham Əliyev**
***Azərbaycan Respublikasının Prezidenti***

Miqrasiya siyasətinin tarixinə toxunarkən onun milli dövlətin siyasəti kimi Yeni dövrdən - müstəmləkəçilik dövründən yaranması, sistemli şəkildə həyata keçirilməsi qeyd edildi. Ümumilikdə, miqrasiya proseslərinin imperiya və metropoliyaların kolonializm-

110 İlham Əliyevin və Türkiyənin Baş nazirinin mətbuat üçün bəyanatları. /03 iyun 2016-cı il/ - *president.az/articles/20280/print*

məskunlaşdırma siyasəti ilə sıx bağlılığı və tarix boyu davam etməsi ədəbiyyatdan məlum məsələdir.[111]

Sözü gedən proseslər geosiyasi statusu və sivilizasiyalararası coğrafi mövqeyi baxımından strateji əhəmiyyət kəsb edən Cənubi Qafqazda da tarixin bütün dövrlərində intensiv davam etmişdir. Tarixən geosiyasi parçalanma xəttinin üzərində yerləşən region dövlətləri, xüsusilə də təbii resursları baxımından daha zəngin olan Azərbaycan ərazisi vaxtaşırı olaraq müxtəlif güc mərkəzlərinin maraqlar mübarizəsi və rəqabət məkanına çevrilmişdir.

Dünya imperiyalarının toqquşan geosiyasi maraqları kontekstində müstəmləkəçilk siyasətinın ən mühüm istiqamətlərindən biri, qeyd edildiyi kimi, məhz müstəmləkəçi məskunlaşdırma - köçürmə (koloniyalaşdırma) siyasəti olmuşdur. Bu baxımdan Çar Rusiyasının Qafqazda yeritdiyi müstəmləkəçilik siyasətinin başlıca hədəflərindən biri də yaxın müttəfiqlərdən dayaq yaratmaqdan ibarət idi. Hələ I Pyotrun dövründən ermənilərin Azərbaycanın qədim ərazilərinə köçürülərək burada məskunlaşdırılması imperiyanın məqsədyönlü siyasətinin tərkib hissəsi olmuşdur. Bu siyasət regionda milli, etnik-siyasi nifaq yaymaqla çoxsaylı münaqişələrin başlanğıcını qoymuş, həmin problemlərin nəticəsi kimi bu günümüzə qədər gəlib çıxan və həll edilməyən münaqişələr miras qalmışdır.

"Azərbaycan 1828-ci ildə bölüşdürüldükdən və ölkənin şimalı Rusiya tərəfindən işğal edildikdən sonra hakimiyyət orqanları sistemli şəkildə Azərbaycan torpaqlarına digər xalqları yerləşdirməyə başladılar. Çar Rusiyası hökuməti Türkmənçay (1828-ci il) və Ədirnə (1829-cu il) müqavilələrindən sonra İran və Osmanlı

111 Emmer, Pieter C., Lucassen, Leo. Migration from the Colonies to Western Europe since 1800, in: European History Online (EGO), published by the Leibniz Institute of European History (IEG), Mainz 2012-11-13. URL: *http://www.ieg-ego.eu/emmerp-lucassenl-2012-en* URN: *urn:nbn:de:0159-2012111308*

imperiyasından erməni əhalisinin kütləvi şəkildə Azərbaycana köçürülməsinə başladı. Nəticədə Cənubi Qafqaza təxminən 1 milyona yaxın erməni köçürüldü. Beləliklə, Cənubi Qafqazda ermənilərin sayı 1 milyon 300 min nəfərə çatdırıldı".[112]

Məlum olduğu kimi, İran və Osmanlı imperiyası arasında gedən müharibələrin uğurlu nəticəsi "Rusiyaya İrandan və Türkiyədən yüz minlərlə ermənini Cənubi Qafqaza köçürtməyə və burada onlar üçün Qafqazın bütün tarixi boyu ilk presedent olacaq "erməni fiziki-coğrafi vahidini - "Erməni əyalətini" yaratmağa imkan verdi. Ermənilər regionda çar hökumətinin əsas müttəfiqi rolunda çıxış edirdilər və məhz onların azərbaycanlıların və gürcülərin maraqlarını məhdudlaşdıraraq maksimal üstünlüklərə nail ola bilməsini yalnız bununla izah etmək olardı".[113]

Amerika tarixçisi Tadeuş Svyatixovskinin də qeyd etdiyi kimi, "Rusiyanın qanadının altında erməni əhalisi müsəlmanlardan daha sürətli, əhəmiyyətli dərəcədə inkişaf etməyə başladı. Müvafiq olaraq, ermənilər bəhs edilən həmin dövr üçün Azərbaycan iqtisadiyyatının inkişaf mərhələsinə qədəm qoymasından daha yaxşı bəhrələnmiş oldular".[114]

Bu gün məlumdur ki, XIX əsrin 20-ci illərindən, "1828-ci ildən Çar Rusiyasının köçürmə siyasəti ilə reallaşdırılmasına başlanılan miqrasiya proseslərinin 1988-ci ildə başa çatması nəticəsində Ermənistanda yaşayan axırıncı 160 mindən artıq azərbaycanlı bütün varidatları talan edilməklə oradan qovuldu. Bunun ardınca

112 XX əsrin ən amansız soyqırımı - 31 Mart/ müsahibə/ Musa Qasımlı: "Ermənilər azərbaycanlılara qarşı yalnız bir prinsiplə soyqırım həyata keçirirdi - "türksənsə öldürülməlisən" / "İki sahil" qəzeti, 31 mart 2011, s. 11/ *- http://www.anl.az/down/meqale/iki_sahil/2011/mart/165206.htm*

113 Джаббаров Ф. О некоторых аспектах национальной политики Российской империи в Северном Азербайджане. // "Strateji təhlil" jurnalı, № 3-4 (21-22), 2017, с.245

114 Свиетоховский Т. Русский Азербайджан. 1905-1920. Формирование национального самосознания в мусульманском сообществе. // "Хазар", №1, 1990, с. 99

Azərbaycana qarşı ərazi iddialarının irəli sürülməsi və Dağlıq Qarabağın kimə məxsus olması kimi qondarma məsələ müzakirə predmetinə atılaraq açıq silahlı müharibəyə başlanıldı".[115]

"Çar Rusiyasının ermənilləri Azərbaycan torpaqlarına dəfələrlə köçürmə siyasəti nəticəsində sonrakı torpaq iddiaları ilə Azərbaycanın geostrateji konfiqurasiyasına müdaxilə edilməsi artıq sübut edilmiş qənaətdir".[116] Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli sayı milyondan çox olan məcburi miqrant-qaçqın və köçkünlərin torpaqlarına qaytarılması ilə bağlıdır.

Hazırkı miqrasiya böhranı baş verənə qədər Azərbaycan dünyada ən çox qaçqın əhalinin yaşadığı ölkə olmuşdur. Sosialist sisteminin çökməsi ilə yeni müstəqillik qazanan Azərbaycan dövləti miqrasiyanın demək olar ki, ən fəlakətli forması ilə üz-üzə qalmışdır. İşğalçı Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyü pozulmuş və bir milyona yaxın soydaşımız zorakı miqrasiyaya məruz qalmışdır. Qaçqın və məcburi köçkün axını dövlətimizin milli təhlükəsizliyi üçün böyük təhdid mənbəyinə çevrilmişdir.

Bütövlükdə isə "1988-1993-cü illərdə Ermənistan silahlı qüvvələrinin ölkəmizə hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi – Dağlıq Qarabağ, eləcə də ona bitişik olan 7 rayonun ərazisi işğal olundu (Ağdam, Füzuli, Laçın, Qubadlı, Cəbrayıl, Zəngilan, Kəlbəcər), bir milyona yaxın soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşdü.[117]

115 Qeybullayev Q. Qədim türklər və Ermənistan. B.: Azərnəşr, 1992, s.6
116 McCarthy J. Armenian Terrorism: History as Poison and Antidote, "International Terrorism and the Drug Connection, Ankara, (Ankara University Press), 1984, p.15
117 Ermənistanda aparılan etnik təmizləmə və Ermənistan silahlı qüvvvələri tərəfindən Azərbaycanın 20 faiz ərazisinin işğalı nəticəsində yaranmış bir milyonadək qaçqın və məcburi köçkünlər haqqında məlumat (1988-2011-ci illər) - *http://www.refugees-idps-committee.gov.az/docs/kitab.pdf*

## Ermənistanın işğalçılıq siyasətinin nəticələri[118]




Beləliklə, istər XIX əsrdə imperiyalararası müharibələrdə tarixi torpaqlarımızın parçalanması, istərsə də həmin dövrdən etibarən ermənilərin məqsədyönlü şəkildə Azərbaycan torpaqlarına köçürülməsi, gəlmə-miqrant anklavlarının sonda dövlətimizə qarşı ərazi iddiaları ilə çıxış etməsi şovinist separatizmdən qaynaqlanan münaqişəyə səbəb olmuşdur.

Burada tədqiqatın mövzusu ilə səsləşən məqam - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yaranmasının səbəbləri və bu gün də həll edilməməsinin nəticəsi kimi də məhz:

- ***birincisi, tarixən müstəmləkəçi məskunlaşdırma siyasəti nəticəsində Azərbaycan ərazilərinə köçürülmüş ermənilərin***

118 Ermənistan silahlı qüvvələri tərəfindən əraziləri işğal olunmuş və ya zərər çəkmiş, Ermənistanla və Dağlıq Qarabağla həmsərhəd olan rayonlar barədə məlumat. - *http://www.refugees-idps-committee.gov.az/az/pages/1.html*

***dövlət qurması və sonradan torpaq iddiaları ilə çıxış etməsi;***

- ***ikincisi, ermənilər tərəfindən etnik təmizləməyə məruz qalmış azərbaycanlıların məcburi-zorakı miqrasiyasının səbəb və nəticələrinin aradan qaldırılmasında, ədalətin bərpa olunmasında maraqlı olmayan geosiyasi güclərin "ikili standartlar" siyasətinin mövcudluğu, beynəlxalq hüququn iflasa uğramasıdır.***

Bu gün KİV-də hər gün xəbər başlıqlarında yer alan humanitar fəlakətə məruz qalan miqrant axınlarının mənzərəsi 1988-ci ildən Ermənistan tərəfindən etnik təmizləməyə məruz qalmış soydaşlarımızın öz tarixi torpaqlarından görünməmiş axınının başladığı, paytaxt Bakıya üz tutduğu dövrü yada salır. Aİ miqrasiya axınlarını tənzimləməkdə aciz qalaraq, parçalanmaq təhlükəsi ilə üz-üzə qalıb. Halbuki Azərbaycan müstəqilliyin yenicə bərpa edildiyi, heç bir müvafiq strukturlara malik olmadığı ən ağır vaxtlardan - təcavüzkar müharibə, qaçqın və məcburi köçkün problemi, iqtisadi xaos və böhran şəraitindən Ümummilli lider Heydər Əliyevin miqrasiya siyasəti təcrübəsi nəticəsində çıxa bilmişdir.

Məcburi-zorakı miqrasiyanın tənzimlənməsində ümumi olan məsələ beynəlxalq münasibətlər sistemində münaqişənin həllində maraqlı olmayan geosiyasi güclərin "ikili standartlar" siyasəti mövqeyindən çıxış etməsidir.

Digər məsələ odur ki, münaqişənin yaranmasından keçən on illər ərzində heç bir ölkə qondarma "Dağlıq Qarabağ" rejimini tanımasa da, beynəlxalq təşkilatların münaqişələrin həllində siyasi mexanizmlərə və hüquqi mandata malik olmaması dözülməz vəziyyət yaradır. Azərbaycan torpaqlarının işğal edilməsinə dair BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən dörd qətnamə erməni qoşunlarının Azərbaycanın işğal altında olan bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Lakin onlara bu günə qədər əməl edilməmişdir.

"İkili standartlar" vəziyyəti beynəlxalq hüquq və ədalətə güclü zərbə vurur. Belə ki, bəzi hallarda münaqişəyə səbəb olan ölkələrə münasibətdə sanksiyalar qəbul edilir. Məsələn, Ukrayna hadisələri "ikili standartları" bir daha sınaqdan çıxartdı. Belə ki, ABŞ baş verən hadisələrə çevik reaksiya verərək 48 saat içində "beynəlxalq hüququn pozulmasına görə sanksiyalar tətbiq edəcəyinə dair" qərarını açıqladı. Müqayisə üçün qeyd edək ki, Yaxın Şərqdə ən uzunmüddətli - İsrail-Fələstin münaqişəsinin başlamasından yalnız 48 il ötəndən sonra ABŞ hadisəyə hüquqi reaksiya verib, işğal faktının olduğunu qeyd etmişdir. Təcavüzkar Ermənistan dövlətinin Azərbaycan torpaqlarını işğal etməsindən isə 30 ilə yaxın vaxt keçir.

Bütün bunlar yeni münaqişələrin və müvafiq olaraq yeni qaçqın axınlarının yaranmasına təkan verir və verəcəkdir. Çünki ikili standartlar işğalçı dövlət və strateji tərəfdaş ölkə arasında bərabərlik işarəsini qoyur. Burada beynəlxalq hüquq quru şüara çevrilir. Dağlıq Qarabağ münaqişəsi nümunəsində təcavüzkar ölkəyə heç bir təzyiq edilmir, işğalçı cəzalandırılmır.

Ədalətə ikili yanaşmanın digər heyrətamiz misalı işğala məruz qalan ölkə ilə bağlı qəbul edilən haqsız qərarlardır. Belə ki, ABŞ Konqresinin 1992-ci ildə erməni lobbisinin dəstəyi ilə qəbul etdiyi, Azərbaycana dövlət yardımını qadağan edən 907-ci düzəliş - "Azadlığa Dəstək" Aktı bu gün də qüvvədədir. Sənədə görə

Hazırkı miqrasiya böhranı baş verənə qədər Azərbaycan dünyada ən çox qaçqın əhalinin yaşadığı ölkə olmuşdur. Sosialist sisteminin çökməsi ilə yeni müstəqillik qazanan Azərbaycan dövləti miqrasiyanın demək olar ki, ən fəlakətli forması ilə üz-üzə qalmışdır. İşğalçı Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyü pozulmuş və bir milyona  yaxın soydaşımız zorakı miqrasiyaya məruz qalmışdır. Qaçqın və məcburi köçkün axını dövlətimizin milli təhlükəsizliyi üçün böyük təhdid mənbəyinə çevrilmişdir.

illərdir ki, təcavüzkar dövlətə də, separatçı qondarma rejimə də əraziləri işğal edilmiş Azərbaycandan daha çox yardım edilir!

Qeyd edilənlər baxımından Azərbaycanın haqq işi - ərazi bütövlüyünün bərpa edilməsi uğrunda mübarizəsi həm də beynəlxalq münasibətlər və hüquq sistemində ənənəyə çevrilən "ikili standartlara" qarşı mübarizədir.

Hazırkı miqrasiya böhranı fonunda paradoksal olan digər məqam da diqqəti cəlb edir: Azərbaycan dövləti Ermənistanın işğalçı siyasəti nəticəsində qaçqın düşən bir milyondan çox soydaşımızın tarixi torpaqlarına qayıtması yönündə öz haqqını və beynəlxalq birliyin dəstəyini tələb etdiyi bir vaxtda qaçqın selinə qərq olan Avropada humanitar fəlakətin tənzimlənməsinə dair ölkəmizin təcrübəsinin öyrənilməsinə ehtiyac yaranmışdır. Belə ki, Azərbaycanın hələ müstəqil dövlət kimi möhkəm təməllərini qurmadan üzləşdiyi məcburi miqrasiya axınlarını tənzimləməsi, üstəlik artıq qaçqınlara yardım edən donor ölkəyə çevrilməsi yönündə təcrübəsi dünyanın diqqətini cəlb etmişdir.

Qaçqın miqrantlarla bağlı problemlərin həllinə həsr edilən beynəlxalq görüşlərdə nəzərlər Azərbaycanın dövlət başçısının humanitar fəlakətin idarə olunmasında Azərbaycan təcrübəsindən bəhs edən nitqlərinə yönəlmişdir. 2016-cı ilin fevralında Azərbaycan Respublikasının Prezidenti BMT-nin sabiq Baş katibi Pan Gi Munun, Böyük Britaniya

Məcburi-zorakı miqrasiyanın tənzimlənməsində ümumi olan məsələ beynəlxalq münasibətlər sistemində münaqişənin həllində maraqlı olmayan geosiyasi güclərin "ikili standartlar" siyasəti mövqeyindən çıxış etməsidir. Digər məsələ odur ki, münaqişənin yaranmasından keçən on illər ərzində heç bir ölkə qondarma "Dağlıq Qarabağ" rejimini tanımasa da, beynəlxalq təşkilatların münaqişələrin həllində siyasi mexanizmlərə və hüquqi mandata malik olmaması dözülməz vəziyyət yaradır.

və Şimali İrlandiya Birləşmiş Krallığının sabiq Baş naziri Devid Kemeronun, Almaniya Federativ Respublikasının Kansleri Angela Merkelin, Norveç Krallığının Baş naziri Erna Solberqin və Küveyt Dövlətinin Əmiri Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın dəvəti ilə Londonda "Suriyaya və regiona dəstək" adlı konfransda iştirak etmişdir.[119]




Suriyaya təcili və uzunmüddətli yardımın təmin edilməsi, regionda humanitar və təhsil layihələrinin reallaşdırılması, böhrandan əziyyət çəkən qaçqın axınlarının tənzimlənməsi və sosial problemlərin həll olunması ilə bağlı müzakirələrdə dövlətimizin başçısı qeyd edib ki, **"Biz Suriya qaçqınlarının halına çox acıyırıq. Müstəqillik illərində - 1990-cı illərin əvvəlində Ermənistan Azərbaycana qarşı təcavüz edəndə Azərbaycan özü humanitar fəlakət və böhrandan əziyyət çəkib. Bu təcavüz nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi işğal olundu. Biz etnik təmizləməyə məruz qaldıq. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. Bu, həqiqətən də humanitar fəlakət idi. Həmin vaxt adambaşına düşən qaçqın sayına görə ən yüksək göstə-**

119 İlham Əliyevin Londonda "Suriyaya və regiona dəstək" konfransında nitqindən. /04 fevral 2016/ - *https://president.az/articles/17957*

**rici olan səkkiz milyon əhalidən bir milyonu evsiz və işsiz qalaraq, yaşayış imkanlarından məhrum olmuşdur. Biz bu böyük iqtisadi və sosial çətinliklərdən əziyyət çəkmiş bir ölkə kimi buna necə nail olmağın yolunu bilirik. Biz iş yerlərinin yaradılmasında təcrübəmizi paylaşa bilərik. Humanitar böhranın idarə olunması üzrə təcrübəmizi də paylaşa bilərik və biz bunu edəcəyik".**[120]

Miqrasiya böhranı və humanitar fəlakətin yaşandığı Suriyada baş verən proseslərə münasibətdə iki misal dövlətlərin liderlərinin problemə ədalətli beynəlxalq hüquq prinsipləri əsasında yanaşmasını bir damla suda olduğu kimi əks etdirir. Bəhs edildiyi kimi, Azərbaycanın dövlət başçısı ən yüksək tribunalara dəvət edilir və o, ağır faciənin həllinə öz zəngin təcrübəsini, köməyini və töhfəsini verir.

Bu məqamda Azərbaycan torpaqlarının işğalında əli qana batan Ermənistanın sabiq dövlət rəhbərləri nə edirlər? Azərbaycanın işğal olunmuş ərazilərində Suriya əsilli erməniləri yerləşdirmək siyasətini həyata keçirirlər!? Məlumata görə, Suriyada vətəndaş müharibəsi başlanandan sonra ölkəni tərk etmiş erməni mənşəli suriyalıların təxminən üçdə biri - 15-17 min nəfər Ermənistanda məskunlaşmışdır. 2012-ci ildən bəri 15 minə yaxın Suriya ermənisinə Ermənistan vətəndaşlığı verilib.[121] Ermənistan vətəndaşlığı olmayanlar dərhal sərhədkeçid məntəqələrində Ermənistan vizasını ala bilir və ölkədə müvəqqəti yaşamaq icazəsi üçün rüsumlardan azad olurlar. Azərbaycan hökuməti işğal altında olan ərazilərində erməni qaçqınlarının yerləşdirilməsinə etirazını bildirmiş və bunu "yolverilməz" hesab etdiyini demişdir.[122] Üstəlik də bu barədə beynəlxalq hüquqa meydan oxuyan bəyanatlar Avropa kürsülərindən səslənir. Necə deyərlər, şərhə ehtiyac yoxdur.

Hazırda yaşanan miqrant böhranının Cənubi Qafqaz regionunda təhlükəsizliyə təsiri və geosiyasi mərkəzlərin bu sahədə maraq və

120 Yenə orada

121 Армения приняла 13 тыс. сирийских беженцев за три года. - *http://www. mir24.tv/news/society/12802259*

122 Suriyalı qaçqınlar Laçında - video /08.04.2013/ - *http://www.bbc.com/azeri/multimedia/2013/04/130408_syria_refugees_karabakh*

mənafelərinin toqquşması, Azərbaycanın sərhədləri ətrafında miqrant axınlarının intensivləşməsinin mümkün siyasi və iqtisadi nəticələri, meyilləri diqqət mərkəzindədir. Xüsusilə qeyd etmək lazımdır ki, hazırda dünyada yaşanan miqrasiya böhranı və miqrantların üzləşdikləri humanitar fəlakət Cənubi Qafqaz regionunda artıq onsuz da mürəkkəb vəziyyətdə olan qaçqın probleminin doğurduğu konfliktogen vəziyyəti daha da gərginləşdirir. Suriyadan qaçqın düşən erməni əsilli miqrantların Ermənistan tərəfindən Azərbaycanın işğal edilmiş torpaqlarında, Dağlıq Qarabağda yerləşdirilməsi cəhdləri tədqiq edilən problemin istər beynəlxalq münasibətlər, istərsə də miqrasiyanın geosiyasi maraqlarla sıx bağlılığı, beynəlxalq münasibətlərdə ikili standartlar siyasətinin "absurd normaya" çevrilməsini dərk etmək baxımından bir daha aktuallıq kəsb etdiyini göstərir.

Azərbaycan dövləti münaqişənin həllində bu münasibəti əsaslı arqumentlərlə dəfələrlə ifşa etməsinə baxmayaraq, status-kvonun dəyişməməsində maraqlı olan qüvvələr üstünlük təşkil edir. Bütün bunların nəticəsi isə "bumeranq effekti ilə" - yaşanılan qlobal miqrant faciələri ilə münaqişələrin həllində ədaləti deyil, ikili standartları müdafiə edən dövlətləri təhdid edir.

Prezident İlham Əliyev İran İslam Respublikasının Radio-Televiziya Şirkətinə müsahibəsində bu vəziyyəti bir daha vurğulayaraq qeyd etmişdir: "**Ermənistan hələ də BMT başda olmaqla dünyanın aparıcı təşkilatlarının işğal altında olan torpaqların azad olunmasını tələb edən qətnamələrini yerinə yetirməkdən boyun qaçırır. Təəssüf ki, dünya birliyi bu günədək problemin beynəlxalq hüquq norma və prinsipləri çərçivəsində həllinə nail olmaq üçün Ermənistana qarşı heç bir real təsir mexanizmi tətbiq etməmişdir. O cümlədən münaqişənin tənzimlənməsi məqsədilə yaradılmış ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyəti də bu günədək heç bir nəticə verməmişdir. Əminliklə demək olar ki, işğal faktının 20 ildən artıq davam etməsinə hazırda dünyada müşahidə olunan ikili standartlar siyasətinin də təsiri az deyildir. Faktlar sübut edir**

**ki, beynəlxalq birlik dünyanın ayrı-ayrı nöqtələrində baş verən oxşar hadisələrə selektiv yanaşma nümayiş etdirir. Bəzi hallarda işğal faktı kəskin qınanmaqla yanaşı, həm də problemin həlli üçün ciddi təsir mexanizmləri işlənib hazırlanır və qısa zamanda tətbiq edilir. Təəssüf ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə gəldikdə, passiv yanaşma müşahidə olunur və münaqişə tərəfləri – işğalçı ilə işğala məruz qalana eyni münasibət göstərilir. Bu ədalətsizlik həm də müsəlman dövləti olduğu üçün Azərbaycana qarşı nümayiş etdirilən fərqli yanaşmadan - dini ayrı-seçkilikdən qaynaqlanır. Biz beynəlxalq hüquqa bu qədər açıq hörmətsizliyi, işğalçılıq siyasətinə bu qədər aşkar bəraət qazandırmaq cəhdini anlaya bilmirik".**[123]

Qeyd edilənlər beynəlxalq münasibətlər və hüquq sistemində qlobal miqrasiyanın siyasi aspektlərinin aşkara çıxarılmasının vacibliyini bir daha göstərir. Çünki miqrasiya probleminin siyasi aspektləri miqrant axınlarının yaranmasından tutmuş onun həllinin uzadılmasına, yeni ziddiyyətlərin ortaya çıxmasına qədərki bütün mərhələlərdə həlledici təsirə malikdir. Miqrasiya böhranının həlli ilk növbədə siyasi iradədən asılıdır.

Bu kontekstdə onu da qeyd edək ki, miqrasiya böhranı daha bir məqamı üzə çıxartdı. Bu da əsasən siyasi lider amilinin zəif olduğu, inkişaf proseslərindən geridə qalan zəif ölkələrdən miqrasiya dalğasının daha çox olması kimi reallıqdır. Başqa dövlətlərin torpaqlarında gözü olan Ermənistan əhalisi Cənubi Qafqaz regionunda ən çox könüllü miqrasiya edən qrupa daxildir. Bu gün Ermənistan Respublikası ağır sosial, siyasi, iqtisadi, demoqrafik problemlərin məngənəsindədir. Ermənistanın Azərbaycan ərazilərini işğal altında saxlaması faktı bu ölkədə vəziyyətin daha da gərginləşməsi, ətraf aləmdən, regionda gedən müsbət dəyişikliklərdən, qlobal iqtisadi layihələrdən tamamilə təcrid olunması

---

123 Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasının Radio-Televiziya Şirkətinə müsahibəsi. /22.02.2016/ - *https://azertag.az/xeber/Azerbaycan_Respublikasinin_Prezidenti_Ilham_Aliyevin_Iran_Islam_Respublikasinin_Radio_Televiziya_Sirketine_musahibesi-929280*

ilə nəticələnmişdir. Artıq donor dövlətlər və beynəlxalq təşkilatlar da Ermənistana hər hansı bir formada iqtisadi və maliyyə yardımlarının burada vəziyyəti yaxşılaşdıracağına, borc və kreditlərin nə vaxtsa geri qaytarılacağına şübhə ilə yanaşmaqdadırlar. İşsizlik və yoxsulluqdan əziyyət çəkən erməni əhalisinin Avropaya axınına təkan vermək üçün Ermənistanda 2013-cü ildən "dövri (sirkulyar) miqrasiya" konsepsiyası hazırlanmışdır. Konsepsiya Aİ-nin "Ermənistan üçün məqsədli təşəbbüs" adlı 3 milyonluq layihəsi çərçivəsində hazırlanıb. BMT-nin məlumatına görə, son dörd ildə 115 min erməni ölkəni tərk etmişdir. Hər il buranı 30 min insan tərk edir. Bugünkü əhalinin 40-50 faizi isə potensial miqrantdır. Ailələrin 15 faizi xaricdən gələn vəsait hesabına dolanır. [124]

Ermənistan Milli Elmlər Akademiyasının məlumatında göstərilir ki, indiyədək ölkə vətəndaşlarının təqribən yarısı - iki milyon nəfər xarici ölkələrə mühacirət etmək məcburiyyətində qalmışdır. Sosioloji sorğular isə hazırda Ermənistanda yaşayan əhalinin 40 faizinin də potensial miqrant olduğunu müəyyənləşdirmişdir. Həmin şəxslərin 93 faizi xarici ölkələrdə məskunlaşmaq niyyətlərini Ermənistandakı dözülməz sosial-iqtisadi şərait, işsizlik problemi, ölkənin gələcəyinə inamsızlıq və mövcud hakimiyyətə etimadsızlıqla əlaqələndirmişdir.

Yekun olaraq qeyd etmək istərdik ki, miqrasiya böhranından çıxış yolunun tapılmasında bu problemlərlə üzləşən, işğala və qaçqın axınına məruz qalan Azərbaycan kimi dövlətlərin miqrasiya siyasəti və təcrübəsi əhəmiyyətli rol oynaya bilər. Bu təcrübə bir tərəfdən göstərir ki, suveren dövlətlərin daxili işlərinə məqsədyönlü müdaxilə nəticəsində humanitar fəlakətlərə təkan verilməsi dünyanın gələcəyinə böyük təhdiddir. Digər tərəfdən, məlum olur ki, münaqişələrin həllində ikili standartların mövcudluğu onların həllinə mane olmaqla beynəlxalq birliyi uçuruma, yeni qaçqınlar ordusunun yaranmasına aparan yoldur.

124 На работу-в ЕС. В Армении разрабатывается концепция циркулярной миграции. - *http://www.arminfo.am/index.cfm? objectid=67A40500-6C0B-11E4-92440EB7C0D21663*

# III FƏSİL

## XXI yüzilliyin əvvəllərində qlobal humanitar fəlakət: Qərb miqrasiya siyasətinin beynəlxalq hüquq və beynəlxalq münasibətlərin iflasına təsiri

## 3.1. "Köhnə qitə"də görünməmiş miqrasiya dalğası və Qərb siyasətinin həqiqi üzünün aşkara çıxması

*"Biz miqrantları onları evdən çıxmağa təhrik edən, cəlb edən xarici siyasətimizlə onların üzünə qapıları bağlayan daxili siyasətimiz arasında tələyə salmışıq. "Amerika arzusu"na inanan xəyalpərəstlərin taleyi haqqında humanizmə əsaslanan saziş, hərçənd ağlasığmaz olsa da, yenə də ən məqbul yoldur. Lakin bu məsələdə bizim siyasətimizi zəhərləyən əsas münaqişələr hələ çox sürəcək. Əgər biz nə vaxtsa onları həll etmək istəyiriksə, hazırda onlara olan münasibətimizi dəyişməliyik"* [125]

**Ceff Fauks**
***ABŞ-ın İqtisadi Siyasət İnstitutunun təsisçisi***

Yaşanan miqrasiya böhranı Qərbin siyasi maraqları əsasında tənzimlənir. Miqrasiyaya təsir edən amillər sırasında siyasi maraqların əhəmiyyətini artıq gizlətmək qeyri-mümkündür. Arzu olunmayan, "yaxşı və pis" miqrantlarla bağlı siyasi qərarların verilməsi ötən əsrin 60-70-ci illərindən başlanğıcını götürdü. XX əsrin 90-cı illərində miqrasiya daxili siyasətdən xarici siyasətə transformasiya etdi. 11 sentyabr hadisələrindən sonra isə milli təhlükəsizlik məsələsinə çevrildi. Artıq "soyuq müharibə"nin sonunda miqrasiya nisbətən daxili siyasət müstəvisindən (immiqrasiya nəzarəti, əmək bazarı və məşğulluq, demoqrafiya və s.) xarici siyasət və beynəlxalq (dövlətlərarası münasibətlərə təsir edən, müharibə və sülh probleminə nüfuz edən) münasibətlər müstəvisinə keçdi. Haiti

125 Faux J. How US Foreign Policy Helped Create the Immigration Crisis. /18 October 2017/ - *https://www.thenation.com/article/how-us-foreign-policy-helped-create-the-immigration-crisis/*

və keçmiş Yuqoslaviya bu fenomenə ilk nümunə oldu. Əfqanıstan-Pakistan və Yaxın Şərqdə "Ərəb baharı" miqrasiya marşrutunun Cənubdan Şimala olan axınlarını şərtəndirdi. XXI əsrin əvvəlində terrorizmin daha da genişlənməsi miqrasiya problemini milli dövlətlərin və beynəlxalq təşkilatların təhlükəsizlik məsələsinə çevirdi.

ABŞ-ın beyin mərkəzlərindən sayılan İqtisadi Siyasət İnstitutunun *(Economic Policy Institute)* təsisçisi **Ceff Fauks** *(Jeff Faux)* "*ABŞ-ın xarici siyasəti immiqrasiya böhranının yaranmasına necə kömək etdi?*" adlı təhlil xarakterli məqaləsində böhranın səbəbləri ilə bağlı fikirlərini bölüşür. O hesab edir ki, "neoliberal ziddiyyətləri, oliqarxların qapalı həmrəyliyi və narkotiklərlə mübarizə şüarları altında həyata keçirilən tədbirlər milyonları müflis edərək yoxsula çevirdi və Latın Amerikasını çökdürdü. Müəllifə görə, Trampın bir milyona yaxın miqrantı - "Amerika arzusu"na inanıb gələn xəyalpərəstləri deportasiya etməmək üçün Meksika ilə sərhəddə qala-divar inşa etmək tələbi kəskin tənqid edildi. Çox təəssüf ki, əksər hallarda bu müzakirələr tamamilə daxili siyasət üzərində cəmlənmişdir. Yəni artıq miqrantların gəlməsindən sonra "Qanunsuz gələnlərlə, yaxud sənədləşdirilməmişlərlə nə etməli?" sualına cavab axtarılır. Elə həngamə də burada başlayır. Belə ki, "bir tərəfdən demokratlar düşünürlər ki, "latinoslar" onlara səs verəcəklər. Əvəzində isə demokratlar onların qalmasının lehinə çıxış edirlər. Onlar Trampın "divar layihəsi"nin əleyhinə çıxırlar. Digər tərəfdən respublikaçılar görəndə ki, demokratlar haqlıdır, onda ehtiyat edir və istəyirlər ki, miqrantları geriyə göndərsinlər. Üçüncü bir tərəfdən işəgötürənlər ucuz işçi qüvvəsi istəyirlər. Dördüncü tərəfdən əmək bazarında işçilər özlərinə rəqiblərin gəlməsindən ehtiyat edirlər. Hələ tam olmayan bütün bu proqramların toqquşması üstəlik irqçilik, polis zorakılığı, dini-mədəni kimlik mövzuları ilə bağlı yüksələn siyasi mübarizənin hərarətini və sosial gərginliyi alovlandırır. Bütün bunlar da sonda Tramp kimi namizədlərin seçici bazasını "zənginləşdirir". ABŞ-la

bağlı bu haçalanmış arqumentlərdən insanların başını itirməsində, bu şəraitin yaradılmasında bizim xarici siyasətimizin də böyük rolu var. Bu qeyri-müəyyənlik Mərkəzi Amerikada və Meksikada insanları uzun, çətin və əksər hallarda ölümcül yürüşə itələyən əsas arqumentlərdir". [126]

"Beyin mərkəzi"nin əməkdaşı təhlilini yaranmış böhranın günahkarı kimi ABŞ-ı ittiham edərək belə yekunlaşdırır: "Ən azı 150 il müddətində Birləşmiş Ştatlar başqa ölkələrin işgüzar və hərbi elitalarının müdafiəsi üçün silahlı müdaxiləyə, siyasi təzyiqə və xarici yardıma əl atmışdır. Bununla belə, regiondan qanunsuz immiqrasiya 1980-cı illərədək o qədər də miqyaslı deyildi. Lakin ABŞ hökuməti və onun Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının timsalında neoliberal kollaboratorları regionda nəhəng transmilli korporasiyalara şərait yaradaraq, kasıb və imkansızların dolanmasına imkan yaradan xırda fermaları və müəssisələri iflasa uğratdıqdan sonra miqrasiya prosesləri intensivləşdi".[127]

Qeyd edildiyi kimi, son bir neçə onillik ərzində Qərb ölkələrinin xarici siyasətinin göylərə qaldırdığı universal/liberal Qərb dəyərlərinin, etalon həyat tərzinin, multikultural cəmiyyətin mövcudluğuna dair bəyanatların sədasına gələn miqrantları həmin ölkələrin daxili siyasəti "qala-divarlar ucaltmaqla və toplardan atəş açan gəmilərlə" qarşıladı.

## 3.2. Miqrant axınlarının statistikası: qlobal böhranın transmilli dinamikası

Bu gün dünya miqrasiya axınlarının ən yüksək, ən ağır və ən miqyaslı səviyyəsinə şahidlik edir. Hazırda dünyada hər 7 nəfərdən biri miqrantdır. BMT-nin "Dünya əhalisi" bölməsinin məlumatına

126 Faux, Jeff. How US Foreign Policy Helped Create the Immigration Crisis. /18 October, 2017/ - *https://www.thenation.com/article/how-us-foreign-policy-helped-create-the-immigration-crisis/*
127 Yenə orada

görə, əgər XXI əsrin əvvəllərində miqrasiya proseslərinə dünyanın 218 ölkəsi cəlb edilmişdisə, artıq bu gün praktiki olaraq miqrasiyanın təsir etmədiyi dövlət yoxdur. Bu, o deməkdir ki, miqrantlar artıq həm mənşə, həm də təyinat ölkələri üçün problemlərin həlledici amilinə çevriliblər. Əgər beynəlxalq miqrasiyanın artım sürəti son 20 ildə olduğu kimi qalacaqsa, onda 2050-ci ilə miqrantların sayı 405 milyona çatacaq.[128]

Hazırda baş verən miqrant axınlarının statistikasından danışdıqda mütləq nəzərə alınmalıdır ki, burada "statistika" sözü, ümumiyyətlə, nisbi, şərti məna daşıyır. Belə ki, bu sahə üzrə ixtisaslaşan beynəlxalq qurumlar vəziyyətin ümidsiz olduğunu, axınların hər saat artması səbəbindən statistik fəaliyyətin sadəcə qeyri-mümkün və adekvat olmadığını bəyan edirlər. Miqrantların sayının durmadan artması, axınların qarşısının alınma cəhdləri və sərhəd nəzarəti altında sərgilənən qəddar davranışlar minlərlə insanı məhvə sürükləyən yeni faciələrə yol açmaqda davam edir.

Xüsusilə ən dəhşətli vəziyyət qaçqın uşaqlarla bağlı statistika sahəsindədir. BMT-nin Uşaq Fondunun *(United Nations International Children's Emergency Fond - UNISEF)* bununla bağlı dünyaya çağırış etməsi mövcud vəziyyəti ifadə edir: "Qaçqınlar, sığınacaq axtaran şəxslər, miqrantlar və məcburi köçkün əhalini əhatə edən statistik məlumatlarla bağlı boşluqların mövcudluğu dərbədər olan milyonlarla uşaqların həyatı və rifahına təhlükə yaradır. BMT-nin Uşaq Fondu, Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR), Beynəlxalq Miqrasiya Təşkilatı (IOM), Avropa Statistika Komitəsi (Eurostat), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) kimi beynəlxalq təşkilatların birlikdə qəbul etdikləri müraciət qaçqın uşaqlar kimi həssas qruplar üçün zəruri statistikanın hazırlanmasının taleyüklü məsələ olduğunu

128 Ивахнюк И.В. Международная миграция как ресурс развития (замечания в связи с глобальной дискуссией) // Век глобализации, 2011а, № 1, с. 67.

diqqətə çəkməyə hesablanmışdır".[129]

"2016-cı ildə dünyada qeydə alınmış qaçqın uşaqların sayı 28 milyondur.Bu, o deməkdir ki, 80 uşaqdan biri məcburi köçkündür. Hələ bu rəqəmə təbii fəlakətlər nəticəsində didərgin düşən 7 milyon uşaq aid edilmir. Həmçinin 2017-ci ilin məlumatına əsasən, dünyada 30 milyon uşaq öz doğulduğu ölkədən kənarda yaşayır. Lakin bunlar da hələ real rəqəmlər deyil".[130]

BMT-nin Uşaq Fondunun statistika məsələlərinə cavabdeh olan Məlumat, tədqiqat və siyasət şöbəsinin direktoru **Laurense Çandi** *(Laurence Chandy)* qeyd edir ki, informasiya boşluqları uşaqlara yardım etmək bacarığımızı tamamilə zəiflədir. Biz qaçqın düşən uşaqlar, onların yaşı və cinsi, haradan gəldikləri və haraya getdikləri, ailələri ilə birgə, yoxsa tənha qaçmaları, neçə müddət yolda qalmaları, nəyə ən çox ehtiyacları olması haqqında məlumata malik deyilik. Bir çox hallarda məlumatlar müntəzəm olaraq toplanmır və keyfiyyəti çox aşağıdır. Yuxarıda adlarını qeyd etdiyimiz beynəlxalq qurumlar (UNICEF, UNHCR, İOM, Eurostat və OECD) üzv dövlətləri və uşaqlarla bağlı beynəlxalq təşkilatları bu boşluqları aradan qaldırmaq üçün görüləcək tədbirləri prioritetlər sırasına daxil etməyə çağırır.

Məlumat boşluqları miqrasiya fəlakətinin miqyasının və reallıqlarının həqiqi mənasını almaqda çətinliklər yaradır. Bir çox hallarda məlumat müntəzəm olaraq toplanmır, keyfiyyətli statistika azdır. Bu da nəticədə qaçqın və məcburi köçkün uşaqların problemlərinin daha da pisləşməsini şərtləndirir. Statistik məlumatların yalnız 56%-nə miqrantların yaşı daxil edilir. Münaqişə və fəlakət bölgələri olan ölkələrin yalnız 20%-i statistika zamanı miqrantların yaşını nəzərə alan informasiya daxil edirlər.

Məlumat bəzən mötəbərliyi bilinməyən mənbələrdən qlobal

129 Call to Action.Protecting children on the move starts with better data. /14 February, 2018/ -*https://data.unicef.org/ resources /call-action-protecting-children-move-starts-better-data*

130 *https://data.unicef.org/wp-content/uploads/2018/02/ Migration_advocacy_brief.pdf*

> Ermənistanın təcavüzü və işğalı nəticəsində Azərbaycan adambaşına düşən məcburi köçkünlərin sayının ən çox olduğu ölkələrdən biridir. Ermənistan beynəlxalq hüququ və BMT Nizamnaməsini kobud şəkildə pozaraq Azərbaycana qarşı müharibəyə başlayıb, Azərbaycanın Dağlıq Qarabağ və ətraf yeddi rayonunu işğal edib və işğal edilmiş ərazilərdə və Ermənistan ərazisində 1 milyondan artıq azərbaycanlını etnik təmizləməyə məruz qoyub. Nəticə etibarilə, hazırda Azərbaycanda əhali artımı ilə əlaqədar olaraq bu kateqoriyadan olan insanların sayı 1.2 milyon nəfəri keçib.

və hətta regional səviyyədə vəziyyətlə müqayisə edilmədən verilir.

və hətta regional səviyyədə vəziyyətlə müqayisə edilmədən verilir. Uşaqlar miqrantlar və qaçqınlar arasında ən həssas və ağrılı təbəqə olsa da, statistika istiqamətində hələlik gözardı edilir. Ölkələr və beynəlxalq qurumlar qaçqın və məcburi köçkün uşaqların sayının üzə çıxarılması üçün gündəmi tamamilə yeniləməlidirlər. Məlumatların toplanması səviyyəsinin bütün mərhələlərində qaçqın və məcburi köçkün uşaqların sayı ilk sırada durmalıdır. [131]

Qeyd edilənlərin doğruluğu aspektində haşiyə çıxaraq xatırlatmaq istərdik ki, Azərbaycanda Ermənistanın işğalı nəticəsində Dağlıq Qarabağdan qovulan 1 milyon qaçqın sayının doğulan uşaqların sayı ilə artması rəsmi olaraq vurğulanmışdır: “Ermənistanın təcavüzü və işğalı nəticəsində Azərbaycan adambaşına düşən məcburi köçkünlərin sayının ən çox olduğu ölkələrdən biridir. Ermənistan beynəlxalq hüququ və BMT Nizamnaməsini kobud şəkildə pozaraq Azərbaycana qarşı müharibəyə başlayıb, Azərbaycanın Dağlıq Qarabağ və ətraf yeddi rayonunu işğal edib və işğal edilmiş ərazilərdə və Ermənistan ərazisində 1 milyondan artıq azərbaycanlını etnik təmizləməyə məruz qoyub. Nəticə etibarilə, hazırda Azərbaycanda əhali artımı ilə əlaqədar olaraq bu kateqoriyadan olan insanların sayı

131 Yenə orada

1.2 milyon nəfəri keçib".[132]

Digər məqam insan köçünə qoşulanların həlak olması faktları ilə bağlıdır. *"Avropa qalası - onun 15 il ərzində maliyyə və insan bədəli"* adlı müstəqil layihə çərçivəsində araşdırma aparılmışdır. Layihədə qeyd edilir: "2000-ci ildən etibarən Avropada qalmaq və ya buraya gəlməyə cəhd edən 30000-dən çox qaçqın və köçkün həlak olub. Onların ölümünə baiskar Avropanın miqrasiya siyasəti olmuşdur". "Avropa qalası" layihəsinin tətbiqi, sərhəd nəzarətinin sərt qaydaları, miqrantlarla qeyri-insani rəftar, onların qapalı nəqliyyat, havasız konteynerlərdə saxlanılması nəticəsində 13250 miqrant öldürülüb. Bu məlumatları Avropanın "UNITED" adlanan irqçiliyə qarşı təşkilatı araşdırmışdır. Araşdırma nəticəsində təşkilat "Əgər Avropanın vicdanını 13250 insanın ölümü oyatmadısa, onda nə oyada bilər?" adlı bəyanat yaymışdır.[133]

Başqa bir mənbəyə görə, "son iki onillik ərzində, təxmini qiymətləndirmələrə əsasən 4000-ə yaxın insanın Meksika və ABŞ arasında sərhədi keçmək cəhdləri zamanı həlak olması qeydə alınıb". [134]

Beləliklə, XXI əsrdə Qərb siyasətinin nəticəsi kimi ortaya çıxan və yaşanan qlobal faciənin transmilli dinamikasının davam etməsi daha qorxunc mənzərəni üzə çıxarır. Miqrant axınları ilə yanaşı, böhran da ölkədən-ölkəyə, qitədən-qitəyə yayılır. "Heç bir sərhəd xətləri, çəkilən tikanlı məftillər, qala kimi divarlar onları çəkindirmir.Xilasetmə missiyaları heç nə edə bilmir. İnsanların xəbərlərdə gördükləri suların sahilə atdığı uşaq və ya böyük insan cəsədləri, yağışdan sonra göbələk kimi çoxalan çadır düşərgələri adiləşib. Bununla belə, proseslərin miqyası və sürəti ilə müqayisə edilsə, görülən tədbirlər, əsrin ən böyük

132 XİN: Azərbaycanda məcburi köçkünlərin sayı 1.2 milyon nəfəri keçib. /20.06.2018/ *- https://sputnik.az/news/20180620/415851953/mecburi-kockunlarin-sayi-1-2-milyonu-kecib.html*

133 The Human and Financial Cost of 15 years of Fortress Europe. *http://www.themigrantsfiles.com/*

134 List of documented refugee deaths through Fortress Europe, UNITED, 13.06.2012; Rose A.Death in the desert // New York Times, 21.06.2012

çağırışına Avropadan və ABŞ-dan gələn cavablar olduqca az və çox gec kimi dəyərləndirilə bilər. Nə baş verir? Problemlərin təhlili göstərir ki, onların kökü daha dərin, o qədər dərindədir ki, Qərb dövlətləri bunu etiraf etməyə hazır deyillər. Bu isə o deməkdir ki, problemlərin dərk və həll edilməsi üçün hələ çox vaxt lazım olacaq".[135]

## 3.3. Beynəlxalq münasibətlər, qlobal güclər və məcburi miqrasiyanın geosiyasi mənbələri

Son əsrlər ərzində Qərb cəmiyyəti miqrasiyanı özlərinin inkişafının təcəssümü, cəlbedici ölkə modeli kimi qəbul edilmələrinin sübutu, dünya iqtisadi sisteminin məkan və sərhədlər üzərində təntənəli qələbəsi kimi izah etməyə vərdiş etmişdir. Bu baxımdan beynəlxalq ictimai rəydə miqrasiyanın getdikcə qlobal geosiyasi rəqabət obyektinə çevrilməsi hələlik dərk edilmir. Məsələni mürəkkəbləşdirən amil ondan ibarətdir ki, miqrant böhranı ilə üzləşən bütün dövlətlər hazırda nəinki öz sərhədlərinə nəzarət etmək, həm də üstəlik nəhəng insan axınlarından öz geostrateji məqsədləri üçün bəhrələnmək istəyirlər.

Miqrasiya özü beynəlxalq münasibətlər sisteminin bir funksiyasıdır. Dövlətlər olmasa, miqrantların axın etdiyi sərhədlər də olmaz və sərhədlər üzərindən hərəkət miqrasiya siyasətinin mərkəzində duran məsələdir. Sərhədləri kimlərin keçməsi, necə, harada və nə üçün keçməsi siyasətinin hazırlanması və reallaşdırılması qlobal siyasətlə birbaşa bağlıdır.

BMT üzvü olan 200-ə yaxın dövlətin hamısı beynəlxalq münasibətlər sistemini yönəltməyə təsir edə bilən qlobal güclər deyil. Həmin güclər gün işığı kimi aydındır. Axı dünyanın 10 milyarda yaxın əhalisi-

135 Migrant Crisis in the Mediterranean: What You Need to Know. /2 May, 2017/ *- https://www.rand.org/blog/rand-review/2017/05/migrant-crisis-in-the-mediterranean-what-you-need-to.html*

nin hamısı siyasi qərarlar qəbul edən şəxslər kateqoriyasına aid deyil. Buna görədir ki, dövlətlərin fəaliyyəti, qəbul etdiyi qərarlar və qanunlar beynəlxalq miqrasiyanın tənzimlənməsini və formalaşdırılmasını bir çox mənada müəyyən edir. Məcburi miqrasiyanın geosiyasi şərtlərlə bağlılığını gündəmə gətirən tədqiqatçılar problemə bu aspektdə baxmağın zəruri olduğunu qeyd edirlər.

"Geosiyasət və onun miqrasiya faktoru ilə münasibətləri müasir politoloji elmi tədqiqatların işlənməmiş sahələrindəndir. Halbuki bu, siyasi proseslər, maraqlar və modellərin olduqca zəngin təzahürlərini özündə əks etdirən və tənqidi təhlil tələb edən bir sahədir. Müxtəlif dövlətlərin maraqlarının məhz bu cür cəmlənmiş, konsentrə edilmiş təcəssümü "geosiyasət və miqrasiya" mövzusunu ənənəvi olaraq başa düşülən və hər bir suveren dövlətin daxili işi olan miqrantların tənzimlənməsi prosesindən tam fərqli olan baxış bucağından nəzər salmağa imkan verir. Başqa sözlə, bu həm də miqrasiyanın nə üçün mütləq olaraq geosiyasəti də yürütməyə vadar etdiyinə aydınlıq gətirir".[106]

Bəzi müəlliflər bunun əksini hesab edir və qeyd edirlər ki, məcburi miqrasiya müəyyən nisbi müstəqilliyə malik fenomendir. Miqrantların yerdəyişməsi sadəcə dövlət siyasətinə və həyata keçirdiyi tədbirlərə reaksiya deyil, əksinə sadəcə bu siyasətin istiqamətini müəyyənləşdirir.

Burada biz dünya siyasətinin başlıca müzakirələrindən birinin təzahürünü də aşkara çıxara bilərik: Hansı qlobal güclər, aktorlar siyasi qərarların (o cümlədən miqrasiya ilə bağlı) qəbul etmək iqtidarına malikdirlər və bu qüvvələr necə başa düşülür? Hansı siyasət hazırkı nəticələrə gətirib çıxarmışdır? Bundan əlavə, beynəlxalq miqrasiya özünün mahiyyətinə görə dövlətlərarası bir çox münasibətləri əhatə edir, ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələlərinə də sirayət edir.

"Beynəlxalq sərhədlərin keçilib-keçilməməsindən asılı olmayaraq, məcburi miqrasiya qlobal geosiyasətin əsasını, mərkəzi mövzusunu

Hegemonluq siyasətində istənilən hüquq yalnız öz mahiyyətindən məhrum edilmiş vasitədir. Bu siyasət üçün suverenlik, müstəqil dövlət anlayışı mövcud deyil. Dövlətüstü, fövqəl (qlobal) güclərin formalaşması – bu, II Dünya müharibəsindən sonrakı tarixi inkişaf proseslərinin, dünya nizamının acı reallığıdır. Onun yaranmasına ideoloji-siyasi vəsilə kimi XX əsrdə iki dünya müharibəsinin gedişatında "Köhnə qitə" dövlətlərinin bir-biri ilə savaşa girməsi və tənəzzülü səbəb olub.

təşkil edir. Qaçqın axınları maraqlar münaqişəsi, yaxud vətəndaş hüquqları ilə bağlı olmaqla yanaşı, mahiyyətcə geosiyasi məsələdir. Üstəlik də transsərhəd insan axınları baş verdiyi üçün beynəlxalq məsələdir. Hətta daxili qaçqın və köçkünlərin dinamikası belə qlobal siyasətə birbaşa aidiyyəti olan məsələdir. Məcburi köçkünlük və ya zorakı miqrasiyanın bir dövlətin daxilində baş verməsindən və ya onun sərhədlərini aşmasından asılı olmayaraq, onun səbəbləri, nəticələri, dövlətlərin bu sahədə məsuliyyəti və reaksiyaları da qlobal siyasətdən ayrılmazdır".[136]

Bir zaman imperiyalar və metropoliyalar kimi statusa malik olan, hazırda "qlobal güclər" adlanan bu aktorlar haqqında çox yazılıb. Mövcud dövlət quruluşu və sərhədləri ilə məhdudlaşmayan, "qlobal idarəçilikdə" üstünlüyə can atan fövqəlgüclərin yaranması ideyasını, ehtimalını hələ Avropanın "qürub fəlsəfəsi"nin nümayəndəsi, alman filosofu və klassik filoloqu **Fridrix Nitşe** *(Friedrich Nietzsche)* irəli sürmüşdü.

Ötən əsrin əvvəllərində imperiyaların və müstəmləkəçilik sisteminin çökməsindən sonra qlobal güc olmağa iddialı dövlətlər siyasi səhnəyə gəldilər. Qlobal (fövqəl) gücə iddialı olan ölkələr üçün sərhəd anlayışı yoxdur. Yalnız geosiyasi maraqlar mövcuddur. Qlobal

136 Betts A. Forced Migration and Global Politics. John Wiley & Sons. Ltd, 2009

hegemonluğa iddia edən geosiyasi güc mərkəzləri üçün beynəlxalq hüquq və öhdəliklər simvolik xarakter daşıyır.

Hegemonluq siyasətində istənilən hüquq yalnız öz mahiyyətindən məhrum edilmiş vasitədir. Bu siyasət üçün suverenlik, müstəqil dövlət anlayışı mövcud deyil. Dövlətüstü, fövqəl (qlobal) güclərin formalaşması II Dünya müharibəsindən sonrakı tarixi inkişaf proseslərinin, dünya nizamının acı reallığıdır. Onun yaranmasına ideoloji-siyasi vəsilə kimi XX əsrdə iki dünya müharibəsinin gedişatında "Köhnə qitə" dövlətlərinin bir-biri ilə savaşa girməsi və tənəzzülü səbəb olub. Qeyd etmək lazımdır ki, "Köhnə qitə" ölkələrinin özlərini düçar etdiyi müharibələrin nəticələrindən bəhrələnərək mövqelərini möhkəmləndirən dövlətlər qlobal güclərə çevrilmişdilər.

Müasir dövlətüstü (fövqəl) güclər, ötən əsrin sonlarından etibarən tarixən formalaşmış üç hegemonluq amilinə malikdirlər:

- *Qlobal maliyyənin bir mərkəzdə mərkəzləşməsi;*
- *Ümumi obyektiv həqiqət olmağa iddia edən elmi-nəzəri, sosial bilik və media üzərində nəzarət;*
- *Yayılma metoduna görə total xarakterli ("katolik") din.*[137]

Qeyd edək ki, məcburi miqrasiya axınlarının əsas səbəbləri geosiyasi amillərlə bağlıdır. Qlobal siyasətin mərkəzi problemi olan məcburi miqrasiya və qlobal siyasət arasındakı əlaqələr üç müxtəlif səviyyədə ayırd edilə bilər: 1.Məcburi (zorakı) miqrasiyanın səbəbləri; 2. Məcburi miqrasiyanın nəticələri; 3. Məcburi köçkünlərlə bağlı beynəlxalq hüquq və məsuliyyət. Bu üç səviyyədən hər birinə beynəlxalq münasibətlər və xarici siyasət konsepsiyalarının tətbiqi mühüm nəticələr almağa imkan verir. Hazırda baş verən məcburi miqrasiyanın bu səviyyələrinin dərk edilməsi dünya siyasətinin başa düşülməsinə və yaxud əksinə, dünya

137 Сергейцев Т., Куликов Д. Мировой кризис. Восток и Запад в новом веке. ООО "Издательство "Э", 2017, с.61

siyasətində baş verənlərin məcburi miqrasiyanın başvermə səbəblərini və həlli yollarını tapmağa böyük töhfə ola bilər.

Bütün dünyada insanlar siyasi təqiblər, münaqişələr, təbii və texnogen qəzalar nəticəsində öz yaşadıqları evlərini tərk etməyə məcbur ediliblər. İki dünya müharibəsi, müstəmləkəçiliyə qarşı azadlıq müharibələri, "soyuq müharibə"də maraqların toqquşması, Balkanlarda, Qafqazda və Afrikada "soyuq müharibə"dən sonrakı bir sıra daxili münaqişələr, "terrorla müharibə" kontekstində Əfqanıstan və İraqın işğalı, Cənubi Asiyada və Yaxın Şərqdə ərazi iddiaları, dövlət çevrilişləri, insan hüquqlarının pozulması, qasırğalar, sunami və qlobal iqlim dəyişikliyi, ekoloji fəlakətlər, inkişaf sahəsində genişmiqyaslı layihələr nəticəsində baş verən hadisələr insanların öz evlərini tərk edərək, məcburi qaçqın və köçkün düşməsinə səbəb olmuşdur.

Analitik-məntiqi yanaşıldıqda, əgər miqrasiya asılı dəyişən kimi götürülürsə, siyasət faktoru miqrasiyanı izah etmək üçün vacib olan müstəqil dəyişəni təmsil edir. İnsan köçünün səbəbləri beynəlxalq sistem, geosiyasət və qlobal siyasi iqtisadiyyatdakı tendensiyalarla birbaşa əlaqəlidir. Bu geniş makrosəviyyəli meyillər öz növbəsində ölkələrdə insan köçünə gətirib çıxaran vəziyyətə səbəb ola bilər. Məsələn, mənşə ölkələri ilə böyük güc sayılan dövlətlər və ya köhnə müstəmləkəçilər arasında daha geniş müstəvidə mövcud olan dövlətlərarası münasibətlərdə müəyyən ölkələrdə əhalini təqib edən zorakı, avtoritar hökumətlərə dəstək verilməsi reallıq ola bilər. Qlobal səviyyədə ətraf mühitdə baş verən müxtəlif proseslərə görə insanlar evlərini tərk etmək məcburiyyətindədirlər. Qlobal səviyyədə xammala, məsələn, brilyant və s. təbii resurslara olan beynəlxalq tələbat rəqabətə və əhalinin qaçqın düşməsinə səbəb olan münaqişələrə gətirib çıxara bilər. Transmilli şirkətlərin həyata keçirdiyi inkişaf layihələri məcburi miqrasiyaya təkan verə bilər.

XX əsrin sonu, XXI əsrin əvvəllərində dünyada digər dövlətlərin vətəndaşlarına fərqli davranışla bağlı konsepsiyanı sual altına alan "demokratik nəzəriyyə üçün yeni gündəm" çağırışı səsləndi. Yeni demokratik nəzəriyyənin mərkəzində çoxmənalı bir məsələ - "qlobal demokratiyanın zəruriliyi, arzu olunanlığı və mümkünlüyü", başqa sözlə, "sərhədləri aşan demokratiya" mövzusu yer almışdı. Belə tədqiqatlardan birinin müəllifi **Antoni Mak-Qryu** *(Anthony McGrew)* qeyd edirdi ki, "yeni demokratik nəzəriyyə" ilə demokratiyanı milli dövlətlərin sərhədləri üzərindən genişləndirmək, səmərəli demokratik nəzarət olmayan bölgələrə qlobal və transmilli qüvvələrin diqqətini cəlb etmək lazımdır. [138]

Sözügedən qüvvələrə qlobal ədaləti bərqərar etmək səlahiyyəti verən bu nəzəriyyə qaçqın probleminə münasibətdə dəstəklənən "internalist" yanaşmanın tam əksi idi. Bu, dolayısı ilə həm də xarici amillərin dövlətdaxili münasibətlərdə oynadığı həlledici rolun vurğulanması idi. Qlobal ədalətə dair klassik fundamental tədqiqatların müəllifləri - **J.Rouls** *(John Rawls)* və **K.Uoltser** *(Micael Walzer)* bu fikirləri mübahisəli hesab edirlər.[139]

Bu gün artıq bütün dünya demokratiyanı dövlətlərin sərhədləri üzərindən genişləndirilməsinin nəticələrinə, yalnız ərəb ölkələrinin deyil, qloballaşan dünyada əksər ölkələrin "Böyük Yaxın Şərqə" çevrilməsinə şahidlik edir. Məlum olduğu kimi, "Böyük Yaxın Şərq" *("Greater Middle East")* siyasi-coğrafi termin olub, ABŞ-ın Sovet İttifaqının dağılmasından sonra Avrasiyanın "demokratikləşdirilməsi" məqsədi ilə həyata keçirdiyi nəhəng geosiyasi layihələrindən biri olmuşdur. Bu region Şimali Afrikadan tutmuş Mərkəzi Asiyaya,

138 McGrew A. Democracy beyond Borders? Globalization and the Reconstruction of Democratic Theory and Polities', in McGrew, A. (ed.) The Transformation of Democracy, Cambridge: Polity Press:1997, pp.231-265

139 Rawls J. The Law of Peoples, Critical Inquiry. 1993; Walzer M. Just and Unjust War: A Moral Argument with Historical Illustrations, New York: Basic Books, 3rd edition, 2000.

Fars körfəzinə və Əfqanıstana qədər uzanan (İsrail istisna olmaqla) İslam dünyası məkanını əhatə edir. Demokratiya ixracı və Qərbin dəstəklədiyi iqtidarların hakimiyyətə gətirilməsi cəhdləri ilə suveren dövlətlərin daxili işlərinə müdaxilə edilməsi nəticəsində Yaxın Şərq regionu qaçqın axınları və qeyri-qanuni miqrasiyaya təkan verən fəlakətli proseslərin, son nəticədə sivilizasiyalararası mədəni və ideoloji qarşıdurma risklərinin cəmləşdiyi məkana - qlobal təhlükəsizlik üçün başlıca təhdid mənbəyinə çevrildi.

Qərb dünyasi tarixən formalaşmış, özünəməxsus siyasi idarəçilik rejimlərinə malik olan Böyük Yaxın Şərq ölkələrində məqbul-qaneedici sayılacaq heç bir liberal-demokratik dəyərləri təklif və bərqərar edə bilmədi. “Demokratiya və insan hüquqlarının” zorakılıqla və hərbi güc hesabına tətbiq etmək cəhdləri məntiqi baxımdan digər “fundamentalizmlərlə” (terrorizm və s.) bənzərlik təşkil etdiyi üçün nəticələri də eyni oldu.

Təsadüfi deyildi ki, Böyük Yaxın Şərq problemlərinə yanaşmada ABŞ-la regionda aparıcı geosiyasi oyunçu olan Aİ arasında ciddi fikir ayrılıqları üzə çıxdı. Bunu xüsusilə İraqda başlanan müharibə aşkar nümayiş etdirdi. “Məcburi miqrasiyanın nə üçün baş verdiyini başa düşmək üçün onun baş verdiyi ölkədə olan tendensiyalara baxmaq kifayət deyil. Bunun əksinə, qlobal məkanda baş verən siyasi tendensiyaları nəzərdən keçirmək çox vacibdir. Repressiv rejimlər hegemon dövlətlər və köhnə müstəmləkəçilər tərəfindən dəstəklənə və ya səlahiyyətləndirilə bilərlər. Beynəlxalq qaçqın axınlarına, yaxud ölkədaxili məcburiköçkünlüyə səbəb olan daxili münaqişələrin səbəbi daha geniş - makrosiyasi müstəvidə beynəlxalq siyasi məsələlərlə bağlı ola bilər. Onlara hərbi müdaxilə, işğal, müstəmləkəçilik və ya qlobal iqtisadiyyatda baş verən obyektiv, yaxud subyektiv amillərdən rəvac verilə və ya şiddətlənə bilər”. [140]

140 Betts A. Forced Migration and Global Politics. John Wiley & Sons. Ltd, 2009,p.18

"Soyuq müharibə" dövründə, 1970-ci illərdə ABŞ və SSRİ arasında fövqəlgüc rəqabəti və geosiyasi maraqların toqquşması nəticəsində baş verən proksi-münaqişələr inkişaf edən ölkələrdə əks-sədasını vermiş, məsələn, Afrika buynuzunda (Somalidə), Cənubi Afrika, Hind-Çin yarımadasında və Mərkəzi Amerikada insanların kütləvi köçkün düşməsinə səbəb olmuşdur.

Bu gün böyük dövlətlərin, məsələn, ABŞ-ın İraq və Əfqanıstandakı münaqişələrdə bilavasitə iştirakı dolayısı ilə insanların öz evlərindən qaçqın düşməsinə səbəb olur. Müstəmləkəçilik məcburi miqrasiya ilə qarşılıqlı bağlıdır və ona təsir edir. Ruanda, Fil Dişi Sahili və Zimbabve kimi ölkələrdə hegemon dövlətlər tərəfindən qurulan postkolonial rejimlər  məcburi qaçqın axınlarına səbəb olan sosial münaqişələrə "töhfə" verir. Eyni zamanda, inkişaf etməkdə olan ölkələr və inkişaf etmiş ölkələr arasındakı iqtisadi əlaqələr də tez-tez məcburi miqrasiyaya  şərait yaradır. Syerra Leonedən Anqolaya qədər neft, yaxud almaz ticarətindən irəli gələn münaqişələr həm daxili köçkünlüyə, həm də məcburi miqrasiyaya birbaşa aid olan amillərdir.

Zorakı miqrasiya münaqişələrin izahı ilə əhəmiyyətli sayılacaq sıx əlaqələrə malikdir. "Soyuq müharibə" dövründə qaçqınlar inkişaf etməkdə olan ölkələrdə proksi-münaqişələrdə döyüşmək və vuruşan tərəfə dəstək vermək üçün supergüclər tərəfindən dəstəklənirdi. Eynilə müstəmləkəçi azadlıq müharibələri də sürgündə olan, qaçqın həyatı yaşayan millətçi qruplar tərəfindən aparılırdı. 1970-ci ildən 1990-cı illərin əvvəllərinə qədər Uqandada "Ruanda Vətənpərvər Cəbhəsi" (1970) və 1980-ci illərdə Cənubi Afrikanın digər bölgələrində "Afrika Milli Konqresi", 1980-ci illərdə Hondurasda "Nikaraqua Kontrasları" mühacir və qaçqınların mənşə ölkəsində hökumətə qarşı mübarizə aparan xarici qüvvələr və müxalifət hərəkatlarının inkişafında rol oynamışdır.

"Soyuq müharibə" kontekstində "qaçqın döyüşçüləri" *("refugee warriors)* ifadəsi gündəmə gəlmiş, hegemon dövlətlərin proksi-münaqişələrində partizan hərəkatı və qaçqınlar arasında əlaqəni təsvir etmək üçün istifadə edilmişdir. Qaçqın düşərgələri əksər hallarda döyüşçülər üçün müqəddəs yerlər kimi xidmət edirdi. Misal üçün, Ruanda qətliamından sonra soyqırımında iştirak edən, özlərini ***"Hutu interahamve"***[141] adlandıran və tutsi xalqına qarşı birləşən qanunsuz ekstremist silahlı dəstələr (qeyd edək ki, soyqırımı Ruandanın siyasi elitası tərəfindən planlaşdırılıb ordu, jandarma və "interahamve" adlanan ekstremist silahlılar tərəfindən həyata keçirilmişdir) Konqo Demokratik Respublikasının düşərgələrində sığınacaqda yaşayırdılar. Bundan əlavə, qaçqınlar tez-tez sülh sazişlərində potensial "maneə-pozucu" kimi tanınırlar. Qaçqınlar və geri qayıdanlar, məsələn, Qərbi Afrika və Böyük Göllər bölgəsində sülhqurma cəhdində "pozucu" amil kimi yadda qalmışdır.

Qaçqın düşərgələri və uzun müddət qaçqın vəziyyətində yaşamaq radikallaşma və terrorizmin potensial sosial bazası hesab edilir. Digər sahələrdə qaçqın hərəkatlarının yaratdığı transmilli şəbəkələr və diaspor qrupları ilə əlaqələri əhəmiyyətli siyasi təsirlərə malik ola bilər. Məsələn, bir çox hallarda qaçqınlar birbaşa xarici sərmayələrin əhəmiyyətli mənbəyidir. Qaçqınlar tərk etdikləri ölkələrə pul köçürmələri edirlər. Misal üçün, Somali kimi ölkələr üçün pul köçürmələri xarici gəlirlərin ən böyük mənbələrindən birini təşkil edir.

Qaçqın axınları da mütəşəkkil cinayətkarlıq, insan alveri və qaçaqmalçılıq şəbəkələri kimi digər transmilli şəbəkələr və hərəkatlarla əlaqəlidir. Transmilli şəbəkələrin müxtəlif növləri konkret ölkənin daxili siyasətinə müdaxilə edən manevrləri müəyyən edərək, ümumiyyətlə, kənardan seçimlərə təsir edə bilərlər.

141 ***İnterahamve*** - yerli ruandalıların dilində "birlikdə hücum edənlər"deməkdir. Ruandada 1994-cü il soyqırımını törədənlər kimi tanınan hutuların 30 minlik silahlı qoşunudur. "Hutuların gücü" *(Hutu Power) i*deyasını dəstəkləyir və panbantuizm inancına pərəstiş edirlər. 2008-ci il dekabrın 18-də Ruanda üzrə Beynəlxalq tribunal "İnterahamve" qoşununun rəhbərini ömürlük həbsə məhkum etmişdir . [Bax: *http://africaners.com/en/history-of-africa/genocide-in-rwanda/;həmçinin:https://www.unicef.org/wcaro/07-Goma_2004_Journey_After_Darkness.pdf; p.9].*

## 3.4. Qərb dövlətlərinin miqrasiya siyasətinin siyasi-hüquqi yekunları

*"Avropa qaçqınlar qitəsidir. Lakin ən böyük bəla ondan ibarətdir ki, qitənin miqrantlarla iş sistemi praktiki olaraq işləmir, iflic vəziyyətdədir. Bu vəziyyətin səbəbi həm də onunla bağlıdır ki, Aİ ölkələrinin bu məsələ ilə bağlı siyasəti fraqmentar-parçalanma xarakterlidir. Bizim indiyə qədər mövcud olan təcrübəmiz öyrədir ki, divarlar heç nəyə kömək etməyəcək. Əgər siz qapıları bağlayacaqsınızsa, insanlar pəncərədən daxil olacaqlar, tunellər qazacaqlar. Divarlar onların marşrutlarını başqa alternativ istiqamətlərə yönləndirə bilər, lakin bu metodla problemi qətiyyən həll etmək mümkün deyil".*[142]

**Antonio Quterreş**
***BMT-nin Qaçqınlar üzrə sabiq Ali komissarı,***
***BMT-nin indiki Baş katibi***

XX əsrin 80-ci illərində "yeni sığınacaq axtaranlar" dalğasının qalxması qaçqın və miqrantlarla bağlı həm ayrı-ayrı tədqiqatçıların, həm də beynəlxalq təşkilatlar tərəfindən maliyyələşdirilən araşdırmaların genişləndirilməsini şərtləndirdi. Müharibədən sonra beynəlxalq qaçqın rejiminin yaranması demoqrafik, tarixi, iqtisadi, hüquqi, sosial-mədəni aspektlər üzərində diqqəti cəmləməyi, bu sahədə yaranmış vəziyyətə uyğun olaraq beynəlxalq hüquqa düzəlişlər edilməsini zərurətə çevirdi. Həmin dövrdə beynəlxalq miqrasiya və qaçqın siyasətində **"fərqliliklər mifi"** ortaya atıldı və pozitiv hüquq, yuxarıda qeyd edildiyi kimi, Avropa və üçüncü

142 António Guterres: Europe Must Do More! - *http://www.unhcr-northerneurope .org/ news-detail/antonio-guterres-europe-must-do-more/*

> Qərb dövlətlərinə sığınacaq üçün müraciət edənlərin sayının məhdudlaşdırılması, giriş şərtlərinin sərtləşdirilməsi, vizası olmayanlara girişin qadağan edilməsi, ən acınacaqlısı, münaqişə zonalarından qaçan şəxslərin qaçqın hesab edilməməsi yalnız yaxın və uzunmüddətli perspektivdə problemlərin yüksələn xətt üzrə artmasına səbəb olur.

dünya ölkələrindən olan qaçqın axınlarının həcminin, təbiətinin və səbəblərinin tamamilə fərqli olması fikrini ("fərqlilik mifi") səciyyələndirən mövqedən çıxış etdi. Ən pisi o idi ki, həmin fərqlər həddən artıq mütləqləşdirilmiş və şişirdilmişdi.

Qeyd edilənlər qaçqın problemlərinə dair elmi tədqiqatların hüdudlarını yenidən müəyyən etmək üçün yeni çağırışlar irəli sürdü. **Pozitivist yanaşma**nın metodoloji tənqidinin tərəfdarları çoxaldı. Lakin təqdim olunan "yeni yanaşma" zəngin Qərb dövlətləri tərəfindən aparılan və məhdudlaşdırma strategiyasına əsaslanan "fərqliliklər mifi" ideyasını qəbul etdirə bildi. Həmçinin, "yeni yanaşma" mövcud olan liberal qaçqın və sığınacaq siyasətini dəstəkləmək əvəzinə məhdudlaşdırıcı tədbirləri əsas götürən siyasi tədbirlər də ortaya qoydu. Təqdim edilən yeni yanaşma beynəlxalq qaçqın hüququnun mühacirət, sığınacaq haqqı yanaşmasından imtina edilməsini, könüllü məskunlaşmanın (repatriasiya) yeganə həll yolu kimi məqbul hesab edilməsini və qaçqın axınlarının baş verməsində məcburi miqrantın doğulduğu - fiziki mənşə dövlətinin məsuliyyət daşımasını legitimləşdirdi. "Soyuq müharibə"nin sona çatması və sosialist sisteminin çökməsi, miqrant və qaçqınlara olan siyasi-ideoloji maraqların arxa plana keçməsi ilə növbəti "yeni yanaşmaların" formalaşması gündəmə gəldi.

Beləliklə, Yeni dövrdə Qərbdə yaranan milli (müstəmləkəçi)

dövlətlərin siyasəti kimi ortaya çıxan miqrasiya siyasəti bu günə qədər "Qərb mərkəzli" olaraq qalır. Beynəlxalq miqrasiya, yaxud "qaçqın hüququ" adlanan normativ aktlar və tənzimləmə modelləri isə gerçəklikdə Qərb hüquq sisteminin başqa dövlətlərin mövqeyini nəzərə almadan, əsasən öz maraqlarını təmin etməyə hesablanmış qanunlar toplusu hesab edilə bilər.

Yuxarıda adı sadalanan hüquqi yanaşmaların (pozitivist, internalist və eksternalist) bir-birini əvəzləməsi, sığınacaqla bağlı müraciət haqqından *(non-refoulment)* onu məhdudlaşdıran "qeyri-giriş rejiminə" *(non-entree regime)* qədər prinsiplərin hamısı Qərb geosiyasi, iqtisadi və hüquqi maraqlarına xidmət etmişdir. Bunun üçün lazım gələndə qaçqınlar "fərqlilik mifi"ndə olduğu kimi "yaxşı və pis qaçqınlara" ayırd edilmişlər. Bu günə qədər beynəlxalq təşkilatların beynəlxalq hüquqa əsaslanaraq etnik təmizləməyə məruz qalan, yaxud zorla didərgin salınan qaçqınların öz torpaqlarına qayıtması ilə bağlı hər hansı bir ədalətli qərar qəbul etməsini, bununla bağlı presedentin olub-olmamasını yada salmaq istəsək, xeyli düşünməli olarıq.

Artıq beş əsrə yaxın davam edən Qərb miqrasiya siyasətinin başlıca siyasi-hüquqi yekunu məhz bu acı reallıqdır. Beynəlxalq hüquq və münasibətlərdə insan və qaçqın hüquqlarının bir-birindən uçurumla ayrıldığı hazırkı miqrasiya fəlakəti onun bariz sübutudur.

Hegemonluq siyasətinə əsaslanan, problemlərin ədalətli və real siyasi həll yollarını tapmaq əvəzinə onları humanitar yardımlarla ört-basdır edən beynəlxalq hüquq yalnız öz mahiyyətindən məhrum edilmiş vasitədir. Bu siyasət üçün başqa dövlətlərin suverenliyinə hörmət, zorla torpağından qovulmuş insan fəlakətinə münasibətdə ümumi məsuliyyətin müəyyən edilməsi anlayışı mövcud deyil.

Qaçqın probleminə "yeni yanaşmanın" həmrəylik və beynəlmiləlçilik prinsiplərinə köklənməsi, zəngin Şimal-Qərb və yoxsul Cənub ölkələri arasında getdikcə dərinləşən uçurum vəziyyətini, miqrasiya proseslərində xarici amillərin də həlledici rola malik olmasını nəzərə alan eksternalist yanaşmanın yenidən tətbiq edilməsi dərk edilməlidir. Yeni yanaşmalar, təbii ki, beynəlxalq qaçqın hüququna münasibətdə mövcud olan pozitivist yanaşmadan imtina etməlidir. Çünki pozitivistyanaşma miqrantların qəbul qaydalarını müəyyən edən suveren dövlətlərin hüquq və azadlıqları ilə həyatı böyük təhlükə və məhv olmaq riski altında olan qaçqınların ehtiyacları arasında yaranan gərginliyə cavab vermək iqtidarında deyil. Yalnız hüquqi müstəvini əsas götürərək siyasi səbəbləri görməzdən gələn pozitivistyanaşma miqrasiya böhranının yaranma səbəblərindən biridir. İndiyə qədər yaranan qaçqın probleminin ədalətli həlli bu yanaşma çərçivəsində mümkün olmadığı üçün yeni, növbəti məcburi axınların sonu görünməyəcək.

Lakin "yeni yanaşma" mövcud beynəlxalq vəziyyətdən fərqli olaraq hansısa ölkələrin qaçqınların qəbulunda "istisna hüququna" malik olmasını" təqdir etməməlidir. O, həmçinin "fərqlilik (qaçqın və miqrantlar) mifi"nin dekonstruksiyasını, qüsurlu olduğunu sübut etməklə, tarix boyu imperializmin insanların məcburi köçürülməsində və qaçqın axınlarının yaranmasında oynadığı rolu izah etməklə ona son qoymalıdır. Hər il artan qaçqın ordusunu müşahidə edən sivilizasiya beynəlxalq hüququn pozulduğu bütün halların ədalətli həllinə çalışmalıdır.

Hazırda formalaşmış qlobal miqrasiya fəlakəti və təhlükəli beynəlxalq əmək bölgüsü ("beyin axını") vəziyyətində beynəlxalq hüququn xüsusilə həssas olması günün tələbidir. Belə ki, üçüncü dünya ölkələri Qərb dövlətlərini elm və intellekt sahəsində öz

düşüncə və konsepsiyaları ilə dolduran, özü isə sonda "boş səhraya" çevrilən məkan ola bilər.

Qlobal miqrasiya böhranının tənzimlənməsi siyasətində Qərb dövlətlərinin üç qrupu fərqləndirilir:

1. *İmmiqrant dövlətlər* - yaranmasının təməlində immiqrasiyanın durduğu və "milli ideal" sayıldığı dövlətlər - ABŞ, Kanada, Avstraliya;
2. *İmmiqrant ölkələr* - Fransa, Almaniya, Niderland, İsveçrə, Skandinaviya ölkələri - bunların siyasi, sosial-iqtisadi, mədəni inkişafında immiqrasiya həlledici rol oynamış, lakin dövlət kimi yaranmasının əsasını təşkil etməmişdir;
3. *İmmiqrasiya proseslərinə sonradan cəlb edilən ölkələr* - hazırda miqrasiyanın mənbə və təyinat ölkələri arasında həlledici tranzit - körpü rolunu oynayan İtaliya, İspaniya və Yaponiya[143].

Təsnifatı təklif edən müəlliflər hesab edirlər ki, gəlmələrin məskunlaşması nəticəsində yaranan dövlətlərdə immiqrasiya milli ideal, yaxud mifologiya səviyyəsində qəbul edilir. Avropa ölkələri immiqrant ölkələrdir, lakin "immiqrant dövlətlər" (yəni immiqrasiya əsasında formalaşan dövlətlər) deyil. Çünki bu dövlətlərin yaranmasının təməlində immiqrasiya durmur. Burada immiqrasiya milli quruculuğun və kimliyin həlledici əsası olmayıb, miqrantlara daimi deyil, müvəqqəti - çıxıb gedəcək sakinlər kimi baxılıb. Lakin tədricən məlum olub ki, "müvəqqəti miqrantlardan daimi bir şey yoxdur". İsveçrəli yazıçı və dramaturq **Maks Frisşin** *(Max Frisch)* ifadəsi bu baxımdan aforizmə çevrilib: "Biz işçi qüvvəsi (fəhlə) istədik, lakin məlum oldu ki, gələnlər həm də insanlardır" *(We asked for workers, but people came).*

143 Controlling Immigration: A Global Perspective, Third Edition.Editors-James Hollifield, Philip L. Martin, Pia Orrenius. Stenford University Pres, 2014, 456 p.

Bütovlükdə, Qərb dövlətlərinə sığınacaq üçün müraciət edənlərin sayının məhdudlaşdırılması, giriş şərtlərinin sərtləşdirilməsi, vizası olmayanlara girişin qadağan edilməsi, ən acınacaqlısı, münaqişə zonalarından qaçan şəxslərin qaçqın hesab edilməməsi yalnız yaxın və uzunmüddətli perspektivdə problemlərin yüksələn xətt üzrə artmasına səbəb olur. Bunun məntiqi sonluğunu isə təsəvvür belə etmək çox ağırdır. Bir tərəfdən müharibə ocağına dönən evlərinə qayıtmaq imkanlarına malik olmayan, digər tərəfdən isə həyatı üçün təhlükəsiz hesab edərək gəldiyi ölkədə rədd cavabı alan məcburi miqrantlar ya sonrakı hərəkət marşrutlarını dəyişdirməyi, ya da qeyri-leqal miqrantların sırasına qoşularaq, sonu bəlli olmayan taleyi seçməli olurlar.

İkincisi, miqrantların üz tutduqları qabaqcıl ölkələrin yalnız öz maraqlarını təmin etməyə yönəlmiş təkbaşına böhranı həll etmək səyləri qaçqınların qarşısının alınmasına, filtrasiya və sərhəd-nəzarət funksiyalarına yönəldilmiş dövlət resurslarının, maliyyə xərclərinin görünməmiş dərəcədə artmasına, büdcəyə yük düşməsinə gətirib çıxarır ki, bu tədbirlərin səmərəliliyi və müsbət nəticələri onun ziyanından çox olur. Məsələn, ABŞ-ın sərhəd mühafizəsinə xərcləri 1986-cı ildəki 700 milyon dollardan 2010-cu ildə 10,1 milyard dollara qədər artmışdır. Sərhəd-mühafizə xidməti əməkdaşlarının sayı 1986-cı ildəki 3000 nəfərdən 2010-cu ildə 20000 nəfərədək çoxalmışdır. Xarici sərhədlərin ümumavropa mühafizə xidməti olan FRONTEKS-in büdcəsi 2006-cı ildəki 20 milyondan 2010-cu ildə 90 milyon avroya qədər artmışdır[144].

Avropa Komissiyasının qərarına əsasən, yaxın illərdə dəyəri təxminən 2 milyard avroya bərabər olan iki böyük proqram - xarici

144 Rosenblum M. and K. Brick. US Immigration Policy and Mexican/Central American Migration Flows: Then and Now. Washington, DC: Migration Policy Institute, 2011; Hayes B., Vermeulen M. The EU's New Border Surveillance Initiatives, Heinrich B ll Foundation, June 2012

sərhədlərin müşahidəsi üçün Avropa sistemi (EUROSUR) və "ağıllı sərhəd" paketi üzrə bölgəyə iş üçün gələn və ya Avropada sadəcə səyahət edən üçüncü ölkə vətəndaşlarının biometrik məlumatlarının geniş bazasının yaradılması həyata keçiriləcək.

Vergi ödəyiciləri vasitələrindən toplanan milyardlarla dollar vəsait qeyri-leqal miqrantların ixtisaslaşmış mərkəzlərdə saxlanılmasına və onların deportasiya edilməsinə xərclənir. Belə ki, ABŞ-dan bir miqrantın deportasiyasının dəyəri təxminən 12500 dollardır. Britaniyada bu rəqəm 11000 funt sterlinq təşkil edir. Nəzərə alsaq ki, 2010-cu ildə bu ölkələrdən müvafiq olaraq 400 min və 50 min insan deportasiya edilmişdir, o zaman dövlət resursları üzərinə düşən büdcə yükünü təsəvvür etmək mümkündür. Hesablamalara görə, təkcə ABŞ-dan qeyri-qanuni miqrantların deportasiya edilməsi üçün 285 milyard dollar lazımdır.[145]

Bununla yanaşı, göstərilən bu səylərin əvəzi kimi qeyri-leqal miqrasiyanın həcminin azaldılması baş vermir. Ekspertlərin qiymətləndirilmələrinə görə, hər beşinci miqrantdan biri və ya təxminən 40 milyon insan qüvvədə olan qaydalardan yan keçərək məskunlaşmağa nail ola bilir.

Qeyri-leqal miqrasiyanın genişlənməsi leqal miqrasiya kanallarının getdikcə daha çox qapadılması, yoxluğu ilə birbaşa bağlıdır. Həyati ehtiyac və ümid gözləntiləri ilə milyonlarla insan sığınacaq üçün müraciət edir. Bunun üçün saxta nikahlar tərtib etməyə çalışır, qanunsuz kriminal şəbəkələrin əllərinə keçir, radikal qrupların təsiri altına düşürlər. Halbuki qanuni əmək miqrasiyası ilə bağlı yeni proqramların və layihələrin həyata keçirilməsi qeyri-leqal axınların əhəmiyyətli dərəcədə zəifləməsinə imkan verə bilər.

145 Kasperkevic J. Deporting All Of America's Illegal Immigrants Would Cost A Whopping $285 Billion. /30.01.2012/ - *https://www.businessinsider.com/deporting-all-of-americas-illegal-immigrants-would-cost-a-whopping-285-billion-2012-1*

## 3.5. Qərb hüquq sistemi kompleks böhran məngənəsində

*"Son illərdə Avropanı bürüyən qaçqın böhranı üç mühüm istiqamətdə hüquqi böhranın yaranmasına səbəb olmuşdur. Bunlar beynəlxalq, Avropa və Konstitusiya hüququ istiqamətləridir. Miqrasiya böhranı ilə bağlı beynəlxalq hüququn məzmununa dair mübahisələr, arqumentlər və fikir ayrılıqları daha çox üstünlük təşkil edir. Hökumətlər qərar qəbul edərkən tez-tez qanunların tətbiqi üçün "yaradıcı şərh" yanaşmasından istifadə edirlər. Beləliklə, arzuolunmaz vəziyyət yaranmış, beynəlxalq hüququn təfsiri və tətbiqi siyasi və ideoloji mübarizə üçün döyüş meydanına çevrilmişdir".* [146]

**Estoniyanın 2016-2017-ci illər üçün İnsan İnkişafı Hesabatından**

Qaçqın böhranı Aİ ölkələrinin əlaqələrinə mənfi təsir göstərmiş və bir çox hüquqi məsələləri gündəmə gətirmişdir. Daha doğrusu, üç səviyyədə - beynəlxalq, Avropa və Konstitusiya hüququnun böhranıənənəsinin başlanğıcını qoymuşdur. Buna misal olaraq, Slovakiya və Macarıstanın Avropa Ədalət Məhkəməsində Avropa Komissiyasının üzv dövlətləri arasında beynəlxalq yardım alan miqrantların köçürülməsinə dair qərarına etiraz etməklə bağlı qaldırdığı iddianı göstərmək olar.

Gündəlik səviyyədə miqrantlarla bağlı problemləri tənzimləmək üçün miqrasiya siyasəti, qanunun aliliyi, əsas insan hüquq və azadlıqları, etnik-dini azlıqların hüquqlarının təmin edilməsi və

146 Estonia at the Age of Migration / Estonian Human Development Report 2016-2017/. - *https://inimareng.ee/en/*

icmalararası münasibətlərlə bağlı qanunvericilik var. İmmiqrantlarla bağlı mübahisələr ideyalar səviyyəsindədir. Bu, Aİ ölkələrinin praktiki məsələlərdə əməkdaşlığına maneə törədir və miqrant böhranına nəzarət etmək üçün səmərəli tədbirlərin həyata keçirilməsində konsensus əldə etməyi çətinləşdirir. Səbəblərin nə olmasından asılı olmayaraq bu insanları birləşdirən ümumi cəhət onların öz həyatlarının məhv olması qorxusu üzündən qaçmalarıdır. Buna görə də onlar doğma evlərindən kənarda beynəlxalq qaçqın hüququnda yer alan **"sığınma haqqına sığınmağa**" məcbur olmuşlar.

Dövlətin vətəndaşlarının əsas hüquqlarını təmin edə bilmədiyi və ya bunu istəmədiyi hallarda belə şəxslərin və ya qrupların qorunmasını təmin etmək üçün daha geniş bir beynəlxalq məsuliyyət mövcuddur, yaxud olmalıdır. Humanitar müdaxilə, humanitar yardım və "qorunma məsuliyyəti" kimi mövzularla bağlı müzakirələr daxili məcburi miqrasiya ilə də sıx bağlıdır**.**

Sayı milyonlarla olan qaçqın axınları fonunda Qərb dövlətlərinin fəaliyyəti və həyata keçirdiyi tədbirlər problemə yanaşma baxımından "meşə yanğınlarını əllə (bir vedrə su ilə) söndürmək" cəhdlərinə bənzəyir. Macarıstan divar inşa edir, Almaniya, Avstriya, Fransa, Danimarka, İsveç və Norveç sərhəd nəzarətini gücləndirən siyasət tətbiq etməyə başlayıb. Bütün bunlar isə Aİ-nin təməlində duran "Şengen sazişi"nin qüvvəsinin dayandırılması deməkdir.

Avropada, yaxud başqa yerlərdə miqrant böhranı ilə bağlı siyasi qərarlar verildiyi zaman əsasən qanunvericiliyin müəyyən etdiyi məhdud çərçivələrə üstünlük verilir. "Son iyirmi beş ildə ancaq sığınacaq üçün müraciət edilən ənənəvi və yeni ölkələr üzrə qaçqın statusunun verilməsi prosedurlarının siyasiləşməsi baş verib. Bir çox ölkələr qaçqınların öz təyinat yerinə çatması və ya sığınacaq almasına mane olmaq üçün mövcud olan prosedur

və fiziki mexanizmləri olduqca qəlizləşdirmişlər. Qaçqınlara dair beynəlxalq qanun başqa tarixi şəraitdə qəbul edilib və real vəziyyətə cavab vermir. Eyni zamanda qaçqın statusunun alınmasına maneə yaradan amil kimi sərf edəndə o, köhnəlmiş sayılmır. Demək olar ki, bu sahədə hüquq və siyasət qarşılıqlı - lazım gələndə qaçqının hərəkətini məhdudlaşdırmaq, lazım gələndə də emiqrasiya siyasətini stimullaşdırmaq üçün tətbiq edilir".[147]

Son illərdə Avropa ölkələrinin insan hüquqları sahəsində öz öhdəliklərini yerinə yetirmədikləri, xüsusilə də Yaxın Şərq və Afrikadan gələn qaçqınlara sığınacaq verilməsi hüququnu təmin etmədikləri və bunu görməzdən gəldiklərinə dair iradlar və tənqidlər çox səslənir.

> Cenevrə Konvensiyasının sütunu sayılan hallardan biri olan siyasi qaçqınlar və iqtisadi məcburi köçkünlər arasında fərqləndirmə aparmaq çox çətindir. Bəlkə, elə bu məqam vəziyyətin nə qədər mürəkkəb olduğunu və tətbiqi müşkül olan bir qanun halına gəldiyi barədə düşünməyə vadar edir.

Qərb dövlətlərinin miqrasiya sahəsində insan hüquqlarına biganəliklə bağlı qeyd edilən mövqeyi hətta, adətən Qərbin geosiyasi maraqlarının reallaşdırılmasına xidmət edən, "insan hüquqlarını müdafiə etmək missiyasına" iddialı olan və qərəzli hesabatları ilə tanınan beynəlxalq təşkilatların da tənqidinə tuş gəlir. Həmin təşkilatlardan olan "Amnesty International" Şimali Afrikada qaçqın fəlakəti və miqrasiya böhranı ilə bağlı hesabatında qabaqcıl dövlətlərin mülki vətəndaşları zorakılıqlardan müdafiə etmədiyini bəyan etmiş, dövlətlərin silahlı qruplaşmalarla qlobal mübarizəsini "utandırıcı və qeyri-effektiv"

147 Gammeltoft-HansenT. The law and politics of non-entree. /04 June 2014/ - https://www.rsc.ox.ac.uk/events/the-law-and-politics-of-non-entree

adlandırmışdır. Təşkilatın hesabatında qeyd edilir ki, son illər milyonlarla insan üçün fəlakət ili olub. İnsanlar artmaqda olan vəhşi hücumlar və repressiyaların qurbanına çevrilib. Dünya ictimaiyyəti isə bunu istəyirmiş kimi davranır''.[148]

Suriya, Ukrayna, Qəzza zolağı və Nigeriya kimi bölgələrdə milyonlarla insanın dəhşətli zorakılıqlar və insan haqları pozuntuları ilə üzləşdiklərinin əksini tapdığı bu hesabatda II Dünya müharibəsindən sonra ilk dəfə olaraq 50 milyon insanın 2014-cü il ərzində didərgin düşdüyü vurğulanır. "Amnesty International" təşkilatı BMT-nin Təhlükəsizlik Şurasını və Aİ-ni Suriyanın 4 milyonluq qaçqın böhranına lazımi səviyyədə cavab verməməkdə, mülki əhalini müdafiə etməməkdə günahlandırır. Bundan başqa, BMT-nin Təhlükəsizlik Şurasının 5 daimi üzvünün - Britaniya, Çin, Fransa, Rusiya və ABŞ-ın mülki əhalini müdafiə etməkdənsə, öz geosiyasi maraqlarına üstünlük verərək veto hüquqlarından sui-istifadə etməsi hesabatda xüsusi qeyd edilmişdir.

Digər tənqidçilər ən çox 1951-ci ildən əvvəl Avropaya gələn və ya Avropadan gedən şəxslərə tətbiq edilən "Qaçqınların statusu haqqında" 1951-ci il Cenevrə Konvensiyasının və Protokolun müddəalarına istinad edirlər. Məlum olduğu kimi, daha sonra 1967-ci ildə Protokol Konvensiyanın tətbiq edilmə imkanlarını Avropanın hüdudları xaricinə qədər genişləndirmiş və vaxt məhdudiyyəti aradan qaldırılmışdır.

Miqrant hüquqlarına münasibətlə bağlı vəziyyətin daha ağır nəticələr verə biləcəyini düşünən beynəlxalq hüquq ekspertlərinin bir qrupu 2015-ci ilin sentyabrında Avropa Beynəlxalq Hüquq Cəmiyyətinin illik konfransında "açıq məktub" hazırlayaraq imzaladılar. Məktubda onlar Avropa ölkələrini "Qaçqınların statusu

148 Amnesty International report 2014/15. The State of the World's Human Rights. - *https://www.amnesty.org /download/Documents/POL1000012015ENGLISH.PDF*

haqqında" Konvensiyadan irəli gələn hüquqi öhdəliklərə riayət etməyə, qaçqınların Avropada yerləşməsinə mane olmaq və onları təhlükəli ölkələrə geri göndərməkdən çəkinməyə çağırdılar.

Bu sənədin məntiqinə əsasən, "Qərb-Balkan miqrasiya marşrutu"nu məqsədyönlü şəkildə bağlayan ölkələr qaçqınların hüquqlarını pozmuşdur. Bəziləri hətta Aİ-ni Yunanıstana qarşı miqrasiya axınını məhdudlaşdırmaq məqsədi ilə 2016-cı ildə Türkiyə ilə razılaşmanı imzaladığı üçün ittiham etdilər.

Reallıqda etiraf edilməlidir ki, bu qədər dövlətin hökumətlərinin insan hüquqlarını eyni vaxtda bu dərəcədə və miqyasda pozmaqda ittiham edilməsi beynəlxalq hüquqda görünməmiş hal olub, onun aşkar iflası və böhran yaşaması deməkdir.

## 3.6. Avropa İttifaqı səviyyəsində hüquqi problemlər və böhran

Qaçqın böhranı Aİ-yə üz dövlətləri iki cəbhəyə bölüb. Bir tərəfdə həmrəylik çağırışlarını səsləndirən və məcburi kvota sistemindən istifadə edərək Aİ ölkələri arasında yüz minlərlə qaçqını bölüşdürməyə səy göstərən Avropa Komissiyası durur. Digər tərəfdə Şərqi Avropanın əks mövqedə duran, mövqelərində çox israrlı olan bir sıra ölkələri (Vişegrad qrupu: Polşa, Slovakiya, Çexiya və Macarıstan) Avropa Komissiyasının problemə münasibətinə qarşıdırlar.

Qaçqınların bölüşdürülməsinə tərəfdar olan ölkələr həmrəyliyin Aİ-nin təməl prinsipi kimi qəbul edildiyini əsas götürürlər. Lakin digər tərəfin məntiqinə görə, "həmrəylik və onun hüdudları" hüquqi prinsip kimi müzakirə edilə bilər. Belə ki, qanunvericilikdə də ümumi sayılan bir prinsip var: konkret-xüsusi razılaşdırılmayan bir məsələ qanun deyil və buna görə də məcburi deyildir.

1990-cı ildə Dublin Konvensiyası qəbul edilmiş və burada göstərilmişdir ki, Aİ-yə daxil olan və beynəlxalq sığınacağa iddialı olan şəxslər gəldikləri ilk üzv dövlətdə qalmalı və orada qeydiyyatdan keçməlidirlər. Bu fəaliyyətdə olan qanunun qüvvəsi hazırda müvəqqəti olaraq dayandırılmış və beynəlxalq sığınacaq axtaranlara Aİ-də səyahət etməyə, ölkələri (Almaniya, İsveç və s.) seçməyə icazə verilmişdir.

Qanuna edilən bu əlavə Aİ-də sərhəd müqaviləsi olmadan sərbəst hərəkətə zəmanət verən Şengen sazişinin qüvvədə olmasına əhəmiyyətli maneə yaradır. Məsələn, miqrantların ilk axınlarını qəbul edən ölkələr, xüsusilə də Yunanıstan miqrasiya dalğasının təzyiqi ilə mübarizə apara bilmədi.

Almaniya Kansleri Angela Merkelin 2015-ci ildə kütləvi miqrasiyanın pik nöqtəyə çatdığı zaman verdiyi bəyanat beynəlxalq sığınacaq axtaranların Almaniyada qəbul ediləcəyini göstərmişdi. Onun irəli sürdüyü: *"Biz bunu bacararıq!"* şüarı faktiki olaraq həmin müddətə qədər Aİ-də tətbiq olunan qanundan (Dublin tənzimlənməsi) kənar bir hal sayılır. Bəzi nüfuzlu alman hüquqşünasları hətta bəyan etdilər ki, bu həm Aİ-nin qanunvericiliyinə, həm də xüsusilə Almaniya Konstitusiya qanunlarına ziddir. Almaniya hökuməti bu tənqidlərə cavab verərək qeyd etdi ki, fövqəladə vəziyyətlərdə Aİ-nin qanunları müvəqqəti də olsa geri çəkilə, humanizm təsəvvürlərindən, qaçqınların insan hüquqlarının qorunmasının zəruriliyindən çıxış edə bilər. Bununla belə, Alman hökuməti kəskin tənqidə məruz qaldı. Məsələn, Macarıstanın Baş naziri Viktor Orban A.Merkeli ittiham edərək bu qərarın yalnız Almaniyanın Kansleri üçün olmadığını, onun Aİ-nin bütün ölkələri üçün acı nəticələr gətirdiyini xatırlatmışdır.

Məlum olduğu kimi, Avropa qanunu iki səviyyədə fəaliyyət göstərir. *Birincisi,* Brüsseldə yaradılan və Avropa Ədalət Məhkəməsinin yerləşdiyi Lüksemburqda şərh olunan Aİ qanunudur. Bu, Dublin tənzimlənməsinin ən üstün səviyyədə olduğu haldır. Avropa qanunvericiliyinin *ikinci səviyyəsi* Avropa İnsan Hüquqları Konvensiyasıdır ki, Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) tərəfindən Strasburqda şərh edilir. Avropa İnsan Hüquqları Konvensiyasının bəzi qərarları qaçqın böhranında Avropa Şurasının üzv dövlətlərinin (bir çox Aİ üzvləri) siyasətinə təsir göstərmişdir.

Buna görə AİHM 2012-ci il fevralın 23-də Eritreya və Somalidən olan qaçqın *"Hirsi Jamaa və digərləri İtaliyaya qarşı"* işi ilə bağlıhökm çıxarmış, İtaliyanı İnsan Hüquqları üzrə Avropa Konvensiyasında nəzərdə tutulan beynəlxalq sığınacaq axtaranların insan hüquqlarını pozmaqda ittiham etmişdir. Onlar iddia etmişlər ki, qaçqınların (*özlərinin* - **red.**) Aralıq dənizində gəmilərdə qaçqın statusuna müraciət etmək hüquqlarını yoxlamadan onları Liviyaya geri göndərmişlər. *"Hirsi Jamaa və digərləri İtaliyaya qarşı"* işi ilə bağlı verilən qərar qaçqın böhranı şəraitində İtaliya və Aralıq dənizi ilə həmsərhəd olan (faktiki olaraq bütün Aİ ölkələri üçün) digər Aİ ölkələrinin siyasi seçiminə və qərar qəbulu çərçivəsinə aydınlıq gətirmək baxımından əhəmiyyətli hesab edilə bilər.[149]

Beynəlxalq hüquq üzrə professor, BMT-nin Beynəlxalq Ədliyyə Məhkəməsinin Avstraliyadan seçilmiş hakimi **Ceyms Crouford** *(James Crawford)* hesab edir ki, *"Hirssi Jamaa və digərləri İtaliyaya qarşı"* işi ilə bağlı qəbul edilən qərar mühüm əhəmiyyətə malikdir. Bu qərarla AİHM Avropa İnsan Haqları Konvensiyasının tətbiq sahəsi xaricə (*üzv olmayan ölkələrə* - **red.**) doğru genişlənən presedenti

149 Guild E. Security and migration in the 21st century. Cambridge: Polity Press, 2009, p.141

kimi şərh edilə bilər. Digər beynəlxalq məhkəmələr beynəlxalq müqaviləni (yəni Avropa İnsan Hüquqları Konvensiyasını) hələlik bu şəkildə tətbiq-şərh etməmişdir.

Bu qərar Avropa Şurasına üzv ölkələri xüsusilə də Aralıq dənizində öz ərazilərindən kənarda insan hüquqlarının qorunmasına diqqətlə yanaşmağa məcbur etdi. Bu baxımdan qaçqınların və beynəlxalq sığınacaq axtaranların gəmiləri Aralıq dənizindən İtaliyaya keçirilir. Bəzi təkliflərə görə, Şimali Afrikada Aİ qaçqın mərkəzlərinin yaradılması qanunsuz miqrasiyanın məhdudlaşdırılması üçün daha səmərəli bir yol ola bilərdi. Lakin bu təklif Şimali Afrika ölkələrinin suverenliyi, həmçinin qaçqınların didərgin düşdüyü mənbə ölkələrində (məsələn, Liviya) dövlət orqanlarının dağılması faktına görə faydasız hesab edilir.

## 3.7. Qaçqın böhranı və Konstitusiya hüququ arasında ziddiyyət - Cenevrə Konvensiyasının günahkar çıxarılması

Beynəlxalq və Avropa qanunlarının laxlamasının sürətlənməsi Aİ-yə üzv ölkələrdə həqiqi konstitusiya qanunu böhranına səbəb oldu. Məlum olduğu kimi, ədalət mühakiməsinin bütün üç səviyyəsi Aİ-yə üzv dövlətlərdə dərin bir şəkildə iç-içədir. Konstitusiya qanununun mərkəzi məsələsi suverenlikdir, yəni dövlət və xalq üçün vacib olan qərarları kimin qəbul etməsi məsələsidir. Məsələn, Avropa Komissiyası federal qurum kimi məcburi kvota planı ilə bağlı üzv dövlətlərdən bəzi səlahiyyətləri almağa çalışdı. Bu da bəzi sualları gündəmə gətirdi: Konstitusiya hüququ baxımından sonuncu sözü söyləmək haqqı kimə aiddir? Bu, üzv dövlət, yoxsa Brüsseldəki (və ya Strasburqdakı) təşkilatdır? Konstitusiya qanunu çərçivəsində

hər bir dövlətin əsas vəzifəsi və qanuni mənbəyi vətəndaşlarının təhlükəsizliyini təmin etməkdir. Qaçqın böhranı ilə eyni zamanda dəhşətli terror hücumları daha da yayılmışdır və buna görə də bu vəzifə lazım olan səviyyədə yerinə yetirilməmişdir.

Qaçqın böhranının sonu görünmür və min bir əzab-əziyyətlə qaçıb gələn insanlar gələcəkdə Avropada həyatın bir hissəsi olaraq qalacaqlarına ümid bəsləyirlər. Görünən odur ki, Aİ "Qaçqınların statusu haqqında" Cenevrə Konvensiyasının taleyinin necə olacağını müəyyən etmək üçün ciddi müzakirələrlə üz-üzə qalacaqdır. Cenevrə Konvensiyası bəzən beynəlxalq hüququn ümumi çərçivəsindəki ifadələrdən uzaqlaşır və belə təəssürat yaradır ki, Avropa ölkələrinin yeni bir reallıqda getdikcə artan miqrasiyanı qəbul etməkdən başqa bir seçimi yoxdur. Lakin bu Konvensiya beynəlxalq hüquqda yeganə müqavilə deyil və qaçqınların hüquqları beynəlxalq hüquqla qorunan yeganə hüquq deyil. Həm də unutmaq olmaz ki, dövlətlərin suverenliyi hələ də beynəlxalq hüququn əsas prinsipidir və buna görə də praktiki olaraq onların əvvəllər imzalanmış müqavilələri nəzərdən keçirmək hüququ vardır. Bu, insan haqları nümunəsində presedenti olmayan bir hal hesab edilə bilər. Lakin bu barədə düşünməmək də qeyri-mümkündür.

"Qaçqınların statusu haqqında" Cenevrə Konvensiyası insan hüquqlarının universallığının ideyası ilə bağlı olub, irqi, mənşəyi, yaşayış yerindən asılı olmayaraq insan hüquqlarının bərabər şəkildə hamıya tətbiq oluna bilməsidir.

Onu da qeyd edək ki, Cenevrə Konvensiyasını müzakirə və ittiham edən müəlliflərin sayı artmaqdadır. Onların bir qrupu hesab edir ki, "Bütövlükdə qaçqın böhranı kontekstində beynəlxalq hüququn böhranı ilk növbədə "Qaçqınların statusu haqqında"

Cenevrə Konvensiyasını şərh etməklə bağlıdır. Konvensiyanın müxtəlif ölkələr tərəfindən fərqli şəkildə şərh edilməsinə imkan verən bir neçə "boşluq" var. Hesab edilir ki, ən azından beynəlxalq himayə və sığınacaq hallarının geniş tətbiqi baxımından bu Konvensiya ideyası tarixi perspektiv aspektində tamamilə yeni, hətta bir qədər eksperiment xarakterli olmuşdur. Bir sıra Avropa ölkələrinin vətəndaşlarının gözündə Avropa ilə sərhəd zonalarından kütləvi immiqrasiyaya imkan verən "Qaçqınların statusu haqqında" Cenevrə Konvensiyasının fəaliyyəti və təfsiri onların siyasi iradəsinə zidd olduğu üçün bu baxımdan demokratiyanın prinsipləri ilə də ziddiyyət təşkil edir. Hətta baxmayaraq ki, qaçqınların statusu ilə bağlı BMT Konvensiyasının 1967-ci il Protokolunda beynəlxalq sığınacaq potensial olaraq tanınır, (müəyyən şərtlər yerinə yetirildikdə) qeyri-məhdud universal hüquq kimi insanlar (artıq) onun məhdudiyyətsiz tətbiqi ilə razılaşmırlar".[150]

Cenevrə Konvensiyası 1967-ci ildən, dekoloniyalaşdırma dalğasından sonra genişləndirilərək II Dünya müharibəsindən sonrakı Avropa ərazisində də tətbiq olundu. Buna baxmayaraq, xoşagələn hal deyil ki, Konvensiyanı müzakirə edənlər Avropanın mədəniyyət arealından uzaq olan insanların müharibə, zorakılıq və ya iqtisadi səbəblərdən asılı olmayaraq Avropaya gəlmək üçün bu konvensiyaya əsaslandıqlarını vurğulayırlar. Əsas kimi onu qeyd edirlər ki, bütün hallarda dekoloniyalaşdırmanın başlıca ideyası müstəqillik əldə edən dövlətlərə öz dövlətçiliyini qurmaq, xalqların Avropaya köçməsinə imkan verməmək idi. Məsələn, alman məhkəmələri üçün Yunanıstan hazırkı halda təhlükəsiz, etibarlı bir təyinat (miqrantların daxil olduğu) ölkəsi deyil.

150 Huysmans J. The politics of insecurity: Fear, migration and asylum in the EU. London: Routledge, 2006, p.79

Həmçinin, Türkiyə də öz növbəsində Yunanıstan məhkəmələri üçün təhlükəsiz və etibarlı bir təyinat ölkəsi hesab edilmir. Analitiklərin qeyd etdiyinə görə, bu konvensiya qaçqınlara daha sonra yerinə yetirilməsi mümkün olmayacaq çoxlu vədlər verir və ümidləri təşviq edir. Cenevrə Konvensiyasının sütunu sayılan hallardan biri olan siyasi qaçqınlar və iqtisadi məcburi köçkünlər arasında fərqləndirmə aparmaq çox çətindir. Bəlkə, elə bu məqam vəziyyətin nə qədər mürəkkəb olduğunu və tətbiqi müşkül olan bir qanun halına gəldiyi barədə düşünməyə vadar edir.[151] Məhz buna görədir ki, beynəlxalq qaçqın hüquqları sahəsində islahatların aparılmasına dair çağırışlar getdikcə daha çox səslənir. Danimarkanın Baş naziri **Lars Lokke Rasmussen** 2015-ci ilin dekabrında nəzarətə alınmayan kütləvi immiqrasiya davam edərsə, “Qaçqınların statusu haqqında” Cenevrə Konvensiyasını dəyişdirmək və əlavələr etmək üçün çağırış etdi. Lakin o, bunu necə etməyin yolunu göstərmədi.

Bütövlükdə, qanunla qorunan digər hüquqi güzəştlər də bu çərçivədə, məsələn, təhlükəsizlik hüququna, özü ilə bağlı qərar vermək hüququna və Avropa xalqlarının tarixən inkişaf etmiş mədəni kimliyini müdafiə etmək hüququna diqqəti cəlb edir. Buna görə də Qərb dünyasının təməl universal dəyərlərindən ikisinin -insan hüquqları və demokratiyanın toqquşduğu görünməmiş presedent bir vəziyyət yaranmışdır**.**

XX əsrin ikinci onilliyinin əvvəllərində beynəlxalq hüquqda formalaşdırılmış kompleks normativ-hüquqi baza müəyyən qədər yenilənmiş**,** beynəlxalq əməkdaşlıq üçün miqrasiya siyasətinin müxtəlif istiqamətlərində müəyyən çərçivələr yaranmışdı. Bununla

151 Bolt G., Özüekren A.S., Phillips D. Linking integration and residential segregation. London: Routledge, 2012.

belə, çox keçmədi ki, beynəlxalq öhdəliklərə riayət edilməsi ilə bağlı problemlər ortaya çıxmağa başladı. Xüsusən də, son onilliklərdə həm inkişaf etmiş, həm də inkişaf edən dövlətlərin miqrasiya siyasətində çoxtərəfli fəaliyyətdən geriçəkilmə, milli maraqlara üstünlük verən və beynəlxalq hüquq və öhdəliklərə ziyan vuran daha çox "praqmatik" miqrasiya siyasətinin həyata keçirilməsi aparıcı tendensiyaya çevrildi.

Hazırda mövcud olan acı reallıq belədir ki, miqrantlar yalnız bir - "Hobson seçimi" qarşısında qalıblar. "Hobson seçimi" insanlara alternativi olmayan yeganə bir seçimin - *"Ya qəbul et, ya çıx get!"* şərtinin təklif edilməsidir.[152] Miqrasiya problemlərinin tədqiqi sahəsində tanınmış tədqiqatçı **Aleksandr Betts** *(Alexander Betts)* yaranmış vəziyyətin səbəblərini araşdıraraq yazır: "İndiyə qədər mövcud olan sistem niyə işləmir? Cavab ondan ibarətdir ki, müasir "beynəlxalq qaçqın rejimi" məhz müasir Qərb siyasətçiləri tərəfindən II Dünya müharibəsindən sonra yaradılmışdı. Onun əsas məqsədi dövlətin dağıldığı və ya daha betəri, öz vətəndaşlarına qarşı yönəldilən qeyri-qanuni fəaliyyətin baş verdiyi hallarda insanlara evlərinə qayıdana qədər təhlükəsizlikdə yaşamaq üçün zəmanət vermək idi. Bu gün Suriyada eynilə buna oxşar vəziyyət yaranıb. 1957-ci ildə qaçqınların statusu haqqında 147 dövlət tərəfindən imzalanmış beynəlxalq konvensiyaya əsasən, Qərb dövlətləri münaqişədən və repressiyalardan qaçan insanları öz ərazilərində qəbul etməlidirlər. Lakin bu gün bu sistem inkar edilir

152 XVII əsrdə İngiltərədə yaşamış mehtər **Tomas Hobson** atlarını icarəyə verirdi. Müştərilərin hər dəfə eyni atları seçməməsi və onların taqətdən düşməməsi üçün Hobson fənd işlədirdi. Belə ki, atların sıraya düzüldüyü tövlədə yeni gələn müştəriyə qapıya ən yaxın olan at təklif edilirdi. Müştəri ya qapıya ən yaxın olan atı götürə, ya da çıxıb gedə bilərdi. Siyasi nəzəriyyədə və sosioloji ədəbiyyatda yalnız bir seçimin olduğu vəziyyətlər *"Hobson seçimi"* kimi insanlararası münasibətlərin təhlilində tətbiq edilir. A.Portes və J.Divində görə, hazırda miqrantların qarşısında sanki bu cür seçim - "Ya qəbul et, ya çıx get!" şərti qoyulub. [Bax: Rethinking Migration: New Theoretical and Empirical Perspectives. by A. Portes (Ed.), J. Dewind (Ed.), 2008, 460 p.]

və iflasa uğrayır. Nəzəri olaraq qaçqınlar sığınacaqla bağlı müraciət etmək hüququna malikdirlər. Təcrübədə isə Qərb immiqrasiya prosedurları milyonlarla insanın təhlükəsizlik hüququna olan yolu bağlayıb. Bu gün Qərb siyasətinin son əsrlərdə yaratdığı beynəlxalq qaçqın rejiminin yox olması nəticəsində kortəbii formalaşan vəziyyət belədir: miqrantlar insana rəva bilinməyən üç seçimlə - çadır düşərgələri, yoxsulluq/məhrumiyyət və təhlükəli səyahətlərlə üz-üzədirlər".[153]

153 *https://ru.tiny.ted.com/talks/alexander_betts_our_refugee_system_is_ failing_here_s_ how_ we_ can_fix_it*

# IV FƏSİL

## Miqrasiya böhranı liberal Qərb demokratiyasının siyasi-ideoloji və iqtisadi siyasətinin süqutu kimi: təzahürlər, meyillər və perspektivlər

## 4.1. "Liberal paradoks"un yaranması: insan hüquqları və demokratiyanın "toqquşması", "universal demokratiya" mifinin sonu

*"Yalnız sadəcə qəddarlıq faktı deyil, həm də bir həqiqətdir ki, qaçqınların axını Qərb xarici siyasətinin kütləvi və dəfələrlə təkrar edilən uğursuzluqlarını əks etdirir. Xüsusilə də ABŞ Əfqanıstanda, İraqda, Liviyada və onun hüdudları xaricində özünün dəstəklədiyi imtiyazlı rejimləri hakimiyyətə gətirmək üçün dəfələrlə hərbi gücdən istifadə edib. Bu "rejim dəyişdirmək siyasəti" rüsvayçılıqla darmadağın oldu. Hazırkı 10 milyondan çox qaçqın və köçkün axınları bunun nəticəsidir. Bu baxımdan siyasətçilərdən uzunmüddətli strategiya tələb edilməsi də insafsızlıq deyil, ədalətli və məntiqidir. Çıxış yolunun axtarılması isə köklü səbəblərin aradan qaldırılması ilə bağlıdır".*[154]

**Cefri Saks**
***Amerika iqtisadçısı, Kolumbiya Universitetinin Yer İnstitutunun direktoru, Nobel mükafatı laureatı***

*"Necə olur ki, cəmiyyət iqtisadi səbəblərdən miqrantlara açıq olur, lakin siyasi və hüquqi baxımdan qadağalar tətbiq edir? Gəlin diqqət edək: bu gün immiqrasiya nəzarətinin və siyasətinin böhran yaşaması və dalana dirənməsi başlıca olaraq siyasi səbəblərlə, daha dəqiq desək, ifrat sağ təmayüllü siyasətçilərlə bağlıdır. Müzakirə edilən mövzuların qaçqınlara dair hüquq və konvensiyalarda geniş əksini tapmasına heç əhəmiyyət belə verilmir".*[155]

**Ceyms F. Hollifild**

154 Sachs J. There's no perfect answer to the migrant crisis – and we must face that./02.11.2015/ - *https://www.theguardian.com/commentisfree/2015/nov/02/answer-migration-crisis-refugees-europe*

155 Hollifield J.F. Migration and International Relations: Cooperation and Control in the European Community. //The International Migration Review Vol. 26, No. 2, Special Issue: The New Europe and International Migration (Summer, 1992), pp. 568-595

II Dünya müharibəsindən sonrayalnızmiqrantlara yönəlik "açıq qapı" siyasəti ilə paralel olaraq, digər siyasi ideologiya da geniş yayıldı. Sənayeləşmənin sürətlə getdiyi Qərb ölkələrində "insan hüququ mərkəzli" *(right-based)"*, insan hüquqlarına dayanan liberal siyasətin zəfər yürüşü başladı.

Müharibənin dəhşətləri və kütləvi qaçqın axını Qərb ölkələrini birləşməyə məcbur etdi. Bərpa və dirçəlişə ehtiyac üzündən Qərb ölkələri üçüncü dünya ölkələrinə qucaq açmağa məcbur oldular. İşçi qüvvəsinə ehtiyac burada əsas mühərrik rolunu oynadı. Azlıqların – gəlmə işçi qrupların hüquqlarının müdafiə edildiyi yeni hüquqi məkan yaradıldı. Hətta məşhur insan hüquqları haradasa "sənaye demokratiyası" kimi formalaşdı.

1948-ci ildə Ümumdünya İnsan Hüquqları Bəyannaməsi qəbul edildi. ABŞ-da XX əsrin 50-60-cı illərində vətəndaş hüquqları hərəkatları geniş yayılmışdı. **"Hüquq mərkəzli" liberal siyasətin** bütün lokal və beynəlxalq səviyyələrdə genişlənməsi və təşviq edilməsi davamlı ənənə şəklini aldı. Gəlmələrə, marginal və etnik qruplara verilən hüquqlar gündəmin mövzusunu təşkil etdi.

Avropa dövlətlərinin liderləri artıq heç vaxt savaşmamaq qərarını, birləşmə imperativini önə çəkdilər. Klassik liberal fəlsəfə gündəmə gətirilərək (Rouls, Uoltser və başqaları tərəfindən) insan və vətəndaş hüquqları "yeni ictimai müqavilə"nin mərkəzinə gətirildi. Dövlət-vətəndaş münasibətləri siyasi mübarizə konsepti əsasında ictimai müqavilənin məzmununu təşkil etdi. Bu da öz növbəsində miqrantların hüquqlarını önə çəkən yeni multikulturalizmin formalaşmasına və ictimai müqavilədə yer almasına da böyük təsir göstərdi.[156] İnsan hüququ mərkəzli siyasi və hüquqi irs II Dünya müharibəsindən sonrakı dövrün "məhsulu"dur. Qərb geosiyasi maraqlarına uyğun təbliğ edilən

---

156 Kymlicka W.Multicultural Citizenship: A Liberal Theory of Minority Rights. Clarendon Press, 290 p.

liberal fəlsəfənin çiçəklənməsi bunun nəticəsi oldu.

Bu gün isə Z.Bjezinskinin təbiri ilə desək, Qərbin liberal siyasət modeli pat vəziyyətdədir və "dünya şahmat taxtasında" gediş variantları praktik olaraq yoxdur. Yaranmış vəziyyəti immiqrasiya, siyasi iqtisad və millətçilik məsələlərini tədqiq edən alim J.F.Hollifild "liberal paradoks" kimi səciyyələndirmişdir**.** "Liberal paradoks" iqtisadi səbəblərdən miqrantlara açıq olan cəmiyyətin  siyasi və hüquqi baxımdan ona qadağalar qoyması kimi şərh edilir. Həmçinin insan və miqrant hüquqları arasında dərin uçurumun olduğunu aşkara çıxarır. "İnsan hüququ mərkəzli siyasət"in - liberal paradiqmanın iflasında  həlledici rol miqrant fiquruna məxsusdur.

"Liberal paradoks" iqtisadi səbəblərdən miqrantlara açıq olan cəmiyyətin  siyasi və hüquqi baxımdan ona qadağalar qoyması kimi şərh edilir. Həmçinin insan və miqrant hüquqları arasında dərin uçurumun olduğunu aşkara çıxarır. "İnsan hüququ mərkəzli siyasət"in - liberal paradiqmanın iflasında həlledici rol miqrant fiquruna məxsusdur.

**J.F.Hollifild** bazar iqtisadiyyatı və insan hüquqlarının immiqrasiya nəzarəti arasında getdikcə qəlizləşən münasibətləri mütləq olaraq "liberal paradoks"un həll etməli olduğunu qeyd edir.  Bunlara misal kimi ABŞ-ın 1996-cı ildə qəbul etdiyi "Qeyri-leqal immiqrasiya haqqında" Qanunu, Almaniyada Əsas Qanunun 16-cı maddəsinə sığınacaq müraciəti ilə bağlı dəyişikliklər edilməsi, Fransada 1990-cı illərdə qəbul edilən "Pacqua və Debre" qanunundan başlayan sərtləşmə tədbirləri göstərilir. Müəllif qeyd edir ki, 11 sentyabr hadisələrindən sonra nəinki liberal insan hüquqları siyasəti, həmçinin güc strukturlarına vətəndaşlığı olmayanları izləmə, həbsetmə və s. səlahiyyətlər verən qanunvericilik "irəlilədi".

Bəzi tədqiqatlarda miqrasiya siyasətində **kəmiyyət** *(gəlmələrin*

*sayı)* və **hüquqlar** *(keyfiyyət)* arasında qarşılıqlı bağlılığın yaranması vurğulandı. “Dövlətlər müəyyən miqrantları daha az hüquqlarla qəbul edə, yaxud daha az kateqoriya miqrantlara daha çox hüquqlar verə bilər. Lakin eyni zamanda bütün miqrantlara bütün hüquqlar verilə bilməz”.

Miqrasiya böhranı və insan hüquqları arasında ziddiyyət, həmçinin cəmiyyətdə gəlmələrə dözümsüzlük meyillərinin baş qaldırması ilə bağlı onu da xatırlatmaq lazımdır ki, hələ II Dünya müharibəsindən sonrakı *insan hüququ mərkəzli siyasət* mühiti də millətçi partiyaların yaranmasına mane ola bilməmişdi (Fransa Milli Cəbhə Partiyası buna parlaq misaldır).

> Miqrantlar hazırda liberal siyasi fəlsəfənin paradoksu vəziyyətində mövcuddurlar. Mənası isə belədir: liberal cəmiyyət onun üzvü olan, lakin vətəndaşı olmayan miqrantlara insan hüquqlarını aid etməlidirmi, onları “insan, yoxsa sadəcə gəlmə” hesab etməldir?

Beləliklə, neoliberal hüquq sistemindən və ictimai müqavilədən kənarda qalanlar - miqrantlar hazırda liberal siyasi fəlsəfənin paradoksu vəziyyətində mövcuddur. Mənası isə belədir: liberal cəmiyyət onun üzvü olan, lakin vətəndaşı olmayan miqrantlara insan hüquqlarını aid etməlidirmi, onları “insan, yoxsa sadəcə gəlmə” hesab etməlidir?

Bütövlükdə bu vəziyyət bir daha onu göstərir ki, miqrasiya probleminə artıq yalnız demoqrafik, iqtisadi, milli və s. icmalara üzvlük kimi deyil, daha geniş - siyasi və hüquq mərkəzli siyasət aspektində baxılmalıdır. Böhranın yaranma səbəbləri burada olduğu kimi, onun həlli yollarından biri də buradadır.

Miqrasiya böhranı ilə bağlı qəbul edilən qərarların qüsurlu olması, ortaq tədbirlərin görülməsi və proseslərin beynəlxalq tənzimləmə sisteminin fəlakətli vəziyyəti bütövlükdə miqrasiya siyasəti və bununla bağlı müvafiq hüquq normalarının olub-olmamasına dair dünya birliyinin humanitar fəlakətlərə çevik reaksiya verməyə qabil olmasına

əsaslı şübhələr yaradır. Adekvat və zamanında göstərilən köməyin olmaması ona gətirib çıxarır ki, milyonlarla insan on illərlə çadır və düşərgələrdə münaqişə və məhrumiyyətlər şəraitində yaşayır. Onlar özlərinin həyati tələbatlarını təmin etmək imkanlarına malik deyillər və BMT QAK-ın, həmçinin digər beynəlxalq təşkilatların simasında "xilaskarları" görməyə, onlara güvənməyə məcbur edilmişlər.

Avropada təhlükəsizlik, xüsusilə də terrorizm və qaçqın böhranı ictimai müzakirələrin əsas mövzusudur. Qaçqınların kütləvi axını da 2015-ci ildə böhranın başlanğıcından etibarən təhlükəsizliyin əsas məsələlərindən biri kimi qəbul edilmişdir. Belə ki, onların sayının artması nəticəsində təhlükəsizlik məsələsi nəzarətdənkənar prosesə çevrilmişdi.

Hazırkı immiqrasiya dalğası Avropaya yalnız qaçqınları gətirmir, eyni zamanda radikalizmə meyilli insanlar da onlarla axın edə bilirlər. Lakin dindən sui-istifadə edən radikal terrorizm fenomeni indiki böhranla birbaşa əlaqəli deyil. Burada daha əvvəl köç edən minlərlə miqrant, yeni vətəndə doğulmuş miqrantların yeni nəsli, radikallaşmağa məcbur olan insanlar və bunların arxasında duran səbəblərdən biri kimi sosial bərabərsizlik öz rolunu oynayır.[157]

Miqrantların əleyhinə səsləndirilən çoxsaylı arqumentlərdən biri də miqrasiya və terrorizm təhdidinin bir araya gətirilməsidir. Qeyri-leqal miqrasiyanın müasir dövrdə terrorizmin sosial bazasını təşkil edən amillərdən olması ümumən qəbul edilmiş fikirdir. Bununla belə, radikalizm və terrorçuluğun beynəlxalq hüquqda artıq normaya çevrilən ikili standartlar siyasəti ilə bağlı olması halları da az deyil. Radikalizm ideyalarının daşıyıcıları kimi yalnız Avropada yaşayan müsəlmanların nəzərdə tutulması məntiqi yanaşma kimi məqbul hesab edilə bilməz. Çünki burada artıq miqrantların üçüncü nəsli yaşayır və təhsil alır. Aparılan xüsusi elmi-sosioloji tədqiqatlar da

157 Vidino L., Hughes S. ISIS in America. Washington, DC: George Washington University, 2016.

miqrasiya və terrorizmlə bağlı birtərəfli baxışların əksini sübut edir. Müəyyən edilmişdir ki, "məsələn, 2013-cü ildə Avropada baş verən 153 terror hadisəsinin yalnız 2-si dini, 84-ü isə ksenofobiya və millətçi-separatizm zəminində törədilmişdir. Dünyada baş vermiş terrorizm hallarının cəmi 2 faizi islamla əlaqəlidir".[158]

Qeyd edilənlər baxımından miqrasiya böhranının uzunmüddətli həll variantları spesifik xarakterli olub, sosial ədalətin bərqərar olması, bərabərsizliyin azaldılması istiqamətində qarşılıqlı münasibətlərin və icmalar arasında etimad və inteqrasiyanın artırılmasına yönəldilməlidir. Bunlar isə ilk növbədə həm də hüquqi əsasların müəyyən edilməsini nəzərdə tutur.

## 4.2. Avropa ölkələrinin miqrasiya siyasətinin ifrat sağ təmayüllü ideologiyaların yüksəlməsində rolu

*"Miqrantlara şərait yaratmaq əvəzinə, Xorvatiya onları birbaşa qatara doldurub Macarıstana göndərir. Budurmu Avropa həmrəyliyi?"* [159]

**Peter Siyarto**
***Macarıstanın xarici işlər və ticarət naziri***

Miqrant axınının cəmiyyətin sosial infrastrukturuna və durumuna təzyiqi nəticəsində qarşıya çıxan təhlükələr hazırda Qərbin ən mürəkkəb problemləri sırasındadır. Qlobal miqrasiya böhranı mövcud vəziyyətin çevik dəyişkənliyinin nəzərə alınmasını və ona müvafiq

158 Beenish Ahmed. Less Than 2 Percent Of Terrorist Attacks In The E.U. Are Religiously Motivated. /08.01.2015/ -*https://thinkprogress.org/less-than-2-percent-of-terrorist-attacks-in-the-e-u-are-religiously-motivated-cec7d8ebedf6/;* Həmçinin bax: Obeidallah, Dean. Are All Terrorists Muslims? It's Not Even Close. /14.01.2015/ - *https://www.thedailybeast.com/are-all-terrorists-muslims-its-not-even-close*
159 Венгрия обвинила Хорватию в нарушении суверенитета. /19.09.2015/ - *https://korrespondent.net/world/3565405-venhryia-obvynyla-khorvatyui-v-narushenyy-suverenyteta-*

yeni məzmunlu strategiyanın operativ şəkildə formalaşdırılmasını tələb edir. Xüsusilə Avropada son illərdə artan miqrasiyanın sürəti və miqyası təcili qərarların qəbul edilməsi üçün lazım olan zamanı olduqca qısaltmışdır. Belə bir şəraitdə miqrasiya proseslərinin özündə daşıdığı münaqişə potensialının aradan qaldırılması və bu proseslərin səbəb olduğu sosial gərginliyin dəf edilməsi olduqca çətinləşmişdir. Təbii olaraq, immiqrant axınında çox qısa zaman ərzində baş verən ciddi artım Qərbdə kəskin reaksiya yaratmaya bilməzdi. Miqrasiya çoxşaxəli və mürəkkəb proses olduğundan düşünülmüş miqrasiya siyasətinin işlənib hazırlanması, bu proseslərin mənfi təsirinin aradan qaldırılması üçün ciddi və operativ addımların atılması Avropa hökumətləri üçün prioritet məsələ olmalı idi. Belə ki, qlobal miqrasiya proseslərinin sürətlə dəyişməsi müvafiq olaraq miqrasiya siyasətinin də təkmilləşdirilməsini zərurətə çevirir. Lakin Avropa dövlətləri dəyişən miqrasiya reallığına uyğun adekvat siyasət formalaşdıra bilməmişdir.

Tarixən miqrasiya proseslərinin kortəbii, tənzimlənməyən məcrada inkişafı hazırda Avropada çoxsaylı arzuolunmaz nəticələrə, zaman-zaman miqrasiya proseslərinə effektiv nəzarətin itirilməsinə gətirib çıxarmışdır. Miqrasiya və inteqrasiya proseslərinin Avropa ölkələri daxilində səbəb olduğu ziddiyyətlər və hakim mərkəzçi partiyaların bu prosesləri tənzimləməkdə göstərdikləri acizlik ifrat sağ təmayüllü partiyalar tərəfindən öz məqsədləri üçün geniş şəkildə istifadə edilir. Bu partiyalar Avropa ölkələrinin hakim təbəqələrini öz maraqlarını xalqın maraqlarından daha üstün tutmaqda ittiham edirlər. İfrat sağ təmayüllü hərəkatların tərəfdarlarının fikrincə, Avropanın siyasi elitaları miqrasiya və milli kimliklə bağlı artan narahatlıqları ciddi qəbul etmir və Avropada yaşayan müsəlman mənşəli miqrantları inteqrasiya edə bilmədən milyonlarla yeni miqrantın Avropa ölkələrinə gəlməsinə imkan yaradır.

Əhalinin təbii artım tempinin aşağı düşməsi və qocalma prosesi Avropa ölkələri üçün immiqrasiyanı qaçılmaz edir. Bu da olduqca

dinamik dəyişən miqrasiya reallığına uyğun effektiv siyasi tənzimləmə mexanizmlərinin formalaşadırılması zərurətini yaradır. Düşünülmüş miqrasiya siyasəti olmadan Avropa ölkələri öz milli təhlükəsizliyini, sosial-iqtisadi inkişafını və əhalinin firavanlığını təmin edə bilməz. Eyni zamanda, yerli əhalinin ümumi faiz nisbətində miqrantların çəkisinin kəskin artması və miqrasiya proseslərinin tənzimlənməsində yol verilən səhvlər Avropa ölkələrində sosial qütbləşmənin dərinləşməsinə və cəmiyyətdə sosial gərginliyin artmasına yol açır. Miqrantlarla yerli əhali arasında etnik, milli və dini zəmində yaranan gərginliklər Avropada ictimai-siyasi sabitliyi pozur.

Optimal miqrasiya siyasəti yalnız miqrantların yeni mühitə adaptasiyası, yad cəmiyyətə inteqrasiyası, cəmiyyətin onları qəbuletmə imkanları, milli kimlik kimi məsələlərin nəzərə alındığı təqdirdə uğurlu ola bilər. Lakin çoxsaylı sorğular göstərir ki, Avropada seçicilərin əksəriyyəti hökumətlərin bu məsələlərdə səmərəli olduğuna inanmır.[160] Nəticədə Avropanın bir çox ölkələrində hakimiyyətdə olan sosial-demokratik partiyaların seçicilərin miqrasiya ilə bağlı narahatlıqlarını effektiv şəkildə aradan qaldıra bilməməsi həmin partiyaların sosial bazasının ifrat sağ mərkəzli qüvvələrə yönəlməsinə səbəb olur.

Miqrantların böyük əksəriyyətinin təhsilsiz və aşağı ixtisaslı peşə sahibi olmaları onların Avropa cəmiyyətlərinə inteqrasiya və assimilyasiyasını daha da çətinləşdirir, miqrantları cəmiyyətdən təcrid edir və ölkə daxilində miqrantların yaşadığı "paralel cəmiyyətlər"in yaranmasına səbəb olur. Həmçinin bu amillər Avropa ölkələrinin ictimai-siyasi həyatında dolğun şəkildə iştirak edə bilməyən, "paralel cəmiyyətlər"də yaşayan bu miqrantların dini və siyasi radikallaşmasına münbit şərait yaradır. Miqrantların radikallaşması isə öz növbəsində ifrat sağ təmayüllü partiyaların miqrasiya ilə bağlı mövqelərini daha

160 European Commission. Standard Eurobarometer 87 – Spring 2017: Public opinion in the European Union, First results. 2017, Luxembourg: Publications Office of the European Union

da gücləndirir və bu partiyaların seçiciləri arasında nüfuzunun daha da yüksəlməsinə zəmin yaradır. Məsələn, son illər Avropada yaşanan qanlı terror aktlarından ifrat sağçı və qatı millətçi qüvvələr uğurla istifadə etmiş, Qərb cəmiyyətlərində müsəlmanlara və digər miqrant azlıqlara qarşı dözümsüzlük yayaraq, onlara qarşı diskriminasiya və zorakılıq hallarının artmasına səbəb olmuşlar.

“Pew” Tədqiqat Mərkəzinin 2016-cı ildə təşkil etdiyi sorğu əksər avropalıların qaçqınları terrorizmlə əlaqələndirdiklərini və güclənən qaçqın axınının Avropada terror aktlarının artmasına səbəb olacağına inandıqlarını göstərmişdir.

Bu məqamda qeyd etmək lazımdır ki, radikal dini görüşə sahib qrupların tez-tez işlətdiyi müsəlmanların Qərblə müharibədə olması və Qərb dəyərlərinin islam dini dünyagörüşünə yad olması arqumenti ifrat sağçıların görüşləri ilə üst-üstə düşür. Bu anlamda, ifrat sağ təmayüllü ideologiya ilə radikal dini dünyagörüşü əslində bir-birini tamamlayan və bir-biri ilə qarşılıqlı şəkildə asılı olan fenomenlərdir. Belə ki, 2015-ci il noyabrın 13-də Parisdə baş verən terror aktlarından sonra Fransanın Daxili Təhlükəsizlik İdarəsinin rəisi **Patrik Kalvar** müsəlmanlarla ifrat sağ təmayüllü qüvvələr arasında artan qütbləşmənin ölkəni vətəndaş müharibəsinə sürüklədiyi ilə bağlı xəbərdarlıq etmişdi.[161]

Avstriya, Fransa, Danimarka kimi ölkələrdə ifrat sağ təmayüllü partiyalara verilən səslərin getdikcə artmasına baxmayaraq, uzun zaman ərzində Almaniya bu prosesdən kənarda qalmağı bacarmışdı. Lakin son illər miqrantların ölkəyə axınında baş verən kəskin artım alman cəmiyyətində ifrat sağ təmayüllü hərəkatlara qarşı sosial tələbi ciddi şəkildə artırmışdır. Almaniya Kansleri **Angela Merkelin**

161 La France, pays le “plus menacé” par l’État islamique selon le patron de la DGSI. // Le Figaro, 19 May 2015/ - *http://www.lefigaro.fr/actualite-france/2016/05/19/01016-20160519ARTFIG00173-la-france-pays-le-plus-menace-par-l-etat-islamique-selon-le-patron-de-la-dgsi.php*

2015-ci ilin sentyabr ayında verdiyi gözlənilməz qərarla qaçqınların Avropa İttifaqında hərəkətini tənzimləyən Dublin sazişini müvəqqəti olaraq dondurması və ölkə sərhədlərini suriyalı qaçqınlara açması milyonlarla qaçqının təkcə Almaniyaya deyil, bütün Avropaya kütləvi axınına təkan verdi. Almaniyanın Daxili İşlər Nazirliyinin məlumatına əsasən, Merkel hökumətinin qaçqınlarla bağlı yeritdiyi "açıq qapı" siyasəti 2015-ci ildə ölkəyə 890 min qaçqının gəlməsinə səbəb olmuşdur[162].

Miqrantların sayında kəskin artım Avropa ölkələrində birmənalı qarşılanmamışdır. Merkelin bu siyasəti Almaniya cəmiyyətində ciddi narazılıq yaratmış və bu narazılıq özünü ifrat sağ təmayüllü partiyalara verilən səslərin artımında göstərmişdir. Məsələn, 2016-cı ildə aparılan sorğuda rəyi soruşulanların 40%-i müsəlmanların Almaniyaya immiqrasiyasının qadağan olunmasını dəstəkləmiş, 60%-i isə qaçqınların öz ölkələrindəki təqiblərdən qaçdıqlarına inanmadıqlarını bildirmişdilər.[163] Cəmiyyətdə geniş yayılan bu anti-immiqrant əhval-ruhiyyə sonda ölkədə keçirilən seçkilərdə də özünü bariz şəkildə göstərməyə başladı. Belə ki, 2013-cü ildə yaradılan ifrat sağ təmayüllü Almaniya üçün Alternativ *(Alternative für Deutschland/ AfD)* partiyasının artıq 2017-ci ilin sentyabr ayında Almaniyada keçirilən parlament seçkilərində 94 yer qazanaraq Bundestaqda böyüklüyünə görə üçüncü partiya ola bilməsi Almaniya cəmiyyətində böyük ajiotaj yaratdı. AfD sadəcə II Dünya müharibəsindən sonra Almaniya parlamentinə daxil olmağı bacaran ilk ifrat sağ təmayüllü partiya olmadı, o həm də bunu səslərin 12,6%-ni qazanmaqla nail olan ilk partiya oldu. Qeyd etmək lazımdır ki, Almaniyanın müasir tarixində bu, misilsiz bir hadisədir.

---

162 890.000 Asylsuchende im Jahr 2015. // Bundesministerium des Inneren, 30 September 2016/ -*http://www.bmi.bund.de/SharedDocs/Pressemitteilungen/DE/2016/09/asylsuchende-2015.html*

163 Germans becoming increasingly xenophobic, study finds. // Deutsche Welle, 15 June 2016/ - *http://www.dw.com/en/germans-becoming-increasingly-xenophobicstudy-finds/a-19332024*

Əgər qaçqın böhranından əvvəl avropalıların 52%-i öz ölkələrinə gələn miqrantların sayından narazı idilərsə və immiqrasiya səviyyəsinin azaldılmasını istəyirdilərsə, böhrandan sonra immiqrasiya səviyyəsindən narazı olanların sayı daha da artmışdır.[164] 2016-ci ildə Aİ tərəfindən təşkil edilən sorğuda rəyi soruşulan avropalıların artıq 58%-i immiqrasiyaya mənfi münasibət bəslədiklərini qeyd etmişdilər. 2015-ci ilin noyabr ayında özünü "İraq Şam İslam Dövləti" (İŞİD) adlandıran terrorçu qruplaşma tərəfindən Paris şəhərində törədilən qanlı terror aktının iştirakçılarından bəzilərinin qaçqın adı ilə Avropaya gəlməsi faktı cəmiyyətdə qaçqınlara qarşı narazılıqları daha da gücləndirmişdi. Belə ki, "Pew" Tədqiqat Mərkəzinin 2016-cı ildə təşkil etdiyi sorğu əksər avropalıların qaçqınları terrorizmlə əlaqələndirdiklərini və güclənən qaçqın axınının Avropada terror aktlarının artmasına səbəb olacağına inandıqlarını göstərmişdir.[165]

Aralarında qaçqınların da olduğu 2 mindən çox Şimali Afrika və ərəb mənşəli miqrantların 2016-cı ildə Köln şəhərində keçirilən Yeni il şənlikləri zamanı 1200-dən çox qadına qarşı seksual zorakılıq törətməsi Almaniyada böyük əks-səda doğurmuşdu. Hadisədən sonra Köln şəhərinin polisi məsələni ört-basdır etməkdə günahlandırılmış, Almaniyanın ictimai radioteleviziya qurumu ZDF (*Zweites Deutsches Fernsehen*) isə Kölndə baş verənləri yalnız hadisələrin üstündən dörd gündən sonra işıqlandırdığı üçün üzr istəmək məcburiyyətində qalmışdı. Hadisənin miqyası isə yalnız bir neçə ay sonra polis araşdırmasının mətbuata sızması nəticəsində bəlli oldu. Qeyd etmək lazımdır ki, belə hadisələr təkcə Almaniyada baş vermir. 2014-cü ildə Stokholmda keçirilən musiqi festivalı zamanı İsveç polisi cavan müsəlman mənşəli

164 Europeans Most Negative Toward Immigration. // Gallup, 16 October 2015/ - *http://news.gallup.com/poll/186209/europeans-negative-toward-immigration.aspx*

165 4 factors driving anti-establishment sentiment in Europe. // Pew Research Center, 6 December 2016/ - *http://www.pewresearch.org/fact-tank/2016/12/06/4-factorsdriving-anti-establishment-sentiment-in-europe/*

miqrantların törətdiyi seksual xarakterli zorakılıq hallarını ört-basdır etməyə çalışmışdı. Bütün bunlar onsuz da rəsmi miqrasiya siyasətindən narazı olan avropalıların hökumətə qarşı inamsızlığını daha da artırır.

Miqrasiya və onun doğurduğu problemlər haqqında insanların düzgün məlumatlandırılması əvəzinə miqrantlara qarşı kin və ədavət baş qaldırmasın deyə hökumətlərin bu problemləri xalqdan "gizlətməyə" çalışması nəinki istənilən effekti vermədi, əksinə cəmiyyətdə hökumətə qarşı inamsızlığı artıraraq ifrat sağ təmayüllü partiyaların daha da güclənməsinə təkan verdi. Belə ki, hökumətlərin səriştəsiz miqrasiya siyasəti ifrat sağ təmayüllü qüvvələrə guya ki siyasi elitaların miqrantları yerli əhalidən üstün tutması kimi əsassız fikirləri cəmiyyətdə daha asan şəkildə yaymasına imkan yaratdı. Məsələn, Köln hadisələrindən sonra faşist və islamafob PEGİDA ("Qərbin islamlaşmasına qarşı olan vətənpərvər avropalılar") hərəkatı Almaniyanın Baş naziri Angela Merkeli dövlətə xəyanətdə ittiham edərək hökuməti məsələni ört-basdır etməkdə günahlandırdı. Hazırda bir çox alman üçün PEGİDA kimi ifrat sağçı hərəkatlar onların miqrasiya ilə bağlı narahatlıqlarını ifadə edən yeganə platformadır.

> Aİ-nin 2015-ci ildəki qaçqınların "İttifaq ölkələrinə yerləşdirilməsi barədə" razılaşmasına əsasən, qaçqınların paylanılması istiqamətində Finlandiya və Malta kimi üzv dövlətlər kvotadan irəli gələn öhdəliklərini yerinə yetirsələr də, Macarıstan və Polşa kimi Şərqi Avropa ölkələri heç bir qaçqın qəbul etməmiş, Slovakiya və Çex Respublikasının qəbul etdiyi qaçqınların sayı isə cəmi 15 nəfər olmuşdur.

Yaxın Şərqdə konfliktlərin həllinin uzanması Avropaya qaçqın axınını artırır ki, bu da öz növbəsində Avropada ifrat sağ təmayüllü qüvvələrin mövqelərini möhkəmləndirir. Yaxın Şərqdə siyasi nizamın iflasa uğraması və siyasi qeyri-müəyyənlik onu göstərir ki, Avropa hələ uzun

müddət miqrasiya dalğaları ilə üz-üzə qalacaq. Miqrasiya böhranı Yaxın Şərqdə yaşanan siyasi xaosdan qaynaqlansa da, böhranın uzanması ümumavropa xarici siyasətinin səmərəsizliyinin nəticəsidir. Miqrasiya böhranının effektiv həlli vahid xarici siyasətin mövcudluğundan asılıdır. Lakin Aİ ölkələrinin hələ də miqrasiya ilə bağlı ümumi xarici siyasət formalaşdıra bilməməsi Avropanı daha da çətin vəziyyətə salır. Yəni miqrasiya böhranının yalnız vahid, ümumi xarici siyasətin olması halında ya qarşısı alına, ya da heç olmasa təsirlərinin yumşaldılmasına nail oluna bilərdi.

Suriya, İraq, Liviya, Əfqanıstan, Yəmən kimi Yaxın və Orta Şərq ölkələrində müharibə və zorakılıqların davam etməsi bu bölgələrdən Avropaya miqrant axınının daha da sürətlənməsinə səbəb olmuşdur. Lakin Yaxın Şərqdəki qeyri-sabitlik problemin yalnız bir tərəfidir. Belə ki, 2011-ci ildə Liviyada Muəmmar Qəddafinin devrilməsindən sonra yaranan hakimiyyət boşluğu Niger, Çad, Sudan kimi Afrika ölkələrindən olan yüzminlərlə afrikalı qeyri-leqal miqrantın Liviyadan Avropaya keçmək üçün tranzit kimi istifadəsini asanlaşdırmışdır. Avropada iqtisadi şəraitin əlverişli və dinamik olması, mövcud ictimai-siyasi vəziyyətin sabitliyi, yüksək həyat səviyyəsi qitəyə miqrant axınını daha da artırmışdır. Avropaya insan axınlarının sürətlənməsi İspaniya, İtaliya və Yunanıstan kimi sərhədboyu ölkələrdə miqrasiyaya nəzarətlə bağlı problemlərin daha da kəskinləşməsinə səbəb olmuşdur. 2014-cü ildən bəri Aralıq dənizi vasitəsilə Avropaya daxil olan qeyri-leqal miqrantların sayı 400 mini aşmışdır. Dəniz yolu ilə Avropaya üz tutan miqrantların sayının kəskin şəkildə artması onları daşıyan gəmi və qayıqların da tez-tez qəzaya uğraması hallarının artmasına gətirib çıxarmışdır. 2015-ci ilin aprel ayında Aralıq dənizində miqrantları daşıyan gəminin batması nəticəsində 800-dən çox insanın həlak olması bu məsələyə diqqəti daha da artırmışdır.

Təbii ki, belə sürətlə artan miqrasiya axınları İtaliya və digər Aralıq

dənizi hövzəsi Avropa ölkələri üçün ciddi problemlər yaradır. Avropa Komissiyasının 2016-cı ildə etiraf etdiyi kimi, Avropaya gələnlərin 60%-i heç də müharibə və münaqişələrdən qaçan qaçqınlar deyil, əslində əmək miqrantlarıdır.[166] Bu isə yerli əhalinin Avropa hökumətlərinə qarşı mənfi münasibətini daha da pisləşdirir. Belə ki, onların fikrincə, hökumətlər qaçqınları bəhanə edərək ictimaiyyəti emosional manipulyasiya edir və onsuz da işsizliyin yüksək olduğu ölkələrə ucuz işçi qüvvəsinin axınına şərait yaratmaqla vəziyyəti daha da ağırlaşdırırlar.

Əlbəttə, problem sadəcə miqrasiya ilə bağlı effektiv vahid xarici strategiyanın olmamasında deyil, həm də Avropa ölkələrinin vahid daxili miqrasiya siyasəti üzərində də razılaşa bilməməsidir. Miqrasiya siyasətində mövcud olan çatışmazlıqların vaxtında müəyyənləşdirilməməsi və müvafiq cavab tədbirlərinin görülməməsi Avropa üçün ciddi nəticələr doğurmuşdur. Miqrantların Avropaya axını tənzimləmək üçün vahid strategiyanın işlənib-hazırlanması ilə yanaşı, Aİ vahid miqrasiya siyasətinə qarşı üzv dövlətlərin münasibətini də diqqətə almalı idi. Lakin miqrasiya böhranı Aİ-də bu məsələ ilə bağlı mövcud olan dərin fikir ayrılıqlarını qabarıq şəkildə göstərdi. Belə ki, 2015-ci il ərzində 175 min miqrantın Serbiyadan Macarıstana keçməsi Macarıstanın Baş naziri Viktor Orbanı ölkənin sərhədlərinin bağlanması və Serbiya ilə sərhəddə 4 metr hündürlüyündə hasarın çəkilməsi barədə qərar verməyə məcbur

> Pia Kniqqeyə görə, cəmiyyətlərdə miqrantlara qarşı mənfi münasibət postsənayə dövrünü yaşayan demokratiyalarda multikultural cəmiyyətin insanların milli-mədəni kimliyində dərin böhran yaratmasından qaynaqlanır.

166 Worley W. Six out of 10 migrants to Europe come for ‘economic reasons’ and are not refugees, EU Vice President Frans Timmermans says. // Independent, 27 January 2016/ *- https://www.independent.co.uk/news/world/europe/six-out-of-10-migrants-to-europe-come-for-economic-reasons-and-are-not-refugees-eu-vice-president-a6836306.html*

etdi. Orbanın bu qərarı digər üzv dövlətlər tərəfindən şiddətlə tənqid olundu. Hətta Avstriya Kansleri Verner Fayman Macarıstanın miqrantlara qarşı davranışını faşist Almaniyasının yəhudilərlə davranışı ilə müqayisə etdi. Ümumiyyətlə, qaçqın və qeyri-leqal miqrantlarla bağlı Aİ daxilində Şərqi Avropa ilə Qərbi Avropa arasında ciddi fikir ayrılığı mövcuddur. Aİ-nin 2015-ci ildəki qaçqınların "İttifaq ölkələrinə yerləşdirilməsi barədə" razılaşmasına əsasən, qaçqınların paylanılması istiqamətində Finlandiya və Malta kimi üzv dövlətlər kvotadan irəli gələn öhdəliklərini yerinə yetirsələr də, Macarıstan və Polşa kimi Şərqi Avropa ölkələri heç bir qaçqın qəbul etməmiş, Slovakiya və Çex Respublikasının qəbul etdiyi qaçqınların sayı isə cəmi 15 nəfər olmuşdur.

Qeyd edildiyi kimi, son 25 ildə aparılan onlarla araşdırma göstərir ki, ifrat sağ təmayüllü partiyaların yüksəlişi məhz miqrantların sayında baş verən kəskin artımla birbaşa bağlıdır. Miqrantların gəlişi bir çox Avropa cəmiyyətlərində mənfi reaksiya doğurmuş, bu isə ifrat sağ təmayüllü partiyalara miqrantlara qarşı cəmiyyətdə formalaşan mənfi münasibətdən öz siyasi hədəfləri üçün istifadə etməyə imkan vermişdi. Bu partiyalar iddia edirlər ki, avropalılar arasında doğum səviyyəsinin aşağı olması və müsəlman ölkələrindən yüksək miqrant axını Avropanın etnik strukturunu əsaslı şəkildə dəyişir və Avropa sivilizasiyasının gələcəyini risk altına atır.

Son zamanlar bu partiyalara dəstəyin Avropada geniş vüsət alması əslində problemin necə dərin olmasını göstərir. Əlbəttə ki, yaranan vəziyyətə görə miqrantları günahlandırmaq düzgün deyil. Mövcud xoşagəlməz vəziyyətin yaranmasında Avropa ölkələri də məsuliyyət daşıyır. Belə ki, miqrasiya siyasətinin praktiki olaraq reallaşdırılması sahəsində mövcud olan problemlər, Aİ-yə üzv dövlətlər arasında səlahiyyət və məsuliyyətin bölüşdürülməsi sahəsində pərakəndəlik, miqrasiya problemi ilə məşğul olan Avropanın sərhəd agentliyi - "FRONTEKS" kimi Aİ qurumlarının adekvat maliyyə resurslarına

malik olmaması, bəzən bu qurumların bir-birini təkrarlaması və bir-birinə fəaliyyətlərində maneə yaratması, konkret subyektlərin öz tənzimləmə funksiyalarını effektiv şəkildə həyata keçirə bilməməsi Aİ-nin gündəlik reallığıdır. Genişlənən qeyri-leqal miqrant axınının səbəb olduğu çətinliklər və bu çətinliklərin aradan qaldırılmasında həm Aİ-nin, həm də üzv dövlətlərin səmərəsiz olması Avropa cəmiyyətlərində ciddi məyusluq və narazılıq hissi yaratmış və hökumətləri qeyri-effektiv miqrasiya siyasətinə görə kəskin tənqid edən ifrat sağ təmayüllü partiyaların nüfuzunun artmasına səbəb olmuşdur.

## 4.3. İfrat sağ təmayüllü partiyaların yüksəlişi ilə miqrasiya proseslərinin qarşılıqlı təsiri

*"İfrat sağçılar həyatı bizdən asılı olan insanlar üçün köməyi və mərhəməti rədd edəcək dərəcədə qəddardırlar".*[167]

**Cefri Saks**

Hələ 1989-cu ildə Fransa Prezidenti **Fransua Mitteran** hər bir ölkənin miqrant qəbul etmək imkanlarının məhdud olması və cəmiyyətlərdə miqrantlara qarşı müəyyən bir "tolerantlıq həddi"nin mövcud olması barədə xəbərdarlıq etmişdi. Mitteranın fikrincə, ölkəyə gələn miqrantların sayında "tolerantlıq həddi"nin keçilməsi dövlətin milli təhlükəsizliyini və ictimai-siyasi stabilliyini ciddi təhlükəyə atır. Bəzi araşdırmaçıların fikrincə, bir çox Avropa ölkələrində miqrantlara qarşı "tolerantlıq həddi" artıq çoxdan keçilmişdir və son zamanlar Avropada müşahidə olunan ifrat sağ təmayüllü partiyaların yüksəlişi məhz bununla bağlıdır. Araşdırmalar göstərir ki, Avropada ifrat sağ

167 Sachs J. There's no perfect answer to the migrant crisis – and we must face that. - *https://www.theguardian .com/commentisfree/2015/nov/02/answer-migration-crisis-refugees-europe*

təmayüllü partiyalara seçicilər arasında artan dəstəkdə rol oynayan əsas amil Avropaya kütləvi miqrant axınıdır.[168] Qeyd edildiyi kimi, kütləvi immiqrasiya Avropa ölkələrində ciddi mənfi reaksiya doğurur ki, bu da özünü immiqrasiyaya qarşı çıxan ifrat sağ təmayüllü partiyalara verilən səslərin kəskin artımında göstərir. **Pia Kniqqeyə** *(Pia Knigge)* görə, cəmiyyətlərdə miqrantlara qarşı mənfi münasibət postsənaye dövrünü yaşayan demokratiyalarda multikultural cəmiyyətin insanların milli-mədəni kimliyində dərin böhran yaratmasından qaynaqlanır.[169]

> Miqrasiya axınının intensivliyi ifrat sağ təmayüllü partiyaların populyarlığı ilə düz mütənasibdir. Aparılan araşdırmalar göstərir ki, ölkəyə gələn miqrantların sayı artdıqca ifrat sağ təmayüllü partiyalara verilən səslərin sayı da artır.

Son illərdə bir çox Avropa ölkələrində miqrantların sayının kəskin azaldılmasına tərəfdar olan ifrat sağ təmayüllü partiyalar populist siyasətçilərin rəhbərliyi altında ciddi nailiyyətlər əldə etməyi bacarmışlar. Almaniyada "Almaniya üçün Alternativ"in *(Alternative für Deutschland/AfD),* Avstriyada "Azadlıq Partiyası"nın *(Freiheitliche Partei Österreichs/FPÖ),* İsveçrədə "Xalq Partiyası"nın *(Schweizerische Volkspartei/SVP),* İsveçdə "İsveç Demokratları Partiyası"nın *(Sverigedemokraterna/SD),* Yunanıstanda "Qızıl Şəfəq Partiyası"nın *(Chrysi Avgi),* Danimarkada "Xalq Partiyası"nın *(Dansk Folkeparti/DF)* qazandığı səslərin artımı xüsusilə diqqəti cəlb edir. Fransada Marin Le Penin "Xalq Cəbhəsi" *(Front National/FN),* İtaliyada Matteo Salvininin "Şimal Liqi" *(Lega Nord),* Niderlandda Qert Vildersin "Azadlıq Partiyası" *(Partij voor de Vrijheid/PVV)* artıq

168 Akkerman T. Comparing radical right parties in government: Immigration and integration policies in nine countries (1996–2010). // West European Politics, 35(3), 2012, pp. 511-529.
169 Knigge P. The ecological correlates of right-wing extremism in Western Europe. // The European Journal of Political Research, 34(2), 1998, pp. 249-279.

hakim partiyalara ciddi rəqabət yarada bilir.

İfrat sağ təmayüllü ideologiya mahiyyətcə anti-immiqrant etno-millətçiliyin hakim elitalara qarşı yönəlmiş populizmlə qarışığıdır. İfrat-sağçı populist partiyalar fərqli siyasi strategiya və platformalara malik olsalar da, onları birləşdirən ümumi cəhətlər də mövcuddur. Belə ki, bu partiyalar miqrasiya axınına birmənalı şəkildə qarşı çıxır və onu hər vasitə ilə məhdudlaşdırmağa çalışırlar. Bu partiyalar üçün miqrasiya qanunvericiliyinin sərtləşdirilməsi və miqrantlarla bağlı kvotaların tətbiq edilməsi prioritet məsələlərdəndir. Onlar kütləvi miqrant axınını, xüsusilə Yaxın Şərqdən Avropaya üz tutan müsəlman qaçqınları milli dövlətlərin sabitliyi və təhlükəsizliyinə, yerli əhalinin rifah halına ciddi maneə hesab edirlər. Radikal islam təhlükəsi və müsəlman ölkələrindən kütləvi miqrasiyanın mənfi sosial-iqtisadi təsirləri bu partiyaların siyasi ritorikasının ayrılmaz hissəsidir. İfrat sağ təmayüllü partiyalar miqrantları sadəcə avropalıların boynundan asılmış artıq yük kimi görmür, onları həm də Qərb sivilizasiyasını məhv edəcək “işğalçı” hesab edirlər.

> “Breksit”lə bağlı keçirilən referendumda UKIP partiyasının da daxil olduğu Aİ əleydarlarının qalib gəlməsi Birləşmiş Krallığın Aİ-dən çıxması və ölkənin uzunmüddətli siyasi qeyri-müəyyənliyə qərq olması ilə nəticələnmişdir. “Breksit”dən ilhamlanan digər ifrat sağ təmayüllü partiyalar Almaniya, Niderland, Danimarka və Fransada da bənzər referendumların keçirilməsinə çalışırlar.

Fransada “Xalq Cəbhəsi Partiyası”nın 1980-ci illərdə qazandığı uğurlardan ilhamlanan bu partiyalar irqçilik və liberal demokratiyaya düşmənçilik kimi mövqelərdən imtina edərək əvəzində miqrasiya məsələsini öz siyasi platformalarının təməl elementinə çevirdilər. Buna görə də bir çox müəlliflər Avropada yaranan bu yeni partiyalar ailəsini ümumiləşdirərək “anti-immiqrant” adlandırmağa

başladılar. İfrat sağ təmayüllü partiyalar miqrantların Qərb cəmiyyətlərinə verdikləri etnik və mədəni müxtəliflik kimi töhfələri qəbul etmir, kütləvi immiqrasiya nəticəsində "dağılmaq" təhlükəsi ilə üz-üzə qalan Qərb sivilizasiyasını yenidən ayağa qaldırmağa və Avropa ölkələrini etnik və mədəni cəhətdən homogen etməyə çalışırlar. Bu partiyalar eyni zamanda Aİ-yə da qarşı çıxırlar, çünki onların fikrincə, Aİ kütləvi miqrasiya axınlarını təşviq edir və üzv dövlətlərin suveren maraqlarına zidd siyasət yeridir. Buna görə də onlar öz ölkələrini Aİ-nin tərkibindən çıxarmağa çalışırlar.

Bütün bu partiyalar üçün immiqrasiya prioritet məsələdir. Belə ki, onların seçkilərdəki uğurları miqrantlara qarşı nə qədər sərt mövqe tutduqlarından asılıdır. Norveçin Bergen Universitetinin müqayisəli siyasət kafedrasının professoru **Elizabet İvarsflate**nin *(Elisabeth Ivarsflaten)* bu sahədə apardığı tədqiqatlar göstərir ki, seçiciləri ifrat sağ təmayüllü partiyalara səs verməyə təşviq edən əsas amil immiqrasiyadır.[170] Belə ki, miqrasiya axınının intensivliyi ifrat sağ təmayüllü partiyaların populyarlığı ilə düz mütənasibdir. Aparılan araşdırmalar göstərir ki, qeyd edildiyi kimi, ölkəyə gələn miqrantların sayı artdıqca ifrat sağ təmayüllü partiyalara verilən səslərin sayı da artır. Məsələn, uzun illər ərzində İsveçin qaçqın, miqrant və sığınacaq istəyənlərlə bağlı tətbiq etdiyi yumşaq strategiya toxunulmaz mövzu hesab olunurdu. Ölkənin bütün hakim partiyaları tərəfindən yekdilliklə dəstəklənən bu siyasət istər elita, istərsə də media tərəfindən şiddətlə müdafiə edilirdi. Bu strategiya İsveçə gəlmək istəyən miqrantların sayını daha da artırır, miqrasiya axını üzərində nəzarətin tədricən hökumətin əlindən çıxmasına səbəb olurdu. Məsələn, əgər 2004-cü ildə İsveç 400 qaçqın uşaq qəbul etmişdisə, 2015-ci ildə bu rəqəm artıq 35 minə çatmışdı. Şimali Afrika və Yaxın Şərqdən gələn qaçqın axını o qədər güclü

170 Ivarsflaten E. What unites right-wing populists in Western Europe? Re-examining grievance mobilization models in seven successful cases. // Comparative Political Studies, 41(1), 2008, pp. 3-23

oldu ki, hətta İsveç hökuməti miqrantlarla bağlı uzun illər apardığı yumşaq siyasətini sərtləşdirmək və qəbul etdiyi miqrantların sayını kəskin şəkildə azaltmaq məcburiyyətində qaldı. Aİ-yə üzv dövlətlər arasında daxili sərhəd nəzarətinin ləğv edilməsi ilə bağlı 1985-ci ildə bağlanmış Şengen sazişindən çox əvvəl İsveç və Danimarka arasında sərhəd nəzarətinin aradan qaldırılmasına baxmayaraq, miqrasiya böhranı 2016-cı ildə İsveçi Danimarka ilə sərhəddə müvəqqəti də olsa nəzarət məntəqələrini bərpa etməyə məcbur etmişdi. Danimarka da öz növbəsində Almaniya ilə sərhəddə nəzarət-buraxılış məntəqələrini bərpa etmək məcburiyyətində qalmışdı.

Miqrant axınlarında görünməmiş artımın İsveçin sosial rifah sistemi üzərində ağır yük olması ilə bərabər şəhərlərdə mənzil qıtlığından tutmuş kriminogen vəziyyətin pisləşməsinə qədər müxtəlif mənfi təsirləri olmuşdur. Bütün bunlar tədricən İsveç hökumətinin miqrasiya siyasəti ilə bağlı ictimai rəyin tədricən mənfiyə doğru dəyişməsinə gətirib çıxarmışdır. İsveç hökumətinin miqrasiya siyasəti ilə bağlı cəmiyyətdə artan narazılıq özünü keçirilən seçkilərin nəticələrində də bariz şəkildə göstərməyə başlamışdır. Belə ki, ifrat sağ təmayüllü İsveç Demokratları Partiyası məhz immiqrasiyanı azaltmağa söz verərək 2010-cu ildə tarixində ilk dəfə Riksdaqa - İsveç parlamentinə daxil ola bilmiş, 2014-cü ildə keçirilən seçkilərdə isə yerlərin artıq 14%-ni qazanaraq İsveç parlamentində üçüncü ən böyük partiya olmağı bacarmışdır. Hazırda heç bir hakim partiyanın İsveç Demokratları Partiyası ilə koalisiya qurmaq istəməməsi ölkənin zəif Sosial Demokratlar - Yaşıllar Partiyasının koalisiyası tərəfindən idarə olunmasına gətirib çıxarmışdır. İsveç Demokratları Partiyası immiqrantların sayının azaldılmasına və ölkənin Aİ-də qalıb-qalmaması ilə bağlı referendumun keçirilməsinə çalışır. Bu partiyanın tərəfdarlarının fikrincə, İsveçin hazırkı miqrasiya və inteqrasiya siyasəti tamamilə iflasa uğrayıb və İsveç hökumətinin illərlə apardığı

ağılsız miqrasiya siyasətinin əvəzini isveçlilər ödəməli deyillər.

Avropanın ən tolerant ölkələrindən biri olan İsveçdə ifrat sağ təmayüllü "İsveç Demokratları Partiyası"nın 2014-cü ildə keçirilən parlament seçkilərində 349 yerdən 49-nu qazana bilməsi istisna hal olmayıb, bütün Avropada gedən prosesin bir parçasıdır. Belə ki, bənzər şəkildə Almaniyada AfD, Avstriyada FPÖ kimi ifrat sağ təmayüllü partiyalar sərt anti-immiqrant mövqeləri sayəsində öz ölkələrində keçirilən son seçkilərdə "İsveç Demokratları Partiyası"nın uğurlarını təkrarlaya bilmişlər. Belə ki, Avstriyada son parlament seçkilərində keçmiş nasist və SS zabiti tərəfindən yaradılan FPÖ Partiyasının səslərin 26%-ni toplaması da Avropada ifrat sağ təmayüllü hərəkatların yüksəldiyini göstərir. 2016-cı ilin aprel ayında FPÖ Partiyasının namizədi Norbert Hofer prezident seçkilərinin ilk turunda səslərin 35%-ni toplayaraq az qala II Dünya müharibəsindən sonra Avropada prezident seçilən ilk ifrat sağ təmayüllü siyasətçi olacaqdı. Hofer seçki kampaniyasını sərhədlərin və ordunun gücləndirilməsi, miqrasiyanın məhdudlaşdırılması və iş bazarında miqrantlara yox, ilk növbədə avstriyalılara üstünlük verilməsi üzərində qurmuşdu. Şüarı "Birinci növbədə Avstriya!" olan bu partiya prezident seçkilərinin son turunda Yaşıllar Partiyasının lideri Aleksandr Van der Bellenə məğlub olsa da, hazırda Avstriya parlamentində 183 yerdən

> Müsəlman immiqrantların Avropa mədəniyyətini məhv etmək üçün "demoqrafik müharibə" apardığına inanan norveçli ifrat sağçı terrorçu Anders Breyvik öz "qisasını" immiqrantlardan yox, bu immiqrantların Norveçə gəlməsinə "şərait yaradan" solçulardan və "xəyanətkar" hökumətdən almışdı.
> Belə ki, o, əvvəlcə Osloda hökumət binası qarşısında bomba partlatmış, sonra isə Norveçin hakim İşçi Partiyasına bağlı yay düşərgəsində 66 insanı güllələmişdi.

51-nə sahibdir.

Niderlandda həm Aİ-yə və həm də islama qarşı olan "Azadlıq uğrunda Partiya" ölkədə bütün məscidlərin bağlanmasına və ölkəyə müsəlman miqrantların gəlişinin qadağan edilməsinə çağırır. Avropanın ən məşhur ifrat sağ təmayüllü siyasətçisi olan **Qert Vildersin** rəhbərlik etdiyi bu partiya son illərdə Niderland cəmiyyətində anti-müsəlman və anti-miqrant mövqeləri ilə ciddi populyarlıq qazana bilmişdir.

> Araşdırmalar göstərir ki, fəhlə sinfi ifrat sağ təmayüllü partiyaların elektoratının 50%-ni təşkil edir, Avstriya, Belçika və Fransada ifrat sağ təmayüllü partiyalara gələn səslərin 2/3-si məhz bu qrupların payına düşür. Bu qrup yerli əhalinin aşağı ixtisaslı ucuz işçi qüvvəsinin Avropaya gəlməsindən ən çox təsirlənən təbəqəsidir, çünki miqrantların gəlişi həm əmlak bazarında qıtlığa və bahalaşmaya, həm də rəqabətin artmasına səbəb olur.

Fransada milliyyətçi Xalq Cəbhəsi Partiyası öz anti-miqrant siyasətini reallaşdırmaq üçün populist şüarlardan istifadə edir. Partiya proteksionist iqtisadi siyasəti müdafiə edir və dövlətin miqrantlara verdiyi imtiyazların əllərindən alınmasına çağırır. İslamın Fransada yerinin olmadığını təbliğ edən "Xalq Cəbhəsi Partiyası" ölkədə məscidlərin inşasına qarşı çıxır. Qatı anti-semit və irqçi görüşləri ilə tanınan Jan-Mari Le Pendən 2011-ci ildə partiyanın idarəçiliyini təhvil alan qızı Marin Le Pen hərəkatın imicini düzəltmək üçün partiyanı irqçi və faşist elementlərdən təmizləmiş və yalnız miqrasiyaya köklənməklə "Xalq Cəbhəsi Partiyası"na verilən səslərin sayını kəskin şəkildə artırmışdır.

Qeyd etmək lazımdır ki, Avropada ksenofob, ifrat sağ təmayüllü partiyalara dəstəyin artmasında miqrasiya ətrafında gedən siyasi

müzakirələrin hakim partiyalar tərəfindən məhdudlaşdırılması, miqrasiya ilə bağlı cəmiyyətdə artan narahatlıqla bağlı elitalar tərəfindən göstərilən etinasız münasibət, miqrantlarla bağlı problemləri dilə gətirələnlərin isə "irqçi" və "faşist" deyə damğalanması da böyük rol oynamışdır. Bu siyasətləri ilə Avropa elitaları yerli əhalinin mühüm hissəsini özlərindən uzaqlaşdırmış, milli kimlik və miqrasiya ətrafında gedən müzakirələri məhdudlaşdırmaqla məğlub etmək istədikləri ifrat sağ təmayüllü qüvvələri əslində daha da gücləndirmişlər. Seçicilərin mühüm hissəsi mərkəz sağ və sol partiyaların əhalinin etirazlarına baxmayaraq məhdudiyyətsiz immiqrasiyanı dəstəklədiklərinə inandıqlarından, bu partiyalara səs verməkdənsə, miqrasiya məsələsində onların narahatlıqlarını paylaşan, özlərinə bu məsələdə daha yaxın hiss etdikləri ifrat sağ təmayüllü hərəkatlara üz tutmağı seçmişlər.

İfrat sağ təmayüllü partiyalar yalnız passiv şəkildə cəmiyyətdə mövcud olan anti-miqrant əhval-ruhiyyədən faydalanmır, həm də aktiv şəkildə həmin əhval-ruhiyyənin cəmiyyətdə daha da geniş yayılmasını təşviq edirlər. Bununla yanaşı, bu partiyaların dövlət siyasətinə əsaslı təsir göstərməsi üçün seçkilərdə yüksək səs qazanması heç də vacib amil deyil. Məsələn, ifrat sağçı "Birləşmiş Krallıq Müstəqillik Partiyası" (UKIP) 2015-ci ilin may ayında keçirilən parlament seçkilərində cəmi bir yer qazanmasına baxmayaraq, Britaniyada anti-immiqrant əhval-ruhiyyəsini alovlandırmaqla hakim "Mühafizəkarlar Partiyası"nı ölkənin Aİ-dən çıxması ilə bağlı referendum çağırmasına məcbur edə bilmişdi. "Breksit"lə bağlı keçirilən referendumda UKIP partiyasının da daxil olduğu Aİ əleyhdarlarının qalib gəlməsi Birləşmiş Krallığın Aİ-dən çıxması və ölkənin uzunmüddətli siyasi qeyri-müəyyənliyə qərq olması ilə nəticələnmişdir. "Breksit"dən ilhamlanan digər ifrat sağ təmayüllü partiyalar Almaniya, Niderland, Danimarka və Fransada da bənzər referendumların keçirilməsinə çalışırlar.

İfrat sağçıların uydurmalarına görə, müsəlmanlar Qərb cəmiyyətinə sızaraq qərblilərə qarşı "gizli cihad" aparırlar. İslamın sülh dini olduğunu iddia edən və ya cəmiyyətin həyatında daha aktiv iştirak etmək istəyən müsəlmanlara etibar etmək olmaz, çünki onlar avropalıları aldatmaq üçün "təqiyyə" işlədir və Avropada şəriətə əsaslanan islam dövlətini qurmağa çalışırlar. Eyni zamanda ifrat sağçılar kütləvi immiqrasiyada əsas günahkarların miqrantlar deyil, siyasi-iqtisadi elitalar olduğunu hesab edirlər. Ona görə də onlar əsasən miqrantlara qarşı deyil, bu miqrantların gəlməsinə şərait yaradan hökumətlərə qarşı mübarizə aparırlar. Məsələn, müsəlman immiqrantların Avropa mədəniyyətini məhv etmək üçün "demoqrafik müharibə" apardığına inanan norveçli ifrat sağçı terrorçu **Anders Breyvik** öz "qisasını" immiqrantlardan yox, bu immiqrantların Norveçə gəlməsinə "şərait yaradan" solçulardan və "xəyanətkar" hökumətdən almışdı. Belə ki, o, əvvəlcə Osloda hökumət binası qarşısında bomba partlatmış, sonra isə Norveçin hakim İşçi Partiyasına bağlı yay düşərgəsində 66 insanı güllələmişdi.

İfrat sağ təmayüllü partiyaların sosial bazasının fəhlə sinfinin nümayəndələrindən təşkil olunması onların iqtisadi siyasətlərinə də ciddi təsir göstərmişdir. Əgər 1980-ci illərdə bu partiyalar daha çox azad bazar və neoliberal iqtisadi siyasət tərəfdarı idilərsə, artıq 1990-cı illərdən başlayaraq onların mövqeləri bu məsələdə dəyişmiş və onlar getdikcə daha çox anti-qloballaşma və mühafizəkar mövqelərdən çıxış etməyə başlamışlar. İfrat sağ təmayüllü partiyalar öz mühafizəkar siyasətləri ilə daxili istehsala daha münbit şərait yaradılmasına, yerli istehsalın xarici rəqabətin mənfi təsirindən qorunmasına çalışırlar. Bu partiyalar idxal olunan mallara rüsumların tətbiq olunmasına çalışır və idxal mallarına tətbiq olunan gömrük rüsumları vasitəsilə bu malların bazarda yerli məhsullarla rəqabətə davamlılığını aşağı salmağa və onları bazardan sıxışdırıb çıxarmağa nail olmaq istəyirlər. Onların fikrincə,

bu, alıcıların daha ucuz olan yerli mallara tələbatını yüksəldəcək, Çin və Hindistan kimi ölkələrə köçən yerli istehsalın yenidən geri dönməsinə şərait yaradacaq. Müasir ifrat sağ təmayüllü partiyalar neoliberal görüşlərindən imtina edərək yeni, daha çox aşağı təbəqələrin dəstəyini qazanmağı hədəfləyən populist iqtisadi görüşləri qəbul etməklə Avropanın hakim sosial demokratik partiyaları ilə eyni seçicilər uğrunda ciddi rəqabətə girmiş və onların elektoratını tədricən əllərindən ala bilmişlər.

Qloballaşma proseslərinin qalibləri və məğlubları arasında yaranan sosial-siyasi qütbləşmə qloballaşma və neoliberal iqtisadi siyasətləri müdafiə edənlərlə qloballaşmaya qarşı çıxan və mühafizəkar siyasətləri müdafiə edənlər arasında ciddi gərginliyə səbəb olmuş, qloballaşma proseslərini qəbul edənlərlə ona qarşı çıxanlar arasında daxili qarşıdurmalar yaratmışdır. İfrat sağ təmayüllü partiyaların sosial bazasını qloballaşma proseslərindən mənfi təsirlənən və bu proseslərdən kənarda qalan qruplar təşkil edir. Qloballaşma proseslərinin gətirdiyi mənfi fəsadlar nəticəsində sosial statuslarını itirmək təhlükəsi ilə üz-üzə qalan bu qruplar ifrat sağ təmayüllü partiyaları onların cəmiyyətdə sosial statuslarını müdafiə edə biləcək, onları qoruya biləcək bir siyasi qüvvə kimi görürlər. Sosial müdafiə və

> Miqrant axını ilə bağlı Avropada gedən müzakirələrin elitalar tərəfindən məhdudlaşdırılmasına çalışılması və bəzən kütləvi immiqrasiyanı tənqid edənlərin haqsız yerə "irqçi" və "faşist" deyə damğalanması sosial gərginliyin azaldılmasına heç də kömək etmir, əksinə cəmiyyətlərdə immiqrasiya məsələsi ətrafında mövcud olan qütbləşməni daha da dərinləşdirir. Bütün bunlar ifrat sağçılara cəmiyyətdəki mövqelərini möhkəmləndirməyə geniş imkanlar yaratmışdır.

təhlükəsizlik axtarışında olan bu qruplar üçün ifrat sağ təmayüllü partiyalar təbii müttəfiqdir. Bununla yanaşı, bu partiyalar azad bazar iqtisadiyyatına və qloballaşmaya qarşı iqtisadi proteksionizmi müdafiə edərək xarici istehsalçıların yerli bazara daxil olmasını məhdudlaşdırmaqla yerli istehsalçıları qorumağa çağırırlar. Bu partiyalar rifah dövləti tərəfdarı olsalar da, bu rifah dövlətinin təmin etdiyi üstünlüklərin yalnız cəmiyyətdə çoxluq təşkil edən hakim etnik qrupa şamil olunmasını və miqrantların bu üstünlüklərdən məhrum edilməsini istəyirlər.

İfrat sağ təmayüllü partiyalar qloballaşmanın milli maraqlara zidd olduğuna inanırlar. İfrat sağçılar qloballaşmanın milli dövlətlərin rolunun zəiflətməsinə və suverenliyini itirməsinə səbəb olması qənaətindədirlər. Bu qrupun tərəfdarları qloballaşmanın xüsusilə miqrasiya sahəsində dövlət nizamlanması mexanizmlərini zəiflətdiyini iddia edirlər. Onlar hesab edirlər ki, nəzarətedilməz miqrasiya prosesləri məhz qloballaşmanın doğurduğu nəticələrdir. Belə ki, qloballaşma bu prosesə daha yaxından qoşulmaq istəyən ölkələri miqrasiya siyasəti kimi sahələrdə kəskin liberallaşma aparmağa məcbur edir. Bu isə heç də həmişə həmin xalqların mənafeyinə uyğun deyil. İfrat sağçılar əmindirlər ki, qloballaşma və onun səbəb olduğu kütləvi immiqrasiya transmilli elitaların öz mənfəətləri üçün dəstəklədikləri antidemokratik və dağıdıcı xarakter daşıyan proseslərdir. Kütləvi immiqrasiya nəticəsində Qərb cəmiyyətinə yad mədəniyyətin elementlərinin daxil olması bu qruplar tərəfindən böyük etirazla və kəskin müqavimətlə qarşılanır.

Onlara görə də Avropa ölkələrinin etnik tərkibini kökündən dəyişdirəcək kütləvi immiqrasiya neoliberal elitaların təşviq etdiyi qloballaşma proseslərinin birbaşa nəticəsidir. İfrat sağ təmayüllü partiyalar beynəlxalq kapitalın və transmilli korporasiyaların maraqlarını təmsil edən və vətəndaşların nəzarəti altında olmayan

texnokrat Aİ-nin əslində Avropa xalqlarına qarşı olduğunu bildirir. Onlar inanırlar ki, Aİ-nin fəaliyyəti Avropa xalqlarının maraqlarına deyil, transmilli şirkətlərin və qlobal elitaların maraqlarına xidmət edir. İfrat sağ təmayüllü partiyalar immiqrasiya nəticəsində Qərb mədəniyyətinin getdikcə məhv edildiyinə, onun Avropaya yad dəyərlər sistemi ilə əvəzləndiyinə inanırlar. İfrat sağçılar kütləvi immiqrasiyanın Avropanı tənəzzülə apardığı qənaətindədirlər. Əslində isə Avropanın əsas problemi miqrantlar deyil, əhalinin təbii artım və doğum səviyyəsinin çox aşağı olması səbəbindən yaşanan demoqrafik böhrandır. Avropanın hazırda gənc ali təhsilli peşəkar kadrlara ehtiyacı var. Məsələnin digər tərəfi ondan ibarətdir ki, bu ehtiyac Yaxın və Orta Şərqdən təhsilsız miqrantların idxalı ilə həll edilə bilməz.

Mərkəzçi partiyalardan fərqli olaraq, ifrat sağ təmayüllü partiyalar ideoloji baxımdan mövqelərini seçicilərə daha aydın və sadə formada təqdim edə bilirlər. Belə ki, Avropada insanların əmək bazarında üzləşdiyi qeyri-müəyyənliklər ifrat sağ təmayüllü partiyalar tərəfindən məharətlə istismar olunur. Belə ki, onların qəzəbi bu qruplar tərəfindən Avropada getdikcə təsirini və əhatə dairəsini genişləndirən islama qarşı yönəldilir. İfrat sağ təmayüllü partiyalar öz siyasi ritorikalarını miqrantlarla bağlı cəmiyyətdə, xüsusən cəmiyyətin aşağı təbəqələrində mövcud olan antipatiya və stereotiplər ətrafında qururlar. İfrat sağ təmayüllü partiyalar yerli əhalinin əhəmiyyətli hissəsini müsəlmanların Qərb cəmiyyətinə inteqrasiya olunmaqdan qəsdən imtina etdiklərinə və islam dininin avropalıların etno-kultural kimliklərinə təhdid olmasına inandıraraq, müsəlman miqrantlardan ümumi düşmən yaratmaqla mövcud şəraitdən narazı olan qrupları öz ətrafında birləşdirməyi bacarmışlar. Bu etno-mərkəzçi fikirlər yerli fəhlə sinfinin bir çox hissəsi üçün cazibədardır. Çünki onlar hakim partiyaların islama qarşı çox yumşaq davrandıqları qənaətindədirlər. Məsələn, Fransada **Marin Le Pen** onun partiyasının ölkədə Fransa

Respublikasının dünyəvi dəyərlərini islamın artan təhdidlərindən qorumağa çalışan yeganə qüvvə olduğunu iddia edir.

Bu partiyalara səs verənlərin əksəriyyətini qloballaşmanın məğlubları olan gənc, aşağı təhsilə malik fəhlə sinfinin nümayəndələri təşkil edir. İmmiqrasiyaya qarşı olmaq ifrat sağ təmayüllü partiyalara dəstəyin əsas göstəricisi hesab oluna bilər. Araşdırmalar göstərir ki, fəhlə sinfi ifrat sağ təmayüllü partiyaların elektoratının 50%-ni təşkil edir, Avstriya, Belçika və Fransada ifrat sağ təmayüllü partiyalara gələn səslərin 2/3-si məhz bu qrupların payına düşür. Bu qrup yerli əhalinin aşağı ixtisaslı ucuz işçi qüvvəsinin Avropaya gəlməsindən ən çox təsirlənən təbəqəsidir, çünki miqrantların gəlişi həm əmlak bazarında qıtlığa və bahalaşmaya, həm də əmək bazarında rəqabətin artmasına səbəb olur.

Hakim partiyalar əsasən iqtisadi məsələlərdə bir-birləri ilə rəqabət apardıqları halda, ifrat sağ təmayüllü partiyalar Qərb dəyərləri və həyat tərzi üzərində fokuslaşmaqla miqrasiyanın iqtisadi təsirlərindən çox ictimai-siyasi və mədəni-dini təsirlərini qabartmağa üstünlük verirlər. Bununla yanaşı, mərkəzçi sağ və sol partiyaların bir çox məsələlərdə oxşar mövqelərdən çıxış etmələri, mövcud sistemin parçaları olmaları və aralarında olan fikir ayrılıqlarının çox cüzi və önəmsiz olması bu seçiciləri daha radikal görüşlərə sahib, əsaslı dəyişikliklərə çağıran marjinal partiyalara səs verməyə təşviq edir. Seçicilərin səsvermə davranışlarını tədqiq edən araşdırmalar göstərir ki, seçicilər mərkəzçi partiyalara iqtisadi səbəblərə, ifrat sağ təmayüllü partiyalara isə immiqrasiyaya görə səs verirlər.[171]

Mərkəzçi partiyalar miqrasiya məsələsində daha sərt mövqe tutduqda ifrat sağ təmayüllü partiyalara dəstək kəskin şəkildə aşağı düşür və mərkəzçi partiyalar seçkilərdə ifrat sağ təmayüllü partiyaları məğlub etməyi bacarır. Bu, 2017-ci ildə Niderlandda keçirilən parlament seç-

171 Gijs Schumacher and Matthijs Roodujin. Sympathy for the "devil"? Voting for populists in the 2006 and 2010 Dutch general elections // Electoral Studies, 32(1), 2013, pp. 124-133

kilərində özünü daha bariz şəkildə göstərdi. Belə ki, təbliğat və təşviqat kampaniyasını müsəlman ölkələrindən gələn miqrantların qarşısının alınması, məscidlərin bağlanması və Quranın qadağan olunması kimi məsələlər ətrafında quran ifrat sağçı **Qert Vilders** seçkilərdən əvvəl rəy sorğularında liderlik edirdi. Lakin Niderlandın Baş naziri Mark Ruttenin mərkəz sağçı VVD Partiyasının *(Azadlıq və Demokratiya naminə Xalq Partiyası/Volkspartij voor Vrijheid en Democratie)* daha sərt anti-immiqrasiya siyasəti ilə çıxış etməsi son anda təşəbbüsü Qert Vildersin əlindən alaraq onu məğlub edə bildi.

Qloballaşma dövründə Avropada anti-immiqrant əhval-ruhiyyəsinin geniş yayılması təəccüblü deyil. Belə ki, postsənaye dövründə ənənəvi icmaların və təsisatların dağılması həmin icma və təsisatların insanlar üçün əsrlər boyu təmin etdiyi milli kimlikləri də təhlükə altına alır. Beləliklə, qloballaşma və postsənaye dövründə Avropada milli kimliyin böhranı və bu böhranın səbəb olduğu anti-immiqrant əhval-ruhiyyə Avropada multikultural cəmiyyətlərin yaranması ilə bağlı ağrıların təzahürüdür. Qloballaşma proseslərinin "məğlubları" olan bu insanlar müasir qlobal dünyanın onlara qarşı olduğu qənaətindədirlər. Onlar immiqrasiya nəticəsində yaranan sosial dəyişikliklərə qarşı çıxır, ifrat sağ təmayüllü partiyalara səs verməklə əslində zamanı geri qaytarmağa, cəmiyyətdə baş verən dəyişiklikləri dayandırmağa çalışırlar.

Miqrasiya proseslərinin hazırkı dinamikası bir tərəfdən qloballaşmanın səbəb olduğu beynəlxalq əmək bölgüsündə dəyişikliklərin, nəqliyyat və informasiya texnologiyaları sahəsində elmi-texniki tərəqqinin, digər tərəfdən bir sıra regionlarda davam edən etnik və dini münaqişələrin, beynəlxalq aləmdə mövcud olan siyasi qeyri-müəyyənliyin artmasının nəticəsidir. Tənzimlənməyən miqrasiya axınları Qərb ölkələri üçün sosial və siyasi sabitliyin təmin olunmasında böyük maneələr yaradır.

İfrat sağçılara görə, kütləvi immiqrasiya Aİ ilə transmilli şirkətlərin də daxil olduğu qlobal elitanın təşviq etdiyi bir proses olduğundan Aİ Avropa xalqlarının maraqlarını heç bir zaman diqqətə almayacaq. Buna görə də, əgər Avropa ölkələri ifrat sağ partiyaların yüksəlişinin qarşısını almaq istəyirlərsə, düşünülmüş miqrasiya siyasətinin işlənib-hazırlanması onlar üçün başlıca prioritet məsələ təşkil etməlidir. Avropanın hakim elitaları nəzərə almadırlar ki, yerli əhali tənzimlənməyən və nəzarətsiz miqrasiyanın Avropanın milli-etnik və sosial-mədəni quruluşunu dəyişməsindən, milli kimliklərinin məhv edilməsindən narahatdırlar. İnsanların bu qorxularına etinasız şəkildə yanaşmaq əvəzinə, elitalar bu məsələlərə daha ciddi yanaşmalı, hökumətlər isə dövlətin miqrasiya siyasətini müəyyənləşdirərkən insanların bu narahatlıqlarını daha çox diqqətə almalıdırlar.

Beləliklə, Avropa immiqrasiya məsələsində mövqeyinə yenidən baxmalı, kütləvi miqrasiyanın səbəb olduğu iqtisadi və sosial-siyasi çətinlikləri nəzərə almalı və buna uyğun yeni bir siyasət ortaya qoymalıdır. İmmiqrasiyanın səviyyəsi bir tərəfdən immiqrantların inteqrasiya olma bacarığına, digər tərəfdən cəmiyyətin immiqrantları qəbul etmə imkanlarına uyğun olaraq müəyyənləşdirilməlidir. Şovinizm və ksenofobiyanın artmasına qarşı mübarizə aparmaqla yanaşı avropalılar eyni zamanda sağlam müzakirələrin aparılması üçün də geniş imkan yaratmalıdırlar. Miqrasiya məsələsində Avropa ölkələrinin vahid siyasət formalaşdıra bilməməsi və müsəlman mənşəli immiqrantların Avropa cəmiyyətinə inteqrasiyasının qeyri-qənaətbəxş olması miqrasiya probleminin Avropada ciddi münaqişələrə səbəb ola biləcəyini göstərir. Belə bir şəraitdə miqrasiya ilə bağlı hökumətin effektiv strategiya formalaşdırması və miqrantların inteqrasiyası barədə cəmiyyətdə daha açıq və səmimi müzakirələrin aparılmasına imkan yaratması ifrat sağ təmayüllü partiyalara dəstəyin azalmasına səbəb ola bilər. Aİ isə öz növbəsində vahid miqrasiya siyasətini

işləyib hazırlayarkən hər bir üzv ölkənin spesifikasından irəli gələn özünəməxsus cəhətlərlə yanaşı, ümumi hesab ediləcək prinsiplərin də müəyyən edilməsinə diqqət ayırmalı, miqrasiya vəziyyətinin reallıqları ilə hesablaşmalı, miqrasiya ilə bağlı praqmatik xarici və daxili siyasət müəyyənləşdirməlidir.

## 4.4. Miqrasiya böhranı ilə "maraq və mənfəət" prinsipi üzərində qurulan Qərb iqtisadi siyasəti arasında qarşılıqlı təsir

*"ABŞ və onun müttəfiqləri faydasız müharibələrə trilyonlarla dollar sərf edirlər, lakin daha sonra evləri, məktəbləri, klinikaları yenidən qurmaq üçün maliyyə vəsaiti ayırırlar. Paradoks ondan ibarətdir ki, Qərb ölkələri bu gün qaçqınların tərk etdikləri mənşə ölkələrində sabitliyin, iqtisadi dirçəlişin bərpa edilməsinə pul ayırmaq əvəzinə, öz torpağındakı qaçqınların ehtiyacları üçün milyardlarla maliyyə vəsaiti, büdcə yardımları ayırmalı olurlar. Qərbin ilk addımlarından biri Afrika, Yaxın Şərq və Asiya bölgələrində insanlara yaşamağa imkan verən, sabit iqtisadi gələcək qurmaq üçün lazım olan investisiyaları maliyyələşdirməkdir".*[172]

**Cefri Saks**

Klassik siyasi iqtisadın qurucusu sayılan Adam Smit *"Xalqların sərvəti"* adlı məşhur əsərində Qərbin müstəmləkəçi imperiyalarına "yerli xalqların və ya koloniyaların rifahını düşünmədən onların sərvətinin istismarı üçün hazırlanmış xəsis maşınlar" kimi tərif

172 Sachs J. There's no perfect answer to the migrant crisis – and we must face that. *-https://www.theguardian .com/commentisfree/2015/nov/02/answer-migration-crisis-refugees-europe*

vermişdi. Bu fonda iqtisadi tarixi tədqiq edən alimlərin diqqətini davamlı olaraq belə bir sual məşğul edirdi: Təməlində ərazilərin fəthi, kölə əməyinin məcburi istismarı duran Qərbin “azad” bazar münasibətləri əsasında ədalətli qlobal iqtisadi sistemin liberal modeli necə formalaşmışdır, yaxud formalaşa bilərmi? Əgər formalaşıbsa, müstəmləkəçilikdən üzü bəri gələn ideallaşmış modeli kapitalizmin təməl xüsusiyyəti kimi təqdim etməyə, imperializmin “konstitusion” zorakılığını kapitalın “tarixdən əvvəlki dövrünə” aid edərək arxa plana atmağa necə nail olunmuşdur? İmperializm və müstəmləkəçilikdən doğan liberal beynəlxalq iqtisadiyyat necə ola bilər ki, özünün tam əksinə çevrilsin?[173]

Tarix boyu miqrasiya proseslərinin formalaşmasına iqtisadi amillər birbaşa təsir etmişdir və bir çox hallarda bu amillər miqrasiyanın baş verməsinin əsas səbəbi olmuşdur. Müxtəlif tarixi dövrlərdə gedən iqtisadi proseslər isə həmin dövrdə miqrasiyanın özünəməxsus xarakterə malik olmasına gətirib çıxarmışdır. Ümumiyyətlə, miqrantlara qarşı onları qəbul edən ölkələrdə tolerantlıq və açıqlıq səviyyəsi iqtisadi vəziyyətdən asılı olaraq dəyişmişdir. Yəni daha güclü iqtisadi artım müşahidə edildiyi dövrlərdə ölkələrin miqrantlara qarşı münasibətləri daha yumşaq və tolerant xarakterə malik olmuşdur. Əksinə iqtisadi böhranların mövcud olduğu dövrlərdə isə bu münasibət dəyişmiş və bir çox hallarda narazılıq, nifrət, hətta ksenofobiya ilə müşayiət olunmuşdur.

Miqrasiyanın nizama salınması tarixində merkantilistlərin[174] təliminin (XVIII əsrin əvvəlləri) ilkin hesab edilməsi ümumən hamı tərəfindən qəbul edilmişdir. Bu məktəbin **Kolber** və başqa nümayən-

173 Onur Ulas. Adam Smith, Settler Colonialism, and Cosmopolitan Overstretch Research Collection School of Social Sciences. 2017. Available at: *http://ink.library.smu.edu.sg/soss_research_all/18*

174 ***Merkantilizm*** (it: *mercante* - “tacir”) - merkantilist iqtisadi siyasəti ticarət kapitalının maraqlarını dəstəkləyən, onu elmi əsaslandırmağı hədəfləyən iqtisadi təlimdir. Merkantilizm XV-XVIII əsrlərdə Qərbi Avropa ölkələrində iqtisadi siyasətin və iqtisadi fikrin əsas cərəyanı olmuşdur.

dələri öz iqtisadi nəzəriyyələrini miqrasiyanın dövlət tənzimləməsinin əsası kimi müəyyən etməyə cəhd etmişlər. İşçi qüvvəsinin beynəlxalq miqrasiyası sahəsində merkantilistlərin siyasəti ölkə əhalisinin zəngin təbəqələrinin maraqlarını təmin etməyə hesablanmışdı. Merkantilistlər sənaye işçilərinin emiqrasiyasını qadağan edir və başqa ölkələrdən sənətkarların immiqrasiyasını stimullaşdırırdılar. Bu, aşağı təbəqənin, fəhlə sinfinin gəlirlərinin səviyyəsinə neqativ təsir göstərirdi. Müəyyən mənada Qərbin ən yeni miqrasiya siyasəti merkantilistlərin selektiv ayrı-seçkilik siyasətindən qaynaqlanırdı.

Tədqiqatçılardan **Miçel Çossudovski** keçmiş Yuqoslaviyada qarşıdurmaya gətirib çıxaran əlverişli şəraitin yaradılmasında “eqoist, öz maraq və mənfəətini güdən Qərb xarici siyasəti və diplomatiyasının bilavasitə oynadığı rolu” araşdırmışdır. Bütövlükdə keçmiş Yuqoslaviyada, Somalidə və Ruandada sosial-iqtisadi reallıqların araşdırılmasından sonra M.Çossudovski bu qənaətə gəlir: “Dünya birliyi hökmranlıq edən neoliberal sistemin uğursuzluğunu dərk etməli və iqtisadi islahatların dağıdıcı təsirini nəzərə almalıdır. O zaman beynəlxalq donorlar və məsul təşkilatlar Yuqoslaviyada, Somalidə və Ruandada vətəndaş müharibəsinin qəfil

> **Miçel Çossudovski:**
> “Dünya birliyi hökmranlıq edən neoliberal sistemin uğursuzluğunu dərk etməli və iqtisadi islahatların dağıdıcı təsirini nəzərə almalıdır. O zaman beynəlxalq donorlar və məsul təşkilatlar Yuqoslaviyada, Somalidə və Ruandada vətəndaş müharibəsinin qəfil alovlanması üçün bilavasitə cavabdeh hesab edilməsələr də, sübut edilmişdir ki, hər üç ölkədə beynəlxalq kreditorlar tərəfindən israrla tətbiq edilən makroiqtisadi islahatlar mövcud idarəçiliyin, dövlət institutlarının süqutunda, sosial və siyasi partlayış vəziyyətinin yaranmasında mühüm rol oynamışdır”.

alovlanması üçün bilavasitə cavabdeh hesab edilməsələr də, sübut edilmişdir ki, hər üç ölkədə beynəlxalq kreditorlar tərəfindən israrla tətbiq edilən makroiqtisadi islahatlar mövcud idarəçiliyin, dövlət institutlarının süqutuna, sosial və siyasi partlayış vəziyyətinin yaranmasında mühüm rol oynamışlar.[175]

İnsan yerdəyişməsinin əsas səbəbləri yalnız münaqişə və avtoritar rejimlərlə deyil, məsələn, qlobal iqtisadiyyata aid olan geniş məsələlərlə də sıx bağlıdır. Siyasət və iqtisadiyyatı bir-biri ilə sıx bağlayan qlobal resursların bölüşdürülməsi zorakı miqrasiyanın səbəblərinə təsir edir.  Bir sıra iqtisadçı alimlər hesab edir ki, qlobal bazarlara çıxış, ilkin məhsulların ixracından asılılıq, inkişaf etməkdə olan ölkələrin borcu, müstəmləkəçilik mirası və struktur institutlarının tənzimləmə məsələləri münaqişənin səbəbləri ilə birbaşa əlaqəlidir. Bu səbəbdəndir ki, dünya miqyasında qaçqınların və məcburi köçkünlərin əksəriyyətinin mənşə ölkəsi Cənubdur. Buna görə məcburi miqrasiya və onun əsas səbəbləri beynəlxalq siyasi iqtisadiyyat və Şimal-Cənub münasibətlərinin daha geniş kontekstində nəzərdən keçirilə bilər.[176] Beynəlxalq siyasi iqtisadda merkantilizm, liberalizm, marksizm cərəyanları və asılılıq nəzəriyyələri geniş təhlil edilir. Məcburi miqrasiyanı təhlil edən beynəlxalq münasibətlər nəzəriyyəsinə dair ədəbiyyatın əksəriyyəti, tədqiqatın əvvəlində qeyd edildiyi kimi, "tənqidi nəzəriyyə"nin payına düşür. Tənqidi nəzəriyyə məcburi miqrasiyanın  geniş tarixi zaman və məkan kontekstində baxılmasını təklif edir.

Beynəlxalq siyasi iqtisad beynəlxalq münasibətlərin bir sahəsi

---

175 Chossudovsky M. Economic Reforms and Social Unrest in Developing Countries', Economic and Political Weekly July 19:1997, p.1786-1788.

176 Migration and Development: Perspectives from the South. /Castles, S., and R. D. Wise (eds.) Geneva: International Organization for Migration, 2008; Collier P. and Hoeffler A. On the Economic Causes of Civil Wars. // Oxford Economic Papers, Vol. 50, No. 4, Oct., 1998, pp. 563-573; Power, Livelihoods and Conflict: Case Studies in Political Economy Analysis for Humanitarian Action. /Edited by Sarah Collinson. London: Overseas Development Institute, HPG Report, 13 February 2003.

olub, dünya siyasətinin qlobal iqtisadiyyatla yaxından bağlı olduğunu qəbul edir.Bu sahə qlobal iqtisadi strukturların dünya siyasətini necə formalaşdırması və yaxud əksinə olan problemləri diqqət mərkəzində saxlayır. Başqa sözlə desək, dünya siyasətində dövlətlərarası münasibətlər və dövlətlərin davranışı bazar amilinin rolunu nəzərə almadan dərk edilə bilməz. Beynəlxalq siyasi iqtisad əsasən tarixən Şimal-Cənub, Qərb və üçüncü dünya ölkələrinin münasibətlərinə xüsusi diqqət vermişdir.

Şimal-Cənub, zəngin Qərb və yoxsul Cənub bölgüsü postmüstəmləkəçilik mərhələsində dünyanın bu iki məkanı arasında formalaşan asimmetriyanın - uçurumun ifadə edilməsi üçün əhəmiyyətli anlayış kimi elmi gündəmə gəlmişdir. “Şimal/Cənub” anlayışına sinonim olaraq birinci dünya/üçüncü dünya, mərkəz/əyalət, inkişaf etmiş/etməkdə olan dövlətlər kimi müqayisələr də beynəlxalq sistemdə zəif və güclü aktorlar arasında asimmetrik güc münasibətlərinin ifadəsi üçün tətbiq edilir.

Məcburi insan köçünün sadəcə səthdə olan əlamətlərinə baxmaqla zorakı miqrasiyanın təməl səbəblərini müəyyən etmək və düzgün nəticəyə gəlmək mümkün deyil. Həmin səbəblər, tənqidi yanaşmaya görə, məcburi köçün əsas səbəblərinin beynəlxalq qlobal iqtisadiyyatda bərqərar olmuş bərabərsizlikdən və hegemonluq siyasətindən qaynaqlanmasını aşkara çıxarır. Məsələn, o, məcburi miqrasiya ilə bağlı problemlərin bir çoxunun təməlində qloballaşma, ticarət, kapitalizm və struktur nizamlama proqramlarının durduğunu göstərir.[177]

Bundan başqa, tənqidi nəzəriyyədə hesab edilir ki, məcburi miqrasiyaya görə beynəlxalq məsuliyyət nəzərdən keçirilir. Humanitar müstəvinin qabardılması, günahkarlar və səbəblər aradan qaldırılmadan

177 Castles S. Towards a Sociology of Forced Migration and Social Transformation. /1 February 2003/ - *https://doi.org/10.1177/00380385030370013 84*; *Marfleet P. Refugees in a Global Era. Basingstoke:* Palgrave Macmillan. / 1 July 2007/ - *https://doi.org/10.1177/00223433070440040910*

beynəlxalq yardımların vacib məsələ hesab edilməsi məcburi miqrasiyanı doğuran səbəbləri görməzdən gəlməklə dolayısı ilə onun qeyri-müəyyən vaxta qədər davam etdirilməsinə dəstək verir.

**S.Kastels** məcburi miqrasiyaya siyasi iqtisad aspektindən yanaşmanı geniş tədqiq etmişdir. O, 1990-cı illərdə və 2000-ci illərin əvvəllərində baş verən qondarma miqrasiya böhranına Cənub-Şimal miqrasiya axınlarının siyasiləşdirilməsi kontekstində baxılmasının vacibliyini qeyd edir. Çünki qaçqın kimi tanınmasından asılı olmayaraq, insanlar çətin iqtisadi, sosial və siyasi vəziyyətlərə görə evlərini tərk edirlər. Hətta qaçqın olmayan qruplar da "son çarə" kimi ailələrinin dolanmasına yardım etmək üçün qabaqcıl ölkələrdə "çirkli, ağır və təhlükəli" iş yerləri axtarmaq üçün buraya gəlirlər. Kastles hesab edir ki, "miqrasiya böhranı" iqtisadi şərtlər, sosial rifah və insan hüquqları baxımından zəngin Şimal və yoxsul Cənub arasında mövcud olan böyük bərabərsizliklər səbəbindən yaranır. Bu baxımdan, "miqrasiya böhranı"nı həll etmək, qlobal bərabərsizliyi şərtləndirən səbəblərlə məşğul olmaq və beynəlxalq siyasi iqtisadiyyatı xarakterizə edən Şimal və Cənub böhranını, uçurum vəziyyətini aradan qaldırmaq lazımdır.

Digər tədqiqatçıların fikrincə, hazırda Aİ-nin yaşadığı miqrasiya böhranı həm də İttifaqın uzun illərdir aqrar sektorda apardığı proteksionist iqtisadi siyasətinin nəticəsidir. Belə ki, daxili kənd təsərrüfatı istehsalçılarının mənafelərini qorumağa yönəlmiş bu proteksionist siyasət əsasən kənd təsərrüfatı məhsullarını ixrac edən yoxsul ölkələri Avropanın aqrar bazarlarından tədricən sıxışdırıb çıxarmışdır. Bu da öz növbəsində həmin ölkələrin onsuz da ağır olan iqtisadi vəziyyətini daha da pisləşdirmiş, yoxsulluğun artmasına səbəb olmuş və yüz minlərlə xırda fermer təsərrüfatının iflası nəticəsində bu sahə ilə məşğul olan bir çox insanın daha yaxşı gələcək üçün Avropaya üz tutmasına səbəb olmuşdur. Bazel Universitetinin

professoru **Andrea Frankın** *(Andrea Franc)* qeyd etdiyi kimi, Aİ-nin proteksionist siyasəti Avropa ölkələrinin keçmiş müstəmləkələrini iqtisadi cəhətdən müstəmləkəçilik dövründən daha ağır vəziyyətə salıb[178]. Belə ki, keçmiş müstəmləkələrə Avropa bazarlarına daxil olmaqda məhdudiyyətlər yaratmaqla, Aİ həmin ölkələrin onsuz da güclü olmayan iqtisadiyyatını daha da zəiflətmiş və bu da həmin ölkələrdən insanların kütləvi emiqrasiyasına təkan vermişdir.

Qlobal iqtisadi strukturları məcburi köçkünlüyə vadar edən əsas səbəb münaqişələrlə bağlıdır. Beləliklə, biz deyə bilərikmi ki, insanların milli sərhədlər üzərindən axın etməsi beynəlxalq münasibətləri dəyişdirəcək yeni funksiyaya çevrilib? Daha dəqiq desək, beynəlxalq siyasiiqtisadda baş verən struktur dəyişiklikləri ilə getdikcə yüksələn insan axınları arasında bağlılıq varmı? "Cəzbetmə-itələmə", "puş-pull", müharibədən sonra "açıq qapılar"; ABŞ-da "İşçi qüvvəsi idxalına dair" Bracero müqaviləsi və s. 1942-1964-cü illərdə gəlmə işçilərin əməyini stimullaşdırdı. Qərb və Avropanın inkişaf və rifahında mühüm rol oynayan bu siyasət ötən əsrin 80-ci illərində dalana dirəndi. İlk böhran əlamətləri başladı və bu, ilk neft şokundan sonra (1973-1974) baş verdi. "Tələb-təklif" siyasəti Türkiyə, Meksika və Əlcəzair kimi ölkələrin əhalisinin sayının kəskin şəkildə artması ilə yeni səviyyə və xarakter kəsb etdi. 2008-ci il böhranında isə bütün istiqamətlərdə sərtləşmə və nəzarət baş verdi.

"Soyuq müharibə"dən sonra bir sıra alimlər (məsələn, **Meri Kaldor**) dövlətlərarası münaqişələrin lokal məkanlara doğru çəkilərək yerini dövlətdaxili münaqişələrə verəcəyini, dünyaya təsir edən "yeni nəsil müharibələr"in ortaya çıxacağını proqnozlaşdırırdılar.1990-cı illərdə həmin münaqişələrin ən yüksək formaları Somali, Bosniya, Ruanda, Şərqi Timor və Burundidə baş vermişdir. İqtisadi amillər və

178 Franc A. Free Trade in an Era of Mass Migration. // Eurozine, 14 October 2015/ *- http://www.eurozine.com/free-trade-in-an-age-of-mass-migration*

resurslar uğrunda rəqabət bir çox "yeni müharibələrin" mühüm amili kimi müəyyən edilmişdir. İqtisadi bərabərsizliklər xüsusilə münaqişəli cəmiyyətlərdə etnik mənşə və dini kimliyi ilə fərqlənən insanlar kateqoriyasına təsir göstərir, çünki qruplar arasında bərabərsizlik narazılığa səbəb olur.[179]

Sudanda iqtisadi problemlərlə geniş məşğul olan **Mark Duffild** bu ölkəyə humanitar və inkişaf layihələri vasitəsilə verilən yardımları Qərbin hegemoniya strategiyasının bir hissəsi hesab etmişdi.[180] O qeyd edir ki, Sudan kimi ölkələrdə humanitar yardım münaqişələri səngitməkdənsə, əksinə daha da ağırlaşdırır. Məsələn, bir tərəfdən ölkənin resursları istismar olunur, digər tərəfdən isə humanitar yardımların ayrılması "əncir yarpağı" metaforasına uyğun olaraq sosial və siyasi etirazların baş qaldırmasının qarşısının alınmasına xidmət edir.

Bundan əlavə, "humanitar yardım strategiyası" münaqişənin başlıca səbəblərindən biri olan, məsələn, müstəmləkəçilik, struktur tənzimləmə və qlobal ticarət əlaqələrini arxa plana keçirir. Buna görə də, M.Duffildin əsas təklifi radikal səslənir: Şimal-Qərb ölkələri tamamilə Cənubdan çıxmalı və humanitar yardım layihələri dayandırılmalıdır.

M.Duffildin təhlili yeniliyi baxımından faydalıdır, çünki o, Qərb dövlətlərinin Asiya və Afrikada ilk baxışda humanitar təsir bağışlayan, gerçəklikdə isə qeyri-humanitar, qeyri-altruist olan motivlərə əsaslanmasına diqqəti cəlb edir. Həqiqətdə də Qərbin humanitar layihələri tarixən formalaşmış hegemonluq ənənələrinin saxlanılmasına xidmət edən siyasətin çoxsaylı metodlarından biridir.

Qlobal kapitalizm və iqtisadiyyatın əl-ələ verərək Afrikada məcburi miqrasiya proseslərinin təməlində durması birmənalıdır. Bunun üçün Sub-Sahara Afrikasında daxili münaqişələrin iki nümunəsini yada

179 Kaldor M. New and Old Wars: Organized Violence in a Global Era. Cambridge: Polity Press, 1999
180 Duffield M. Global Governance and the New Wars. London: Zed Books, 2001

salmaq olar: birincisi, 1991-1999-cu illərdə Syerra Leonedə vətəndaş müharibəsi; ikincisi, 1983-cü ildən bu günə qədər Cənubi Sudanda gedən ikinci vətəndaş müharibəsi. Hər iki halda qlobal kapitalizm ilə məcburi miqrasiya arasındakı mahiyyət əlaqələrinin izlənilməsi çətin deyil. Belə ki, bir tərəfdən təbii ehtiyatlar və qlobal kapitalizm, digər tərəfdən isə münaqişələr və məcburi miqrasiya arasında əhəmiyyətli əlaqənin olduğu göz önündədir.

Transmilli korporasiyaların istehlak və istehsal seçimləri də məcburi miqrasiyaya əhəmiyyətli dərəcədə təsir edə bilər. Bir dövlət daxilində ətraf mühitin çirklənməsi digər dövlətlərin ekoloji baxımdan qanunazidd, hətta məqsədyönlü fəaliyyətinin nəticəsi ola bilər. Məsələn, inkişaf etmiş dünyada istixana qazı emissiyasının nəticələri hazırda qlobal miqyas alıb.Parnik qazlarının havaya atılması Sakit okean adalarının suya qərq olmasına səbəb olur. Daha bir məqam ondan ibarətdir ki, transmilli şirkətlər qlobal miqyaslı layihələrə sərmayə yatırır və mənfəət əldə etmək üçün atom və su elektrik stansiyaları, böyük bəndlər və digər inkişaf layihələrini həyata keçirirlər.

Asiya və Afrika dövlətlərində insan köçünə gətirib çıxaran bir çox nəhəng miqyaslı inkişaf layihələrinin əksəriyyəti transmilli korporasiyalar tərəfindən maliyyələşdirilmişdir. Şimali Amerika və Avropanın çoxsaylı transmilli şirkətləri beynəlxalq inkişaf və maliyyə təşkilatları - Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və digər maliyyə institutları vasitəsilə Hindistan və Çində böyük bəndlərin tikintisinə və quruculuq layihələrinə cəlb edilmişdir.

Beləliklə, “beynəlxalq münasibətlər və məcburi miqrasiya” mövzusunun tədqiqi, onun qlobal siyasətlə əlaqələrinin dərk edilməsi yalnız məcburi miqrasiya ilə maraqlanan alimlər və siyasətçilər üçün önəmli deyil. Məcburi miqrasiya beynəlxalq siyasətin bütün sahələrinə təsir göstərir. Başqa sözlə, qlobal insan köçü beynəlxalq və

xarici siyasət çərçivəsində bir çox digər məsələləri izah etmək üçün həlledici ola bilər. Münaqişə sülh quruculuğu, dövlət quruculuğu, terrorizmin yayılması, xarici birbaşa investisiyaların mənbələri, transmilli cinayətkarlıq, hətta daxili siyasətdə maraq qruplarının formalaşması və səsvermə prosesləri kimi əhəmiyyətli təsiri olan digər dəyişənlər arasında mühüm bir amil ola bilər.

## 4.5. "Postsoyuq müharibə" dövründə miqrasiyanın iqtisadi xüsusiyyətləri

"Soyuq müharibə" başa çatdıqdan sonra dünya iqtisadiyyatında baş verən əsaslı dəyişikliklərə miqrasiyanın təsiri daha intensiv xarakter almışdır. Bu dövr Sovetlər İttifaqının və kommunist siyasi sisteminin süqut etməsi nəticəsində müstəqillik əldə etmiş və bazar iqtisadiyyatına keçid alan dövlətlərin bir çoxunda sürətli iqtisadi artımın müşahidə edilməsi, yüksək inkişaf səviyyəsinə malik olan dövlətlərin iqtisadi inkişaf səviyyəsinin daha da artması, Avropa daxilində iqtisadi mühitin fərqliliyi nəticəsində Şərqdən Qərbə miqrasiya axınının sürətlənməsi, Cənub-Şərqi Asiya dövlətlərinin iqtisadi yüksəlişi, 2008-ci ildə böyük maliyyə böhranının yaşanması və digər bu kimi hadisələrlə yadda qalmışdır.

Sözsüz ki, dünya iqtisadiyyatında gedən proseslər qlobal miqrasiyanın formalaşmasına əhəmiyyətli dərəcədə təsir etmişdir. XIX əsrin sonlarından XX əsrin ortalarına qədər Amerika qitəsində yerləşən ABŞ, Kanada, Braziliya, Argentina, həmçinin Avstraliya və Yeni Zelandiya kimi "yeni dünya" dövlətlərinin iqtisadi inkişafında miqrantların rolu böyük olmuş və bu dövlətlər o dövrdə daha çox miqrant qəbul edən ölkələr kimi tarixə düşmüşdür. Bu ölkələrə miqrantlar əsasən Avropa, qismən də Asiya dövlətlərindən gəlmişdir.

Lakin sonrakı mərhələdə baş verən proseslər qlobal miqrasiyanın istiqamətinin və coğrafi xarakterinin dəyişməsi ilə nəticələnmişdir. Belə ki, 1990-cı ildən sonra həyat səviyyəsinin yüksəlməsi və yeni iqtisadi imkanların yaranması səbəbindən İrlandiya, İspaniya, İtaliya, Skandinaviya və bəzi Cənub-Şərqi Asiya dövlətləri əhalisinin tarixən daha çox başqa ölkələrə miqrasiya etdiyi dövlətlərdən miqrant qəbul edən ölkələrə çevrilmişdir.[181] Bu ölkələrə miqrasiya əsasən Asiya, Şərqi Avropa dövlətləri və Rusiyada yaşanan iqtisadi böhran və siyasi qeyri-sabitlik nəticəsində baş vermişdir.

Tarixən "yeni dünya" ölkələri geniş təbii ehtiyatlara malik olsalar da, insan kapitalı çatışmazlığı ilə üzbəüz qalmışlar. Bunun nəticəsidir ki, XIX və XX əsrlərdə bu dövlətlər miqrantların qəbul edilməsi üçün geniş imkanlar yaratmış və bu yolla onlar özlərinin insan kapitalını formalaşdıraraq iqtisadi artıma nail olmuşlar. Müasir dövrümüzdə "yeni dünya" dövlətlərinin əksəriyyəti inkişaf etmiş dövlətlərdir və onların istər texnoloji, istərsə də iqtisadi inkişafı məhz başqa dövlətlərdən qəbul edilmiş miqrantlar hesabına baş vermişdir. Lakin "soyuq müharibə" dövrü başa çatdıqdan sonra inkişaf etmiş dövlətlərin miqrasiyaya qarşı münasibəti dəyişməyə başlamışdır. Bunun əsasında isə artıq bu dövlətlərdə miqrantlara əvvəlki qədər tələbatın olmaması və onların istənilən inkişaf səviyyəsinə çatması dayanırdı. Buna görə də bu mərhələdə inkişaf etmiş dövlətlər daha sərt qaydalar tətbiq etməklə miqrasiya prosesinin qarşısını almağa çalışmış və ancaq onlar üçün lazım olan yüksək ixtisaslı kadrların cəlb edilməsinə üstünlük vermişlər.

Ümumiyyətlə, XX əsrin 70-ci illərindən etibarən dünya iqtisadi sisteminin əsasını təşkil etməyə başlayan liberal iqtisadi sistemin tərkib elementləri içərisində miqrasiyaya geniş yer verilmişdir. Buna baxmayaraq, bu sistemin təsiri ilə dünya ölkələri arasında kəskin inkişaf

181 Sara de la R., Albrecht G., Francesc O. Immigration in Europe: Trends, Policies and Empirical Evidence. IZA research network, Discussion Paper No. 7778, Bonn, 2013

fərqlərinin yaranması və dövlətlərdə adam başına düşən ümumi daxili məhsul (ÜDM) göstəricisinin fərqlənməsi təbii olaraq inkişaf etməkdə olan və zəif inkişaf etmiş dövlətlərdən əhalinin inkişaf etmiş dövlətlərə miqrasiya etmək maraqlarının artmasına səbəb olmuşdur. Qlobal miqrasiya axını əsasən inkişaf etmiş dövlətlərə istiqamətlənmişdir. Miqrasiya şərtlərinin sərtləşməsi isə daha yaxşı həyat axtarışında olan miqrantların maraqları ilə toqquşduğundan qeyri-qanuni miqrasiyanın həcmi artmışdır.

> Miqrasiya proseslərinin əsas iqtisadi aspektlərindən biri də qlobal miqrasiya ilə kapital axını arasında olan əlaqədir. Adətən, işsizlik problemi ilə qarşılaşan zəif inkişaf etmiş dövlətlər bu problemi həll etmək üçün yeni iş yerlərinin açılmasına ümid edərək ölkəyə kapital və investisiyalar cəlb etməyə çalışır və ya işçi qüvvəsinin kapitalla zəngin olan digər dövlətlərə miqrasiya etməsinə şərait yaradırlar.

"Postsoyuq müharibə" dövründəki miqrasiya proseslərinin xarakterik cəhətləri artıq XX əsrin 70-ci illərindən etibarən hiss edilməyə başlanmışdır. Bu xüsusiyyətlərin formalaşma tarixinin daha əvvələ gedib çıxması isə onunla əlaqədar idi ki, məhz bu dövrdən etibarən dünya iqtisadiyyatının liberallaşması prosesi və dünya əhalisinin iqtisadi maraqları dəyişməyə başlamışdır. "Soyuq müharibə" dövründən sonra isə bu proses daha da sürətlənmiş və bazar iqtisadiyyatı sistemi dünya ölkələrinin əksəriyyəti tərəfindən qəbul edilmişdir. Keçən əsrin 70-ci illərindən başlayan və miqrasiyanın ən müasir dövrü sayılan bu dövrdə miqrasiya proseslərinin bir neçə əsas xüsusiyyətini qeyd etmək olar.

Birinci xüsusiyyət kimi onu göstərmək olar ki, bu dövrdə miqrasiya ilə bağlı müxtəlif ölkələr tərəfindən qəbul edilən qaydalar XX əsrdə mövcud olmuş qaydalar ilə müqayisədə daha sərt olmuş və miqrasiya axını əsasən Amerika, Avropa, İqtisadi Əməkdaşlıq və İnkişaf

Təşkilatına (İƏİT) üzv digər zəngin dövlətlərə istiqamətlənmişdir.[182] Bu proses müəyyən qədər zəifləsə də, bu gün də davam etməkdədir. Bu xüsusiyyətin formalaşmasına bir çox amillər təsir etmişdir. İlk növbədə belə təəssürat yaranır ki, daha sərt miqrasiya qaydalarının tətbiq edilməsi qeyri-qanuni miqrasiya prosesinin qarşısını almağa istiqamətlənmişdir. İnkişaf etmiş bir çox dövlətlər tərəfindən də sərt qaydaların tətbiq edilməsinin əsas səbəb kimi bu amil göstərilir. Onunla razılaşmaq olar ki, doğrudan da, bu dövrdə dünya ölkələri arasında iqtisadi inkişaf və gəlirlilik baxımından qeyri-bərabərlik daha çox artmış və bu da qanuni miqrasiyanın həcminin artmasına səbəb olmuşdur. Lakin digər tərəfdən qanunsuz miqrasiyanın həcminin artması da məhz bu dövrə təsadüf edir. Belə ki, ən böyük miqrant ölkəsi sayılan ABŞ-da 1980-2004-cü illərdə qeyri-qanuni miqrantların sayı 3 dəfədən çox artaraq 10.3 milyon nəfərə çatmışdır.[183]

Artıq keçən əsrin 90-cı illərinin ortalarında qeyri-qanuni miqrantların sayı qanuni miqrantların sayını ötmüşdür. Buradan o nəticəyə gəlmək olar ki, miqrantlara qarşı müəyyən edilmiş sərt qaydalar özünü doğrultmur və ya bu qanunlarda boşluqlar mövcuddur. Digər səbəb isə qanunsuz miqrasiyanın ölkələr üçün yaratdığı iqtisadi imkanlarla bağlı ola bilər. Qanunsuz miqrantlar onları qəbul edən ölkələrdə ən aşağı əmək haqqı təklif edilən işlərdə işləməyə razıdırlar. Onlar həmin ölkələrin əmək bazarının inkişafına imkan yaradırlar. Digər tərəfdən qanunsuz miqrantları işə qəbul edənlər üçün həm aşağı əmək haqqının verilməsi, həm də işçilərə görə tələb edilən vergilərdən azad olmaq daha çox gəlir əldə etmək imkanı yaradır. Bu baxımdan inkişaf etmiş ölkələrdə, xüsusilə də ABŞ-da işə götürənlər qanunsuz miqrantları qəbul etməkdə maraqlı

182 Andres S. International Migration in the Age of Crisis and Globalization. Cambridge University Press, New-York, 2010

183 Illegal Migrants: Numbers and Characteristics (PDF). /Pew Hispanic Center, 14 May, 2005/ Retrieved - 1 March, 2009.

olurlar. Yüksək inkişaf səviyyəsinə malik olan dövlətlər ən təkmil hüquq sisteminə və hüquq-mühafizə orqanlarına malik olmasına baxmayaraq, qanunsuz miqrasiyanın həcminin artması əslində şübhə doğurur. Buna görə də demək olar ki, az öncə qeyd etdiyimiz qanunsuz miqrasiyanın iqtisadi üstünlüklərini əsas götürərək bir sıra dövlətlər miqrantların qanunsuz olaraq ölkəyə daxil olmasına tam mane olmağa çalışmırlar. Bunu ABŞ-ın timsalında açıq şəkildə hiss etmək mümkündür. Ona görə ki, aşağı gəlirli müxtəlif işlərdə Latın Amerikası ölkələrindən gəlmiş miqrantlar çalışır və onlar ABŞ-ın iqtisadi inkişafının təmin edilməsində birbaşa iştirak etmiş olurlar. Hüquq-mühafizə orqanlarının meksikalı miqrantları görməzdən gəlməsi isə onu deməyə əsas verir ki, məqsəd qanunsuz miqrantların ölkəyə daxil olmasına imkan yaratmaq və onların ucuz əl əməyindən istifadə etməkdir. Miqrantların əsasən zəngin dövlətlərə üz tutmasının əsasında isə, qeyd etdiyimiz kimi, bu dövlətlərdə adam başına düşən gəlirlərin yüksək və iqtisadi imkanların daha geniş olması dayanır. Miqrantlar daha yaxşı həyat səviyyəsi, sosial təhlükəsizlik, pulsuz səhiyyə və daha çox gəlir əldə etmək maraqları əsasında digər ölkələrə miqrasiya etdiyindən İƏİT dövlətləri onların üz tutduğu əsas dövlətlərə çevrilmişdir.

> Bu dövrdə dünya ölkələri arasında iqtisadi inkişaf və gəlirlilik baxımından qeyri-bərabərlik daha çox artmış və bu da qanuni miqrasiyanın həcminin artmasına səbəb olmuşdur. Lakin digər tərəfdən qanunsuz miqrasiyanın həcminin artması da məhz bu dövrə təsadüf edir. Belə ki, ən böyük miqrant ölkəsi sayılan ABŞ-da 1980-2004-cü illərdə qeyri-qanuni miqrantların sayı 3 dəfədən çox artaraq 10.3 milyon nəfərə çatmışdır.

İkinci xarakterik xüsusiyyət bu dövrdə Latın Amerikası

ölkələrindən ABŞ-a miqrasiyanın həcminin kəskin artmasıdır.[184] Bu ölkələr içərisində Meksikanın payı daha çoxdur. Latın Amerikasından ABŞ-a miqrasiyanın həcminin artması bu regionun XIX və XX əsrlərdə ən çox miqrantların gəldiyi Avropa regionunu miqrantların sayına görə üstələməsi ilə nəticələnmişdir. Belə ki, əgər 1820-1920-ci illərdə Amerikaya gələn miqrantların arasında avropalıların payı 88% səviyyəsində idisə, 1971-1998-ci illərdə bu göstərici 14% səviyyəsinə düşmüşdür.[185] Bunun əsas səbəbi isə bu dövrdə Latın Amerikası dövlətlərində iqtisadi inkişafın zəif getməsi nəticəsində işsizliyin artması və əmək haqlarının aşağı olması olmuşdur. Bu regionda baş verən mənfi iqtisadi proseslərin yaranmasına isə keçən əsrin 70-cı illərində neft böhranının baş verməsi, 1982-ci ildə Meksikada yüksək dövlət borcu ilə əlaqədar olaraq böhranın yaşanması, Meksikanın pul vahidinin kəskin ucuzlaşması, Mərkəzi Amerika dövlətlərində isə vətəndaş müharibələrinin və təbii fəlakətlərin baş verməsi təsir etmişdir.[186] Eyni zamanda ABŞ-ın öz daxilində gedən proseslər də burada əhəmiyyətli rola malik olmuşdur.

Ənənəvi olaraq Meksikadan gələn miqrantlar ABŞ-da əsasən sərhəd ştatlarda kənd təsərrüfatı sektorunda fəaliyyət göstərirlər. 1970-ci və 1980-ci illərdən etibarən Amerikada aşağı bacarıq tələb edən işlərdə əmək haqlarının azalması və xidmət sektorunun sürətli inkişafı nəticəsində işçi qüvvəsinin daha çox xidmət və digər daha yuxarı bacarıq tələb edən işlərə yönəlməsi kənd təsərrüfatı kimi aşağı bacarıq tələb edən sahələrdə boşluğun yaranmasına səbəb olmuşdur. Belə olan halda isə bu boşluq məhz Latın Amerikası, xüsusilə də meksikalı miqrantlar vasitəsilə doldurulmuşdur. Nəticədə miqrant

184 Marta T., Susana S. Latin American Immigration to the United States. / 8 Jul 2013 / -*https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC4638184/*

185 OECD (2003), Trends in International Migration, OECD Publishing: Paris

186 Kate B., Challinor A. E., Marc R. R. Mexican and Central American İmmigrants in the United States. Migration Policy İnstitute, Washington DC, 2011

işçi qüvvəsi digər regionlara da yayılmışdır. Bu dəyişikliyin baş verməsinin arxasında isə o dövrdə həyata keçirilmiş islahatlar və iqtisadi sistemin dəyişməsi dayanır. Bu dövrdən etibarən azad bazar münasibətlərinin sürətli inkişafı həm yerli işçilərin daha yaxşı işlərə can atmasına, həm də miqrant işçilərə olan tələbin artmasına səbəb olmuşdur. Bununla yanaşı, o dövrdə bazar münasibətləri nəqliyyat sektorunda qiymətlərin aşağı düşməsinə səbəb olaraq miqrantlar üçün nəqliyyat xərclərinin azalmasına gətirib çıxarmışdır ki, bu da qlobal miqrasiyanın həcminin artmasına şərait yaratmışdır. Bu dövrdə miqrasiya qaydaları da sərtləşdiyindən həmin dövrdən əvvəl daha asanlıqla Amerikaya daxil olmuş Latın Amerikasından olan miqrantlar öz ölkələrinə geri qayıtmaqdansa, Amerikada qalmağa üstünlük vermişdilər. Ona görə ki, qanunsuz formada sərhədi keçərək geri qayıtmağın riskləri təzə qaydaların tətbiqi ilə daha da artmışdır.

Müasir dövrdə miqrasiyanın digər əhəmiyyətli xüsusiyyətlərindən biri də kommunizm sisteminin keçmiş Sovet İttifaqında, Mərkəzi və Cənubi Avropada süquta uğramasıdır. Bu proses miqrasiyanın həcminin artmasına və onun yeni xarakterinin formalaşmasına əsaslı surətdə təsir etmişdir. Kommunist hökumətlərinin dağılması bu ölkələrdən miqrasiyanın libarallaşmasına səbəb olaraq əhalinin daha yaxşı həyat şəraiti əldə etmək üçün digər dövlətlərə miqrasiya etməsinə gətirib çıxarmışdır. Xüsusilə də ilk dövrlərdə Sovet İttifaqına daxil olmuş respublikalarda, Mərkəzi və Cənubi Avropa dövlətlərində iqtisadi böhranlar baş vermişdir. Uzun illər kommunizm sisteminin təsiri altında olan bu ölkələr yeni bazar sisteminə keçidi həyata keçirməkdə çətinlik çəkdiklərindən burada iqtisadi artımın zəifləməsi, əmək haqlarının azalması və işsizliyin artması müşahidə edilmişdir. Belə olan şəraitdə isə əhali Qərbi Avropa dövlətlərinə və ABŞ-a miqrasiya etməyə başlamışdır. Miqrasiya prosesinin sürəti sonrakı

illərdə iqtisadi artımın bərpa edilməsi ilə zəifləsə də, hələ də davam etməkdədir. Buna səbəb isə bu dövlətlərin inkişaf səviyyəsinə görə Qərbi Avropa dövlətlərindən, ABŞ və Kanada kimi ölkələrdən geri qalmasıdır.

XX əsrin 90-cı illərindən sonra Şərqi Avropa dövlətlərindən əhalinin Qərb istiqamətində axını bu dövlətlərin iqtisadiyyatlarına da əhəmiyyətli dərəcədə zərər yetirmişdir. Bu dövrdə miqrasiya prosesləri nəticəsində Şərqi Avropa dövlətləri böyük həcmdə işçi qüvvəsini itirməli olmuşdu. Nümunə üçün deyə bilərik ki, sərhədlər açıldıqdan sonra ilk beş il ərzində, yəni 1995-ci ilə qədər Albaniya iş qabiliyyəti yaşında olan əhalinin 26%-ni, ümumilikdə işçi qüvvəsinin 35%-ni itirmişdir.[187] İlk dövrlərdə yüksək işsizlik şəraitində bir çox Şərqi Avropa dövlətlərində əhalinin belə axını ölkədə qalan işçi qüvvəsinin vəziyyətinin daha yaxşı olmasına, onların iş tapmaq imkanlarının genişlənməsinə səbəb olsa da, uzunmüddətli perspektivdə bu proses həmin ölkələrin iqtisadiyyatlarına mənfi təsir etmişdir. Keçid dövründən sonra bu ölkələrdə işçi qüvvəsinin çatışmazlığı baş vermişdir.

Kommunizmin dağılmasından sonra Avropada baş verən bu miqrasiya proseslərinin diqqət çəkən məqamlarından biri isə ondan ibarətdir ki, Qərbi Avropa ölkələrinə yüksək ixtisaslı əhalinin də böyük həcmdə miqrasiyası baş vermişdir. Bu isə onunla əlaqədar idi ki, Qərbi Avropanın yüksək rəqabətə malik olan əmək bazarında rəqabətə davam gətirmək və iş yerləri tapmaq üçün yüksək savadlılıq səviyyəsi tələb edilirdi. Aşağı ixtisaslı əhalinin miqrasiyası iqtisadiyyata böyük zərər verməsə də, yüksək ixtisaslı kadrların miqrasiyası gələcəkdə bu ölkələrin iqtisadiyyatları üçün böyük zərbə idi. 1994-cü ildə aparılmış araşdırma nəticəsində məlum olmuşdur ki, Bolqarıstanda mövcud

187 Eugenia M. Economic and Social Effects of Migration on Sending Countries: The cases of Albania and Bulgaria. - *https://www.oecd.org/dev/38528396.pdf*

> XX əsrin 90-cı illərindən sonra Şərqi Avropa dövlətlərindən əhalinin Qərb istiqamətində axını bu dövlətlərin iqtisadiyyatlarına da əhəmiyyətli dərəcədə zərər yetirmişdir. Bu dövrdə miqrasiya prosesləri nəticəsində Şərqi Avropa dövlətləri böyük həcmdə işçi qüvvəsini itirməli olmuşdu. Misal üçün, sərhədlər açıldıqdan sonra ilk beş il ərzində, yəni 1995-ci ilə qədər Albaniya iş qabiliyyəti yaşında olan əhalinin 26%-ni, ümumilikdə işçi qüvvəsinin 35%-ni itirmişdir.

olan türk cəmiyyətinin doqquz mindən çox universitet məzunu miqrasiya nəticəsində ölkəni tərk etmişdir.[188] Digər statistika isə onu göstərir ki, 2001-ci ilə qədər Albaniya universitetləri miqrasiya nəticəsində professorların 60%-ə qədərini itirmişdir.[189] Eyni zamanda o dövrdə uzun müddət kommunist rejimi altında bu ölkələrin digər ölkələrdən təcrid edilməsi əhalinin xarici ölkələr ilə əlaqələrinin zəif olmasına gətirib çıxarmışdır ki, bu da yalnız digər ölkələrdə əlaqələri və iş tapmaq imkanları olan əhali qrupunun daha çox miqrasiya etməsinə səbəb olmuşdur.

Bu dövrdə Qərbi Avropa dövlətlərinin miqrantlara qucaq açması və onların asanlıqla ölkəyə daxil olmasına imkan yaratması eyni zamanda bu ölkələrin öz maraqlarına xidmət edirdi. Bu, bir tərəfdən yeni işçi qüvvəsinə olan ehtiyacdan irəli gəlirdisə, digər tərəfdən “beyin axını” ilə əlaqədar idi. Yəni o dövrdə müxtəlif maliyyə institutları vasitəsilə Şərqi Avropa ölkələrinə yardımların ayrılması nəticəsində maliyyə asılılığının yaradılması ilə yanaşı, Qərbi Avropa ölkələri həm də ixtisaslı işçi qüvvəsi baxımından da asılılıq yaratmağa çalışırdılar. Şərqi və Mərkəzi Avropa ölkələri azadlıq əldə etdiyindən və Avropa əhalisinin ümumi sayında böyük

188 Yenə orada
189 Yenə orada

paya sahib olduğundan gələcəkdə bu dövlətlərin inkişaf etməsi Qərbi Avropa ölkələri üçün siyasi təzyiqlər yarada bilərdi. Bu baxımdan kommunizm sistemindən yenicə yaxa qurtarmış Avropa dövlətlərinin gələcək iqtisadi inkişafını idarə etmək və onlara lazımi siyasi təzyiq göstərə bilmək üçün Qərbi Avropa dövlətləri digər vasitələrlə yanaşı, miqrasiyadan da əhəmiyyətli dərəcədə istifadə etmişdir. Şərqi Avropa dövlətləri o dövrdə formalaşmış iqtisadi vəziyyətdə bu siyasətlə barışmalı olurdular. Ona görə ki, bu ölkələrdə yaşanan böhran nəticəsində iqtisadi imkanların zəif olması keçid dövründə yüksək ixtisaslı kadrları qoruyub-saxlamaq üçün şərait yaratmağa imkan vermirdi.

Postsovet ölkələrindən Qərb dövlətlərinə miqrasiyanın həcmi isə Cənubi və Şərqi Avropa ilə müqayisədə əhəmiyyətli dərəcədə az olmuşdur. XX əsrin 90-cı illərinin ilk yarısında daha çox miqrasiya müşahidə edilsə də, əsrin ikinci yarısında miqrasiyanın həcmi daha da azalmışdır. Belə ki, 1995-ci ilə qədər miqrasiyanın illik həcmi 300 min nəfərə yaxın olsa da, sonrakı mərhələdə 200 min nəfərə qədər azalmış və 2002-ci ildə 140 min nəfər təşkil etmişdir.[190] Postsovet məkanında daha çox miqrasiyada payı olan ölkələr Rusiya, Qazaxıstan və Ukrayna olmuşdur. Eyni zamanda onu qeyd etmək yerinə düşər ki, XX əsrin 90-cı illərində postsovet ölkələrindən miqrasiya edən əhalinin tərkibində xarici etnik qrupların nümayəndələri üstünlük təşkil etmişdir. Bu etnik qruplara əsasən yəhudilər və almanlar aid idi. Məhz buna görə də 90-cı illərdə postsovet ölkələrindən miqrantlar əsasən İsrail, Almaniya və ABŞ-a miqrasiya etmişlər[191].

Keçən əsrin sonlarına yaxın isə xarici etnik qrupların miqrasiyada payı azalmış və miqrasiya əsasən postsovet ölkələrinin yerli əhalisini əhatə etmişdir. Bu dövrdə ümumi miqrasiyanın həcminin azalması

190 Valery T., Zhanna Z. and Galina V. Migration in the countries of the former Soviet Union. Global Commission on International Migration, 2005

191 Yenə orada

da bu amillə bağlı olmuşdur. 90-cı illərin əvvəllərində postsovet ölkələrinin vətəndaşları üçün Şərqi Avropaya miqrasiya etmək asan idi və vizasız həyata keçirilirdi. Sonrakı dövrdə isə bu ölkələrin Şengen zonasına daxil olması Şərqi Avropa ölkələrinə miqrasiya zamanı müəyyən maneələrin yaranmasına səbəb olmuşdur. Miqrasiyanın həcminin azalmasına təsir edən amillərdən biri də məhz bu olmuşdur. Eyni zamanda o dövrdə postsovet ölkələrindən qanunsuz miqrasiya da baş vermişdir və onun həcminin qanuni miqrasiyadan az olmadığı təxmin edilir. Hesablamalara görə, 2000-ci ilə qədər postsovet ölkələrindən təxminən 5 milyona yaxın əhali miqrasiya edərək xarici dövlətlərə köçmüşdür.[192] Burada da Şərqi Avropada olduğu kimi "beyin axını" müşahidə edilmiş və postsovet ölkələri yüksək ixtisaslı kadrlarını itirməli olmuşdur. Bu, daha çox Qazaxıstana təsir etmişdir. Belə ki, 90-cı illərin əvvəllərində miqrasiya prosesləri nəticəsində Qazaxıstan orada yaşayan alman əsilli əhalinin 80%-ni itirmişdir.

Göründüyü kimi, Mərkəzi və Şərqi Avropa ölkələri ilə müqayisədə postsovet ölkələrindən miqrasiya edənlərin həcmi az olsa da, burada əsas yeri yüksək ixtisaslı əhali tutmuşdur. Ümumiyyətlə, postsovet ölkələrindən miqrasiyanın həcminin az olması bu ölkələrin Şərqi Avropa ölkələri ilə müqayisədə sosial-iqtisadi və mədəni baxımdan Qərb dövlətlərindən daha uzaq olması və iqtisadi əlaqələrin zəif olması ilə bağlı idi. Buna görə də miqrasiya əsasən yüksək ixtisaslı əhali arasında baş vermişdir. Bu da eyni zamanda onunla əlaqədar idi ki, yalnız bu qrup əhali Qərbdə əmək bazarında rəqabətə davam gətirə bilirdi və onların Qərb dövlətləri ilə əlaqələri daha güclü idi. Miqrasiyanın həcminin az olmasına baxmayaraq, özündə əsasən ixtisaslı kadrları əhatə etməsi postsovet ölkələrinin iqtisadiyyatının gələcək inkişafına, xüsusilə də əmək bazarına mənfi təsir etmişdir.

192 Yenə orada

Kommunist sisteminin dağılması ilə əlaqədar olaraq qaçılmaz olan bu prosesin baş verməsi və Qərb dövlətlərinin bu prosesə maraq göstərməsi postsovet ölkələrinə də təsirsiz ötüşməmişdir. Qərb dövlətləri işçi qüvvəsi baxımından digər ölkələri özündən asılı salmaq siyasətini həyata keçirə bilmişdir.

Miqrasiya proseslərinin əsas iqtisadi aspektlərindən biri də qlobal miqrasiya ilə kapital axını arasında olan əlaqədir. Adətən, işsizlik problemi ilə qarşılaşan zəif inkişaf etmiş dövlətlər bu problemi həll etmək üçün yeni iş yerlərinin açılmasına ümid edərək ölkəyə kapital və investisiyalar cəlb etməyə çalışır və ya işçi qüvvəsinin kapitalla zəngin olan digər dövlətlərə miqrasiya etməsinə şərait yaradır. Lakin ölkəyə kapital axınının işsizliyi azaldaraq miqrasiyanın qarşısını alması fikri heç də həmişə özünü doğrultmur. Məsələn, 1994-cü ildə ABŞ, Kanada və Meksika arasında bağlanan Amerika Azad Ticarət Razılaşmasının (AATR) əsas məqsədi ondan ibarət idi ki, Meksikaya Amerika və Kanadadan kapital axınına imkan yaratmaqla meksikalı miqrantların bu ölkələrə miqrasiyasının qarşısı alınacaqdır.[193] Lakin bu razılaşmanın əldə edilməsinə baxmayaraq, Meksikadan Şimala yönələn miqrasiyanın həcmini azaltmaq mümkün olmadı və əksinə, artmaqda davam etdi. Bu isə onunla əlaqədar idi ki, kapital axınının baş verməsinə baxmayaraq həyat şəraiti, əmək haqqı və iqtisadi inkişaf arasında yüksək fərqlər mövcud idi. Meksikalılar daha yaxşı həyat şəraiti əldə etmək məqsədilə ABŞ və Kanadaya miqrasiya etməkdə davam edirdilər. Razılaşmada ABŞ və Kanadanın da öz məqsədləri var idi. Onlara ucuz işçi qüvvəsi lazım idi. Meksikaya investisiyalar yatırmaqla ABŞ və Kanadanın böyük şirkətləri daha az istehsal xərci vasitəsilə məhsul istehsal etmək niyyətində idilər. Meksikaya yardım etmək məqsədi daşıyan bu razılaşmada əsas məqsəd əslində bu ölkənin işçi qüvvəsinin və təbii ehtiyatlarının istismarı vasitəsilə daha çox gəlir əldə etmək idi.

---

193 Yenə orada

İnkişaf etmiş dövlətlərin bu vasitə ilə digər dövlətlərin işçi qüvvəsini və təbii ehtiyatlarını istifadə etmək təcrübəsini bir çox digər hallarda da müşahidə etmək mümkündür. Nümunə kimi dünyanın ən böyük iqtisadiyyata malik olan iki dövləti arasında həyata keçirilən iqtisadi münasibətləri göstərmək olar. Belə ki, ABŞ şirkətlərinin Çin bazarına daxil olması və buradakı ucuz işçi qüvvəsini istismar etməklə daha çox gəlir əldə etməsini qeyd etmək olar. Belə olan halda inkişaf etmiş dövlətlər işçi qüvvəsini və sərvətlərini istifadə etdikləri dövlətlərdə ekologiyanın korlanmasına, aşağı əmək haqqı ilə işçi qüvvəsinin istismarına, təhlükəli şəraitdə işçilərin işləməsinə göz yumurlar. Buna görə də inkişaf etmiş dövlətlərin digər ölkələrə investisiya yatırmaqda öz məqsədlərinin olması investisiyanı qəbul edən dövlətlərin inkişafına və sosial mühitin yaxşılaşdırılmasına gətirib çıxarmadığından kapital axını miqrasiyanın azalmasına təsir edə bilməmişdir. Kapital axını əsasən ucuz işçi qüvvəsi olan ölkələrdə, miqrantların axını isə daha çox kapitala malik olan inkişaf etmiş ölkələrdə baş verir. Buradan o nəticəyə gələ bilərik ki, inkişaf etmiş dövlətlər miqrasiya prosesini də öz məqsədlərinə uyğun idarə edirlər.

Keçən əsrin 80-ci illərindən sonra baş verən qloballaşma prosesinin malik olduğu və miqrasiyaya təsir edən xüsusiyyətlərdən biri də sosial münasibətlərin xarakterinin dəyişməsi ilə əlaqədardır. Bu dövrdə kapitalizmin inkişafı və kapitalizmə əsaslanan iqtisadi sistemlərin dominantlıq etməsi ölkələr arasında iqtisadi münasibətlərdə insan faktorunun əhəmiyyətinin azalmasına səbəb olmuşdur. Əksinə, kapital faktorunun əhəmiyyəti isə daima artmışdır. Yəni iqtisadi münasibətlər məhsul və xidmətləri istehsal edən insanlar arasındakı münasibətlərə deyil, daha çox məhsul, xidmət və kapitala əsaslanır.[194]

Bunun nəticəsidir ki, qloballaşma əhatəli sistem olaraq həm kapitalı, həm də miqrasiyanı özündə ehtiva etsə də, indiki dövrdə kapitalın

194 Yenə orada

hərəkəti insanların hərəkətindən daha azaddır. Qloballaşmanın yeni mərhələsində ilk mərhələ ilə müqayisədə miqrasiya məsələlərinə daha sərt yanaşılır. Bu isə onunla əlaqədardır ki, qloballaşmanın ilk mərhələlərində inkişaf etmiş dövlətlərin əl əməyinə əsaslanan istehsalın üstünlük təşkil etməsi nəticəsində işçi qüvvəsinə ehtiyac böyük idi və buna görə də onlar miqrasiyanın azad olmasına şərait yaradırdılar. Sonuncu qloballaşma mərhələsində isə texnologiyanın inkişafı və istehsal prosesinin avtomatlaşdırılması əl əməyinə olan ehtiyacı azaltmış, əksinə texnoloji yeniliklərlə uzlaşan və texnologiyanı idarə edə biləcək işçilərə ehtiyac artmışdır. Bunun nəticəsində də miqrantların qəbul edilməsi qaydaları sərtləşdirilmiş və yalnız ixtisaslı işçilərin cəlb edilməsinə üstünlük verilmişdir. Bütün bu proseslər nəticəsində beynəlxalq iqtisadi münasibətlərdə kapitalın, maliyyə vəsaitlərinin əhəmiyyəti artmış, insan faktorunun isə mövqeyi zəifləmişdir.

Göründüyü kimi, tarix boyu inkişaf etmiş dövlətlər miqrasiya proseslərini öz məqsədlərinə uyğun formada idarə etmiş və ondan yararlanmağa çalışmışlar. İqtisadi inkişafın müxtəlif mərhələlərində inkişaf etmiş dövlətlər öz iqtisadi maraqları əsasında miqrasiyadan bir vasitə kimi istifadə edərək, onun xarakterinin formalaşmasına əhəmiyyətli dərəcədə təsir etmişlər. Lakin onu da qeyd etmək lazımdır ki, "postsoyuq müharibə" dövründə miqrasiyanın baş verməsi yalnız inkişaf etmiş dövlətlərin təsiri ilə formalaşmamışdır. Yəni burada miqrantların vətənində iqtisadi böhranların yaşanması, siyasi qeyri-sabitliyin olması da əhəmiyyətli rol oynamışdır. Belə olan halda inkişaf etmiş dövlətlər yaranmış vəziyyətdən səmərəli istifadə edərək ixtisaslı əhalini özünə cəlb etmişdir. Buna digər dövlətlərə yardım etmək kimi don geyindirilsə də, burada əsas məqsəd əmək bazarında olan boşluğu doldurmaq olmuşdur. Bunun nəticəsidir ki, miqrant işçilərə ehtiyac azaldıqdan sonra miqrasiya qaydaları

daha da sərtləşdirilmiş və miqrasiya prosesi insanların bacarıqları və ixtisaslarına uyğun olaraq seçici xarakter almağa başlamışdır. Qloballaşma və iqtisadi inkişaf prosesləri sürətləndikcə dünyada kapitalın və məhsulların azad hərəkət etməsinə daha geniş imkanlar yaradılmış, əksinə insanların hərəkəti isə məhdudlaşdırılmışdır. Kapitalizm münasibətləri fərdlərin və dövlətlərin öz maraqlarına xidmət etməsini təşviq etdiyindən miqrasiya prosesləri də bu qanunauyğunluqdan kənarda qalmamışdır.

# V FƏSİL

## Miqrasiya böhranı
## Qərbdə sosial dövlətin və mədəni siyasətin tənəzzülü kimi

## 5.1. Qərbin "rifah dövləti" və "firavan cəmiyyət" idealları böhran fonunda

*"Miqrantlar Avropada üzv dövlətlərin rifah sisteminin qənimi, dövlət hesabına dolananlar, "havayı yeyənlər" və sosial yük kimi ittiham edilirlər. İctimai rəyi miqrant axınlarının çoxluğu narahat edir. Yoxsulların yalnız sosial sistemə deyil, həm də mənzil və əmək bazarına, təhsil sisteminə ağır yük olduğu, həmçinin iqtisadi rifaha böyük təhlükə yaratdıqlarına dair şüarlar irəli sürülür".*[195]

**Cef Huysmans**

Miqrasiya dalğalarının siyasi-tarixi dinamikası, son zamanlar miqrantların yer dəyişməsinin fərdi deyil, daha çox kütləvi xarakter daşımağa başlaması Qərb cəmiyyəti üçün ciddi sosial-iqtisadi və mədəni-psixoloji nəticələr doğurmuş, bir çox sosial münaqişələrin mənbəyinə çevrilmişdir. Miqrasiya axınlarının kəskin artımı ictimai şüurda gəlmələrə qarşı dözümsüzlük kimi mənfi təzahürlərin ortaya çıxmasına və cəmiyyətlərdə ksenofobiyanın artmasına səbəb olmuşdur.

Tarixdə *siyasi dövlət, milli dövlət* quruluşları ilə yanaşı, ilk dəfə *sosial dövlət* forması da Avropada həyata vəsiqə almışdır. Cəmiyyət mürəkkəb orqanizmdir və burada heç bir proses ani olaraq yetişmir. Avropada *sosial rifah dövləti* və onun perspektivləri ilə bağı müzakirə və mübahisələr XX yüzilliyin sonlarından "Avropa identikliyi" sivilizasion inkişaf yolunun seçimində tam vüsətlə özünü büruzə verdi.

Hələ ötən əsrin sonlarında Aİ-nin simvolu olan konstitusiya

195 Huysmans J. The politics of insecurity: Fear, migration and asylum in the EU. London: Routledge, 2006, p.49

müzakirələri "Avropa identikliyi" mövzusuna gələndə inteqrasiyanın bu qlobal layihəsində nə isə çatışmayan bir həlqənin olduğunu qabarıq şəkildə nümayiş etdirmişdi. Sosial dövlət quruculuğu ideologiyasından çıxış edən inteqrasiyanın başlıca məntiqinə görə, bu, obyektiv bir layihə olacaqdı. Çünki bu layihə insanların hüquq və azadlıqlarını, iqtisadı baxımdan əlverişli üstünlük əldə edilməsini, bütövlükdə Avropa üçün təhlükəsizliyi təmin edir. Lakin layihənin reallaşdırılması başqa mövqelərdən də qiymətləndirilməyə başlandı: Avropanın birləşdirilməsi liberal dəyərlərin itməsinə səbəb olsa, fundamental dəyər və hüquqlar - milli identiklik, sosial, mədəni, şəxsi hüquqlar, büdcə təminatı, milli və mədəni azlıqların hüquqları, immiqrasiya və sığınacaqların verilməsi, vahid vizaların verilməsi və sairə bütün bunlar milli dövlətin və hökumətlərin nəzarətindən kənarda həll olunacaqsa, vəziyyət necə ola bilər?

Fransa və Niderlandda referendumların baş tutmaması "avropessimizm", yaxud "avrooptimizm" və "avrorealizm" gerçəkliyindən çıxış edilməsini gündəmə gətirdi. Sosial dövlət və insan hüquqlarının prioritet hesab edilməsinə rəğmən inteqrasiyaya mane olan destruktiv faktorlardan (mədəni identikliyin itməsi, marginallaşma, immiqrasiya, ucuz işçi qüvvəsinin rəqabəti və s.) səmərəli müdafiənin hüquqi mexanizmlərinin olmaması arasında ziddiyyət kəskin şəkildə dururdu. Avropa sərt seçim qarşısında qalmışdı: sosial dövləti, iqtisadi üstünlüyü saxlamaq, insan hüquqları ideyasına sadiq qalmaq, yoxsa ziddiyyətlərin həlli mexanizmləri tanınana qədər ikili standartların xeyrinə onlardan imtina etmək - bu suallar qızğın müzakirə edilirdi.

Cəmi bir neçə onillik əvvəl gedən bu müzakirələr hazırkı böhran sınağından çıxmaq üçün çarpışan "Avropa kimliyi"ni yada salır. Hələ XX əsrin sonlarından tolerantlıq potensialına görə öndə gedən Niderland, İsveç və Danimarka kimi ölkələrdə radikal siyasətçilərlə bağlı hadisələr, 2006-cı ilin karikatura qalmaqalları əldə olunmuş

dözümlülük səviyyəsinin çox kövrək olduğunu göstərdi.

Millətçiliyin, milli dövlət ideyasının sosial dövlət - vətəndaş cəmiyyəti konsepsiyası ilə ziddiyyətə girməsi reallığa çevrildi. Vahid konstitusiya və inteqrasiya modelinin tənqidi gedişində birliyə mane olan prinsiplər və meyarlar problemin yalnız prosedur məsələsində deyil, hər şeydən əvvəl, mədəni, sosial, tarixi amillərə söykəndiyini göstərdi. Başlanmaqda olan dezinteqrasiya prosesləri - “Breksit” hadisəsi reallığa çevrildi.

Qurulmasına “kömür və polad birliyi” kimi təməl üzərində başlanan Avropanın “sosial və mədəni birlik” binası kimi inşasının sona çatdırılması qeyri-mümkün oldu. Sosial hüquqlar yalnız bəlli vətəndaşların haqqı kimi tanındı.

Bu gün miqrantları qəbul edən cəmiyyət miqrant təbəqəsini sosial sığorta və rifah sisteminə ağır yük olaraq, xüsusilə də sosial yardımlardan, güzəşt və vəsaitlərdən yararlanan bütün problemlərin günahkarı kimi görməyə meyillənib. Nəinki Avropa, həmçinin inkişaf etmiş bütün Qərb ölkələrinin heç biri etnik, dini və irqi azlıqların cəmiyyətə inteqrasiyası probleminin tam həllinə nail ola bilməyib. Hətta “immiqrant milləti” kimi səciyyələndirilən ABŞ da özünün təməli hesab edilən miqrasiya proseslərinə münasibətdə ən kəskin mövqe tutur.

> M.Hansenə görə, “birinci və ikinci nəsil immiqrantların unutmağa çalışdıqlarını üçüncü nəsil tam qüvvəsi ilə xatırlayır və heç bir vəchlə unutmur”. Yəni “nəvə” miqrantlar ölkədəki imkanlarının qeyri-bərabər şərtlərindən narazıdırlar. Vətəndaş kimi doğulduqları, ölkədə yerli əhali ilə eyni hüquqlara malik olduqları halda bunun əksini görürlər. “Ana və baba”larının “əsl fransız” olmaq arzusu onlar üçün artıq önəmli deyil və onların üz döndərdiyi etnik, milli ənənələri daha qabarıq göstərməyə cəhd edirlər.

Fransada 2005-ci ilin noyabr hadisələri, kütləvi iğtişaşlar bu ölkədə tətbiq olunan "unitarist - vətəndaş modeli"nin qüsurlarını aşkara çıxardı. Burada hələ XX əsrin 30-cu illərindən tədqiqatçı alim **Markus Li Hansenın** təhlil etdiyi və "Hansen qanunu" kimi məlum olan qanunauyğunluq özünü kəskin şəkildə büruzə verdi. M.Hansenə görə, "birinci və ikinci nəsil immiqrantların unutmağa çalışdıqlarını üçüncü nəsil tam qüvvəsi ilə xatırlayır və heç bir vəchlə unutmur".[196] Yəni "nəvə" miqrantlar ölkədəki imkanlarının qeyri-bərabər şərtlərindən narazıdırlar. Vətəndaş kimi doğulduqları, ölkədə yerli əhali ilə eyni hüquqlara malik olduqları halda bunun əksini görürlər. "Ana və baba"larının "əsl fransız" olmaq arzusu onlar üçün artıq önəmli deyil və onların üz döndərdiyi etnik, milli ənənələri daha qabarıq göstərməyə cəhd edirlər.

"Eurobarometer"in 2016-cı il üçün olan nəticələrinə görə, Aİ-də insanlar İttifaqın qarşılaşdığı ən böyük problemlər kimi miqrasiya və terrorizmi görürlər. Aİ sakinlərinin demək olar ki, yarısı (48%) əsas problem kimi miqrasiya (köç) axınlarını görür. Terrorizm Aİ sakinlərinin beşdə ikisi (39%) tərəfindən əsas problem kimi qəbul edilir.

Paradoksun digər tərəfi sosial rifah dövlətlərinin miqrant qəbulunda ən arxada qalması faktıdır. Beynəlxalq hüququ müdafiə edən təşkilatlar dünyanın ən zəngin ölkələrini öz rifah və imkanlarına baxmayaraq, çox az qaçqın qəbul etdikləri üçün tənqid edirlər. Belə ki, qlobal ÜDM-də payı cəmi 2%-dən az hissəni təşkil edən 5 ölkə (Türkiyə, İordaniya, Pakistan, Livan və Cənubi Afrika) dünyanın bütün qaçqınlarının yarısını - 50%-ni, dünya iqtisadiyyatının 60%-ni təmsil edən altı böyük iqtisadi güc (ABŞ, Çin, Yaponiya, Almaniya, Fransa və Britaniya) isə qaçqınların cəmi 9 %-ni qəbul etmişdir.

196 Hansen M.L. The problem of Third Generation İmmigrant. Rock Island, Ill., Augustana Historical Society, 1938, p.71

Buna görə də qaçqınların əksəriyyəti (86%) dünyanın ən yoxsul ölkələrində yaşayır. 2015-ci ilin sonunda ən çox qaçqına ev sahibliyi edən İordaniya (2,8 milyon) və Türkiyə (2,7 milyon) idi. İlk olaraq qaçqın qəbul edən Pakistan indi üçüncü sırada (1,6 milyon) yer alır. Bu ölkələrdə qaçqınların cəmlənməsinin səbəbi münaqişə vəziyyətində insanların, adətən, qonşu dövlətə, ən yaxın təhlükəsiz hesab etdikləri əraziyə qaçmasıdır. Əsas mübahisəli zonalar hazırda inkişaf etməkdə olan ölkələrdə yerləşir və bu səbəbdən ən çox qaçqın sayı bu ölkələrdədir.

Beləliklə, qabaqcıl ölkələrin həyat səviyyəsi, elm və texnika nə qədər güclü inkişaf etsə də, bütün bunlar cəmiyyətdəki qeyri-sabitliyi şərtləndirən sosial və humanitar problemləri həll etmək iqtidarında deyil. Bunu Qərb dövlətlərinin sosial-mədəni siyasətinin iflası, yaxud ümumiyyətlə siyasətlərinin olmaması adlandırmaq da çətindir. Tədqiqatçı alim **Seyla Benhabibə** görə, cəmiyyətdə sosial həmrəylik mədəni kommunikasiya, tolerantlıq birgəyaşam tərzini müəyyən edir. Sosial həmrəylik və sosial siyasət başqaları ilə güc, zor dili ilə deyil, mədəniyyətin və hüquqların dili ilə danışmaq istəyidir. İnsanlar yalnız potensial tərəfdaş, müttəfiq olduqlarını hiss və dərk etdikləri halda anlaşmaya nail ola bilirlər. Buna görə də "interaktiv universializm" ideyası dünya siyasətində qəbul edilməlidir.[197]

"Eurobarometer"in 2016-cı il üçün olan nəticələrinə görə, Aİ-də insanlar İttifaqın qarşılaşdığı ən böyük problemlər kimi miqrasiya və terrorizmi görürlər. Aİ sakinlərinin demək olar ki, yarısı (48%) əsas problem kimi miqrasiya (köç) axınlarını görür. Terrorizm Aİ sakinlərinin beşdə ikisi (39%) tərəfindən əsas problem kimi qəbul edilir.

Beləliklə, miqrasiya ilə bağlı məsələlər əvvəlki illərdə iqtisadi problemlər və əmək bazarı ilə bağlı narahatlıqlardan önə keçib.

197 Бенхабиб С. Притязание культуры. Равенство и разнообразие в глобальную эру. /Пер. с англ, под ред. В.Л.Иноземцева. М.: Логос, 2003, с.39

**K.Kallas:** "Açıq cəmiyyətin əhəmiyyətli göstəricilərindən biri onun sosial siyasəti, beynəlmiləlçiliyi, insanlar, məhsullar, pul və ideyaların mobilliyidır. Miqrasiya kartının iki üzü var: qısamüddətli perspektivdə bu, Qərb cəmiyyətinin qarşısında duran qocalma ilə bağlı demoqrafik və iqtisadi məsələlərin aradan qaldırılmasına kömək edir, uzunmüddətli perspektivdə isə sosial-mədəni həmrəylik və yoxsulluqla bağlı yeni çətinliklər yaradır. Miqrasiyanın təbiəti dəyişsə də, səbəbləri və formaları hər zamankından daha fərqli olsa da, onun ən mühüm hərəkətverici qüvvəsi eynidir - daha yaxşı bir həyat üçün axtarışdır".

Antiimmiqrant mövqedə duranlar, o cümlədən beynəlxalq himayə edilən (sosial yardım alan) benefisiarlar da daxil olmaqla, immiqrantlarla əlaqəli problemlərin həlli ilə bağlı Aİ vətəndaşlarının narahatlıqlarını bölüşməməsi və ictimaiyyətin kifayət qədər məlumatlandırılmaması kimi şüarlar da səslənir. Cəmiyyət tərəfindən immiqrantların, o cümlədən onları himayə edən beynəlxalq qurumların təhdid kimi qəbul edilməsi ilk növbədə müxtəlif mədəni mənsubiyyətə malik qaçqınların sayının gözlənilməz sürətlə artması, həmçinin Aİ və üzv dövlətlərin liderlərinin immiqrantlarla bağlı problemlərin həllində seçdiyi bacarıqsız, bəzən cəfəng hesab etdikləri siyasətlə bağlıdır.

Tədqiqatçılar immiqrasiya ilə bağlı olan əsas problemlərə qaçqınların böyük axını da daxil olmaqla, dövlət sosial sığorta sistemlərinin üzərinə düşən, potensial olaraq daim artan yükü, bunun iqtisadiyyat və əmək bazarına mənfi təsiri, siyasi sabitliyə və ictimai asayişə təhdidləri, həmçinin terrorizm təhlükəsi və ekstremizmin inkişafını aid edirlər.

Miqrantlarla bağlı dövlətin sosial-mədəni siyasətinin dəyişdirilməsi tələbləri sadə olmayıb, siyasi-ideoloji proseslərin aparıcı meylinə,

fobiyalara və ifrat mövqelərin dəstəklənməsinə gətirib çıxarır. Bu mövqedə duran insanlarla hesablaşmaq Qərb iqtidarlarının başlıca vəzifəsinə çevrilir. Bunun üçün isə böhranın gerçək səbəblərinin gizlədilməsinə xidmət edən elmi baxışlar təqdim edilir, dəstəklənir və tirajlanır.

"Açıq cəmiyyətin əhəmiyyətli göstəricilərindən biri onun sosial siyasəti, beynəlmiləlçiliyi, insanlar, məhsullar, pul və ideyaların mobilliyidir. Miqrasiya kartının iki üzü var: qısamüddətli perspektivdə bu, Qərb cəmiyyətinin qarşısında duran qocalma ilə bağlı demoqrafik və iqtisadi məsələlərin aradan qaldırılmasına kömək edir, uzunmüddətli perspektivdə isə sosial-mədəni həmrəylik və yoxsulluqla bağlı yeni çətinliklər yaradır. Miqrasiyanın təbiəti dəyişsə də, səbəbləri və formaları hər zamankından daha fərqli olsa da, onun ən mühüm hərəkətverici qüvvəsi eynidir: daha yaxşı bir həyat üçün axtarışdır".[198]

Məlum olduğu kimi, Qərbdə yaranan fundamental insan hüquqlarının üç əsas qolu var. İnsanlar **seçmə hüququndan** başqa iki əsas hüquq kateqoriyasına sahibdirlər: insanların rifahına bağlı olan **sosial hüquqlar** (insanın sağlamlıq, təhsil və vətəndaş hüquqları da daxil olmaqla), **şəxsi azadlıqlar** və **vətəndaş hüquqları**. Bu məntiqdən çıxış edərək demək olar ki, miqrantların hər üç sahədə hüquqlarından istifadə ilə bağlı hər gün yeni sərt məhdudiyyətlər əlavə edilir. Bu, eynilə sosial hüquqlara da aiddir.

Miqrasiya prosesləri nəticəsində artıq konkret bir ölkənin vətəndaşı eyni - ümumi bir millət və ya xalq kimi mövcud deyil. İkinci tendensiya vətəndaşlıqla müxtəlif hüquqların kəsilməsinə aiddir. İstanbulda anadan olmuş amerikalı filosof **S.Benhabib** hesab edir ki, inkişaf etmiş demokratik ölkələrdə insanın sosial və mülki hüquqları şəxsin

---

198 Kallas K. Citizenship and political rights during an era of migration. // Integration processes and policies in Europe. Contexts, levels and actors. Springer, p. 31–55.

daimi yaşayış yerinə deyil, vətəndaşlığına aid olmasıdır. Nəticədə, vətəndaşlıq və millət-dövlətlə əlaqədar mövcud olan yeni vəziyyətlər formalaşmışdır.

"Miqrantlar naməlum landşaftda köhnə xəritələrin köməyi ilə dolaşan, başqa bir zamandan gələn və fərqli təsəvvürlər bazasına malik olan səyahətçilərə bənzəyirlər".[199]

İnkişaf etmiş demokratik ölkələrin əksəriyyəti hazırda əhalinin çox hissəsini digər ölkələrin vətəndaşları olan, lakin hüquqlarının müəyyənləşdirilməsi vətəndaşlar tərəfindən əhəmiyyətli dərəcədə fərqlənməyən bir vəziyyətlə üzləşib. Artıq daha çox insan özünün vətəndaşlıq hüququ olmayan ölkələrdə yaşayır.

Səsvermə hüququnun məntiqinə riayət edilərsə, vətəndaşların özlərinin həyat tərzi ilə bağlı məsələləri həll etmək hüququ vardır, lakin xaricdə daimi yaşayan vətəndaşların səs vermək hüququ və ölkədə daimi yaşayan, heç şübhəsiz, vətəndaşlığı olmayan insanlar üçün səs vermək hüququ görməzdən gəlinir, gözaltına alınmır. Bu, çoxsaylı suallar yaradır.

Eyni şəkildə, miqrantların tərk edib gəldikləri mənşə ölkələrinə və məskunlaşdıqları yaşayış ölkələrinə dair vətəndaşlıq öhdəlikləri ilə bağlı suallar yaranır. Uzunmüddətli oturuma malik qeyri-vətəndaşlar başqaları ilə bərabər bütün öhdəlikləri yerinə yetirmir (məsələn, ölkənin milli müdafiəsində iştiraketmə öhdəliyi), halbuki ölkədə daimi yaşayan vətəndaşlar dövlət qarşısında bu öhdəliyini yerinə yetirirlər. Qeyd edilən bu və ya digər vəziyyətlər demokratiyanın bərqərar olması üçün zəruri olan normativ mexanizmlərin işləkliyinə dair suallar yaradır.

Beləliklə, əgər bir dövlət müxtəlif vətəndaşlıq hüququ və formaları olan çoxsaylı sakinlərə malikdirsə, vətəndaşlıq artıq əhalini birləşdirən,

199 Benhabib S. Borders, Boundaries, and Citizenship. // Political Science and Politics, Vol. 38, No. 4, Oct., 2005, pp. 673-677

ümumi kimliyin təməlini təşkil edən hərtərəfli bir mexanizm kimi fəaliyyət göstərmir. Bu, həmçinin dövlətin bütün sakinlərinin bərabər hüquq və öhdəliklərə malik olmasının göstəricisi hesab olunmur.

> BVF-nin apardığı araşdırmaya əsasən, miqrantlara görə genişmiqyaslı beynəlxalq yardımın alınması Avropanın iqtisadi artımına mane olmur, əksinə ona dəstək verir. Lakin bu müsbət dinamikanın təsiri qısa və daha uzun müddətdə dəyişə bilər. Qısa müddət üçün qaçqınların immiqrasiyası orta hesabla ÜDM-i artırır.

Bundan əlavə, müxtəlif hüquq kateqoriyaları da vətəndaşlıq statusundan ayrılmışdır. Artıq siyasi, sosial və mülki hüquqlar fərqli statusa malik qrupların/icmaların üzvləri arasında bir-birindən fərqlənir. Halbuki sosial və vətəndaş hüquqlarına əlavə olaraq daimi sakinlərə siyasi hüquqlar da verilməlidir. Alternativ olaraq, **"ius soli" prinsipi**[200] vətəndaşlıq qanununa və ölkədə doğulmağa əsaslanan ikili vətəndaşlıq hüququna icazə verməlidir. Bu siyasi seçim, əlbəttə ki, Avropanın mövcud vətəndaşlıq siyasətində əsaslı düzəlişlər edilməsini nəzərdə tutur. Doğrudur, bir sıra Avropa ölkələri vətəndaşlıq aktlarında "ius soli" prinsipini birləşdirmiş və ya qeyri-vətəndaş sakinlərinə siyasi hüquqların verilməsini genişləndirsə də (məsələn, Almaniya və İsveç), əksər koalisiya hökumətləri bu günə qədər mövcud olan təməl vətəndaşlıq prinsiplərinin dəyişdirilməyəcəyində israrlıdır.

---

200 Qeyd edək ki, dünyada vətəndaşlığın əldə olunmasının 2 yolu geniş yayılmışdır: 1) ***ius sanquini*** - qan hüququ; 2) ***ius soli*** **-** torpaq hüququ. Avropa dövlətlərində *ius sanquini* əsas götürülür. Yəni burada vətəndaşlıq şəxsin mənşəyi ilə əlaqələndirilir. Şəxs hansı dövlətin vətəndaşından doğulubsa, həmin dövlətin vətəndaşı sayılır. Bu prinsip Roma hüququndan qalıb. Belə ki, Qədim Romada vətəndaşlardan törənən uşaqlar tamhüquqlu vətəndaş sayılırdılar. Hal–hazırda Avropa dövlətləri ilə yanaşı, bəzi Asiya dövlətlərində də bu prinsipdən istifadə olunur. Azərbaycan Respublikası Konstitusiyasının 52-ci maddəsinə görə, Azərbaycan Respublikasının vətəndaşlarından doğulmuş şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Deməli, bizdə də *ius sanquini* əsas götürülür. Lakin Konstitusiya həmçinin *ius solini* vətəndaşlığın əldə olunması üsulu kimi tanıyır. Latın Amerikası, Kanada, ABŞ və s. ölkələrdə isə ius soli əsas prinsipdir.

> Avropa Sosial Araşdırmalar Mərkəzinin apardığı rəy sorğusunun nəticələrinə əsasən, Aİ-nin yoxsul ölkələrdən gələn heç bir immiqrantı qəbul etməyəcəyini düşünən insanların sayı son illərdə getdikcə artmaqdadır.

XX əsrin tendensiyaları vətəndaşlığın müxtəlif elementlərinin - ümumi milli kimliyin siyasi, ictimai və kollektiv hüquqları - habelə onları birləşdirən konsepsiyanın bir-birindən ayrılmasına səbəb olmuşdur. Bu problemləri tədqiq edən tanınmış alim S.Benhabibə görə, "miqrantlar naməlum landşaftda köhnə xəritələrin köməyi ilə dolaşan, başqa bir zamandan gələn və fərqli təsəvvürlər bazasına malik olan səyahətçilərə bənzəyirlər. İnsanların bir ölkədə eyni milli kimliyi bölüşmədən əhalinin qalan hissəsi ilə eyni siyasi hüquqlara malik ola bilməməsi halları çoxalmışdır. Eyni zamanda, insanların siyasi hüquqlara və səs vermək hüququna malik olmadan, sosial və vətəndaş hüquqlarına malik ola bilməsi də məqbul hesab edilmişdir. Birinci meyil milli kimliyin vətəndaşlıqdan ayrılmasını şərtləndirmişdir ki, bunu həm də demokratik idarəçilik sistemi və milli icma funksiyalarının bir-birindən ayrılması kimi başa düşmək olar". [201]

Qaçqınların sosial sistemə yük olması barədə arqumentlər birtərəfli baxışlardır. Belə ki, bu qənaət yalnız əmək qabiliyyəti olmayan, ünvanlı yardım alan miqrant kateqoriyalarına tətbiq olunduqda düzgün ola bilər. Lakin məlum olduğu kimi, miqrantların cüzi bir qismi əmək qabiliyyəti olmayanlardır.

Beynəlxalq konvensiyaların tələləblərinə görə, himayə edilən qaçqınların, yardımdan bəhrələnən immiqrantların gəldikləri dövlətin iqtisadiyyatına necə təsir göstərməsini qiymətləndirmək çətindir. Çünki tədqiqatlarda əsasən yalnız beynəlxalq yardım alan miqrantlar

201 Benhabib S. Borders, Boundaries, and Citizenship. // Political Science and Politics, Vol. 38, No. 4, Oct., 2005, pp. 673-677

deyil, bütövlükdə bütün miqrant axınları nəzərdən keçirilir.

Tədqiqatçıların araşdırmalarına görə, beynəlxalq yardımın ünvanlandığı miqrantların böyük hissə təşkil etdiyi ölkələrdə onların dövlət gəlirlərinə olan töhfəsinin əmək miqrasiyasının üstünlük təşkil etdiyi ölkələrə nisbətən daha az olduğunu demək olar. [202]

Beynəlxalq Valyuta Fondunun (BVF) apardığı araşdırmaya əsasən, miqrantlara görə genişmiqyaslı beynəlxalq yardımın alınması Avropanın iqtisadi artımına mane olmur, əksinə ona dəstək verir. Lakin bu müsbət dinamikanın təsiri qısa və daha uzun müddətdə dəyişə bilər. Qısa müddət üçün qaçqınların immiqrasiyası (gəlməsi) orta hesabla ÜDM-i artırır. Bu, başlıca olaraq ona görə baş verir ki, dövlətin yardım alanlara sərf etdiyi vəsait artdıqca, istehlakçıların və işçi qüvvəsinin sayı da artır. Məsələn, Almaniya hökuməti qaçqınların qəbul edilməsinə 20 milyard avro vəsait ayırmışdır. Bu da daxili bazarda əlavə tələb və təklif (məsələn, mənzil bazarı və s.) yaratmış və 2016-cı ildə ölkənin iqtisadi artımını 0,3% yüksəltmişdir. Aİ-də bütövlükdə beynəlxalq yardımdan yaranan ÜDM-in artımı 0,13% səviyyəsində qiymətləndirilir. BVF-nin məlumatına görə, qaçqınların gəlməsinin daha uzunmüddətli təsiri, müsbət dinamikası yardım alanların cəmiyyətə necə inteqrasiya olunması ilə bağlıdır. BVF və İƏİT-in təhlilləri ilə bağlı o da qeyd olunmalıdır ki, immiqrasiyanın iqtisadi artıma qısamüddətli canlandırıcı təsiri ÜDM-in artım göstəricilərinə əsasən müəyyən edilir.

Mövcud təcrübə göstərir ki, yardımdan bəhrələnən şəxslər məşğulluq bazarına inteqrasiyaya meyl edirlər və buna görə də onların dövlət gəlirlərinə olan töhfəsi Aİ-yə iş tapmaq üçün gələn immiqrantlardan daha azdır.[203] Bununla belə, onların iştirak dərəcəsi

202 Liebig T., Mo J. The fiscal impact of immigration in OECD countries. OECD International Migration Outlook 2013. Paris: OECD: 2013, pp. 125-189. - *http://dx.doi.org/10.1787/migr_outlook-2013-en*
203 Yenə orada

aşağı templərlə olsa da artmaqdadır. Çünki onlar rəsmi dövlət dilində danışa bilmir və əksər hallarda daha aşağı təhsil səviyyəsinə malikdirlər. Digər məqam ondan ibarətdir ki, qaçqın miqrasiyası əksər hallarda məcburi-zorakı amillərdən qaynaqlandığı üçün beynəlxalq yardım alanların çoxu keçmiş travmatik təcrübədən irəli gələn psixoloji xəstəliklərdən əziyyət çəkənlərdir. Onlar yardımı əlilliyə, yaxud əmək qabiliyyətini itirdiyinə görə alırlar.[204]

Digər maraqlı məqam odur ki, sosial yardım alanların miqrant kateqoriyası üçün onları qəbul edən ölkənin əmək bazarına daxil olmaq çətindir və onların işləməyə ehtimal etdikləri iş yerləri artıq digər immiqrantlar tərəfindən tutulmuşdur.

**Jak Şirak:** "Sosial rifah sahəsindəki yardımlar ilə bağlı vəziyyət artmaqda olan miqrant axınına qarşı tətbiq etdiyimiz maneələri yıxıb ata bilər...".

Tədqiqatlar göstərir ki, qaçqınların bütün immiqrantların əhəmiyyətli hissəsini təşkil edən ölkələrdə (məsələn, Skandinaviya ölkələri) aldığı uzunmüddətli sosial yardım müəyyən dərəcədə əmək qüvvəsi kimi öz töhfəsini verir. Bununla belə, miqrantlara bəzilərinin hesab etdiyi kimi "səxavətli" sosial xidmətlərin göstərilməsi gəlmələrin təsirini mənfi hesab edən yerli əhali arasında narazılığa səbəb olur. Məsələn, Belçika, İtaliya, Fransa, İsveç, Almaniya, Macarıstan və Birləşmiş Krallıqda əhalinin əksəriyyəti immiqrasiya siyasətinin sosial xidmətlərin bölüşdürülməsinə dərin təzyiq göstərdiyini və köçkünlərin yerlilərin məşğulluq imkanlarını daha çətin hala gətirdiklərini düşünür.

Avropa Sosial Araşdırmalar Mərkəzinin apardığı rəy sorğusunun nəticələrinə əsasən, Aİ-nin yoxsul ölkələrdən gələn heç bir immiqrantı

204 Steel Z., Chey T., Silove D., Marnane C., Bryant R.A., van Ommeren, M. Association of torture and other potentially traumatic events with mental health outcomes among populations exposed to mass conflict and displacement. // Journal of the American Medical Association, 302 (5):2009, pp. 537-549

qəbul etməyəcəyini düşünən insanların sayı son illərdə getdikcə çoxalmaqdadır.

Avropa vətəndaşları immiqrasiyanı getdikcə partlayış həddinə çata biləcək faktiki təhlükə, məsələn, iş yerləri və sosial güzəştlər, müavinət və vəsaitlər üçün böyük rəqabət, cinayətkarlıq səviyyəsinin artması, həmçinin liberal Avropa dəyərlərinə, dünyagörüşünə və identikliyə başlıca təhlükə hesab edirlər: "Əsas qorxu aşağı ixtisaslı, yaxud heç bir təhsili və qabiliyyəti olmayan şəxslərin yardım almağa ümidlənib gəlməsi, yerli ölkədə xüsusilə işsiz və ya aşağı ödənişli işlərdə çalışan vətəndaşlara daha mənfi təsir göstərə bilməsi ilə bağlıdır. Ünvanlı sosial yardım və müavinət alan yeni miqrantlar, əmək və məşğulluq bazarında iştirak edərək yerli əhali və köhnə immiqrantlarla rəqabət aparır. İsveçdə aparılan tədqiqatlar göstərir ki, 1999-2007-ci illərdə yardım alan miqrantların axını yerli əhalinin əmək bazarında mövqeyinə və ya məşğulluğuna heç bir mənfi təsir etməyib. Əksinə, onların mövcudluğu, özlərindən daha əvvəl köçüb gələn miqrantların imkanlarını pisləşdirib".[205] Belə ki, Aİ-də və üzv dövlətlərdə yardım alan şəxslər kateqoriyası əsasən aşağı səviyyəli, az maaşlı işlərə malikdirlər və onların təhsil səviyyələri də çox aşağıdır.

Beləliklə, beynəlxalq yardım alanların sayı, ölkənin iqtisadiyyatı və sosial sisteminə mənfi təsirləri əhəmiyyətsiz dərəcədədir. Dövlət böyük həcmdə subsidiyalar ayırır. Buna baxmayaraq, işçi qüvvəsinin qıtlığını nəzərə alaraq, mümkün sosial gərginliyi aradan qaldırmaq üçün onların əmək bazarına daxil olmasını dəstəkləmək vacibdir. Hazırda köçürülmüş və ya köçürülən insanların cəmiyyətə, mühitə nə dərəcədə uyğunlaşması Aİ-də əhalinin qaçqın və immiqrantlara münasibətinə əhəmiyyətli dərəcədə təsir göstərəcəkdir.

205 Ruist J. The labor market impact of refugee immigration in Sweden 1999–2007. SULCIS. Working Paper, 1/13.2013

## 5.2. Sosial rifah dövlətindən "sosial rifah şovinizminə"

Son illərdə Avropada miqrantlar əleyhinə formalaşan münasibətlərdə ksenofobiya təmayülləri görünməmiş həddə çatmışdır. Bu meyillər özünü ən çox "sosial rifah şovinizmi" adlanan fenomen vasitəsilə ifadə edir. Avropada sosial rifah dövləti və miqrasiya arasında yaranmış dərin ziddiyyətlərin "sosial rifah şovinizmi" fenomeni əsasında izahı geniş müzakirə edilir.

Bu vəziyyət xüsusilə miqrant sayının nisbətən çox olduğu ölkələrdə iqtisadiyyatın tənəzzülə doğru getməsi ilə daha aydın görünür. Çünki iqtisadiyyatın geriyə doğru getməsinin mənfi təsirlərinə məruz qalanlar miqrantları sosial vəziyyətlərini pisləşdirməkdə, rifah şəraitini əllərindən almaqda günahlandırırlar. Başqa sözlə, sosial rifah şovinistləri sosial rifah dövləti proqramı çərçivəsində miqrantlara edilən sosial yardımlara qarşı çıxırlar. Onların məntiqinə görə, Avropada sosial rifah dövlətinin təqdim etdiyi xidmətlər hər gün daha çox miqrantın Avropaya üz tutmasına səbəb olur və beləliklə də, sonsuz tsiklik vəziyyət yaranır.[206] Çünki dövlətlər arasında sosial rifah sahəsindəki fərqlər miqrasiyanın ən mühüm səbəblərindən biridir. Yəni bir tərəfdən bəzi Avropa xalqları miqrantların sosial rifah xidmətlərindən faydalanmasına qarşı çıxış edərək sosial rifah şovinizminə yol verir, digər tərəfdən də Avropadakı sosial rifah xidmətlərindən faydalanmaq istəyənlərin sayı hər gün artır. Belçikanın Lövven Katolik Universitetinin sosial siyasət üzrə professoru **Vim van Oorsçot** *(Wim van Oorschot)* və Almaniyanın Bamberq Universitetininsosiologiya üzrə professoru **Vilfred Uunk** *(Wilfred Uunk)* bu vəziyyəti "sosial rifah - maqnit

206 Van Oorschot W. and Uunk W. Welfare Spending and the Public`s Concern for Immigrants: Multilevel Evidence for Eighteen European Countries. // Comparative Politics, 40(1), 2007, p.63

təsiri" adlandırır.[207] Belə ki, bu vəziyyətə diqqəti cəlb etmək üçün Fransanın keçmiş Prezidenti **Jak Şirak** 1990-cı ildə demişdir: "Sosial rifah sahəsindəki yardımlar ilə bağlı vəziyyət artmaqda olan miqrant axınına qarşı tətbiq etdiyimiz maneələri yıxıb ata bilər...".[208]

Qeyd edilən tendensiya Avropada hələ 1973-cü ildən sonra başlanğıcını götürmüş, son illərdə isə xeyli artmışdır. 1973-cü ildə bir sıra Qərbi Avropa ölkələri müharibədən sonra qəbul etdikləri qonaq işçiləri işlə təmin etmək prosesini neft böhranı səbəbindən dayandırmışdır.[209] Lakin qonaq işçilərin qəbulu dayandırıldığı zaman həmin ölkələrdə onsuz da çox sayda miqrant yaşadığından və miqrasiya prosesi ailələrin birləşməsi və sistemsiz şəkildə digər yollarla davam etdiyindən iqtisadi böhran yerli əhali və miqrantlar arasındakı gərginliyi üzə çıxarmışdır. Çünki iqtisadiyyatın zəifləməsi ilə birlikdə sosial rifah xidmətlərinə olan ehtiyac da artmış və miqrantların sosial rifah xidmətlərindən faydalanması yerli əhali tərəfindən müsbət qarşılanmamışdır. Başqa sözlə, yerli əhali miqrantlara qarşı sosial rifah şovinizmi yolunu tutmuşdur. Sosial rifah şovinizminə oxşar davranışlar xüsusilə sonrakı iqtisadi böhran dövrlərində artmaqda davam etmişdir.

1973-cü ilin yadda qalan digər mühüm hadisəsi isə Avropa Komissiyasının Aİ ölkələrində yaşayan miqrantlar üçün yeni ictimai aksiya proqramını oktyabr ayında ilk dəfə təklif etməsidir.[210] Bu proqram ilə miqrantların yaşayış və iş şəraitinin yaxşılaşdırılmasına, miqrant işçilərin inteqrasiyası və üzv dövlətlərin miqrasiya

207 Yenə orada, s.67

208 Guiraudon V. The Marshallian Triptych Reordered, Michael Bommes ve Andrew Geddes (der.) in: Immigration and Welfare: Challenging the Borders of the Welfare State. Londra and New York: Routledge, 2000, p.75

209 Ugur M. Freedom of Movement vs. Exclusion: A Reinterpretation of the "Insider" – "Outsider" Divide in the European Union // International Migration Reviews, 29(4), 1995, p.980

210 Yenə orada

siyasətlərində koordinasiyanın təmin olunmasına çağırış edilir.[211] Proqramın məzmunu və qonaq işçilərin qəbulunun dayandırılması Avropada miqrasiyanın necə bir fenomenə çevrildiyini göstərir. İqtisadi şərait həm qonaq işçi qəbuluna son qoyulmasını zəruri etmiş, həm də hazırda Qərbi Avropada yaşayan çox sayda miqrantın inteqrasiyasını ayrıca bir problem kimi üzə çıxarmışdır. Lakin Aİ-nin məsələyə müdaxilə etməyə başlaması ilə miqrasiya məsələsində daxili siyasi narahatlıqlar səbəbindən şovinist hərəkətlərə təslim olan hökumətlərin uğursuzluğunun aradan qaldırılmasının istənildiyi düşünülür.

1970-ci illərdən sonra həm ayrılıqda götürülmüş Qərbi Avropa dövlətlərinin, həm də Aİ-nin gündəlikdə duran miqrasiya probleminin əsasını miqrasiyanı məhdudlaşdırmaq təşkil etmişdir.[212]

Qeyd edildiyi kimi, miqrasiyanı məhdudlaşdırmaqla yanaşı, Avropa cəmiyyətində olduqca artan və narahatedici səviyyəyə çatan miqrant əleyhdarlığı və ksenofobiya təzahürlərini çərçivəyə salmaq və aradan qaldırmaq da Aİ-nin miqrasiya prosesi ilə bağlı gündəliyində duran ikinci mühüm məsələni təşkil edir. Bu çərçivədə institusional baxımdan 1997-ci ildə İrqçilik, Ksenofobiya və Antisemitizmə Nəzarət Mərkəzi yaradılmışdır. Bununla yanaşı, 1997-ci il tarixli Amsterdam sazişinin 13-cü maddəsinə uyğun olaraq irq, etnik mənşə, din, millət və s. sahələrdə fundamental diskriminasiya qadağan edilmişdir. Həmçinin 1997-ci il simvolik olaraq "İrqçiliyə qarşı Aİ ili" elan edilmişdir.[213] Qanunvericilik aktı baxımından isə 2000-ci ildə

---

211 European Commission (1973), Social Action Program, COM (73) 1600 final, [Online] -*http://aei.pitt.edu/1253/1/social_action_program_COM_73_1600.pdf,* pp.18-36; Ugur M. "Freedom of Movement vs. Exclusion: A Reinterpretation of the "Insider" – "Outsider" Divide in the European Union" // International Migration Reviews, 29(4), 1995, p.981

212 Schain M. The State Strikes Back: Immigration Policy in the European Union // The European Journal of International Law, 20(1), 2009, p. 98

213 Migration News (1996), EU: 1997, the Year Against Racism [Online, Haziran 1996] *http://migration.ucdavis.edu/mn/comments.php?id=968_0_4_0*

İrqi Bərabərlik Direktivi dərc edilmişdir. Avropa Parlamenti də 2000-ci ildə dərc etdirdiyi hesabatda Avropada artmaqda olan irqçilik və ksenofobiyaya diqqət yetirmiş və üzv dövlətləri bu iki təmayülə qarşı mübarizə aparmağa dəvət etmişdir.[214]

Gerçəklikdə sağ təmayülün yenidən güclənməsi ilə sosial rifah halı və miqranofobiya arasında tərs mütənasiblik mövcuddur. Belə ki, Avropada rifah səviyyəsinin nisbətən yüksək olduğu müharibədən sonrakı dövrdə - 1980-ci illərə qədər yeni sağ təmayülün nüfuzu olduqca zəif idi.[215] 1970-ci illərin zəif iqtisadi nəticələri ilə birlikdə aşağı sosial rifah halı mənbələrini bölüşmək uğrunda mübarizə artmışdır. Bu sosial rifah mübarizəsindən hər şeydən əvvəl miqrantların geri çəkilməsi istənilirdi.[216]

Bu kontekstdə sosial rifah şovinistlərinin arqumentləri və yeni sağ təmayüllü partiyaların çıxışları arasındakı paralellik diqqəti cəlb edir. Onsuz da sosial rifah şovinistləri yeni sağ təmayülün elektoratı sırasındadır. Diqqəti cəlb edən digər bir cəhət isə yeni sağ təmayüllə ənənəvi sağ təmayülün iqtisadi siyasətləri arasındakı ziddiyyətdir. Gözlənilənlərin əksinə olaraq yeni sağ təmayüllü partiyalar varlı təbəqədən kasıb təbəqəyə doğru iqtisadi baxımdan yenidən bölgüyə, dövlətin iqtisadiyyata müdaxilə etməsinə və geniş sosial rifah dövlətinin əleyhinə çıxış etmirlər.[217] Çünki yeni sağ təmayüllü partiyaların elektoratı arasında sosial rifah xidmətlərinə ən çox ehtiyacı olanlar da vardır. Bununla birlikdə həmin partiyalar miqrantların sosial

214 *European Parliament* (2000), Report on Countering Racism and Xenophobia in the European Union, {COM (1999) 268 – C5-0310/1999 + C5-0015/2000 -1999/2205(COS)} Final A5-0049/2000 [Online]

215 Knigge P. The Ecological Correlates of Right-Wing Extremism in Western Europe. // European Journal of Political Research, 34(2), 1998, p.249

216 Koster W., Achterberg P. and Waal J. The New Right and the Welfare State: The Electoral Relevance of Welfare Chauvinism and Welfare Populism in the Netherlands. // International Political Science Reviews, 34(3), 2013, p.3

217 Yenə orada, s.4

rifah imkanlarından istifadə etməsinə qarşıdır.[218] Başqa sözlə, sosial rifah şovinizmi meyilləri bu partiyaların siyasətində və çıxışlarında özünü olduqca aydın şəkildə göstərir. Məsələn, Fransanın Milli Cəbhə Partiyasının lideri **Jan Mari Le Pen** 1992-ci ildə açıq şəkildə şovinist mövqedən çıxış edərək demişdir: "...həddindən çox miqrant var və kim bilir ki, onlar küçəyə atmaq üçün neçə uşaq dünyaya gətirirlər və sonra da sosial rifah tələb edirlər".[219] Avstriya Azadlıq Partiyasının lideri **Yorq Hayder** isə eyni dövrdə partiyasının artıq "bəzi vətəndaşların çətinlik çəkərək qazandıqları puldan hər gün daha çox vergi ödədiyi, digərlərinin isə sosial rifah dövlətinin yellənən asma çarpayısında gözəl vaxt keçirdiyi" bir sistemi dəstəkləməyəcəyini bəyan etmişdir".[220] Bundan başqa, 2005-ci ildə Avropadan 7 yeni sağ təmayüllü partiya "Avropa vətənpərvər milli hərəkatlar və partiyalarının Vyana Bəyannaməsi"ni dərc etdirərək digər məsələlərlə birlikdə miqrant axınını da dayandırmağı tələb etmişdir.[221]

Göründüyü kimi, Avropa xalqlarının miqrasiya məsələsində ictimai rəyi ölkələrin sosial siyasətlərində özünü göstərmişdir. Xüsusilə miqrantların sosial xidmətlərdən istifadə etməsini milliyyət, qarşılıqlıq və yaşayış müddəti kimi bəzi şərtlərlə əlaqələndirmə fikri get-gedə daha çox dəstək qazanır.[222] Məsələn, Birləşmiş Krallıqda minimum 2 ildən 5 ilə qədər həmin ölkədə yaşamağın bəzi sosial

218 Banting K. G. Is there a Progressive`s Dilemma in Canada? Immigration, Multiculturalism and the Welfare State. // Canadian Journal of Political Science, 43(4), 2010, p.798; Koster W., Achterberg P. and Waal J. The New Right and the Welfare State: The Electoral Relevance of Welfare Chauvinism and Welfare Populism in the Netherlands. // International Political Science Reviews, 34(3), 2013, p.5

219 Alesina A., Glaeser E.L. Fighting Poverty in the US and Europe. Oxford: Oxford University Press, 2004, p.176

220 Betz H. G. Radical Right-Wing Populism in Western Europe. Hampshire ve New York: Palgrave Macmillan, 1994, p.115

221 Fligstein N., Polyakova A., Sandholtz W. European Integration, Nationalism and European Identity. // Journal of Common Market Studies, 50(s1), 2012, p.115

222 Guiraudon, V. The Marshallian Triptych Reordered/Michael Bommes ve Andrew Geddes (der.) // in: Immigration and Welfare: Challenging the Borders of the Welfare State. Londra and New York: Routledge, 2000, p.75

xidmətlərdən istifadə etmək üçün şərt kimi qəbul olunması ilə bağlı müraciətlər dilə gətirilir.[223] Danimarkada da yerli vətəndaşlar sosial xidmətlərdən miqrantlardan daha çox istifadə edə bilir.[224]

Təbii ki, immiqrant əleyhdarlığı və ksenofobiya yalnız mənfəətə əsaslanan çıxışlarla həyata keçirilmir. Hər hansı bir sosial rifahdan məhrumetmə tələbləri irəli sürülmədən miqrantları mədəni və etnik fərqləri baxımından cəmiyyətdən kənarlaşdırmaq və ya onları "günah keçisi" elan etmək məqsədi güdən ifadələr həm siyasətçilər, həm də adi vətəndaşlar tərəfindən tez-tez eşidilir.

2007-ci ildən etibarən davam edən iqtisadi böhran ilə birlikdə Avropada azalan sosial rifah resurslarının bölüşdürülməsi zamanı diqqət yenidən miqrantlara yönəldi. Böhrandan ən çox əziyyət çəkən ölkələrdən biri olan Yunanıstanda Qızıl Şəfəq Partiyasının nüfuzunun artması və 1 yanvar 2014-cü ildə Bolqarıstan və Rumıniya vətəndaşı olan işçilərə sərbəst hərəkət hüququnun tanınmasından sonra rifah səviyyəsi nisbətən yüksək olan Avropa ölkələrində ortaya çıxan mübahisələr sosial rifah şovinizminin miqyasını əks etdirir. Məsələn, Qızıl Şəfəq Partiyası 2012-ci ildə keçirilən seçkilər nəticəsində 40 il sonra ilk dəfə parlamentdə 25 millət vəkili ilə təmsil olunmuşdur.[225] Bundan başqa, işçilərin Bolqarıstan və Rumıniyaya sərbəst hərəkət etməsi hüququ üçün tanınan 7 illik istisnanın başa çatmasından sonra bəzi Avropa ölkələrini bolqar və rumın işçilərin istila etməsi qorxusu sarmışdır. Bu qorxu bir çox sosial rifah şovinizmi məzmunlu çıxışlarda özünü göstərmişdir. Məsələn, Britaniya, Almaniya və Niderland kimi miqrant sayının çox və immiqrant əleyhdarlığının açıq-aşkar olduğu

---

223 EU nationals may be banned from benefits in UK under new proposals [The Independent, 2013, Online, 25 Mart] - *http://www.theguardian.com/uk/2013/mar/25/eu-nationals-benefits-uk-proposals*

224 Van der Waal J., Koster W. and Van Oorschot W. Three Worlds of Welfare Chauvinism? How Welfare Regimes Affect Supports for Distributing Welfare To Immigrants in Europe. // Journal of Comparative Policy Analysis: Research and Practice, 15(2), 2013, p.178

225 Komşuda Krizin Faturası İki Büyüğe. // "Hürriyet", 2012 - *http://www.hurriyet.com.tr/planet/20499548.asp*

ölkələrdə bəzi siyasətçilər bolqar və rumın işçilərin ölkəyə daxil olması üçün kvota tətbiq olunması, işçi "istilasına" qarşı daxili sərhəd yoxlamaları rejiminin gücləndirilməsi və gələcək miqrantların sosial hüquqlardan müəyyən müddətə istifadəsinə imkan yaradılmaması kimi fikirlər irəli sürmüşlər.[226]

Avropada tarixi miqrasiya prosesinə nəzər yetirdikdə aydın olur ki, bununla bağlı qəti bir nəticəyə gəlmək son hadisələrin fonunda qeyri-mümkündür. Ancaq bir neçə sual əsasında ümumi fikirlə tədqiqat işinin bu hissəsini yekunlaşdırmaq olar. Belə ki, Avropa II Dünya müharibəsindən sonra sosial rifah halını yüksəldən, inkişaf edən və sosial rifah dövləti kimi daha da genişlənərək əksəriyyəti avropalı olmayan yeni gələnləri də əhatə etməlidirmi? Yoxsa Aİ ABŞ-ın yolu ilə gedib iş tapmağın prioritet olduğu inteqrasiya strategiyasına əsaslanmalıdır? Ümumən götürüldükdə hökumətlərin ixtisası olmayan miqrantları qəbul edə bildiyi və ya onları daha yaxşı dəstəkləmək siyasətlərinə malik olduğu deyilir. Lakin hökumətlər hər şeydən əvvəl iş və ya sosial rifah strategiyasını davam etdirməyi çətin vəzifə hesab edirlər. Avropada iş və sosial rifah halı arasındakı mümkün olan ən yaxşı müvazinəti təmin etməyin çətin olacağı göz qabağındadır.

> Beynəlxalq Əmək Bürosunun proqnozlarına görə, 2025-ci ilə qədər yaşı 65-dən yuxarı olanların sayı 21 milyona çatacaq və əmək qabiliyyətli, iqtisadi fəal əhalinin sayı 15 milyondan çox azalacaqdır.

Beləliklə, Avropada sosial siyasət və artmaqda olan fobiyaların ("kseno-islamo-miqranto-fobiyalar") qabarıq şəkildə göstərən təzahür formalarından biri də sosial rifah şovinizmidir. Lakin sosial-

226 Nigel Farage: 'Ban immigrants from claiming benefits for five years" // The Independent, 2014/ - *http://www.independent.co.uk/news/uk/politics/nigel-farage-ban-immigrants-from-claiming-benefits-for-five-years-9044358.html?origin=internalSearch;*

iqtisadi statusu aşağı olan miqrantların sosial rifah xidmətlərindən istifadə etməsinə qarşı edilən çıxışlar bir neçə aspektdə özünü büruzə verir:

*Birincisi,* qonaq işçilərin müharibədən sonra Avropanın iqtisadi baxımdan yenidən inşasında və sosial rifah şəraitinin yaxşılaşdırılmasında oynadıqları rol inkar edilə bilməz. Bu gün Avropadakı miqrant əhalinin əksər hissəsi keçmiş qonaq işçilərin ailələri və keçmiş müstəmləkələrdən gələnlərdən ibarətdir. Həmçinin aydındır ki, müstəmləkəçilik də Avropanın zənginləşməsində mühüm rol oynamışdır.

*İkincisi,* Avropada sosial rifahın inkişafında mühüm payı olan bu kateqoriya insanların xüsusilə iqtisadi tənəzzül dövrlərində mədəni və etnik fərqlər səbəbindən sosial rifah xidmətlərindən uzaq tutulmaları məhz buna görə düzgün hesab olunmur. Bununla yanaşı, milliyyət, vətəndaşlıq və bu qəbildən olan faktorları bəzi maddi xidmətlərdən faydalanmaqla bağlı kriteriyaya çevirmək öz-özlüyündə sosial hüquq prinsipinə zidd mövqe hesab edilməlidir.

> Britaniya və Fransada hər bir işləyən immiqrantın öhdəsində daha dörd işsizin olması qeyd edilir. Fransada hər il immiqrantlar üçün inteqrasiya proqramları - təhsil, peşə hazırlığı, mənzil, sağlamlıq və miqrantlar arasında təhlükəsizlik məsələləri üçün 36 milyard avro vəsait ayrılır.

Beləliklə, Avropada sosial rifah şovinizminin xüsusilə 2007-ci ildən etibarən davam etməkdə olan iqtisadi böhranın da təsiri ilə yaxın perspektivdə siyasi gündəliyi məşğul edəcəyi ehtimal olunur. Bununla birlikdə bu gərginliyin artmaması üçün yeni sağ təmayüllü bəzi siyasi partiyaların yalnız seçicilərinin siyasi dəstəyini qazanmaq kimi daxili siyasi qayğılardan yola çıxaraq populist və miqrantların əleyhinə mövqe nümayiş etdirməməli olduqları qeyd edilməlidir.

Digər mühüm problem immiqrasiyanın təyinat ölkəsinin milli kimliyinə və mədəniyyətinə təsir etməsi, eyni zamanda immiqrantların cəmiyyətdə birliyi zəifllədən sosial seqrasiyasıdır. İmmiqrantlar onları qəbul edən ölkənin cəmiyyətinə yetərincə inteqrasiya olunmadıqca bu sahələrdə yeni problemlər ortaya çıxır. Avropa cəmiyyətlərinin immiqrasiya prosesləri nəticəsində parçalanması daha da dərinləşir.

## 5.3. Sosial dövlətin Qərb modeli: cəlbedici inkişafdan tənəzzülə gətirib çıxaran səbəblər sırasında miqrant amili

Qərb cəmiyyətində sosial dövlətin təkamülünün hazırda çökmə mərhələsinə gəlib çatması reallıqdır. Onun əyaniliyini sübut edən bəzi amilləri göstərməyə, təqdim edilən çıxış yollarına, həmçinin perspektivlərinə nəzər salmağa çalışaq.

"Soyuq müharibə"dən sonrakı dövrü Qərb sosial dövlət modelinin təkamülündə yeni mərhələnin, daha doğrusu, onun süqutunun başlanğıcı kimi qəbul etmək olar. Bu mərhələ son əsrlərdə təkamül edən Qərb sosial dövlətçilik modelinin ana xəttinin əsas prinsiplərinin yenidən nəzərdən keçirilməsi, daha dəqiq desək, "sosial dövlətin çökməsi" proseslərinin baş verməsi ilə səciyyələnir.

Hələ XIX əsrin birinci yarısında alman filosofları tərəfindən müəyyən edilmiş sosial dövlətin konseptual əsasları XX əsrdə Beynəlxalq Əmək Təşkilatının normativ aktlarında və eləcə də inkişaf etmiş bir sıra aparıcı ölkələrin konstitusiyalarında təsbit edildi. Müvafiq olaraq bunun əsasında Qərb dövlətlərində sosial dövlətin müxtəlif modelləri formalaşdı. Bu sosial dövlət modellərinin ümumi xüsusiyyət və fundamental prinsipləri arasında ən əsas olan - sosial ədalət prinsipinə riayət olunması idi. Bu prinsip sosial dövlətin inkişafının müxtəlif mərhələlərində dövlətin sosial siyasətinin (tam məşğulluq, sosial tərəfdaşlıq və s.) əsası kimi müəyyən

dərəcələrdə həyata keçirilir. Sosial siyasətin dövlətin iqtisadi siyasətinin prioritetinə çevrilməsi, sosial yönümlü iqtisadiyyatın qurulması burada həlledici meyar hesab edilirdi.

Sosial dövlətin təkamül mərhələlərinin dəyərləndirilməsində əsas meyar kimi sosial müdafiə sistemlərinin formalaşması və inkişafı əsas götürülür. Belə olan halda üç istiqamət - sosial sığorta sisteminin formalaşması, ictimai təminat sisteminin yaradılması, nəhayət, sosial infrastruktur sahələrinin bütün sistemini əhatə edən sosial müdafiəyə keçid mərhələləri  ayırd edilir.[227]

Hələ 1970-ci və 1980-ci illərdə Qərbin aparıcı sənaye ölkələrində iqtisadiyyatın dövlət tənzimlənməsi modellərinin dəyişməsi müvafiq olaraq sosial siyasət konsepsiyalarının da dəyişməsi ilə müşayiət olundu. Makroiqtisadi tənzimləmənin liberal yanaşmalarına cavab verən yeni sosial siyasət konsepsiyası demək olar ki, başlıca olaraq M.Veberin "protestant etikası" adlandırdığı davranış prinsiplərinə əsaslanırdı. Həmin konsepsiyaya əsasən, Qərb özünün artıq müharibədən sonrakı onilliklər ərzində məşhur olan, iqtisadiyyatın Keyns modeli üçün səciyyəvi olan "sosial xeyriyyəçilik" kimi xüsusiyyətindən imtina etməli və "özünə kömək et" mənasını verən "sosial kafilik" ("özünü sosial təminetmə") səviyyəsinə keçməli idi. Qeyd edildiyi kimi, sosial dövlətin çökməsi prosesləri və ona qarşı əks-tədbirlər  ötən əsrin sonlarından çox ehtiyatlı şəkildə, tədricən həyata keçirilirdi və bu gün də davam edir. Məsələn, "Reyqanomiks" dövründən başlayaraq ABŞ-da orta məktəblərdə səhər yeməyinin ləğv edilməsi və s. bunun başlanğıcı kimi vurğulana bilər. Yaxud yeni konsepsiyanın tətbiqi "dəmir ledi" **Marqaret Tetçer**in ifadəsi ilə desək, *"Bərabərlik ədalətsizlikdir!", "Real imkanlar dövləti!"* və digər yeni şüarlarda diqqəti cəlb edirdi.

---

227 Хижный Э. Государственная система социальной защиты граждан в странах Западной Европы. М.: ИНИОНРАН, 2006, с.20-26.

> Hər il ABŞ-da dünyanın ən qabaqcıl 500 innovativ texnoloji şirkətinin reytinqi - "Fortune 500" hazırlanır. 2017-ci ildə "Fortune 500"-də əksini tapan şirkətlərin təhlilinin nəticələri sarsıdıcıdır. Belə ki, onların 43 %-i ya immiqrant, ya da immiqrantın uşağı tərəfindən təsis edilmişdir. Ən qabaqcıl "Top 35" şirkət arasında bu pay 57% təşkil edir.

Sosial dövlətin konseptual əsaslarının yenidən nəzərdən keçirilməsi nə ilə bağlı idi? Təbii olaraq, günahkar hazırda hamının hesab etdiyi kimi yalnız miqrant problemi deyildi. Bu mərhələnin başlanması iqtisadi, sosial və demoqrafik mahiyyətli bir sıra çoxsaylı amillərdən ibarət idi. Onların təsiri sosial dövlətin "qızıl dövründə" müəyyən edilmiş sosial standartların qorunması üçün mövcud olan imkanlar və bunun üçün lazım olan dövlət xərclərinin kəskin azalmasına səbəb olmuşdur.

Aİ-nin 1997-ci ildə "Sabitlik və inkişaf haqqında" Paktı ilə müəyyən etdiyi üzv ölkələrin milli büdcələrinə dair məhdudiyyətlər (illik büdcə kəsiri ÜDM-in 3%-indən, dövlət borcu isə ÜDM-in 60%-indən çox olmamalıdır) bir çox hallarda, xüsusilə də böhran dövründə baş verən proseslərlə bağlı olaraq əhəmiyyətli dərəcədə artdı. Qeyd edilməlidir ki, büdcə ilə bağlı bu problemlər yalnız Cənubi Avropanın çətin durumda olan ölkələri üçün xarakterik deyildi. Məsələn, 2012-ci ildə büdcə kəsiri Fransa üçün 4,5%, Niderland üçün 5,1%, Britaniya üçün isə 7,7% (hətta bu rəqəmin 7,6% olduğu Yunanıstandan daha yüksək) təşkil etmişdi.

İnkişaf etmiş Qərb ölkələrində "borc çuxuru" əsasən ictimai xərclərin artması ilə ağırlaşdırılmış sosial problemləri həll etmək üçün lazım olan sosial xərclərin çoxalması ilə bağlı olmuşdur.

Ümumilikdə, "soyuq müharibə"dən sonra Qərbdə sosial dövlətçiliyə aşağıdakı sosial-iqtisadi problemlər ağır zərbə vurmuşdur:

Qərb sosial dövlət modelinin davamlılığı üçün ən böyük sınaqlardan

biri 1970-ci illərin ortalarında baş verən böhran və kütləvi işsizliyin kəskin şəkildə artması ilə müşayiət olunan proseslər oldu. 1960-cı illərdə İƏİT ölkələrindəki işsizlərin sayı 8 milyona yaxın idisə, 1980-ci illərin ilk yarısında bu rəqəm 30 milyonu keçmişdi. Burada ilk zərbə, təbii olaraq, sosial baxımdan həssas qruplardan olan miqrantlara dəydi.

İşsizliyin miqyasi, xüsusilə də formaları Qərb sosial dövlətinin təməl prinsipi olan "tam məşğulluq" siyasətindən imtina edilməsinə, onun yenidən nəzərdən keçirilməsinə gətirib çıxardı. Halbuki bu müddəa, yuxarıda qeyd edildiyi kimi, XX əsrdə Beynəlxalq Əmək Təşkilatı tərəfindən sosial dövlətin və tərəfdaşlar arasında sivil münasibətlərin mühüm prinsipi kimi müəyyən edilmişdi. Sosial dövlətin qarşısında duran digər kəskin bir problem sosial müdafiə sisteminin baha başa gələn proqramı olan pensiya sisteminin qorunub saxlanılması məsələsi idi. Bu sahə sosial qazancların qorunması, əhalinin ömür müddətinin artması və qocalma problemi ilə mürəkkəbləşir. Hazırda 60 yaşdan yuxarı olan insanların nisbəti Aİ ölkələrinin ümumi əhalisinin təxminən 20-25%-ni təşkil edir. Beynəlxalq Əmək Bürosunun proqnozlarına görə, 2025-ci ilə qədər yaşı 65-dən yuxarı olanların sayı 21 milyona çatacaq və əmək qabiliyyətli, iqtisadi fəal əhalinin sayı 15 milyondan çox azalacaqdır. Bununla bağlı qeyd edilən sahədə aparılan islahatların əsas istiqaməti pensiya yaşının yenidən nəzərdən keçirilməsi olmuşdur.

Büdcə yükünün kəskin artması və aparıcı sənaye ölkələrində sosial dövlətin qorunması ilə bağlı həyata keçirilən tədbirlərin səmərəliliyi ilə bağlı şübhə doğuran, yeni sosial ziddiyyətlərin ortaya çıxmasını şərtləndirən digər bir səbəb isə köhnə müstəmləkələrdən gələn köçkünlərin böyük axını oldu. Miqrasiya böhranı və onun sosial nəticələri özünü daha kəskin və dağıdıcı bir şəkildə ortaya qoymağa başladı.

İmmiqrasiyanın Qərb iqtisadiyyatına, xüsusilə onun sosial siyasətinə mənfi təsiri əmək bazarının bütün seqmentlərində immiqrantların qiymətlə bağlı rəqabətdə udması ilə bağlı idi. Hesab edilir ki, bu,

qaçılmaz olaraq yerli əhali arasında işsizliyin artmasına səbəb olur. Bu, təkcə miqrantların təhsili, səhiyyə xidmətləri, sosial təminatı ilə bağlı problemləri deyil, onların ailələrinə ayrılan sosial xərclərin artması ilə də bağlı idi. Belə ki, məsələn, Britaniya və Fransada hər bir işləyən immiqrantın öhdəsində daha dörd işsizin olması qeyd edilir. Fransada hər il immiqrantlar üçün inteqrasiya proqramları - təhsil, peşə hazırlığı, mənzil, sağlamlıq və miqrantlar arasında təhlükəsizlik məsələləri üzrə 36 milyard avro vəsait ayrılır. Getdikcə bu problemlər anti-immiqrant əhval-ruhiyyənin yüksəlməsini şərtləndirmişdi.

Almaniyalı siyasətçi **Tilo Saratsinin** *(Thilo Sarrazin) "Almaniya - özünü məhvetmə. Ölkəmizi necə riskə atırıq"* adlı sensasiyalı kitabında qeyd edilir ki, Türkiyə, Yaxın Şərq və Afrikadan gələn əmək qabiliyyətli immiqrantların hər 100 nəfərindən təxminən 44-ü işsizliyə görə verilən vəsaitlə yaşayır. Halbuki, almanların hər 100 nəfərindən təxminən 10 nəfəri bu vəsaitlə yaşayır. Sosial müavinətlər hesabına Türkiyədən gələn immiqrantların 16%-i, Afrika ölkələrindən gələn immiqrantların 24%-i yaşadığı halda, almaniyalılar arasında bu cür şəxslərin payı 8%-dir.[228] Xatırladaq ki, kitab alman cəmiyyəti, o cümlədən Almaniya Federativ Respublikasının Kansleri tərəfindən kəskin tənqid edilsə də, qeyd edilən bu faktlar təkzib olunmamışdır.

Mövcud hesablamalara görə, ABŞ-da immiqrasiya xərcləri 1995-ci ildə 80,4 milyard dollar təşkil etdiyi halda, 2006-cı ildə 108 milyarda çatmışdır. Bu və digər müqayisələri təhlil edən bir çox ekspert tədricən bu qənaətə gəlmişdir ki, ABŞ-a, eləcə də qabaqcıl ölkələrə miqrasiya edənlər bu ölkələrin iqtisadiyyatı üçün heç bir müsbət təsirə malik deyillər. Bu fikir öz növbəsində ictimai rəyə dərhal öz təsirini göstərdi: sosial dövlət modelinin əsasları laxlamağa başladı.

Qeyd edildiyi kimi, aparıcı Qərb ölkələrində sosial dövlətin çökməsinə daha bir güclü zərbəni SSRİ-nin dağılması vurdu.

228 Sarrazin T. Deutschland Schafft Sich AB: Wie wir unser Land aufs Spiel setzen. DeutscheVerlags-Anstalt. 2010, 461 p.

Bir zamanlar kapitalist sosial dövlət modelinə alternativ kimi yaranan sosialist fövqəldövlətin, bütövlükdə sosializm sisteminin dağılması nəticəsində bu məkandan Qərbə üz tutan “miqrant axını” formalaşdı. Bununla da sosialist düşərgəsindən insanları firavan cəmiyyət və rifah dövləti kimi şərtlərlə cəlb etmək siyasətinin gərəksizliyinə, əksinə miqrasiyanın səngidilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsinə başlanıldı. Belə ki, “soyuq müharibə” dövrü - müharibədən sonrakı illərdə inkişaf edən iki dünya sisteminin rəqabəti - sosial dövlətin “qızıl dövrü” hesab olunan məsələlər baxımından son dərəcə mühüm rol oynamışdır. Nə qədər acınacaqlı olsa da qeyd edilməlidir ki, Qərbin aparıcı ölkələrində sosial dövlətin tamamilə çökməsinin qarşısını alan yeganə maneə kimi hələlik sosial etiraz aksiyaları və kütləvi tədbirlərə ümid edilir (məsələn, Fransada pensiya islahatları ilə bağlı genişmiqyaslı aksiyaların keçirilməsi).

Lakin son illərdə baş verən qlobal iqtisadi böhran sosial dövlətə dəyən “zərbələrə” yeni təkan verdi. Bu sırada məcburi tədbirlərdən biri kimi Fransada pensiyaya çıxmanın yaş dövrü ilə bağlı dəyişikliklər qəbul edildi. Bundan başqa, ABŞ rəhbərliyi böyük büdcə kəsirini azaltmaq üçün 200 federal proqramın maliyyələşdirilməsini dayandırmaq və perspektivdə hətta tamamilə ləğv etmək niyyətini bəyan etdi. Bu tədbirlərin əksəriyyəti yerli təhsil, mənzil və sosial layihələrə aiddir. Məsələn, pulsuz tibbi xidmət (yaşlılara və xəstələrə yardım) və yoxsulların elektrik enerjisi və istiliklə təmin edilməsi üçün nəzərdə tutulan proqramlar yarıbayarı azaldılacaqdır.

Qərb cəmiyyətində sosial siyasətdə baş verən geriləmə meyillərinin açıq şəkildə görünməsini xarakterizə edən Roma Papası Fransisk 2013-cü ilin sonunda Milad bayramı ərəfəsində çıxışı zamanı mövcud problemləri dilə gətirdi: “Azad bazara əsaslanan cari iqtisadi mexanizm həddindən artıq istehlakçılığı və bərabərsizliyi, cəmiyyətin sosial birliyini və təməllərini məhv etməyi, insanları lazımsız əşya kimi bir

kənara atmağı stimullaşdırır. Hazırkı iqtisadi modelə "yox!" demək lazımdır.[229]

Təqaüdçülər və sosial cəhətdən zəif olan digər kateqoriyalarla yanaşı, sosial xərclərin azaldılması üçün əsas hədəf kimi məcburi köçkünlərin seçilməsi bu baxımdan ədalətsiz olduğu qədər də səmərəsizdir. Bununla belə, həmin tədbirlərə başlandı. 2011-ci ildə Danimarka öz ərazisinə Asiya və Afrikadan gələn miqrantların axın etməsi səbəbindən qonşu ölkələrlə sərhəddə gömrük nəzarətini müvəqqəti olaraq bərpa etdi. Bu təşəbbüs Məğrib ölkələrindən gələn qaçqın problemi ilə üzləşən Fransa və İtaliya tərəfindən dəstəkləndi və reallaşdırıldı.

2013-cü il iyunun 1-dən Aİ-nin 17 ölkəsi, o cümlədən Fransa, Almaniya, Avstriya, Britaniya, İtaliya, İspaniya, eləcə də əhalisinin hər dörd nəfərindən biri immiqrant olan İsveçrə immiqrasiya üçün yeni kvotalar müəyyən etdi. Bundan bir il əvvəl Estoniya, Latviya, Litva, Polşa, Macarıstan, Slovakiya, Sloveniya və Çexiyadan olan immiqrantlar üçün də kvota məhdudiyyətləri qoyulmuşdu. Rumıniya və Bolqarıstanda daha ciddi məhdudiyyətlər nəzərdə tutulmuşdu.

Təbii olaraq, Avropa dövlətlərinin liderlərindən gələn anti-immiqrasiya ritorikası, xüsusən də "multikulturalizm"in iflasına təkan verən amillər sosial dövlətin demontajını artıq labüd etməkdədir.

Sosial dövlətin bir sıra komponentləri hələ də toxunulmazdır. Birincisi, tam məşğulluq artıq makroiqtisadi siyasətin üstünlüyü olmasa da, xüsusi strukturu ilə kütləvi işsizlik, onun mənfi sosial nəticələri ilə dövlət tənzimləmə modellərinin dəyişikliyi zamanı elan edilmiş proqram qaydalarına əhəmiyyətli düzəlişlər etmişdir.

Büdcəyə yükün kəskin şəkildə artmasına və sosial xərclərin azaldılmasına gətirib çıxaran bu vəziyyətdən əhalinin ən həssas kateqoriyalarını, məsələn, immiqrantları qurban verməklə çıxmağa hesablanmış hazırkı əks tədbirlər və buna bəslənən ümidlər gözlənilən

229 Молчание глобального безразличия // Советская Россия, – М., 2014, 10 января.

səmərəni verməyəcək.

Qərb cəmiyyətinin və sosial dövlətin təməllərinin anti-immiqrant siyasətlə toxunulmaz qalacağına, bu dalğada müvafiq vəd və şüarlarla iqtidara gələn siyasətçilərin vəziyyəti dəyişə biləcək planlarına olan gözləntilər də dərindən yanlışdır. Çünki sosial dövlətin tarixi inkişafı sübut edir ki, onun təməlini təşkil edən sosial ədalət prinsipinin pozulması şəraitində heç bir müsbət nəticəyə nail olmaq mümkün deyil.

Sosial dövlətin Qərb modelinin hazırda yaşadığı böhrandan çıxarılması və onu çökməkdən xilas etmək yönündə hələlik birtərəfli qaydada həyata keçirilən yeganə tədbir "beyin axını"na hesablanan selektiv miqrasiya siyasətidir.

## 5.4. Qərb miqrasiya siyasətinin seçdiyi yeganə çıxış yolu: "Yaşasın beyin axını! Miqrant axını rədd olsun!"

*"Böyüklüyün meyarı məsuliyyətdir"*
*(The price of greatness is responsibility)*

**Uinston Çörçill**

Epiqraf olaraq verilən Uinston Çörçillin məşhur siyasi aforizminin mənasına görə, dövlət xadiminin böyüklüyü onun öz siyasətinin yalnız indiki deyil, həm yaxın, həm də uzaq nəticələrini qabaqcadan görməsidir. Bu aforizmi sübuta ehtiyacı olmayan aksiom kimi qəbul etsək, deyə bilərik ki, Qərb siyasi liderləri arasında böyük qlobal güc olmağa iddialı dövlətlər olsa da, böyük siyasi xadimlər barədə bunu demək çətindir.

Bu gün başqa ölkələrin hesabına inkişaf edən Qərb ölkələri üçün bütün dünyadan ən yaradıcı və təşəbbüskarlığa malik ağıllı "beyinlərin" cəlb edilməsi və nəticədə yeni yaranan innovasiya sahələri və onlardan

əldə edilən gəlirlərlə həm texnogen sivilizasiyada üstünlüyün əldə edilməsi, həm də daxili problemlərini həll etmək üçün əhəmiyyətli məbləğdə əlavə maliyyə mənbələrinə malik olmaq hələlik yeganə xilas yolu kimi görünür. Etiraf edilməlidir ki, hazırda ÜDM-in tərkibində innovasiyalardan gələn gəlirlərin payının getdikcə artması sosial dövlətin fundamentinin tamamilə sarsılmasının qarşısını alır. Beləliklə də, birtərəfli "beyin axını" XXI əsrin ən yeni müstəmləkəçilik forması kimi davam edir.

Anlaşılan budur ki, Qərb dövlətləri bir neçə əsr əvvəl müstəmləkəçilk siyasəti ilə üstünlüyünü təmin etdiyi kimi, XXI əsrdə də intellektual miqrasiyanı - "beyin axını"nı stimullaşdırmağı geostrateji prioritet kimi seçim etmişdir və qlobal texnoloji üstünlüyü təmin etməklə bütün problemlərindən qurtulmaq niyyətindədir.

Bu, doğrudanmı yeganə çıxış yoludur? "Ən yeni müstəmləkəçilik" metodu kimi bu yol hansı nəticələrə gətirib çıxaracaq? Maddi sərvətləri sovuran imperialist müstəmləkəçiliklə qeyri-maddi "beyin kapitalını" əlində cəmləyən müasir Qərbin siyasəti eyniyyət təşkil etmirmi?

Hələ ötən əsrin 80-ci illərindən başlayaraq, ABŞ, Kanada və Avstraliyada "yüksək ixtisaslı biznes-miqrantlar" adlanan xüsusi proqramlar işlənib hazırlanmışdır. Miqrasiya siyasəti hazırda bu proqramlar əsasında həyata keçirilir.

Hazırda ABŞ Konqresinin qarşısında miqrasiya siyasəti ilə bağlı iki kritik problem durur: Birləşmiş Ştatlara "Amerika arzusunun uşaqları" ("DREAMers") kimi gələn 800.000 immiqrant uşağın taleyinin həlli və "Bipartisan Startup Act" - Amerikaya gələn və yüksək texnologiyalar sahəsində sahibkarlıq fəaliyyətini quran 75.000 şirkətin təsisçisinə və sahibkara viza üçün icazə verilməsi haqqında qanunvericilik aktının qəbul edilməsi. Bu hadisələr bir daha onu göstərir ki, ABŞ-ın hələ də istəmədiyi xarici sahibkarlar Amerikanın iqtisadi cəhətdən çiçəklənməsinə öz töhfələrini verməkdə davam edirlər.

Hər il ABŞ-da dünyanın ən qabaqcıl 500 innovativ texnoloji şirkətinin reytinqi - "Fortune 500" hazırlanır. 2017-ci ildə "Fortune 500"-də əksini tapan şirkətlərin təhlilinin nəticələri sarsıdıcıdır. Belə ki, onların 43 %-i ya immiqrant, ya da immiqrantın uşağı tərəfindən təsis edilmişdir. Ən qabaqcıl "Top 35" şirkət arasında bu pay 57% təşkil edir.[230]




İmmiqrantlar yeni innovativ şirkətlərin, başqa sözlə, kreativ iqtisadiyyatın yaradılmasında əsas rol oynayırlar. Bunu Qərb ölkələrinin aparıcı özəl texnoloji şirkətlərində gəlmə təsisçilərin və işləyən personalın çox geniş yayılma dərəcəsi sübut edir. Tədqiqatlar göstərir ki, immiqrantlar Amerikanın 1 milyard dəyərində olan startap şirkətlərinin yarıdan çoxunu (87-dən 44-nü) təsis etmişlər. Bu şirkətlərin 70 %-dən çoxu (87-dən 62-si) ABŞ-ın innovasiya sənayesində menecerlər qismində fəaliyyət göstərir. İmmiqrantların təsis etdiyi və milyardlarla dollar gəlirlə işləyən şirkətlərin hər biri orta

230 Hathaway I.Almost half of Fortune 500 companies were founded by American immigrants or their children. /4 December 2017/ - *https://www.brookings.edu/blog/the-avenue/2017/12/04/almost-half-of-fortune-500-companies-were-founded-by-american-immigrants-or-their-children/*

hesabla təxminən 760 yeni iş yeri yaratmışdır. 44 mühacir şirkətin məcmu dəyəri 168 milyard dollar təşkil edir ki, bu da Rusiyanın və ya Meksikanın maliyyə bazarlarının dəyərinin yarısına yaxındır.

**ABŞ-da milyard dollarlıq startap şirkətlərin immiqrant təsisçilərinin (Azərbaycan da daxil olmaqla) mənşə ölkələri üzrə siyahısı /Country of Origin: Immigrant Founders of Billion Dollar Startup Companies/**

| COUNTRY | NUMBER OF ENTREPRENEURS |
|---|---|
| India | 14 |
| Canada | 8 |
| United Kingdom | 8 |
| Israel | 7 |
| Germany | 4 |
| China | 3 |
| France | 3 |
| Ireland | 2 |
| Armenia | 1 |
| Azerbaijan | 1 |
| Argentina | 1 |
| Egypt | 1 |
| Holland | 1 |
| Iraq | 1 |
| Norway | 1 |
| Russia | 1 |
| Singapore | 1 |
| South Africa | 1 |
| South Korea | 1 |
| Uzbekistan | 1 |

***Mənbə:*** *National Foundation for American Policy. Note: Some companies were started by entrepreneurs from the same country*

Donor ölkələr üçün böyük itki hesab edilən ixtiraçı miqrantlar Qərb ölkələri üçün böyük qazanc mənbəyidir. Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Əqli Mülkiyyət və İnkişaf Komitəsinin 2013-cü ildə apardığı maraqlı araşdırmada miqrasiyanın "beyin axını" istiqamətinin qlobal meyilləri və xüsusiyyətləri haqqında məlumatlar öz əksini tapmışdır. "Əqli mülkiyyət və beyin axını" adlandırılan araşdırma layihəsinin fərqi ondadır ki, burada miqrantların xüsusi kateqoriyası - ixtiraçı və elmi kəşflərin müəllifi olan yüksək ixtisaslı miqrantlar milli mənşəyinə görə dəqiq və təfərrüatlı şəkildə tədqiq edilmişdir. Bunu müəyyən etməyə imkan yaradan isə "Patent sahəsində əməkdaşlığa dair Beynəlxalq saziş"dir.[231] Belə ki, burada miqrantların vətəni və gəldiyi ölkə, milliyyətləri haqqında tam məlumatlar öz əksini tapmışdır.

**Devid Kemeron:**
"Biz hətta bu ziddiyyətlərə də göz yumub tolerantlıq nümayiş etdiririk... Passiv dözümlülüyü (tolerantlığı) fəaliyyətdə olan liberalizm ilə, əzələli liberalizm ilə əvəz etmək və Britaniya cəmiyyətinin hansı əsas dayaqlar üzərində qurulduğunu göstərmək vaxtı çatmışdır...
Biz ölkədə müxtəlif mədəniyyətlərin bir-birindən uzaqlaşmasına səbəb olan siyasətimizin multikultural doktrinaya uyğunlaşdırılmış uğursuz səhifəsini çevirməliyik".

1991-2010-cu illəri əhatə edən həmin araşdırma hazırda bütün dünya ölkələrinin ehtiyacı olan mütəxəssislərin hansı istiqamətdə getdiyi və nə üçün "beyin axını"nın iştirakçısı olmasının səbəbləri, ən başlıcası isə təhlükəli nəticələri barədə tam təsəvvür yaradır. Tədqiqatda "beyin axını"na yüksək ixtisasa və istedada malik olan şəxslərin mənbə ölkədən təyinat ölkəsinə getməsi və nəticədə mənbə ölkənin qeyd edilən strateji resursdan məhrum olması" kimi tərif verilir.

231 Study on Intellectual Property And Brain Drain -A Mapping Exercise. WİPO.Committee on Development and Intellectual Property (CDIP).Twelfth Session.Geneva, November 18 to 21, 2013, p.2

**Angela Merkel:**
"60-cı illərin əvvəllərində ölkəmizə digər dövlətlərdən olan fəhlələri dəvət etmişdik. Bir vaxtlar onların "nə vaxtsa ölkəni tərk edəcəkləri" ümidi ilə özümüzü aldadırdıq. Bu isə baş vermədi. Əlbəttə, belə yanaşmamız məhz multikulturalizmə, birgə yaşamaq və bir-birimizə hörmət etmək bacarığımıza əsaslanırdı. Bu yanaşma tamamilə iflas oldu".

İntellektual miqrasiyanın digər növlərdən fərqi odur ki, bu miqrasiya axını demək olar ki, başlıca olaraq bir istiqamətə yönəlmişdir. Araşdırmada dünyada ilk onluğa daxil olan "beyin axını"nın əsas marşrutları, qitələrarası beyin axınının hansı yönə və nə üçün istiqamətlənməsi, ixtiraçı miqrantların getməyə üstünlük verdiyi ölkələr, həmçinin maraq doğuran məqam kimi inkişaf etmiş qabaqcıl ölkələr arasında "beyin axını"nın xüsusiyyətləri əksini tapmışdır. Burada həmçinin ixtiraçıların miqrantlar arasında ən yüksək mobilliyə malik şəxslər olması, onların çalışdığı elm və sənaye sahələri üzrə bölgüsü, Avropada və Şimali Amerikada cəmləşdikləri halda ümumilikdə ABŞ-ın bütün dünyada "beyin axını"nın yönəldiyi mütləq üstünlüyə malik olan dövlət olması öz əksini tapmışdır.

Təbii ki, ABŞ-ın "beyin axını"nın istiqamətləndiyi cəlbedici ölkə imici boş yerdə yaranmamışdır. Burada miqrasiya siyasəti ilə yanaşı ABŞ-ın qlobal geosiyasi güc mərkəzi olmasının əhəmiyyətli rol oynamasını sübut etməyə ehtiyac yoxdur. Şərqi Avropa, xüsusilə də Balkan regionu "beyin axını"na ən çox məruz qalır və itkilər verir.

Yalnız onu əlavə etmək qalır ki, Afrika və Latın Amerikasından mənbəyini götürən "beyin axını"nda ixtiraçı miqrantların da seçimi, son təyinat ölkəsi yenə də ABŞ-dır. Müasir elm, texnologiya və innovasiya cəmiyyətində ixtiraçıların yüksək rolu və statusu nəzərə alınarsa, hansı ölkələrin qazanc əldə etməsi və hansıların əvəzsiz itkilər verməsi haqqında mənzərə tam formalaşır. Doğrudur, intellektual miqrantların öz ölkələrinə pul köçürmələri ilə yardım etməsi faktı da mövcuddur.

Bununla belə, "beyin axını"nın mənbə ölkə üçün itki olması sübhəsizdir.

Qeyd edilən sahədə maraqlı tədqiqatlardan biri də Nobel mükafatı laureatlarının əksəriyyətinin miqrant olması və Amerikada bu mükafatı alanların çoxluğu faktıdır. Fizika, kimya, tibb, biologiya, iqtisadiyyat və digər sahələrdə araşdırılan 629 Nobel mükafatçısının 200-ə yaxınının (30-35 %-nin) miqrant olduğu, onların öz mükafatını məhz ABŞ-da alması da düşündürücüdür. Nobelçi miqrantların seçim etdiyi sonrakı yerlərdə Birləşmiş Krallıq, Almaniya və İsveçrə gəlir.[232]

**Nobel mükafatçılarının "beyin axını"**
**(The Nobel Laureates' Brain Drain. Top-15 countries)**

| No. of Nobel Laureates, by country of birth | | No. of Laureates residing abroad at the time of award, by country of birth | | No. of Laureates residing abroad at the time of award, by country of residence | |
|---|---|---|---|---|---|
| US | 221 | Germany | 21 | US | 100 |
| UK | 74 | Poland | 18 | UK | 24 |
| Germany | 67 | UK | 13 | Germany | 20 |
| France | 33 | Canada | 11 | Switzerland | 13 |
| Russia | 18 | Russia | 10 | France | 7 |
| Poland | 18 | Austria | 10 | Canada | 4 |
| Sweden | 16 | Italy | 8 | Sweden | 3 |
| Netherlands | 16 | France | 8 | Russia | 3 |
| Japan | 15 | Netherlands | 8 | Denmark | 2 |
| Austria | 14 | Australia | 7 | Israel | 2 |
| Canada | 13 | Hungary | 7 | Belgium | 2 |
| Switzerland | 12 | China | 6 | Austria | 2 |
| Italy | 12 | Japan | 6 | Argentina | 1 |
| Australia | 10 | India | 4 | Netherlands | 1 |
| Hungary | 8 | US | 4 | Australia | 1 |

232 Shim E. The U.S. Leads the World in Nobel Laureates Thanks to One Surprising Factor. /08.10.2014/ - *https://mic.com/articles/100750/the-u-s-leads-the-world-in-nobel-laureates-thanks-to-one-surprising-factor#.GxSwXIicN*

ABŞ-da Nobel mükafatçıları arasında gəlmələrin yerli alimlərdən çox olmasını izah edən müəllif qeyd edir: "İndi başa düşmək olar ki, Amerika nə üçün miqrantları strateji sərmayə hesab edir və miqrasiya siyasətinə bu qədər önəm verir".[233]

## 5.5. Qərb mədəni siyasətinin - multikulturalizmin iflası və "fobiyaların" (ksenofobiya, miqrantofobiya və islamofobiya) yüksəlişi

Bir çox müəlliflər hesab edir ki, miqrasiya böhranının hiss edilməsi birmənalı olaraq multikulturalizm siyasətinə qarşı mənfi münasibətlərlə başlamışdır. XX əsrin sonunda dünyada etnik amillərin rolunun artmasına səbəb olan əhəmiyyətli dəyişikliklər baş vermişdir. Dünya "etnik dirçəliş" adlı fenomenlə qarşılaşmışdır. Qloballaşma və inteqrasiya prosesləri, ənənəvi aktorların rolunun dəyişməsi və yenilərinin meydana çıxması, ümumilikdə siyasi paradiqmanın dəyişməsi - bütün bunlar beynəlxalq münasibətlərdə etniklik təzahürünün yeni və hələ öyrənilməmiş keyfiyyət xarakteristikalarını yaratmışdır.[234] Dünya qloballaşmanın ortaya qoyduğu böhran kontekstində XXI əsrə mürəkkəb etnik problemlərlə birgə qədəm qoymuşdur. Milli identikliyin itməsi qorxusu və təhlükəsi ölkələri öz milli xüsusiyyətlərinin saxlanılmasının yeni üsullarını axtarmağa sövq etmişdir.

Beləliklə, avropalılar miqrantların öz ölkələrinə dönməyəcəyini anladıqda onlarla bağlı əsasən iki növ strategiya həyata keçirilməyə başlandı. *Birinci strategiyanın* mahiyyəti ölkədə hər kəsə açıq multikultural cəmiyyətin yaradılmasından ibarət idi. Bu ideya yerli əhalinin əhəmiyyətli hissəsi tərəfindən heç bir vaxt dəstəklənməsə

233 Yenə orada

234 Соколовский С.В. Права меньшинств: антропологические, социологические и международно-правовые аспекты. - *http://society.polbu.ru/sokolovsky_prava/ch01_i.html*

də, elitanın müəyyən bir hissəsinin dəstəyini qazana bilmişdi. *Digər strategiya* isə miqrantların tamamilə yerli xalqla assimilyasiyasına nail olmaqdan ibarət idi. Əgər multikulturalizm Birləşmiş Krallıq, Almaniya və İsveç kimi ölkələrdə geniş tətbiq olunurdusa, Fransada miqrantlarla bağlı assimilyasiya siyasətini seçməyə üstünlük verilmişdi. Lakin qeyd etmək lazımdır ki, bu ölkələrdən heç biri təmiz assimilyasiya və ya multikultural siyasət həyata keçirmirdi və bir çox hallarda tətbiq olunan real strategiya bu iki siyasətin qarışığı idi. Lakin bu strategiyaların heç biri miqrantların Avropaya inteqrasiya problemini tam şəkildə həll edə bilməmişdi.

ABŞ-ın Miçiqan Universitetinin professoru **Rita Çin** *(Rita Chin)* "Müasir Avropada mədəni plüralizmin, onun indiki böhranının və qeyri-müəyyən gələcəyinin tarixi" adı kitabında yazır: "2010-cu ildə Almaniyanın, Britaniyanın və Fransanın liderləri bildirdilər ki, multikulturalizm öz ölkələrində müvəffəqiyyətsizliyə uğradı. Son onillik ərzində Avropada getdikcə artan narazılıq analoji bəyanatların səslənməsinə səbəb oldu. Əslində bütün siyasi spektri bürüyən bu qorxunc meyillər nədən xəbər verir? "Avropada multikulturalizmin böhranı" əsəri - 1950-ci illərdə immiqrantların axınından tutmuş qitənin qaçqın axınları və terrorizmlə bağlı müasir böhranına qədər tarixi inkişafı mərhələsini təhlil edir".[235]

Rita Çin hesab edir ki, Avropada dövlətin himayəsi ilə multikulturalizm siyasətinin təşkili yönündə cüzi səylər ortaya qoyulmuşdur. Lakin bugünkü böhranın təzahürləri və qarşıya çıxan uğursuzluqlar praktiki olaraq həmin siyasətin yarandığı andan mövcud olmuşdur. O göstərir ki, mədəni plüralizmin bu gün kəskin şəkil alan böhranının kökləri yeni olmayıb, əslində 1980-ci illərdən başlanğıcını götürür. Müəllif Avropa multikulturalizminin II Dünya müharibəsindən sonra işçi qüvvəsinə zəruri ehtiyacdan irəli gələn

235 Chin R. The Crisis of Multiculturalism in Europe: A History. Princeton University Press, 2017, p.8

dövrdən üzü bəri ictimai rəydə böyük əks-səda doğuran "Şeytan ayələri" nəşrinə və Fransa məktəblərində baş örtüyü haqqında qaldırılan müzakirələrə qədərki zaman kəsiyindəki gedişatını izləyir. O belə qərar gəlir ki, bir çox müsəlman immiqrantlar onilliklər boyunca Avropada yaşasalar da, 1980-ci illərdən sonra onların öz dini identikliyini müəyyən etməsi və gender bərabərliyi münasibətlərinə özünəməxsus yanaşmalarından irəli gələn narahatlıqların getdikcə artması baş verdi. Müsəlman immiqrantların  Qərb cəmiyyətinə xas olan bu və ya digər dəyərləri qəbul edib-etməməsi mədəni plüralizm siyasətinin başlıca meyarına çevrilməyə başladı. Siyasi səhnədə solçu və sağçıların "qeyri-liberal" hesab etdikləri islama qarşı şəxsi azadlıqların müdafiəsi şüarı altında birləşməsi tədricən Avropa dəyərlərinin başlıca idealı olan plüralizmin əsaslarının sarsılmasına gətirib çıxardı. R.Çin iddia edir ki, mədəni müxtəliflik prinsiplərindən imtina edilməsi xüsusilə siyasi mübarizədə sağçıların mövqelərinin möhkəmlənməsini şərtləndirmişdir. Halbuki, Avropa özünün müxtəlif mədəniyyətə malik əhalisinin dəstəyi ilə bu arzuolunmaz meyillərə qarşı effektiv siyasi iradə nümayiş etdirə bilər.[236]

Qeyd etdiyimiz kimi, Qərb multikulturalizmi, daha dəqiq desək, onun müsbət cəhətləri haqqında çox yazılmışdır. Buna baxmayaraq, hazırkı reallıqda Qərb multikulturalizmi müxtəlif mədəniyyət (etnik, dini, irqi) daşıyıcılarının dominant (dövlətyaradıcı) xalq və mədəniyyət ətrafında konsolidasiyasının məqsədli şəkildə məhdudlaşdırılmasına istiqamətləndirilmiş destruktiv siyasi proqram xarakteri daşımaqdadır. "Qlobal iqtisadi böhranla paralel şəkildə multikulturalizmin Qərb modelinin və liberal dəyərlərin iflası, "islamofobiya" təzahürlərinin getdikcə artması kimi narahatlıq doğuran meyillər də bu ölkələr  üçün səciyyəvidir. [237]

236 Yenə orada

237 Həbibbəyli Ə. Multikulturalizm: bəşəri ideya, yaxud Qərb dəyərləri? /I və II hissələr/ - *http://newtimes.az/az/politics/1064/*

Ötən əsrin 90-cı illərində Avropa dövlətləri multikulturalizmi etnik və sosial problemlərin həlli istiqamətində optimal siyasət kimi həyata kerçirməyə başladılar. Bu siyasət Fransa, Almaniya, Belçika, Kanada, Britaniya kimi Qərb ölkələrində ilk dövrlər xarici əlaqələrin genişlənməsi, ölkəyə ucuz işçi qüvvəsinin cəlb edilməsi ilə nəticələnsə də, sonralar qastarbayterlərin yerli cəmiyyətə adaptasiya olunmamasına, etnik və konfessial ziddiyyətlərin yaranmasına səbəb olmuşdur.

Avropa ölkələri son dövrlərədək özlərini dünyaya liberal dəyərlərin simvolu, yüksək demokratik imicin daşıyıcıları kimi təqdim edirdi. Lakin miqrasiya böhranı ilə eyni vaxtda həmin ölkələrin siyasi liderləri (A.Merkel və N.Sarkozi) insanların sərbəst hərəkət və digər fundamental azadlıqlarını təmin etməyə xidmət edən, konkret desək, müxtəlif din və mədəniyyətlərin tarixən sınanmış birgəyaşayış modeli olan multikulturalizmi inkar edən məlum bəyanatı səsləndirmişlər. Britaniyanın sabiq Baş naziri **Devid Kemeron** Münhendə keçirilmiş konfransda Avropaya mühacirət etmiş insanların Qərb mədəniyyətinə uyğunlaşa bilməməsini etiraf etmiş, səbəb kimi avropalıların öz milli və dini dəyərlərini onlara güzəştə getməsi olduğunu göstərmişdi: “Biz hətta bu ziddiyyətlərə də göz yumub tolerantlıq nümayiş etdiririk... Passiv dözümlülüyü (tolerantlığı) fəaliyyətdə olan liberalizm ilə, əzələli liberalizm ilə əvəz etmək və Britaniya cəmiyyətinin hansı əsas dayaqlar üzərində qurulduğunu göstərmək vaxtı çatmışdır... Biz ölkədə müxtəlif mədəniyyətlərin bir-birindən uzaqlaşmasına səbəb olan siyasətimizin multikultural doktrinaya uyğunlaşdırılmış uğursuz səhifəsini çevirməliyik”.[238]

Uzun illər boyu multikilturalizmin separasiya[239] modelinin

238 Выступление Дэвида Камерона на конференции по безопасности в Мюнхене 5 февраля 2011 г. - *http://www.bbc.co .uk/news/uk-politics-12371994*

239 ***Separasiya*** - miqrant mədəniyyəti daşıyıcılarının dominant etnik çoxluqdan tam və ya qismən təcrid olunması. Bir dövlət daxilində etnik mədəniyyətlərin siyasi-hüquqi vasitələrlə bir-birindən ayrılması, onların daşıyıcılarının hüquq və azadlıqlarının məhdudlaşdırılması.

Almaniyanın etnik-dini münasibətlərində tətbiqi bu siyasətin son nəticədə illüziya xarakteri daşıdığını, etnik identiklik problemlərinin siyasi müstəviyə qaldırdığını göstərmişdir. Xristian-Demokrat İttifaqının 2010-cu ilin oktyabr ayında keçirilmiş qurultayında kansler **A.Merkel** qeyd etmişdir ki, Almaniya multikultural cəmiyyət yarada, etnik və dini müxtəlifliyin ölkədə birgəyaşayış modelini və hüquq mexanizmlərini qura bilməmişdir. O demişdir: “60-cı illərin əvvəllərində ölkəmizə digər dövlətlərdən olan fəhlələri dəvət etmişdik. Bir vaxtlar onların “nə vaxtsa ölkəni tərk edəcəkləri” ümidi ilə özümüzü aldadırdıq. Bu isə baş vermədi. Əlbəttə, belə yanaşmamız məhz multikulturalizmə, birgə yaşamaq və bir-birimizə hörmət etmək bacarığımıza əsaslanırdı. Bu yanaşma tamamilə iflas oldu”. Merkel Almaniyada milli münasibətlərin tənzimlənməsində özünü doğrultmayan seperasiya modelinin inteqrasiya ilə əvəz edilməsi niyyətindədir. Belə ki, çıxışının sonunda o vurğulamışdır: “Bu siyasətin uğursuzluğuna baxmayaraq, ölkədəki çoxsaylı mühacirlər bundan sonra alman mədəniyyətini səylə mənimsəməli, yerli cəmiyyətə sürətlə inteqrasiya etməlidirlər”.[240]

Beləliklə, üçüncü minilliyin əvvəlindən etibarən immiqrasiya və inteqrasiya Avropanın şimal-qərbində yerləşən ənənəvi immiqrasiya ölkələrində ciddi şəkildə mübahisəli və siyasiləşdirilmiş məsələlərə çevrilmişdir. Həmin dövrdən etibarən multikulturalizmə qarşı mənfi münasibət və anti-immiqrant ovqatın getdikcə artması, hətta bəzi ölkələrdə antiimmiqrant partiyaların yaranması müşahidə olunur. Müəyyən mənada bu, Nyu-York və Vaşinqtonda 11 sentyabr terror

240 Выступление Ангелы Меркель на конференции молодёжной организации Христианско-демократической партии в Потсдаме 16 Октября 2010 г. - *http://www.welt.de/politik/deutschland/article10337575/Kanzlerin-Merkel-erklaert-Multikulti-fuergescheitert.html;* Выступление Дэвида Камерона на конференции по безопасности в Мюнхене 5 февраля 2011 г. *- http://www.bbc.co.uk/news/uk-politics-12371994;* Выступление Николя Саркози на передаче “Paroles de Français” французского телеканала “TF1” /10 февраля 2011 г. / *- http://www.parismatch.com/Actu-Match/Politique/Actu/Nicolas-Sarkozy-et-le-tabou-dumulticulturalisme-250685/*

hücumları, 2004-cü ildə Madrid və 2005-ci ildə Londonda baş verən terror aktları kimi beynəlxalq hadisələrlə əlaqəli idi. 2011-ci ildə üç böyük Avropa ölkəsinin (N.Sarkozi, A.Merkel və D.Kameron) rəhbərləri çoxmədəniyyətliliyi uğursuzluq kimi qiymətləndirdilər. Məhz bu siyasiləşmə artıq növbəti bir Avropa "miqrasiya böhranı"nın yetişdiyini dərk etməyə kömək etdi. [241]

"Miqrantların sayının artması fonunda Avropada dominant millət arasında artan işsizlik və zəif sosial təminat Qərbin multikultural dəyərlərinə və tolerantlığına zərbə vurmuş oldu. Belə bir fikir formalaşdırılır ki, multikulturalizmin Avropa modelinin məğlubiyyətə uğramasının səbəbi miqrantların universal Qərb həyat normasına daxil ola bilməmələri, demokratik prinsipləri və insan hüquqlarının aliliyini rəhbər tutan Avropa qanunlarının isə olduqca mülayim olması ilə əlaqədardır. Hadisələrin belə axarı isə Avropada ifrat millətçilik ideologiyasının və sağ təmayüllü siyasi partiyaların tərəfdarlarının artmasına, irqçi və şovinist çıxışlara səbəb olmuşdur".[242]

Qeyd etdiyimiz kimi, Almaniya hökuməti immiqrantları ayrı yaşamağa sövq etmiş və onlara vətəndaşlıq verməməyə çalışmışdır. Fransa isə multikulturalizm siyasətinin yerinə assimilyasiya siyasətini seçmişdir. Beləliklə, bu cür yanaşmalar icmaların özünə qapanmasına, anklav və gettoların yaranmasına gətirib çıxarmışdır. Bu ölkələr tərəfindən yürüdülən multikulturalizm siyasəti yetərincə düşünülüb hazırlanmamış, illər boyu miqrantları bu cəmiyyətə qəbul etməyə səy göstərilməmiş, inteqrasiya məsələsi bu dövlətləri üç onillik ərzində qətiyyən maraqlandırmamışdır. Avropanın bir sıra aparıcı ölkələrinin nümunəsində multikulturalizm böhranının səbəbi müsəlman icmaları ilə bağlı deyil, əksinə islamofobiya ilə bilavasitə əlaqədardır.

---

241 Vertovec S. and Wessendorf S. (Eds). The Multiculturalism Backlash. New York, NY: Routlege, 2010, p.51.

242 Həbibbəyli Ə. Multikulturalizmin Azərbaycan modeli. /06.12.2012/ - *http://www.azerbaijan-news.az/index .php?mod=3&id=18195*

Hazırda islamofobiyanın yüksəlməsinin səbəbi kimi məhz miqrasiya böhranının yaranmasını göstərən baxışlar da geniş yer almaqdadır. Eyni zamanda problemlə dərindən tanış olan alimlər bunun belə olmadığının fərqindədirlər. İngilis alimi **Yutt Klausenin** *"İslam faktoru (Qərbi Avropada din və siyasət)"* adlı əsəri altı Avropa ölkəsində yaşayan (İsveç, Danimarka, Niderland, Britaniya, Almaniya, Fransa) 300 müsəlman lideri arasında aparılan tədqiqatı əks etdirir.[243] Tədqiqat obyekti kimi seçilən əsas mövzular "İslam Avropada", "Avropanın yeni müsəlman siyasi elitası", "Din və siyasət", "Münaqişədən mədəniyyətlərin müharibəsinə", "Xristian və müsəlman Avropası", "Multikulturalizm" kimi qruplaşdırılmışdır. Müəllifin fikrincə, son onilliklərdə Şərq və Qərb arasında toqquşma, savaş, mədəniyyətlərin müharibəsi, dəyərlərin qarşıdurması ardıcıl olaraq şüurlara yeridilir. Lakin bəşəriyyəti xilas edə bilən bir tələb, çağırış varsa, o da dialoqa, qarşılıqlı anlaşmaya, inteqrasiyaya və tolerantlığa çağırışdır. Savaş məntiqinə əsaslanan apokaliptik bəyanatların əsassız olması problemin bir tərəfidir.

Digər tərəf isə "elmi" hesab olunan bəyanatların siyasi məqsədlərlə istifadə olunması, KİV-lər tərəfindən şişirdilməsidir. Avropada yeni müsəlman siyasi elitasının formalaşmasında mövcud olan problemləri tədqiq edən Y.Klausen, qeyd etdiyimiz kimi, altı Avropa ölkəsinin 300 müsəlman lideri ilə geniş fikir mübadiləsi və sosial sorğular aparmışdır. "Bu məkanda on beş milyondan çox müsəlmanın yaşamasına baxmayaraq, onlar Avropa milli parlamentlərində heç otuz yer tuta bilməyiblər. Bir çox ölkədə yalnız 10-15% müsəlman səsvermə hüququna malikdir".

Əslində deyə bilərik ki, qarşıdurma Qərb-Avropa şüuruna xas olan köhnə və yeni düşüncə tərzləri arasında baş verir. Ən böyük problem Avropada islama stereotiplərdən uzaq qərəzsiz bir münasibət

243 Klausen J. The Islamic challenge. Politics and Religion in Western Europe Oxford, 2005

formalaşdırmaq, "fundamentalist, terrorist" olmayan, yəni həqiqi islamın olduğunu dərk etməklə bağlıdır. "Bəli, problemlər var. Bu, islam problemi deyil, hər şeydən əvvəl, "islamofobiya", köhnə və yeni azlıqların, miqrantların yaşadıqları cəmiyyətə haqlı inteqrasiya tələbi, ikili standartlardan azad olmaq problemidir. Hansısa bir dinin qlobal hegemonluğa iddia etmək problemidir". Y.Klausen qeyd edir ki, müsəlmanlar Avropaya XX əsrin 50-60-cı illərindən gəlib. İlk növbədə onlar burada qalmır, pul toplayıb çıxıb gedirdilər. Günlərin bir günü, yəni XXI əsrin əvvəllərində onların sayı 5 milyonu aşanda Qərbi Avropa birdən dərk etdi ki, dövlət bu insanların fundamental haqlarını təmin etməlidir. Müxtəlif fikirlərə görə, islam Avropada son onilliklər ərzində qlobal miqrasiya nəticəsində daha geniş yayılıb. Ancaq 15 milyon müsəlmanın vur-tut 30 nəfəri Avropa dövlətlərinin parlamentlərinin üzvüdür. Bu, milyonlarla insanın seçmək və seçilmək hüququnun tapdalanması deyilmi? Bir çox Avropa şəhərlərində müsəlman əhalisinin yalnız 20-25%-i səs verə bilər. İki istisna var. Yalnız Niderlandda bu ölkənin vətəndaşı olan türk və mərakeşlilərin 50 %-i səs verə bilər. Birləşmiş Krallıq və İtaliyada müsəlman əhalinin cəmi 10 faizinin seçilmək hüququ var. Almaniyada 3,5 milyon türkün yalnız yarım milyonu səs verə bilər. Britaniyada müsəlmanların yarısı öz milli identikliyini sənədlərdə ingilis, irland, şotland və s. kimi göstərir".[244]

Avropa tarixində miqrantlara diqqəti yönəldən ilk sənəd, statistikaya görə, 1970-ci ildə Danimarka hökuməti tərəfindən qəbul edilmiş "Əcnəbi işçi qüvvəsi haqqında" Memorandum hesab olunur. Buraya miqrantların öz ənənə və adətlərinin icrası üçün yer təşkil edilməsini nəzərdə tutan maddələr salınmışdır. Avropanın seçkili orqanlarına seçilənlərin 85-90%-i erkən yaşından burada yaşayan və yaxud burada doğulan müsəlmanlardır.

244 Yenə orada, s. 76

"Avropadakı müsəlman siyasi elitası fundamentalist deyil və onların xilafət yaratmaq fikri yoxdur. Onlar yalnız bir şey istəyirlər - insan haqlarına hörmət və cəmiyyətdə qəbul edilmək".[245] İnsanlar Qərbin təbliğ etdiyi, ağız dolusu danışdığı imkanlar və insan hüquqlarına dair bəyanatlara qulaq asır, qərar verir, bura gəlir, lakin burada başqa şeylə üzləşirlər. Müəllifin verdiyi suallar maraq doğurur.

Burada onu da əlavə edək ki, "islamofobiya" anlayışı ilk dəfə 1997-ci ildə Birləşmiş Krallığın məşhur "beyin mərkəzləri"ndən birinin apardığı tədqiqat nəticəsində çap edilən kitabın mövzusunu təşkil etmişdir. Bu qurum ilk dəfə "islamofobiya" anlayışının lüğətlərə salınmasına nail olur, onu həqiqi vəziyyətə biganəliyin nəticəsi kimi səciyyələndirir. "Kim məsuldur?" sualına cavab bu cürdür: 1.Media və KİV-lər vəziyyəti qərəzlə qızışdırır; 2. Siyasi ksenofob yönümlü partiyalar siyasi divident qazanmaq üçün bu şüardan istifadə edirlər. "Məsələn, karikatura qalmaqalını yada salaq: deyilənə görə, ilk dəfə dramatik məqam (KİV-də) 1989-cu ildə İranın Ali dini rəhbəri Ayətullah Xomeyninin Salman Rüşdüyə qarşı fitvası ilə başlamışdır.[246] Daha sonra Danimarkada karikatura qalmaqalı baş vermişdir. **Helmut Şmit** dəfələrlə təkrar edirdi: "İslam və xristianlıq arasında dözümlü münasibət ancaq avtoritar dövlətlərdə mümkün ola bilər, başqa cür mümkün deyil".

Sosial-mədəni adət-ənənədən doğan narazılıqlara diqqəti cəlb edən müəllif yazır ki, Danimarkada 250 min müsəlman yaşayır, lakin ölkədə müsəlman qəbiristanlığı yoxdur. İnsanlar ölüsünü dünyanın o başına - vətənə göndərir. Yeganə lüteran kilsəsinə 5 qəbiristanlıq

245 Yenə orada, s. 77

246 Qeyd edək ki, hind əsilli ingilis yazıçı Salman Rüşdinin 1988-ci ildə yazdığı "Quran"dan bəhs edən "Şeytan ayələri" kitabı bir çox ölkələrdə qadağan olunub, müsəlman dünyasında isə böyük qəzəblə qarşılanıb. Yüzlərlə insanın ölümünə səbəb olan "Şeytan ayələri"nin nəşrindən sonra onun adı dəfələrlə dünya mediasında hallandı. Əksər müsəlman ölkələrini etiraz dalğası bürüdü. Bu kitabın üzündən neçə-neçə günahsız insanın qanı töküldü. 1989-cu ildə İranın Ali dini rəhbəri Ayətullah Xomeyni kitabı islama qarşı küfr adlandıraraq müəllifin və kitabı nəşr edən bütün şəxslərin qətlinə çağıran fitva vermiş, başına iki milyon dollar pul qoymuşdu.

ayrılıb, lakin burada müsəlman adəti ilə deyil, kremasiya, yaxud tabutla dəfnə icazə verilir. Müsəlman kimi dəfn olunmaq üçün dini işlər üzrə nazirliyə yazmaq və bürokratik əngəlləri keçmək lazım gəlir. Yaxud İngiltərədə 26 arxiyepiskop birbaşa Lordlar Palatasına üzv ola, dini təşkilatlar dövlət tərəfindən maliyyələşdirilə bilər. Başqa dinlərə münasibət isə fərqlidir. Avropa hüquq mütəxəssislərinin fikrincə, bu, qanunda dini diskriminasiyaya dair boşluqdan irəli gəlir. Sosial yönümlü müsəlman dini təşkilatlar dövlət tərəfindən dəstəklənməli, din-dövlət münasibətlərində islahatlar aparılmalı, etnik azlıqlara işləmək üçün kvotalar verilməlidir. Yaxud Almaniyada Qurban və digər dini bayramlara bir gün də olsa vaxt ayrılmır, xristianlara isə öz dini bayramlarını qeyd etməyə icazə və vaxt verilir.

Beləliklə, Qərb ölkələrində multikulturalizm siyasətinin böhranının başlıca səbəbi burada etnomədəni problemlərə multikultural yanaşma tərzinin dövlətin reallıqlara söykənən milli (etnik və dini) ənənələrini əvəz etməsi, həmin konsepsiyanın tətbiqi zamanı milli təhlükəsizlik maraqlarının, yerli ənənə və birgəyaşayış normalarının, dominant (dövlətyaradıcı) etnos və titullu din amillərinin nəzərə alınmamasıdır. Etnik və dini zəmində baş verən daxili münaqişələr, terror aktları, etnik azlıqların süni assimilyasiya tədbirlərinə etirazı, eləcə də onlara etnik anklav çərçivəsində “mədəni muxtariyyət” verilməsi milli maraqların multikulturalizm ideyasına güzəştə getməsi ilə nəticələnmişdir.

Qeyd edilən məsələlər Beynəlxalq “Multikulturalizm siyasəti indeksi”ndə də açıq şəkildə öz əksini tapmışdır. “Multikulturalizm siyasəti indeksi” Qərbin demokratik sayılan 21 ölkəsində multikulturalizm siyasətinin reallaşması və təkamülünü təhlil edən elmi tədqiqat layihəsidir. Layihə multikulturalizm siyasəti haqqında informasiyanı müqayisəli formada təqdim edir. Bu da dövlətin mədəni və dini plüralizm siyasətinin meyillərini aşkar etməyə imkan verir. İndeksdə azlıqların üç tipi və onlara münasibətdə həyata keçirilən multikulturalizm siyasəti

müəyyən edilmişdir. Bunlar aşağıdakılardır: 1. immiqrantlar qrupu; 2. tarixən yaşayan milli azlıqlar; 3. yerli (köklü) xalqlar.

1980-2010-cu illəri əhatə edən reytinqdən göründüyü kimi, Fransa və Almaniya bütün Avropada olduğu kimi bu sahədə geriləmişdir:




**Mənbə:** *Multiculturalism Policy Index. Accessed September 2011. - http://www.queensu.ca/mcp/*

Tarixdə çoxsaylı etnik və dini birlikləri vahid məkanda birləşdirməyə cəhd edən sosial eksperimentlər, layihələr olmuşdur. Onların sonuncusu şahidi olduğumuz "sovet" layihəsi idi. Bu gün məlumdur ki, milli identikliyə və mədəni özünəməxsusluğa biganəlik göstərilməsi yolu ilə "sosial-mədəni harmoniya" yaradılması cəhdləri nə keçmişdə uğur qazanmışdır, nə də gələcəkdə müvəffəqiyyətli ola bilər. Milli, mədəni, dini kimliyin görməzdən gəlinməsi, hər hansı vahid ideologiya (liberal multikulturalizm olsun, yaxud sovet) ilə əvəzlənməsi cəhdləri həmişə puça çıxmışdır. Yalnız sovetlərin deyil, tarix boyu mövcud olan bütün imperiya və diktaturaların aqibəti bunu sübut edir.

"Bu gün Avropanın, Avropa mədəniyyətinin daşıyıcısı o kəslər deyil ki, öz sivil mənşələri barədə hamıdan uca bağırırlar, o kəslər deyil ki,

"biz asiyalı barbarların qarşısını alan millətik" deyirlər. "Avropa ruhu", yaxud "ruhun Avropası" o yerdədir ki, orada insanların əziz saydığı dəyərlərə hörmət, etik-əxlaqi normalara riayət edirlər, Avropa ruhu elmi kəşflərin baş verdiyi, məktəb və universitetlərdə ən yaxşı təhsil imkanlarının verildiyi, sülh musiqisinin və sülh himnlərinin yazıldığı məkanlardadır. Bu ruh məkanında sərhədlər yoxdur".[247]

Yekun olaraq qeyd edilməlidir ki, bir neçə on il əvvəl Qərb dövlətləri işçi qüvvəsinə kəskin ehtiyac üzündən multikulturalizmdə şəffaflıq və müxtəlifliyə əsaslanan cəmiyyət ideyasını Avropanın sosial problemlərinin həlli olaraq görürdülər. Lakin indi onlar multikulturalizmin problemlərin əsas səbəbi olduğu fikrindədirlər. Bu, bir sıra siyasətçiləri, siyasi liderləri multikulturalizmi açıq şəkildə tənqid etməyə və onun təhlükəli bir tendensiya olduğunu elan etməyə məcbur etdi. Beləliklə, Qərbi Avropa ölkələrində baş verən hadisələr multikulturalizmin çıxılmaz vəziyyətdə olduğunu göstərdi.

Belə bir fikir formalaşmışdır ki, Avropada multikulturalizm modelinin dağılması səbəbi miqrantların özləridir, Qərbin yaşam tərzi standartlarına inteqrasiya edə bilməməsidir. Bu yanaşma ifrat sağ təmayüllü millətçi ideologiya tərəfdarları və siyasi partiyaların, irqçi və şovinist çıxışların artmasına gətirib çıxarır. Bəzi multikulturalizm tənqidçilərinə görə, bunun səbəbi Qərb ölkələrinin immiqrasiyanı genişləndirdiyi halda, miqrantların cəmiyyətə inteqrasiya olunmasını tələb etməməsidir. Multikulturalizm tərəfdarları isə problemin etnik müxtəliflikdə yox, məhz irqçilik və ayrı-seçkilikdə olduğuna əmindirlər. Onlar bu cür halların cəmiyyətdə olan birlik və qarşılıqlı etimada, milli kimliyə zərbə vurduğunu qeyd edirlər. Lakin etiraf etmək lazımdır ki, multikulturalizmlə bağlı siyasi mübahisələrin arxasında digər sosial-mədəni, dini-mənəvi məsələlərin geniş spektrində də böhran yaşanır.

Qərb cəmiyyəti işçi qüvvəsinə ehtiyac duyduqları miqrantlara ölkəyə

247 Браг Р. Европа, Римский путь. М., 1995, с. 156

daxil olmaq hüququ versə də, onlara öz mədəni kimliyini saxlamaq hüququ ilə cəmiyyətlə qaynayıb-qarışmaq imkanı yaratmamışlar. Nəticədə, ziddiyyətlərin dərinləşməsi, fobiyaların genişlənməsi və siyasətçilər tərəfindən körüklənməsi bu ölkələri miqrantlarla bağlı yeni yanaşmalar seçməyə, multikulturalizm adlanan, əslində tarixən formalaşan birgəyaşayış tərzi kimi deyil, "dövlətin sponsorluq etdiyi" (Rita Çin) multikulturalizm siyasətindən elə dövlət rəsmilərinin də imtina etməsi kimi absurd vəziyyətin yaranmasına gətirib çıxarmışdır.

Nəticə olaraq, bu cür yanaşmalar icmaların özünə qapanmasına, anklav və gettoların yaranmasına gətirib çıxarmışdır. Bu ölkələr tərəfindən yürüdülən multikulturalizm siyasəti yetərincə düşünülüb hazırlanmamış, illər boyu miqrantları bu cəmiyyətə qəbul etməyə səy göstərilməmiş, inteqrasiya məsələsi bu dövlətləri demək olar ki, üç onillik ərzində qətiyyən maraqlandırmamışdır. Problemlərin üst-üstə yığılıb qalması ona gətirib çıxardı ki, Avropanın dövlət rəsmiləri multikulturalizm siyasətinin iflasa uğramasını açıq şəkildə bəyan etməli oldular. Bu gün reallıqda multikulturalizm böhranının səbəbi və günahkarı qismində miqrantların özlərinin ittiham edilməsi, onların inteqrasiyaya qabil olmaması və neoliberal dəyərlər sistemindən kənarda qalmalarına dair  absurd şüarlar geniş yayılmaqdadaır.

Həqiqətdə Qərb mədəni siyasətində baş verən tənəzzül proseslərinin gerçək səbəbkarının miqrantların deyil, tarixən düzgün müəyyən edilməyən miqrasiya siyasəti ilə, miqrantların siyasi, sosial, mədəni, dini və digər hüquqlarının təmin edilməməsi ilə bilavasitə bağlılığı göz önündədir.

Yuxarıda sözü gedən, Qərbin demokratik hesab edilən 21 ölkəsini əhatə edən "Multikulturalizm Siyasəti İndeksi"nin əsas kimi götürdüyü meyarların - indikatorların sırası  maraqlı məqamları aşkara çıxarır. Belə ki, hazırda baş verən mədəni siyasətin tənəzzülünün göstəriciləri kimi "qabaqcıl ölkələrdə multikulturalizmin dəyərləndirilməsi meyarı kimi bu sahədə: dövlət siyasəti kimi multikulturalizmin rəsmi

sənədlərdə əksini tapmaması, onun həyata keçirilməsinə səlahiyyətli olan dövlət qurumunun təsis edilməməsi, təhsil sahəsində mədəni müxtəlifliyi təbliğ edən kurrikulumların olmaması, azlıqların dilində televiziya kanallarının olmaması kimi bəndlər yer almışdır".[248]

Sadalanan meyarları Azərbaycanla müqayisə etdikdə, necə deyərlər, şərhə ehtiyac qalmır. Belə ki, Azərbaycanda multikulturalizmin dövlət siyasəti səviyyəsində dəstəklənməsi, onun həyata keçirilməsi üçün ən ali səviyyədə dövlət strukturlarının, bu sahədə əməkdaşlıqla bağlı beynəlxalq mərkəzin təsis edilməsi, nəinki Azərbaycanda, dünya universitetləri miqyasında multikultural təhsilin tətbiq edilməsi və s. göstərir ki, multikulturalizmin böhranı haqda şüarların əsası yoxdur. Azərbaycan təcrübəsinin öyrənilməsi öz töhfəsini verə bilər.

Multikulturalizmi tədqiq edən müəllif Ə.Həbibbəylinin bununla bağlı olaraq qeyd etdiyi kimi: "Qərbsayağı multikultural dəyərlərin iflası multikulturalizmin böhran yaşaması anlamına gəlməməlidir. Fərq multikulturalizmə siyasi alət, yoxsa həyat tərzi olaraq baxılmasındadır. Multikulturalizmi həyat tərzi olaraq qəbul edən Azərbaycan kimi ölkələrdə multikultural mühitin çiçəklənməsindən və davamlılığından danışmaq olar".[249]

## 5.6. Miqrasiya böhranı beynəlxalq münasibətlərdə qlobal ədaləti çökdürən son zərbə kimi

Tədqiqatın məzmunundan göründüyü kimi, hazırda beynəlxalq münasibətlərdə, eləcə də Qərb xarici siyasətində "böhran labirintindən, xaos marafonuna aparan vəziyyət"dən çıxış yolu tapmağa verilən vaxt olduqca məhduddur. Onun nəticələri fundamental əhəmiyyət kəsb edəcək.

248 *http://www.queensu.ca/mcp/immigrant-minorities/evidence/switzerland*

249 Həbibbəyli Ə. Multikultural dəyərlərin formalaşmasında "özgə" anlayışı. // "Strateji təhlil" jurnalı, say 3-4, 2017, s.14

*"Qlobal ədalət"* vartıq iki onillikdən çoxdur ki, bir çox tədqiqatın predmetidir. Ədalətə dair ideya və nəzəriyyələrin əsrlərlə yaşı olmasına, dünyanın aparıcı universitetlərində (məsələn, Harvardda) "qlobal ədalət" kursunun tərdis olunmasına baxmayaraq dünyada ədalət arzu olaraq qalır.

1971-ci ildə çap edilmiş *"Ədalət nəzəriyyəsi"* kitabının müəllifi, amerikan filosofu, **Con Rolz** *(J. Rawls)* qlobal ədalət məsələlərinin elmi müzakirəyə gətirilməsinin təşəbbüskarı olmuşdur. Ümumiyyətlə, bu gün "qlobal dünya ədaləti" kimi xəyali konstruksiyanın reallaşdırılması mümkündürmü? Onun təminatının institusional genezisi, təşkilatlanması hansı vəziyyətdə və hansı mərhələdədir?

Dünyada liderlik statusuna malik, sülhün və sabitliyin bərqərar olması üçün xüsusi məsuliyyət daşıyan böyük dövlətlər qlobal haqq və ədalətin reallaşmasına hansı dərəcədə həssaslıq göstərirlər? Qlobal ədalət haqqında məsələ bütün kəskinliyi ilə qlobal gündəmdə durur.

Ədalət naminə unutmaq olmaz ki, lider ölkələrin tanınmış şəxsləri, "soyuq müharibə"dən sonrakı dünya nizamının və bütöv bir epoxanın siması, eləcə də İraq müharibəsinin əleyhinə olan **Zbiqnev Bjezinski**, həmçinin **Henri Kissincer**, **Cozef Nay** *(Jozef Nye)* və başqaları bu mövzuya irihəcmli tədqiqatlar həsr etmiş, bu gün yaşanan böhran haqqında xəbərdarlıq etmişlər. Lakin **C.Satvinderin** qeyd etdiyi kimi, "sağlam düşüncəni" dinləməyi kimsə vacib hesab etməmişdir.[250]

"Dünya dövlətlərinin "XXI əsrin oyun qaydalarına" ədalətlə riayət etmək, "formalaşan reallığa görə məsuliyyət daşımaq" ilə bağlı tez-tez bir-birinə etdiyi çağırışlar onu göstərir ki, ümumilikdə "ədalət" anlayışının özü haqqında ortaq fikir formalaşmamışdır. Beləliklə, beynəlxalq birliyin tarixin bundan əvvəlki heç bir dövrü ilə müqayisə edilməyəcək dərəcədə ümumi razılaşdırılmış, aydın məqsədi, metodu

250 Satvinder S. Juss. International Migration and Global Justice. Law and Migration, Ashgate, 2006, 330 p.

və limitlər sistemi yoxdur”. [251]

Miqrasiya böhranında ədalətin iflasını göstərən hadisələrin sayı-hesabı yoxdur. Buraya özləri immiqrant dövlət olaraq yaranan ölkələrin indi immiqrantları bəyənməməsi, onlardan təcrid olunmağa yönəlmiş siyasəti ilk olaraq diqqəti cəlb edir. Dünyaca məşhur ingilis rəssamı **Benksinin** (*Banksy*) qaçqın böhranı və miqrasiya siyasətini tənqid edən, “Apple” şirkətinin və demək olar ki, yeni texnotron eranın yaradıcılarından biri olan, Suriya əsilli miqrant Abdulfattah Jandalinin oğlu Stiv Cobsla bağlı çəkdiyi rəsm bütün dünyada müzakirə edilir. Rəsmdə Stiv Cobs əlində çanta ilə qaçqın kimi təsvir edilir.[252]

Yaşanan miqrasiya faciəsi fonunda məntiqi bir sual yaranır: bütün dünyanı “açıq cəmiyyət” adlanan siyasi texnologiya (“Soros fondları”) vasitəsi ilə demokratiya pərdəsi altında bəlli mərkəzlərdən idarə edən, “sərhədsiz” qlobal şəbəkəyə çevirmək istəyən Qərb xarici siyasəti, onu qlobal maliyyə ilə təmin edən C.Soros indi öz modeli haqqında nə düşünür?

Digər heç bir məntiqə sığmayan məsələ insan hüquqları şüarının geosiyasi məqsədlər üçün sui-istifadə edilərək, onu hətta suveren dövlətin, bütöv bir xalqın hüquqlarından önə çəkən, nəticədə “gözəl” adlarla (*“məxməri inqilablar”, “ərəb baharı”)* bütün dünyanı “Böyük Yaxın Şərq meydanı”na çevirən siyasətdir. Maraqlıdır ki, “Böyük-7”liyin (G-7) son toplantısında “miqrasiya apokalipsisi”[253] həddinə çatan problem hətta gündəliyə belə salınmadı.

Yaşanan miqrasiya faciəsi fonunda məntiqi bir sual yaranır: bütün dünyanı “açıq cəmiyyət” adlanan siyasi texnologiya (“Soros fondları”)

251 Kissinger H. World Order. The Penguin Press, 2015, 420 p.

252 Ellis-Petersen H. Banksy Uses Steve Jobs Artwork to Highlight Refugee Crisis. /11.12.2015/ -*https://www.theguardian.com/artanddesign/2015/dec/11/banksy-uses-steve-jobs-artwork-to-highlight-refugee-crisis*

253 Trump Advisor Stephen Miller Blocked G-7 Migration Proposal. - *http://foreignpolicy.com/2017/05/25/trump-advisor-stephen-miller-blocked-g7-migration-proposal/*

Son bir neçə onillik ərzində Qərb ölkələrinin xarici siyasətinin göylərə qaldırdığı universal/ liberal Qərb dəyərlərinin, etalon həyat tərzinin, multikultural cəmiyyətin mövcudluğuna dair bəyanatlarının sədasına gələn miqrantları bu gün həmin ölkələrin daxili siyasətinə uyğun olaraq, "qala və divarlar, topla silahlanmış gəmilər" qarşılayır.

vasitəsi ilə demokratiya pərdəsi altında bəlli mərkəzlərdən idarə edən, "sərhədsiz" qlobal şəbəkəyə çevirmək istəyən Qərb xarici siyasəti, onu qlobal maliyyə ilə təmin edən C.Soros indi öz modeli haqqında nə düşünür? Qaçqın və miqrant selinə qarşı ucaldılan "Avropa qalasını" və doğulduğu Macarıstanda sərhədlərdə inşa edilən divarları görəndə bütün bunların məhz taleyin ironiyası ilə özünün göylərə qaldırdığı "manipulyativ demokratiya" ideyasının bəhrəsi olduğunu dərk edirmi? Son bir neçə onillik ərzində Qərb ölkələrinin xarici siyasətinin göylərə qaldırdığı universal/ liberal Qərb dəyərlərinin, etalon həyat tərzinin, multikultural cəmiyyətin mövcudluğuna dair bəyanatlarının sədasına gələn miqrantları bu gün həmin ölkələrin daxili siyasətinə uyğun olaraq, "qala və divarlar, topla silahlanmış gəmilər" qarşılayır.

Beynəlxalq təşkilatların yaranmış vəziyyətdə səmərəliliyi son illər şübhə predmetinə çevrilib. "BMT-Dünya nizamı"(UN World Order) adlanan beynəlxalq münasibətlər modeli artıq ədalət prinsipi əsasında deyil, qeyri-sabitliyin artması fonunda fəaliyyət göstərir. Bunun obyektiv və subyektiv səbəbləri BMT modelinin tərəfdarları və əleyhdarlarının polemikalarında özünü açıq şəkildə göstərsə də, vəziyyətin düzəldilməsi yönündə heç bir tədbir görülmür.

BMT, Avropa Parlamenti, ATƏT, "Böyük Yeddilik" (G-7), "Böyük İyirmilik" (G-20) və digər beynəlxalq strukturlar qlobal siyasi proseslərin çağırışlarına adekvat reaksiya verməyə qadir deyillər. Onlar başqa tarixi mərhələdə, başqa funksiya və səlahiyyətlərlə yaradılmışdır.

Buna görə də təəccüblü deyil ki, onlar hazırda yaranan problemlərin həllinə hazır deyillər. Beynəlxalq təşkilatların problemlərin ədalətli həllinə dair missiyaları, Minilliyin məqsədləri, inkişaf proqramları və digər bu qəbildən olan sadəlövh "utopiyalar" mərhələsi artıq tarixə qovuşub. Aparılan danışıqlar, qəbul edilən qərarlar kağız üzərində qalıb. BMT-nin tribunası səhvlərin etirafı və onların nəticəsində gündən-günə artan qlobal bəlaların sadalandığı ünvana çevrilib. 70 ildən çox tarixə malik BMT-ni artıq çoxpartiyalı parlamentlə müqayisə edirlər. ABŞ Dövlət Departamenti tərəfindən BMT-nin işğal olunmuş ərazilərdə mənzillənən, Fələstin qaçqınlarına yardım göstərən BMT-nin Yardım və Fəaliyyət Agentliyinə (UN Relief and Works Agency (UNRWA))maliyyə yardımının dayandırılması son dövrün ən böyük xəbər başlığına çevrilmişdir.[254] ABŞ tərəfi bunu qeyd edilən Agentliyin işində böyük məbləğdə maliyyə pozuntularının aşkarlanması ilə izah etmişdir. İsrail bu qərarı dəstəkləmiş və Baş nazir Benyamin Netanyahu "bunun ümumi işin xeyrinə olacağını" vurğulamışdır. O mənada ki, maliyyə yardımının ayrılması bundan sonra qaçqınların sonrakı nəsillərinin Yaffaya qayıtmaqla bağlı xəyallarını saxlamasına təsir edəcək. Çünki bu, uzun illər mövcud olan münaqişənin daha da alovlanmasına səbəb olur". [255]Mütəxəssislər rəsmi qeydiyyatda olan 5 milyon fələstinli qaçqına yardımın kəsilməsini onların sayının daha da artması ilə nəticələnəcəyini proqnozlaşdırırlar.

Bütün bunlar bir daha onu göstərir ki, miqrasiya böhranını ənənəvi-demoqrafik, iqtisadi, ekoloji (təbii fəlakətlər), qlobal miqyaslı müharibələrin nəticələri ilə izah etməyə çalışan yanaşmalar baş verən proseslərin mahiyyətini açmaq iqtidarında deyil. Başlıca

254 Hady Amr. In one move, Trump eliminated US funding for UNRWA and the US role as Mideast peacemaker /07.09.2018/ - *https://www.brookings.edu/blog/order-from-chaos/2018/09/07/in-one-move-trump-eliminated-us-funding-for-unrwa-and-the-us-role-as-mideast-peacemaker/?utm_campaign=Brookings%20Brief&utm_source=hs_email&utm_medium=email&utm_content=65766986*

255 Позняков А. Палестинское будущее без американских денег. /02.09.2018/ -*http://ru.euronews.com/2018/09/02/palestina-keeps-reacting-on-unrwa-funding-cut*

səbəb beynəlxalq münasibətlərdə ədalətli qərar qəbulu ənənəsinin yaradılması, dövlətlərin bu sahədə siyasi iradələrini ortaya qoyması müstəvisindədir. Miqrasiya böhranının siyasi/geosiyasi səbəblərinin üzə çıxarılması hazırda yaşanan humanitar fəlakətə tamamilə yeni rakursdan baxmağa, qaranlıq qalan məqamlara işıq salmağa, dolayısı ilə çıxış yollarını görməyə imkan yaradır.

Miqrasiya probleminin bütün potensial çağırışlar və təhlükələrlə birlikdə qlobal və regional təhlükəsizliyin ziddiyyətləri və problemlərinin getdikcə daha da dolaşan "kələfi" qismində, təxirəsalınmaz tədbirlərin görülməsini, qlobal intellektual səfərbərliyi, problemin həllinə tamamilə yeni  yanaşmaları tələb etdiyi bir vaxtda qlobal lider hesab edilən ölkənin belə addım atması beynəlxalq ədalət və humanizm ideyalarına əməli şəkildə vurulan ən böyük zərbə hesab edilə bilər.

# Nəticə əvəzi:
# Miqrasiya böhranının həlli beynəlxalq ədalət prinsipinin bərqərar olmasından keçir

*"Qərb sivilizasiyasının beşiyi olan Avropa onun məzarına çevriləcək".* [256]

**Patrik Byükenen**

*"Hər bir qabaqcıl ölkə həm "ən çox", həm də "ən az" miqrasiya uğrunda mübarizə aparır. Bir tərəfdən ən çox - parlaq intellektli mütəxəssislər və ən varlı zəngin investorları təqib edir, ovlayır, onları hər vəchlə cəlb edirlər. Digər tərəfdən isə gəlib artıq yükə çevriləcək miqrantlardan xilas olmağa çalışırlar".* [257]

**Ditriç Threnhardt**

***Haşiyə:*** 2018-ci il futbol üzrə dünya çempionatının nəticələri qalib ölkə komandasının dünya mediasını gəzən mənzərələri fonunda qlobal sosial şəbəkələrdə miqrasiya böhranı və müstəmləkəçilik irsi ilə bağlı qızğın müzakirələrə təkan verdi. Səbəb Fransa milli komandasının üzvlərinin böyük əksəriyyətinin mənşəcə keçmiş müstəmləkə (xüsusilə Afrika) ölkələrindən olması idi. Bu, paradoksal olsa da, ibrətamiz bir hal idi.

Müzakirələr sırasında Cənubi Afrika mənşəli Amerika aktyoru, 2015-ci ildən yayımlanan və ABŞ-da televiziyalar üçün "Oskar"ın analoqu hesab edilən "Emmi" mükafatına 15 dəfə layiq görülən "The

256 Бьюкенен Дж.П. Смерть Запада. Как вымирающее население и нашествие иммигрантов угрожают нашей стране и цивилизации. М, 2004, с. 13

257 Thränhardt D. Immigration policies in an independent world. // Journal of Comparative Policy Analysis: Research and Practice, 6(2), 2004.

Daily Show" proqramının aparıcısı, şoumen **Trevor Noyla** *(Trevor Noah)* Fransanın Amerikadakı səfiri **Gerard Araud** arasında baş verən qalmaqal xüsusilə yadda qaldı. Belə ki, Trevor Noy özünün gündəlik verilişində dünya çempionu olması münasibəti ilə Afrikanı təbrik etdi və bu hərəkət Fransanın bu ölkədəki səfiri Gerard Araudun kəskin etirazına səbəb oldu.[258] Onun rəsmi məktubda yazdığı əks-arqumentləri isə bundan ibarət idi: "Fransanın dünya çempionu olmasına "Afrika çempion oldu!" deməkdən böyük yalan ola bilməz, fransızlara afrikalı demək düzgün deyil. Onlar Fransanın multikulturalizmini əks etdirir". Öz növbəsində Trevor Noyun cavabı da belə oldu: "...onlar ilk əvvəl Fransanın müstəmləkəçilik tarixini əks etdirir. Əgər onlar pis bir iş görsəydilər, deyəcəkdilər ki, afrikalı miqrantlar filan cinayəti törətdilər, elə isə çempion olanda niyə Afrika mənşəyini dilinizə gətirməkdən qorxursunuz?"

Tədqiqatda vurğulanan əsas fikirlərdən birini bir daha xatırlatmaq istərdik: Miqrasiya prosesləri dünya qədər qədimdir. Bundan fərqli olaraq miqrasiya siyasəti Yeni dövrdən başlayaraq Qərb məkanında milli dövlətin yaranması ilə tarix səhnəsinə qədəm qoyan sırf bir Qərb fenomenidir.

Yüzillərlə davam edən bu siyasətin - bəşəriyyətin tarixində müstəmləkəçilik, asılı ölkələrin təbii və insan resurslarının talan edilməsi, nəticə kimi yaranan qlobal böhranların emissiya və borc "piramidaları" hesabına kompensasiyası, suveren dövlətlərin daxili işlərinə qarışmaqla münaqişələrə və humanitar fəlakətlərə yol açan, qloballaşma proseslərinin obyektiv məntiqinə zidd olaraq gerçəklikdə "qərbləşmə" kimi yürüdülən ənənənin imkanları tükənib. Hazırda yaşanan miqrasiya böhranı bunun aşkar təzahürüdür.

Bəşəriyyət tarixində qlobal miqyaslı böhranlar həmişə olmuşdur və yada salmaq vacibdir ki, onlar əksər hallarda müharibə yolu ilə

258 *https://www.facebook.com/TrevorNoah/videos/212239442809162/*

həll edilmişdir. Günümüzdə - XXI əsrdə dünya birliyi baş verən bu qlobal böhranı müharibəsiz həll etməyi bacaracaqmı? “Dünya birliyi” anlayışının özünün simvolik məna daşıdığı bir dövrdə bu sualın nikbin cavabı mövcud deyil.

Yaranmış vəziyyətdə bir tərəfdən tarixən olduğu kimi, miqyaslı müharibə başlayıb, bütün günahları onun üzərinə yıxmaq çıxış yolu olmasa da, buna cəhdlər edilir. Beynəlxalq siyasi gündəmə diktə edilməsi, gərginliyin artırılması siyasəti davam etdirilir. Təbii ki, Qərb bu niyyətini müvəqqəti olaraq bütün dünya nizamına qeyri-sabitlik, xaos gətirmək hesabına reallaşdıra, nəfəs dərimi üçün müvəqqəti zaman əldə edə bilər. Lakin bu, son bir neçə əsr boyu göylərə ucaldılan “azadlıq, demokratiya, bərabərlik ehkamlarının” tamamilə yıxılmasına qədər davam edə bilər. Bütün bunlar XXI əsrə qədər gəlib çıxan sivilizasiyanın gələcəyinə şübhə ilə baxmağa əsas verir.

Digər tərəfdən, “problemləri həll etmək mümkün deyilsə, onları məhv etmək, günahsız tərəfi ittiham etmək kimi qədim strategiya” davam etdirilir.

Nə qədər paradoksal vəziyyət olsa da, Qərb öz hegemonluq siyasəti nəticəsində laxlayan siyasi sistemi ayaqda saxlamaq üçün miqrasiya böhranından sui-istifadə etməyə də çalışır! Belə ki, yaranmış vəziyyətdə Qərb cəmiyyətində formalaşan aqressiv müqaviməti neytrallaşdırmaq üçün böhrana gətirib çıxaran siyasət deyil, onun qurbanları - miqrant və qaçqınlar bütün bəlaların günahkarı, sistemi çökdürən amil qismində ittiham edilir.

Bu siyasətin ifrat ideologiya və fobiyalar hesabına vəziyyətdən çıxış yolu kimi tətbiq edilməsi tam gücü ilə yayılmaqdadır. Çünki böhranın əsl siyasi səbəblərinin deyil, onun qurbanlarının ittiham edilməsi nə qədər utancverici olsa da, hələlik işə yarayır.

Siyasi iqtidara bütün böhranların məhz miqrantların səbəbkar

> Qərb öz hegemonluq siyasəti nəticəsində laxlayan siyasi sistemi ayaqda saxlamaq üçün miqrasiya böhranından sui-istifadə etməyə də çalışır. Belə ki, yaranmış vəziyyətdə Qərb cəmiyyətində formalaşan aqressiv müqaviməti neytrallaşdırmaq üçün böhrana gətirib çıxaran siyasət deyil, onun qurbanları - miqrant və qaçqınlar bütün bəlaların günahkarı, sistemi çökdürən amil qismində ittiham edilir.

olduğuna cəmiyyəti daha çox inandıra bilənlər gəlir. Onları dəstəkləyənlərin sayı durmadan artır. Son bir neçə əsr boyu göylərə qaldırılan liberal Avropa dəyərləri ayaqlar altına atılır.

Tarixə nəzər salsaq görərik ki, dünya siyasi sistemi müxtəlif faciəli proseslərdən keçib. Lakin bu proseslərin ən kəskin dövründə belə aparıcı dövlətlərin öz yaxasını kənara çəkməsi demək olar ki, rast gəlinməyən hadisədir. Bu həm də hazırkı qlobal böhranın miqyası və ağırlığına görə əvvəlki heç bir dövrlə müqayisəedilməz olduğuna dəlalət edir.

Acı reallıq isə bundan ibarətdir ki, qlobal liderlik iddialarında olan, indiki ağır məqamda isə ondan imtina edən ölkələrin hazırkı böhrandan çıxış yolu üçün nə strategiyası, nə də ən başlıcası siyasi iradəsi var.

Miqrasiya böhranının aşkara çıxardığı görünməmiş hadisələrdən biri də məhz son bir neçə əsr boyu davam edən Qərbin hegemonluq siyasəti və liderlik iddialarının ciddi sınaq - qlobal insan köçünün tənzimlənməsi qarşısında aciz qalması oldu. Bu gün aparıcı Qərb dövlətləri problemlərin həlli üçün strateji qərar seçimi dilemması ilə üz-üzə qalıb.

Miqrasiya faciəsi dolayısı ilə Qərbin üstünlüyünün tarixən necə formalaşması, təkamülü və dinamikasına nəzər salmağı gündəmə gətirir.

"Qərb bu üstünlüyünü nəyin hesabına əldə edib?" sualının cavabı isə məlumdur: həmin siyasətin artıq davam etməsi mümkün deyil.

Miqrasiya problemi ilə bağlı tədqiqatda iqtisadçı alim **Cefri Saksın** fikirlərinə geniş toxunuldu. Onun fikrincə, "Avropada miqrasiya fəlakəti niyə baş verdi? sualının asan cavabı yoxdur. Lakin ən düzgün və ədalətli olanı vicdanla reaksiya vermək və baş verənləri təhlil edib Qərb cəmiyyətini daha az itkilərlə vəziyyətdən çıxarmaqdır. Qısacası, yaxşı bir cavab da yoxdur. Bu cür dürüst düşünmə öz-özlüyündə cəmiyyətlərimizə ən azı pis variantlar haqqında daha dəqiq düşünməyə kömək edə bilər. Birincisi, mənim fikrimcə, qaçqınlara qarşı humanitar məsuliyyəti qəbul etmək, eyni zamanda Suriya qanadını sona çatdırmaqdır. Bu gün qaçqınların qəbul edilməsi və yerləşdirilməsi prosesləri ilə bərabər olaraq, Suriyada gedən müharibəyə və ABŞ-ın rəhbərlik etdiyi "rejim dəyişikliyi" müharibələrinə sürətlə son qoyulmalıdır. ABŞ və onun müttəfiqləri Prezident Başər Əsədin devrilməsinə çalışarsa, Rusiya və İran BMT Təhlükəsizlik Şurasının dəstəyi ilə "İslam dövləti"nə qarşı birgə səylər göstərərsə, bu, mümkündür". [259]

Qərb dövlətlərinin öz xarici siyasətinin nəticələrinə necə yanaşmasını göstərən daha bir məsələyə toxunmaq istərdik. Belə ki, ötən əsrin sonunda BMT-nin qlobal inkişafa dair 2015-ci ilə qədər davamlı inkişafın strateji məqsədləri bəyan edilmişdi. Həmin sənəddə miqrasiya problemi haqqında heç bir hədəf yox idi. 2015-ci il sentyabrın 25-də 193 üzv dövlət tərəfindən BMT Baş Assambleyasının 2030-cu ilədək "Dünyamızı dəyişdirək!" *(Transforming Our World)* adlı Qlobal İnkişaf Gündəliyi qəbul edilmişdir *(2030 Development Agenda. The Sustainable Development Goals).* 2030-cu ilə qədər Qlobal İnkişaf Gündəliyinə daxil olan

259 Sachs J. There's no perfect answer to the migrant crisis – and we must face that. /02.11.2015/ *https://www.theguardian.com/commentisfree/2015/nov/02/answer-migration-crisis-refugees-europe*

nə 17 qlobal hədəfin, nə də 230 indikatorun sırasında yaşanan humanitar fəlakət və ondan çıxış yollarına dair heç nə əksini tapmayıb.[260] Görünən budur ki, Qərb cəmiyyəti bir neçə əsr davam edən miqrasiya siyasətinin, ümumiyyətlə, yürütdüyü siyasətin nəticələrinin fərqində deyil. Ola bilsin ki, bu, həmin siyasətin köklərinin çox dərində olmasından, əsrlərlə formalaşan "Parçala və hökm sür!" ideologiyasına əsaslanmasından, XIX əsrə qədər davam edən müstəmləkəçi-quldarlıq ənənəsinə dayanmasından irəli gəlir. Bu köklərin qoparılması praktiki olaraq qeyri-mümkündür. Qərbin bəyan edilən gurultulu liberal dəyərləri bu gün də iqtisadi fayda və geosiyasi maraqların xidmətində durmağa cəhd göstərir. Burada ən acınacaqlı vəziyyət ondan ibarətdir ki, bu siyasətin fəlakətli nəticələri artıq yalnız hansısa imperiyanın çökməsi ilə sona çatmayacaq. Miqrasiya böhranı qloballaşmanın sıx bağlarla birləşdirdiyi bütün dünya sistemini təhdid altına alır.

İmmiqrasiya prosesləri artıq müstəmləkəçilik dövründə olduğu kimi hər bir dövlətin daxili - lokal işi olmayıb, qlobal ortaq səylər tələb edir. Reallıqda isə böhrandan hər bir dövlətin özünü sığortalamaq, təkbaşına çıxmaq cəhdləri vəziyyəti tamamilə kəskinləşdirir.

Son miqrant dalğasının təkanverici səbəbi kimi Yaxın Şərqdə müstəqil dövlətlərin daxili işlərinə müdaxilə edilməsi çıxış etdi. Əslində, miqrasiya böhranı və Avropanı cənginə alan struktur destabilizasiya prosesləri, "Ərəb baharı" nəticəsində Yaxın və Orta Şərqin "xaotik qeyri-müəyyənlik fazasına" qədəm qoyması, beynəlxalq terrorizmin, zəif və iflas edən dövlətlərin sayının durmadan artması - bütün bunlar əsrlərdir davam edən, hələ də sonu görünməyən tarixi-siyasi dramın "final aktı" deyil və olmayacaq. Həmin tarixi dramın adı "Qərbin qlobal liderlik missiyasının reallaşmasıdır".

260 Lynch C. Transforming our world: the 2030 Agenda for Sustainable Development. /25.05.2017/ -*https://sustainabledevelopment.un.org/post2015/transformingourworld*

Qərbin universializmə iddialı liderlik irsinin, demokratiya, azad bazar və insan hüquqlarına dair siyasətinin istənilən ölkədə, hətta hansı inkişaf mərhələsində olmasından asılı olmayaraq mütləq-etalon reseptlər kimi qeyd-şərtsiz reallaşdırılmasının acı nəticələri yaşanan miqrasiya faciəsində bir damla suda olduğu kimi əksini tapmışdır.

Sivilizasiyaların tarixində uzunmüddətli və fövqəl uzunmüddətli dövrlərin dəyişməsi zamanı baş verən böhran mərhələləri keçmişdə də baş vermişdir və bundan sonra da olacaq.

Qeyd edilən tarixi transformasiya prosesləri və sivilizasiyaların dinamikasının əsasında Arnold Toynbi və Fernan Brodel, Pitirim Sorokin və Nikoloya Kondratyev tərəfindən aşkar edilmiş tarixi inkişaf qanunauyğunluqları durur. Həmin qanunauyğunluqlar sırasında "Tarix rəqqasının (kəfkirinin) hərəkəti" qanunu da aşkara çıxarılıb. "Tarixin rəqqası" sivilizasiyaların yaradıcı fəallığı ilə bağlı proseslərin istiqamətlərini ifadə edir. Onun makrotarixi – epoxal aspektdə izlənməsi onu göstərir ki, sivilizasiyaların yaranması tarixi proses kimi Şimali Afrika və Yaxın Şərqdən başlanğıcını götürmüşdür. Daha sonra tarixi proseslərin mərkəzi Şərqə - Hindistana və Çinə doğru yerini dəyişib.

Son miqrant dalğasının təkanverici səbəbi kimi Yaxın Şərqdə müstəqil dövlətlərin daxili işlərinə müdaxilə edilməsi çıxış etdi. Əslində, miqrasiya böhranı və Avropanı cənginə alan struktur destabilizasiya prosesləri, "Ərəb baharı" nəticəsində Yaxın və Orta Şərqin "xaotik qeyri-müəyyənlik fazasına" qədəm qoyması, beynəlxalq terrorizmin, zəif və iflas edən dövlətlərin sayının durmadan artması – bütün bunlar əsrlərdir davam edən, hələ də sonu görünməyən tarixi-siyasi dramın "final aktı" deyil və olmayacaq. Həmin tarixi dramın adı "Qərbin qlobal liderlik missiyasının reallaşmasıdır".

Antik dövrdə sivilizasion inkişaf mərkəzi Aralıq dənizində, orta əsrlərdə  Şərqdə, Çində və Hindistanda mövcud olub.

Məlum olduğu kimi, tarixin müəyyən mərhələlərində Qərb Şərqdən, xüsusən İslam aləmindən hər cəhətdən geri qalmışdır. Orta əsrlərdə Qərbdə elmin inkişafı və mütəfəkkir alimlərin ideyaları dini inkvizisiya alovunda "qovrulanda" İslam bölgəsində VII-XIII əsrlərdə elmin bütün sahələri  özünün "qızıl əsrini" ("Islamic Golden Age") yaşayırdı.[261] Britaniya Kral Cəmiyyətinin Maykl Faradey adına mükafatının laureatı, nəzəri fizika sahəsində görkəmli alim **C.Əl-Xəlili** qeyd edir: "Tam 700 il boyu dünya elminin beynəlxalq dili ərəb dili olub. Dahi alimlər Yeni dövrdə Qərbdə yaranan müasir riyazi, həndəsi, tibbi və s. elmi metodları onillərlə əvvəl qabaqlamış, dünyanın elmi dərk edilməsində öncüllər olmuş, ilk cığırlar açmışlar".[262]

XVI əsrdən başlayaraq, "tarixin rəqqası" Qərbə doğru yönəlib, onun yüksəlişi və qlobal hökmranlığa nail olması tendensiyası başlayıb və bu günə qədər davam edir. Bu hökmranlığın kökündə başqa xalqların və ölkələrin sərvətləri hesabına inkişaf etmək kimi müstəmləkəçilik siyasəti, onların isə permanent geriliyə və asılılığa düçar edilməsi siyasəti durub.

Tədqiqatçıların fikrinə görə, XXI əsrdə "tarix rəqqasının" – sivilizasiyaların yaradıcı fəallığının mərkəzinin yenidən əks istiqamətə dəyişməsi müşahidə olunur, Çin və Hindistan – Asiya qitəsi bu transformasiyanın  liderləri hesab edilir.

Avropanın "qürub fəlsəfəsinin" nümayəndəsi Osvald Şpenqler dövrünün ziddiyyət və böhran ovqatını ifadə edərək yazırdi: "İnsanlarda nə isə bir narahatlıq gözləntisi var idi. Bu faciələr sanki gözlənilən idi. Bütün bunlar Böyük Böhrandan xəbər verirdi. Dünya

261 The Golden Age of Islam - A Second Look. By Richard Butrick. - *https://www.gatestoneinstitute.org/2757/ golden-age-of-islam*

262 Pathfinders: The Golden Age of Arabic Science. By Jim Al-Khalili. Penguin Books Ltd. London. 2012,336 p.

sanki necə yaşamağı, birlik üçün nə etməyi izah edən Böyük İdeya axtarışında idi".[263]

Qərb siyasəti bu gün tənqidi şəkildə yenidən nəzərdən keçirilməli, Böyük İdeya üçün bütün sağlam qüvvələr səfərbər edilməlidir. Öz inkişafında görünməmiş yüksəkliyi, inteqrasiya modelini qət edən sivilizasiya bu gün nə üçün uçurum qarşısında olmasının səbəblərini dərk etməlidir. Bu gün Qərb cəmiyyəti öz sivil liberal dəyərlərinin gerçəklik olduğunu, tarixi varisliyini, Qərb demokratiyasının, insan hüquqlarının boş bir mif deyil, yaşarılığını sadəcə sübut etməlidir.

Beləliklə, XXI əsrin ikinci onilliyi başa çatmaq üzrədir və dünya qlobal sarsıntı - miqrasiya böhranı ilə üz-üzədir. Qərb dövlətləri özlərinin yaratdığı qlobal siyasətin girovuna çevrilib. Miqrasiya böhranının həll edilməsində ilk növbədə onun səbəbləri ilə bağlı düzgün və ədalətli mövqeyin tutulmaması indiyə qədər olduğu kimi bundan sonra da Qərbin süqutunu daha da gücləndirən proseslərə təkan verə bilər.

Yaranan suallardan biri budur ki, Qərb siyasətinin indiyə qədər problemlərdən çıxış yolu kimi seçdiyi manevrlər bu dəfə də onu xilas edə biləcəkmi? Ümumiyyətlə, böhrana səbəb olan siyasətin qüsurlarını etiraf etmədən ondan çıxış yolu tapıla bilərmi? Beynəlxalq gündəmi məşğul edən başlıca suallardan biri də budur. Bütün bunlar üçün çox düşünməyə vaxt və ehtiyac yoxdur. Sadəcə qlobal siyasətdə və beynəlxalq hüquqda ədalət prinsipinə əməl edilməlidir. İndiki miqrantlara qədər 30 il (Azərbaycan), 70 il (Fələstin) əvvəl qaçqın düşənlərin öz torpaqlarına qaytarılması, Xocalı soyqırımı, Rohingya qətliamı günahkarlarının və digər çoxsaylı günahkarların cəzalandırılması ədalətin təntənəsi, həm də ilk qlobal presedent ola bilər.

263 Şpenqler O. Avropanın qürubu. Bakı, 2008

Mövcud böhran vəziyyətindən çıxış yolu ilk növbədə Qərb ölkələrinin xarici siyasət paradiqmasının köklü surətdə dəyişməsi ilə bağlıdır.

Beləliklə, miqrasiya böhranı və buradan irəli gələn sistemli böhranların qarşısının alınmasına gedən yol beynəlxalq ədalət prinsipinə riayət edilməsindən keçir.

# İstifadə edilmiş ədəbiyyat:

Azərbaycan dilində:


1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasının Radio-Televiziya Şirkətinə müsahibəsi. / 22 fevral 2016-cı il/ - https://azertag.az/xeber/Azerbaycan_Respublikasinin_Prezidenti_Ilham_Aliyevin_Iran_Islam_Respublikasinin_Radio_Televiziya_Sirketine_musahibesi-929280
2. Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib: Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi. /7 oktyabr 2016-cı il/ - http://files.preslib.az/site/ialiyev/2016.pdf
3. Prezident İlham Əliyevin və Türkiyənin Baş nazirinin mətbuat üçün bəyanatları. / 03 iyun 2016-cı il / - president.az/articles/20280/print
4. Prezident İlham Əliyevin Londonda "Suriyaya və regiona dəstək" konfransında nitqi. /04 fevral 2016-cı il/ - https://president.az/articles/17957
5. Ermənistanda aparılan etnik təmizləmə və Ermənistan silahlı qüvvvələri tərəfindən Azərbaycanın 20 faiz ərazisinin işğalı nəticəsində yaranmış bir milyonadək qaçqın və məcburi köçkünlər haqqında məlumat (1988-2011-ci illər) - http://www.refugees-idps-committee.gov.az/docs/kitab.pdf
6. Ermənistan silahlı qüvvələri tərəfindən əraziləri işğal olunmuş və ya zərər çəkmiş, Ermənistanla və Dağlıq Qarabağla həmsərhəd olan rayonlar barədə мəlumat. - http://www.refugees-idps-committee.gov.az/az/pages/1.html
7. Həbibbəyli Ə. Multikulturalizm: bəşəri ideya, yaxud Qərb dəyərləri? /I və II hissələr/ - http://newtimes.az/az/politics/1064/
8. Həbibbəyli Ə. Multikulturalizmin Azərbaycan modeli. /06.12.2012/ - http://www.azerbaijan-news.az/index.php?mod=3&id=18195
9. Həbibbəyli Ə. Multikultural dəyərlərin formalaşmasında "özgə" anlayışı. // "Strateji təhlil" jurnalı, say 3-4 2017
10. XİN: Azərbaycanda məcburi köçkünlərin sayı 1.2 milyon nəfəri keçib. /20.06.2018/ - https://sputnik.az/news/20180620/415851953/mecburi-kockunlarin-sayi-1-2-milyonu-kecib.html
11. İnsan hüquqları və qaçqınlar. /Tərcüməçi T.Vəliyev. Bakı, 1999
12. Məmmədov N. Bu gün miqrasiya böhranı Avropanın aparıcı ölkələrinin siyasətinin nəticəsidir. /08.09.2015/ - http://www.yeniazerbaycan.com/SonXeber_e10124_az.html
13. Məmmədov N. Müasir tarixdə miqrasiya prosesi haqqında. /07.08.2017/ - https://azertag.az/xeber/Muasir_tarixde_miqrasiya_prosesi_haqqinda-1083760

14. Suriyalı qaçqınlar Laçında-video /08.04.2013/ - http://www.bbc.com/azeri/multimedia/2013/04/130408_syria_refugees_karabakh
15. Şpenqler O. Avropanın qürubu. Bakı, 2008
16. XX əsrin ən amansız soyqırımı - 31 Mart / müsahibə/. Musa Qasımlı: "Ermənilər Azərbaycanlılara qarşı yalnız bir prinsiplə soyqırım həyata keçirirdi - "türksənsə öldürülməlisən" / "İki sahil" qəzeti, 31 mart 2011, s. 11/ - http://www.anl.az/down/meqale/iki_sahil/2011/mart/165206.htm

Rus dilində:

17. Армения приняла 13 тыс. сирийских беженцев за три года. - http:// www. mir24.tv/news/society/12802259
18. Бабич И.Л., Родионова О.В. Теория и практика мультикультурализма. / Исследования по прикладной и неотложной этнологии. – М.: ИЭА РАН, 2009, вып. 215, 49 с.
19. Бенхабиб С. Притязание культуры. Равенство и разнообразие в глобальную эру. /Пер. с англ, под ред. В.Л.Иноземцева. М.: Логос, 2003, 350 с.
20. Бобков И.М. Постколониальные исследования, постколониальные штудии // Новейший философский словарь. 3-е изд., исправл. / Сост. и глав. науч. ред. А.А. Грицанов. Минск: Книжный дом, 2003.
21. Браг Р. Европа, Римский путь. /Пер. А.М. Руткевича. - Долгопрудный: Аллегро-Пресс, 1995, 176 с.
22. Бьюкенен Дж.П. Смерть Запада. Как вымирающее население и нашествие иммигрантов угрожают нашей стране и цивилизации. М, 2004
23. Венгрия обвинила Хорватию в нарушении суверенитета. /19.09.2015/ - https://korrespondent.net/world/3565405-venhryia-obvynyla-khorvatyui-v-narushenyy-suverenyteta-
24. Выступление Ангелы Меркель на конференции молодёжной организации Христианско-демократической партии в Потсдаме 16 октября 2010 г. - http://www.welt.de/politik/deutschland/article10337575/Kanzlerin-Merkel-erklaert-Multikulti-fuergescheitert.html
25. Выступление Дэвида Камерона на конференции по безопасности в Мюнхене 5 февраля 2011 г. - http://www.bbc.co.uk/news/uk-politics-12371994
26. Выступление Николя Саркози на передаче "Paroles de Français" французского телеканала "TF1" 10 февраля 2011 г. - http://www.parismatch.com/Actu-Match/Politique/Actu/Nicolas-Sarkozy-et-le-tabou-dumulticulturalisme-250685/
27. Джаббаров Ф. О некоторых аспектах национальной политики Российской империи в

Северном Азербайджане. // "Strateji təhlil" jurnalı, № 3-4 (21-22), 2017

28. Зайончковская Ж.А. Россия: миграция в разном масштабе времени // Научн. Доклады. Вып. 1. М., Центр изучения проблем вынужд. мигр. В СНГ, 1999, 68 с.
29. Ивахнюк И.В. Международная миграция как ресурс развития (замечания в связи с глобальной дискуссией) // Век глобализации, 2011a, № 1, с. 67–79.
30. Кенан Малик. Крах мультикультурализма. /04.05.2015/ - http://www.globalaffairs.ru/number/Krakh-multikulturalizma-17450
31. Ключевский В.О. Сочинения в девяти томах. Том 1. М.: Мысль, 1987, 432 с.
32. Малый энциклопедический словарь Брокгауза и Ефрона. - https://ru. wikisource. org/wiki/%D0%9C%D0%AD %D0%A1%D0%91%D0%95/% D0%9A%D0% BE% D0%BB%D0% BE%D0%BD%D0%B8%D0%B8
33. Молчание глобального безразличия // Советская Россия, – М., 2014, 10 января.
34. На работу-в ЕС. В Армении разрабатывается концепция циркулярной миграции. - http://www.arminfo.am/index.cfm? objectid=67A40500-6C0B-11E4-92440EB7C0D21663
35. Наумов Д.И., Ломов С.А. Мультикультурализм в контексте формирования общеевропейской идентичности. // Экономика образования, № 4, 2011, с.203-206
36. Новый Макрон - как символ старой колониальной Франции. - http://expert.in.ua/mezhdunarodnaya-analitika/0/463-novij-makron---kak-simvol-staroj-kolonialnoj-frantsii
37. Пальцева Л.А. Лелантская война и начало колонизации / Из истории архаической Греции: Мегары и мегарские колонии. - СПб., 1999. - http://centant.spbu.ru/centrum/publik/paltzeva/pal_0131.htm
38. Пинюгина Е.В.Проблема иммиграции и концепция "ведущей культуры" в немецкой политике. - http://www.perspektivy.info/rus/gos/problema_immigracii_i_koncepcija_vedushhej_kultury_v_nemeckoj_politike_2014-07-24.htm
39. Пирен А. Империя Карла Великого и Арабский халифат. Конец античного мира. - https://www.e-reading.club/bookreader.php/1028293/Piren_-_Imperiya_Karla_Velikogo_i_Arabskiy_halifat.html
40. Позняков А. Палестинское будущее без американских денег. /02.09.2018/ - http://ru.euronews.com/2018/09/02/palestina-keeps-reacting-on-unrwa-funding-cut
41. Почему ислам не вписывается в мультикультурализм? /16.08.2011/ - http://kapital-rus.ru/articles/article /pochemu_ islam_ne_vpisyvaetsya_v_multikulturalizm/
42. Свиетоховский Т. Русский Азербайджан. 1905-1920. Формирование национального самосознания в мусульманском сообществе. // "Хазар", №1, 1990, с. 83-109
43. Сергейцев Т., Куликов Д. Мировой кризис. Восток и Запад в новом веке. ООО "Издательство "Э", 2017

44. Соколовский С.В. Права меньшинств: антропологические, социологические и международно-правовые аспекты. - http://society.polbu.ru/sokolovsky_prava/ch01_i.html
45. Тезисы Всероссийского социологического конгресса "Общество и социология: новые реалии и новые идеи". 27-30 сентября 2000 г. СПб., 2000
46. Транкова А. Как британцы навязали свои порядки всему миру. /23.05.2013/ - http://www.forbes.ru/sobytiya/vlast/239510-kak-britantsy-navyazali-svoi-poryadki-vsemu-miru
47. Ушанова И.А. Глобализация и мультикультурализм: пути развития. - https://cyberleninka.ru/article/ v/globalizatsiya-i-multikulturalizm-puti-razvitiya
48. Хижный Э. Государственная система социальной защиты граждан в странах Западной Европы. – М.: ИНИОН РАН, 2006.
49. Юдина Т.Н. Социология миграции: Учебное пособие для вузов. М: Академический Проект, 2006, 272 с.
50. Юрин А. Миграционные процессы в странах ЕС и пути их регулирования. Москва, 2010. http://www.isprras.ru/pics/File/avtoref-11/Yurin.pdf

İngilis dilində:

51. 4 factors driving anti-establishment sentiment in Europe. // Pew Research Center, 6 December 2016/ - http://www.pewresearch.org/fact-tank/2016/12/06/4-factorsdriving-anti-establishment-sentiment-in-europe/
52. AbuKhalil, As'ad. The 8 Proxy Wars Going On in Syria Right Now. /24.09.2014/ - https://www.huffingtonpost.com/asad-abukhalil/syria-proxy-wars_b_5874488.html
53. Achebe C. Colonialist Criticism / Hopes and Impediments: Selected Essays. 19651987. London: Heinemann 1988
54. Agreement concerning the Relationship between the United Nations and the International Organization for Migration. /8 Juley 2016/ - http://www.un.org/ga/search/view_doc.asp?symbol=A/70/976
55. Akkerman T. Comparing radical right parties in government: Immigration and integration policies in nine countries (1996–2010). // West European Politics 35(3), 2012, pp. 511-529.
56. Aleinikoff T. A. State-Centered Refugee Law: From Resettlement to Containment,Michigan. // Journal of International Law ( MJIL) Vol. 14 . Iss. 1, 1992
57. Alesina A., Glaeser E. L. Fighting Poverty in the US and Europe. Oxford: Oxford University Press, 2004
58. Andre Gunder Frank. The Development of Underdevelopment. // Monthly Review 18, 4 (September, 1966) p.17-31. - http://s3-euw1-ap-pe-ws4-cws-documents.ri-prod.

s3.amazonaws.com/9781138824287/ch10/1._Andre_Gunder_Frank,_The_Development_of_Underdevelopment,_1966.pdf

59. Andres S. International Migration in the Age of Crisis and Globalization. Cambridge University Press, New-York, 2010
60. António Guterres: Europe Must Do More! - http://www.unhcr-northerneurope .org/ news-detail/ antonio-guterres-europe-must-do-more/
61. Banting K. G. Is there a Progressives Dilemma in Canada? Immigration, Multiculturalism and the Welfare State. // Canadian Journal of Political Science, 43(4), 2010, pp.419-436
62. Barr J. A Line in the Sand: Britain, France and the Struggle That Shaped the Middle East. London: Simon & Schuster, 2012, 464 p.
63. Benhabib S. Borders, Boundaries, and Citizenship. // Political Science and Politics, Vol. 38, No. 4, Oct., 2005, pp. 673-677
64. Beenish Ahmed. Less Than 2 Percent Of Terrorist Attacks In The E.U. Are Religiously Motivated. /08.01.2015/ - https://thinkprogress.org/less-than-2-percent-of-terrorist-attacks-in-the-e-u-are-religiously-motivated-cec7d8ebedf6/
65. Betts A. Forced Migration and Global Politics. John Wiley & Sons. Ltd, 2009, 223 p.
66. Betz H. G. Radical Right-Wing Populism in Western Europe. Hampshire ve New York: Palgrave Macmillan, 1994
67. Bevelander P. and Petersson B. (Eds). Crisis and Migration: Implications of the Eurozone Crisis for Perceptions, Politics, and Policies of Migration. Lund: Nordic Academic Press, 2014
68. Bolt G., Özüekren A.S., Phillips D. Linking integration and residential segregation. London: Routledge, 2012.
69. Braudel F. The Mediterranean and the Mediterranean World in the Age of Philip II. Volume I.1996, 642p.
70. Brilmayer L. Justifying International Acts. Ithaca, NY: Cornell University Press, 1989
71. Call to Action. Protecting children on the move starts with better data. / 14 February, 2018/ - https://data.unicef.org/ resources /call-action-protecting-children-move-starts-better-data
72. Castles S. Towards a Sociology of Forced Migration and Social Transformation. /1 February, 2003/ - https://doi.org/10.1177/0038038503037001384
73. Castles S. Understanding Global Migration: A Social Transformation Perspective. /Conference on Theories of Migration and Social Change, St Anne's College, Woodstock Road, Oxford Tuesday 1 st – Thursday 3 rd July 2008, 23 p. - https://www.imi.ox.ac.uk/files/events/castles.pdf
74. Cesaire A. Discourse on Colonialism. New York, 2000
75. Chimni B.C. The Geopolitics of Refugee Studies: A View from the South. // Journal of Refitgee Studia, Vol. 11, No. 4, 1998, p.350-370

76. Chimni B.S. The Global Refugee Problem in the 21st Century and the Emerging Security Paradigm: A Disturbing Trend', in Anghie, A. and Sturgess, G. (eds.) Legal Visions of the 21st Century: Essays in Honour of Judge Christopher Weeramantry, The Hague: Kluwer Law International, 1999.
77. Chimni B.S. The Global Refugee Problem of Refugees in International Law, 1966
78. Chin R. The Crisis of Multiculturalism in Europe: A History. Princeton University Press, 2017, 384 p.
79. Chossudovsky M. Economic Reforms and Social Unrest in Developing Countries. // Economic and Political Weekly July 19:1997, pp.1786-1788.
80. Collier P., and Hoeffler A. On the Economic Causes of Civil Wars. // Oxford Economic Papers, Vol. 50, No. 4, Oct., 1998, pp. 563-573
81. Controlling Immigration: A Global Perspective, Third Edition.Editors-James Hollifield, Philip L. Martin, Pia Orrenius. Stenford University Pres, 2014, 456.p
82. Cox, Robert W. Social Forces, States and World Orders: Beyond International Relations Theory. //Millennium: Journal of International Studies 10 (2): 1981, pp.126–55.
83. Decolonization. /United Nation/ - http://www.un.org/en/sections/issues-depth/decolonization/
84. Dodson H. How Slavery Helped Build a World Economy. /National Geographic News, February 3, 2003/ -https://news.nationalgeographic.com/news/2003/01/0131_030203_jubilee2.html
85. Duffield M. Global Governance and the New Wars. London: Zed Books, 2001
86. Ellis-Petersen H. Banksy Uses Steve Jobs Artwork to Highlight Refugee Crisis. /11.12.2015/ - https://www.theguardian.com/artanddesign/2015/dec/11/banksy-uses-steve-jobs-artwork-to-highlight-refugee-crisis
87. Emmer, Pieter C., Lucassen, Leo. Migration from the Colonies to Western Europe since 1800, in: European History Online (EGO), published by the Leibniz Institute of European History (IEG), Mainz 2012-11-13. URL: http://www.ieg-ego.eu/emmerp-lucassenl-2012-en URN: urn:nbn:de:0159-2012111308
88. Erik Bleich. The Legacies of History? Colonization and Immigrant Integration in Britain and France, 2010
89. Eskinazi L. European Immigration: A Colonial Legacy? /31 October 2011/ - http://www.alterinter.org/spip.php?article3694
90. Estonia at the Age of Migration / Estonian Human Development Report 2016-2017/. - https://inimareng.ee/en/
91. EU nationals may be banned from benefits in UK under new proposals. // The Independent, 25 Mart 2013 - http://www.theguardian.com/uk/2013/mar/25/eu-nationals-benefits-uk-proposals
92. Eugenia M. Economic and Social Effects of Migration on Sending Countries: The cases of

Albania and Bulgaria. - https://www.oecd.org/dev/38528396.pdf

93. European Commission. Standard Eurobarometer 87 – Spring 2017: Public opinion in the European Union, First results, 2017, Luxembourg: Publications Office of the European Union
94. European Commission. (1973), Social Action Program, COM (73) 1600 final, [Online] - http://aei.pitt.edu/1253/1/social_action_program_COM_73_1600.pdf pp.18-36
95. Europeans Most Negative Toward Immigration. // Gallup, 16 October 2015/ - http://news.gallup.com/poll/186209/europeans-negative-toward-immigration.aspx
96. European Parliament (2000), Report on Countering Racism and Xenophobia in the European Union, {COM (1999) 268 – C5-0310/1999 + C5-0015/2000 -1999/2205(COS)} Final A5-0049/2000 [Online]
97. Fanon F. Black Skin, White Masks. London, 2008
98. Faux, Jeff. How US Foreign Policy Helped Create the Immigration Crisis. /October 18, 2017/ - https://www.thenation.com/article/how-us-foreign-policy-helped-create-the-immigration-crisis/
99. Financials /UNHCR/ - http://reporting.unhcr.org/financial#_ga=2.247117060.1617115334.1513379664-472648632.1513379664
100. Finnemore M. International Organizations as Teachers of Norms: the United Nations Educational, Scientific, and Cultural Organization and Science Policy. International Organization 47:1993, pp.565-597
101. Fligstein N., Polyakova A., Sandholtz W. European Integration, Nationalism and European Identity. // Journal of Common Market Studies, 50(s1), 2012, pp.106-122
102. Franc A. Free Trade in an Era of Mass Migration. // Eurozine, 14 October 2015/ - http://www.eurozine.com/free-trade-in-an-age-of-mass-migration
103. Gammeltoft-Hansen T. The law and politics of non-entree. /04 June 2014/ -https://www.rsc.ox.ac.uk/events/the-law-and-politics-of-non-entree
104. Germans becoming increasingly xenophobic, study finds. // Deutsche Welle, 15 June 2016/ - http://www.dw.com/en/germans-becoming-increasingly-xenophobicstudy-finds/a-19332024
105. Ghosh N. Roots of migrant problem lie in colonialism. /May 14, 2015/ - http://www.straitstimes.com/asia/se-asia/roots-of-migrant-problem-lie-in-colonialism
106. Gibney M. U.S. Foreign Policy and the Creation of Refugee Flows. /in Adelman, H. (ed.) Refugee Policy: Canada and the United States, Toronto: York Lanes Press, 1991, pp. 81-114
107. Gijs Schumacher and Matthijs Roodujin. Sympathy for the "devil"? Voting for populists in the 2006 and 2010 Dutch general elections // Electoral Studies, 32(1), 2013, pp. 124-133
108. Goodwin-Gill's. The Refugee in International Law, 1983
109. Grahl-Madsen. The Status of Refugees in International Law. 1966
110. Guild E. Security and migration in the 21st century. Cambridge: Polity Press, 2009

111. Guiraudon, V. The Marshallian Triptych Reordered/Michael Bommes ve Andrew Geddes (der.) // in: Immigration and Welfare: Challenging the Borders of the Welfare State. Londra and New York: Routledge, 2000, pp.71-88
112. Haddad E. The Refugee: The Individual between Sovereigns. Cambridge: Cambridge University Press, 2008.
113. Hady Amr. In one move, Trump eliminated US funding for UNRWA and the US role as Mideast peacemaker /07.09.2018/ - https://www.brookings.edu/blog/order-from-chaos/2018/09/07/in-one-move-trump-eliminated-us-funding-for-unrwa-and-the-us-role-as-mideast-peacemaker/?utm_campaign=Brookings%20 Brief&utm_source=hs _email&utm_medium=email&utm_content=65766986
114. Hansen M.L. The problem of Third Generation İmmigrant. Rock Island, III., Augustana Historical Society, 1938
115. Hathaway J.C., and Neve R.A. Making International Refugee Law Relevant Again: A Proposal for Collectivized and Solution-Oriented Protection. Harvard Human Rights Journal / Vol. 10, 1997, pp. 115-211
116. Hathaway J. Almost half of Fortune 500 companies were founded by American immigrants or their children. /December 4, 2017/ - https://www.brookings.edu/blog/the-avenue/2017/12/04/almost-half-of-fortune-500-companies-were-founded-by-american-immigrants-or-their-children/
117. Hayes B., Vermeulen M. The EU's New Border Surveillance Initiatives, Heinrich B ll Foundation, June 2012
118. Held D. Democracy and the Global Order, Cambridge: Polity Press, 1995, ix
119. Holborn L. W. Refugees: A Problem of our Time. Methuchen: The Scarecrow Press, 1975, pp. 185-86
120. Hollifield J.F. Migration and International Relations: Cooperation and Control in the European Community. //The International Migration Review, Vol. 26, No. 2, Special Issue: The New Europe and International Migration (Summer, 1992), pp. 568-595
121. Homze, Edward L. Foreign Labor in Nazi Germany. Princeton University Press, 1967
122. Huysmans J. The politics of insecurity: Fear, migration and asylum in the EU. London: Routledge, 2006
123. Huysmans J. The politics of insecurity: Fear, migration and asylum in the EU. London: Routledge, 2006
124. Illegal Migrants: Numbers and Characteristics (PDF). /Pew Hispanic Center, 14 May, 2005/ Retrieved - 1 March, 2009.
125. International Committee of the Red Cross. - https://twitter.com/ICRC

126. Ivarsflaten E. What unites right-wing populists in Western Europe? Re-examining grievance mobilization models in seven successful cases. // Comparative Political Studies, 41(1), 2008, pp. 3-23
127. Judt T. Postwar: A History of Europe Since 1945. Penguin Group, 2006, 960 p.
128. Kaldor M. New and Old Wars: Organized Violence in a Global Era. Cambridge: Polity Press, 1999
129. Kallas K. Citizenship and political rights during an era of migration. // Integration processes and policies in Europe. Contexts, levels and actors. Springer, pp. 31–55.
130. Kasperkevic J. Deporting All Of America's Illegal Immigrants Would Cost A Whopping $285 Billion. /30.01.2012/ - https://www.businessinsider.com/deporting-all-of-americas-illegal-immigrants-would-cost-a-whopping-285-billion-2012-1
131. Kate B., Challinor A. E., Marc R. R. Mexican and Central American İmmigrants in the United States. Migration Policy İnstitute, Washington DC, 2011
132. Kert Valdaru, Eva-Maria Asari, Lauri Mälksoo. The Impact of the Refugge Crisis of Europe and Estonia. /Estonian Human Development Report 2016-2017/ - https://inimareng.ee/en/migration-and-demographic-changes-in-estonia-and-europe/the-impact-of-the-refugee-crisis-on-europe-and-estonia/
133. Kissinger H. World Order. The Penguin Press, 2015, 420 p.
134. Klausen J. The Islamic challenge. Politics and Religion in Western Europe Oxford, 2005
135. Knigge P. The Ecological Correlates of Right-Wing Extremism in Western Europe. // The European Journal of Political Research, 34(2), 1998, pp.249-279
136. Koen R. The Cambridge Survey of World Migration. Cambridge University Press, 2005
137. Koster W., Achterberg P. and Waal J. The New Right and the Welfare State: The Electoral Relevance of Welfare Chauvinism and Welfare Populism in the Netherlands. // International Political Science Reviews, 34(3), 2013, pp.3-20
138. Kwame Nkrumah. Neo-Colonialism, the Last Stage of Imperialism, London: Thomas Nelson & Sons, Ltd, 1965.
139. Kymlicka W. Multicultural Citizenship: A Liberal Theory of Minority Rights. Clarendon Press, 290 p.
140. Lee L. The Right to Compensation: Refugees and Countries of Asylum. // American Journal of International Law 80: 1986, pp.532-567.
141. Lewis B. and Schnapper D. Muslims in Europe. London, 1994.
142. Liebig T., Mo J. The fiscal impact of immigration in OECD countries. International Migration Outlook 2013. Paris: OECD: 2013, pp. 125-189.
143. List of documented refugee deaths through Fortress Europe, UNITED, 13.06.2012
144. Loescher G. Beyond Charity: International Cooperation and the Global Refugee Crisis. New

York: Oxford University Press, 2008.

145. Lynch C. Trump Advisor Stephen Miller Blocked G-7 Migration Proposal. /25.05.2017/ - https://foreignpolicy.com/2017/05/25/trump-advisor-stephen-miller-blocked-g7-migration-proposal/
146. Marfleet P. Refugees in a Global Era. Basingstoke: Palgrave Macmillan. / 1 July, 2007/ - https://doi.org/10.1177/002234330704400409l0
147. Marlowe J. Cecil Rhodes: the anatomy of empire. London: Elek, 972 p.
148. Marrus M. R. The Uprooted: An Historical Perspective' in Rystad, G. (ed.) The Uprooted: Forced Migration as an International Problem in the Post-War Era, Lund: Lund University Press, 1990, pp.47-57
149. Marta T., Susana S. Latin American Immigration to the United States. /Published online 2013 Jul 8/ - https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC4638184/
150. Martin J. Wiener. The Idea of "Colonial Legacy" and the Historiography of Empire. /First published: 26 March 2013/ - http://onlinelibrary.wiley.com/doi/10.1111/jhis.12000/abstract
151. Martin, D. A. (ed.) The New Asylum Seekers: Refugee Law in the 1980s, Dordrecht: Martinus Nijhoff Publishers, 1988, pp.1-20. -https://link.springer.com/chapter/10.1007/978-94-017-6389-9_1
152. McCarthy J. Armenian Terrorism: History as Poison and Antidote, "International Terrorism and the Drug Connection, Ankara, (Ankara University Press), 1984
153. McGrew A. Democracy beyond Borders? Globalization and the Reconstruction of Democratic Theory and Polities', in McGrew, A. (ed.) The Transformation of Democracy, Cambridge: Polity Press, 1997, pp.231-265
154. Memmi A. The Colonizer and the Colonized. N.-Y., 1965, 169 p.
155. Merkel says German multicultural society has failed. // BBC, 17 October 2010/ - http://www.bbc.com/news/ world-europe-11559451
156. Migrant Crisis in the Mediterranean: What You Need to Know. /2 May, 2017/ - https://www.rand.org/blog/rand-review/2017/05/migrant-crisis-in-the-mediterranean-what-you-need-to.html
157. Migration News (1996), EU: 1997, the Year Against Racism. - http://migration.ucdavis.edu/mn/comments.php?id=968_0_4_0
158. Migration. /English Oxford Living Dictionaries/ - https://en.oxforddictionaries.com/definition/migration
159. Migration and Development: Perspectives from the South. / Castles S., and Wise R. (eds.) (2008). Geneva: International Organization for Migration.
160. Massey D.S., Arango J., Hugo G., Kouaouci A., Pellegrino A. and Taylor J.E. Worlds in Motion, Understanding International Migration at the End of the Millenium, Oxford. Clarendon Press, 2008.

161. Muir J. Sykes-Picot: The Map That Spawned a Century of Resentment. /16 May 2016/ - http://www.bbc.com/news/world-middle-east-36300224
162. Multiculturalism Policy Index. Accessed September 2011. - http://www.queensu.ca/mcp
163. Naipaul V.S. Our Universal Civilization // The New York Review of Books, 31 January 1991
164. Neocolonialism. / Encyclopedia Britannica/ - https://www.britannica.com/topic/neocolonialism
165. Newland K. The governance of international migration: mechanisms, processes and institutions // A paper prepared for the Policy Analysis and Research Programme of the Global Commission on International Migration, Migration Policy Institute, September 2005
166. Newland K. The Impact of U.S. Refugee Policies on U.S. Foreign Policy: A Case of the Tail Wagging the Dog? in: "Threatened Peoples, Threatened Borders: World Migration and U.S. Policy". Teitelbaum, Michael S. and Myron Weiner, eds. New York: The American Assembly, 1995.
167. Newland, Kathleen. - https://www.migrationpolicy.org/about/staff/kathleen-newland
168. Newland K. New Approaches to Refugee Crises in the 21st Century: The Role of the International Community. - https://www.migrationpolicy.org/research/new-approaches-refugee-crises-21st-century-role-internati onal-community
169. Nigel Farage: 'Ban immigrants from claiming benefits for five years" // The Independent, 2014/ - http://www.independent.co.uk/news/uk/politics/nigel-farage-ban-immigrants-from-claiming-benefits-for-five-years-9044358.html?origin=internalSearch
170. Obeidallah, Dean. Are All Terrorists Muslims? It's Not Even Close. /14.01.2015/ - https://www.thedailybeast.com/are-all-terrorists-muslims-its-not-even-close
171. OECD (2003), Trends in International Migration, OECD Publishing: Paris
172. Office for National Statistics, Census 2001. - http://www.ons.gov.uk/ons/guide-method/census/census-2001/index.html; European Commission. Eurostat Home. - http://epp.eurostat.ec.europa.eu/portal/page /portal /eurostat/home
173. Pathfinders: The Golden Age of Arabic Science. By Jim Al-Khalili. Penguin Books Ltd.London. 2012, 336 p.
174. Petras J., and Vieux S. Bosnia and the Revival of US Hegemony. // New Left Review 218:1996, pp.3-26.
175. Pirenne H. Mohammed and Charlemagne. Dover Publications. 2001, 304 p.
176. Power, Livelihoods and Conflict: Case Studies in Political Economy Analysis for Humanitarian Action. / Edited by Sarah Collinson. London: Overseas Development Institute, HPG Report 13 February 2003
177. Porter H. Terrorism, Migrants, And Crippling Debt: Is This The End Of Europe? - http://www.

vanityfair.com/news/2016/01/europe-terrorism-migrants-debt-crisis

178. Post-colonial Studies Reader / edited by Bill Ashcroft, Gareth Griffiths, Helen Tiffin. London, 1995
179. President's Commission on Immigration and Naturalisation, Whom We Shall Welcome, Washington, DC: Government Printing Office, 1953, pp.45-46
180. Rawls J. The Law of Peoples, Critical Inquiry. 1993
181. Rethinking Migration: New Theoretical and Empirical Perspectives. by A. Portes (Ed.), J. Dewind (Ed.), 2008, 460 p.
182. Richmond A. H. Global Apartheid, Toronto: Oxford University Press, 1994.
183. Robert L. Bach. The Cuban Exodus: Political and Economic Motivations. / in: Barry B. Levine, ed., The Caribbean Exodus, New York: Praeger, 1987
184. Rose A.Death in the desert // New York Times, 21.06.2012
185. Rosenblum M. and K. Brick. US Immigration Policy and Mexican/Central American Migration Flows: Then and Now. Washington, DC: Migration Policy Institute, 2011
186. Ruist J. The labor market impact of refugee immigration in Sweden 1999–2007. SULCIS. Working Paper, 1/13.2013
187. Sachs J. There's no perfect answer to the migrant crisis – and we must face that. /02.11.2015/ - https://ww.theguardian.com/commentisfree/2015/nov/02/answer-migration-crisis-refugees-europe
188. Said, Edward. Orientalism. New York: Vintage Books, 1978.
189. Sara de la R., Albrecht G., Francesc O. Immigration in Europe: Trends, Policies and Empirical Evidence. IZA research network, Discussion Paper No. 7778, Bonn, 2013
190. Satvinder S. Juss. International Migration and Global Justice., Law and Migration, Ashgate, 2006, 330 p.
191. Schain M. The State Strikes Back: Immigration Policy in the European Union // The European Journal of International Law, 20(1), 2009, pp.93-109
192. Shim E. The U.S. Leads the World in Nobel Laureates Thanks to One Surprising Factor. /08.10.2014/ - https://mic.com/articles/100750/the-u-s-leads-the-world-in-nobel-laureates-thanks-to-one-surprising-factor#.GxSwXIicN
193. Skrana C.M. Refugees in Interwar Europe: the Emergence of a Regime. Published to Oxford Scholarship Online: October 2011
194. State cooperation preventing access to asylum: the law and politics of cooperative non-entrée. - https://www.humanrights.dk/projects/state-cooperation-preventing-access-asylum-law-politics-cooperative-non-entree
195. Steel Z., Chey T., Silove D., Marnane C., Bryant R.A., van Ommeren, M. Association of torture

and other potentially traumatic events with mental health outcomes among populations exposed to mass conflict and displacement. // Journal of the American Medical Association, 302 (5):2009, pp. 537-549

196. Study on Intellectual Property And Brain Drain - A Mapping Exercise. WİPO.Committee on Development and Intellectual Property (CDIP).Twelfth Session.Geneva, November 18 to 21, 2013, 191 p.
197. Sykes-Picot Agreement. 1916 /The Editors of Encyclopaedia Britannica/ - https://www.britannica.com/event/Sykes-Picot-Agreement
198. Szabó, Éva Eszter. Migration As a Tool of US Foreign Policy in The Cold War. /17 May 2017/ - http://www.hungarianreview.com/article/20170517_migration_as_a_tool_of_us_foreign_policy_in_the_cold_war
199. Szabó, Éva Eszter. US Foreign and Immigration Policies in the Caribbean Basin, Szombathely: Savaria University Press, 2007
200. The Golden Age of Islam - A Second Look. /By Richard Butrick. - https://www.gatestoneinstitute.org /2757/ golden-age-of-islam
201. The Institute of Postcolonial Studies: http://www.ipcs.org.au
202. The Law of Refugee Status, second edition. /By James C. Hathaway and Michelle Foster. Cambridge: Cambridge University Press, 2015, 693 p.
203. The Human and Financial Cost of 15 years of Fortress Europe. - http://www.themigrantsfiles.com/
204. The White Man's Burden: Kipling's Hymn to U.S. Imperialism. - http://historymatters.gmu.edu/d/5478/
205. Thränhardt D. Immigration policies in an independent world. Journal of Comparative Policy Analysis: Research and Practice, 6(2), 2004.
206. Torpey John C. Politics and the Past: On Repairing Historical Injustices. Rowman & Littlefield, 2003, 316 p.
207. Transforming our world: the 2030 Agenda for Sustainable Development. - https://sustainabledevelopment.un.org/post2015/transformingourworld
208. Ugur M. Freedom of Movement vs. Exclusion: A Reinterpretation of the "Insider" – "Outsider" Divide in the European Union // International Migration Reviews, 29(4), 1995, pp.964-999
209. Ulas Onur. Adam Smith, Settler Colonialism, and Cosmopolitan Overstretch Research Collection School of Social Sciences. 2017. Available at: http://ink.library.smu.edu.sg/soss_research_all/18
210. UN. International migration policies: Government views and priorities. New York: United Nations. Department of Economic and Social Affairs, 2013.

211. UN and partners launch plan to support five million Syrian refugees and countries hosting them. /12 December 2017/ - http://www.unhcr.org/news/briefing/2017/12/5a2ffd534/un-partners-launch-plan-support-five-million-syrian-refugees-countries.html
212. UNHCR Global Report 2010 – Funding UNHCR's Programmes.
213. Valery T., Zhanna Z. and Galina V. Migration in the countries of the former Soviet Union. Global Commission on International Migration, 2005
214. Van der Waal J., Koster W. and Van Oorschot W. Three Worlds of Welfare Chauvinism? How Welfare Regimes Affect Supports for Distributing Welfare To Immigrants in Europe. // Journal of Comparative Policy Analysis: Research and Practice, 15(2), 2013, pp.164-181
215. Van Oorschot W. and W. Uunk. Welfare Spending and the Publics Concern for Immigrants: Multilevel Evidence for Eighteen European Countries// Comparative Politics, 40(1), 2007, pp.63-82
216. Vertovec S. and Wessendorf S. (Eds), The Multiculturalism Backlash. New York, NY: Routlege, 2010
217. Victor H. Palmieri. Foreword./in Kritz, ed., İn:Growth, Exports and Jobs in a Changing World Economy: Agenda, 1988, 179 p.
218. Vidino L., Hughes S. ISIS in America. Washington, DC: George Washington University, 2016.
219. Walter Russell Mead. The Roots of the Migration Crisis. The Syrian refugee disaster is a result of the Middle East's failure to grapple with modernity and Europe's failure to defend its ideals. / 11 September, 2015/ - https://www.wsj.com/articles/the-roots-of-the-migration-crisis-1441995372
220. Weiner M. The Global Migration Crisis: Challenge to States and to Human Rights. Harper Collins College Publishers, 1995, 253 p.
221. Widgren J. International Migration and Regional Stability. // International Affairs (Royal Institute of International Affairs 1944), Vol. 66, No. 4, Seventieth Anniversary Issue (Oct., 1990), pp. 749-766
222. Windrush Generation: Who are they and why are they facing problems? - https://www.bbc.co.uk/news/uk-43782241
223. World Refugee Survey 1992:32-33 ; World Refugee Survey.1997;12
224. Worley W. Six out of 10 migrants to Europe come for 'economic reasons' and are not refugees, EU Vice President Frans Timmermans says. // Independent, 27 January 2016/ - https://www.independent.co.uk/news/world/europe/six-out-of-10-migrants-to-europe-come-for-economic-reasons-and-are-not-refugees-eu-vice-president-a6836306.html
225. Zolberg A., Suhrke A. and Aguayo S. (eds.) Escape From Violence: Conflict and Refugee Crisis in the Developing World. New York: Oxford University Press, 1989, 380 p.

Alman dilində:

226. 890.000 Asylsuchende im Jahr 2015. // Bundesministerium des Inneren, 30 September 2016/ - http://www.bmi.bund.de/SharedDocs/Pressemitteilungen/DE/2016/09/asylsuchende-2015.html
227. Sarrazin, Thilo. Deutschland Schafft Sich AB: Wie wir unser Land aufs Spiel setzen. Deutsche Verlags-Anstalt, 2010, 461 p.

Fransız dilində:

228. La France, pays le "plus menacé" par l'État islamique selon le patron de la DGSI. // Le Figaro, 19 May 2015/ - http://www.lefigaro.fr/actualite-france/2016/05/19/01016-20160519ARTFIG00173-la-france-pays-le-plus-menace-par-l-etat-islamique-selon-le-patron-de-la-dgsi.php

Türk dilində:

229. Komşuda Krizin Faturası İki Büyüğe. // "Hürriyet", 07.05.2012 - http://www.hurriyet.com.tr/gundem/komsuda-krizin-faturasi-iki-buyuge-20499548

İnternet mənbələri:

230. https://data.unicef.org/wp-content/uploads/2018/02/ Migra tion_advocacy_brief.pdf
231. https://ru.tiny.ted.com/talks/alexander_betts_our_refugee_system_is_ failing_here_s_ how_we_can_fix_it
232. https://www.facebook.com/TrevorNoah/videos/212239442809162/
233. https://www.researchgate.net/publication/289712265 _GOLDEN_BILLION
234. https://www.dictionary.com/browse/positives
235. http://africaners.com/en/history-of-africa/genocide-inrwanda/;həmçinin:https://www.unicef.org/wcaro/07-Goma_2004_Journey_After_Darkness.pdf
236. http://www.queensu.ca/mcp/immigrant-minorities/evidence/switzerland

# Global migration crisis: international relations and Western policy at the new historic crossroads

## Summary

The book provides a look, from a new perspective, at the migration crisis – the humanitarian tragedy, which affects the lives of millions of people around the globe – and the causes of its emergence. It focuses on the political reasons in the analysis of migration processes as well as geopolitical causes of the crisis. The book describes the migration crisis as the toughest challenge for the international relations system.

Prime Minister of the Republic of Azerbaijan Novruz Mammadov is the author of the idea and editor in chief of the book, which was published by the Center for Strategic Studies under the President of the Republic of Azerbaijan.

The book attempts to scientifically substantiate the ancient history of migration processes and the emergence of the migration policy as a Western phenomenon with the formation of the national state in the West at the New Stage; the impact of the policy of colonialism on migration processes in the 17th-19th centuries; the role of colonial legacy in the Western migration policy model`s transformation – through serving geopolitical interests – into a historical tradition. In this context, the book studies actual objectives of the creation of international migration and refugee law and periodic introduction of different political and legal models in the 20th century.

The book sheds light on the real causes of migration processes, the impact of the challenges that they create for the future of the world, as well as dilemmas such as dialogue or conflict of civilizations.

It stresses the impact of the migration crisis, which began in the early 21st century, on the emergence of disagreements among European Union states and compares different approaches taken by countries, which have colonial past, and Eastern European states to these processes. It is a reality that migration processes have been a challenge for humanity at all stages of history. But they have never been so detrimental.

One of the main characteristics of migration processes nowadays is that they are closely related to the international relations system, international law and justice

in general. The book suggests that the existing international law is not capable of controlling the international relations system. Serving interests of separate states, international law encourages an increase in the number of crisis-hit regions and territorial conflicts.

One of the major conclusions drawn in the book is that migration flow emerged in parallel with colonialism and is its legacy. Today`s migration crisis is a result of the leading European states` policies. Modern migration processes are classified into three stages in terms of scale and nature. At the first stage, migration policy was used to reinforce colonialism, at the second stage, it was used to retain control over countries, which were liberated from colonialism. Now the third stage of this policy is beginning. At this stage, migrants are called "illegal migrants".

The book also looks at Azerbaijan as the epicenter of historical migration processes in the South Caucasus. In the context of the causes of the Armenia-Azerbaijan Nagorno-Karabakh conflict, it analyzes the role of resettlement policies of historical empires as well as "double standards" emerging from conflict of geopolitical interests in ensuring refugees` rights as an impediment to the conflict resolution.

The study leads to a conclusion that migration crisis acts as "a geopolitical frontline" that seriously impacts traditional game rules in international relations, and Western countries` internal and foreign policies.

The migration crisis is growing into the West`s political, legal, economic, ideological, social and cultural policy crisis at all levels and the collapse of international justice, liberal human rights and multicultural values. The world community can cope with the migration crisis only through observing the principles of international justice and law. And the aforementioned necessitates the study of the political causes of the migration problem.

"Global migration crisis: international relations and Western policy at the new historic crossroads" book is aimed at experts dealing with migration problems, academia and a much wider readership.

# Глобальный миграционный кризис: международные отношения и западная политика накануне нового исторического поворота

## Резюме

В книге под новым углом зрения рассматриваются гуманитарная катастрофа, которая теперь охватывает миллионы людей во всем мире, – миграционный кризис и причины его возникновения. При анализе миграционных процессов в центре внимания оказываются политические причины и геополитические основания кризиса. Подчеркивается, что миграционный кризис является самым серьезным испытанием современной системы международных отношений.

Идейным автором и главным редактором книги, изданной Центром Стратегических Исследований при Президенте Азербайджанской Республики, является Премьер-министр Азербайджанской Республики Новруз Мамедов.

В книге предпринимается попытка научно обосновать мысль о том, что миграционные процессы такие же древние, как и сама история, тогда как миграционная политика как западный феномен сформировалась в Новое Время на Западе с возникновением национальных государств, а также проанализировать влияние на регулирование миграционных процессов в XVII-XIX вв. колониальной политики, место и роль колониального наследия в превращении западной модели миграционной политики в историческую традицию, служащую геополитическим интересам. С этой точки зрения анализируются истинные цели применения различных политико-правовых моделей для выработки в XX веке международного миграционного права и прав беженцев, регулирования миграции.

Данное исследование проливает свет в реальные причины современных миграционных процессов, вопрос о влиянии вызовов, порожденных ими, на будущее человечества, дилеммы диалога или столкновения цивилизаций.

В книге также рассматриваются глубокие разногласия, вызванные миграционным кризисом в начале XXI столетия, среди государств Евросоюза, сравниваются разные подходы к происходящим процессам государств европейского континента, имеющих колониальное прошлое, и стран Восточной Европы. Реалии в том, что во все исторические времена миграционные процессы являлись вызовом для общества, но таких серьезных последствий у них никогда не возникало.

Одна из важнейших особенностей миграционных процессов в наше время заключается в наличии причинно-следственной связи между ними и кризисом

системы международных отношений, международного права и справедливости в целом. Как упоминается в книге, существующее международное право практически не в состоянии управлять системой международных отношений. Международное право, служащее интересам отдельных государств, способствует росту числа кризисных регионов и территориальных конфликтов во всем мире.

Одним из основных выводов исследования является то, что миграционный поток возник вместе с колониализмом и является его остатком. Сегодня миграционный кризис является следствием политики ведущих европейских стран. В плане масштаба и характера современных миграционных процессов различают три этапа этих процессов. На первом этапе миграционная политика использовалась для укрепления колониализма, на втором – для контроля страны, которая освободилась от колониализма. Теперь начинается третий этап этой политики. На этом этапе мигрантов уже называют «внезаконниками».

В книге также рассматривается Азербайджан, который исторически находился в эпицентре миграционных процессов на Южном Кавказе. Анализируются причины возникновения армяно-азербайджанского, нагорно-карабахского конфликта как следствия колониальной переселенческой политики империй, роль препятствующих его урегулированию «двойных стандартов», вытекающих из столкновения геополитических интересов в обеспечении прав беженцев.

В исследовании делается вывод о том, что миграционный кризис – это «геополитическая линия фронта», которая оказывает глубокое влияние на традиционные правила игры в международных отношениях, внутреннюю и внешнюю политику, которую проводили западные государства до настоящего времени.

Кризис миграции превращается в кризис политической, правовой, экономической, идеологической, социальной и культурной политики Запада на всех уровнях, в процесс краха международной справедливости, либеральной концепции прав человека и ценностей мультикультурализма. Мировое сообщество может добиться разрешения миграционного кризиса, только придерживаясь принципов справедливости и международного права. Сказанное в свою очередь делает необходимым исследование причин политического аспекта проблемы миграции.

Книга «Глобальный миграционный кризис: международные отношения и западная политика накануне нового исторического поворота» предназначена для экспертов, академических кругов, интересующихся проблемами миграции, а также для широкой аудитории читателей.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
STRATEJİ ARAŞDIRMALAR MƏRKƏZİ

# QLOBAL MİQRASİYA BÖHRANI: BEYNƏLXALQ MÜNASİBƏTLƏR VƏ QƏRB SİYASƏTİ YENİ TARİXİ DÖNÜŞ ƏRƏFƏSİNDƏ

Bakı - 2018